SAHİB ƏSƏDOV

# ATEİSTLƏRİN MƏŞHUR ŞÜBHƏLƏRİNƏ CAVABLAR ENSİKLOPEDİYASI

## II CİLD

İSLAMIN MÜDAFİƏSİ

# Ateistlərin məşhur şübhələrinə cavablar ensiklopediyası

# (II cild)

Müəllif: Sahib Əsədov

فَيا عَجَباً كَيفَ يُعصى الإِلَهُ أَم كَيفَ يَجحَدُهُ الجاحِدُ

وَلِلَّهِ فِي كُلِّ تَحرِيكَةٍ وَتَسكِينَةٍ أَبَداً شاهِدُ

وَفِي كُلِّ شَيءٍ لَهُ آيَةٌ تَدُلُّ عَلى أَنَّهُ واحِدُ

*Allaha necə asilik edilir? İnadçı onu necə inkar edir?*
*Allaha dəlil var hər hərəkətdə, Ona dəlil vardır hər sükunətdə!*
*Hər bir şeydə nişanəsi var Onun, Dəlilidir Onun tək olduğunun!*

Məşhur ərəb şairi: Ləbid İbn Rabia

# Giriş

*Həmd olsun aləmlərin Rəbbi olan Allaha, Allahın salamı və salavatı olsun peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə. Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur, təkdir və şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.*

Bundan sonra deyirəm ki, bu kitab "Ateistlərin məşhur şübhələrinə cavablar" kitabının ikinci cildidir. Artıq birinci cildin əvvəlində qeyd etmişdik ki, ateistlərin şübhələrinə verdiyimiz cavabları gələcəkdə daha da genişləndirəcəyik. Budur, artıq ikinci cild də Allahın müvəffəqiyyəti ilə tamamlandı. Elmi əmanət adına deyim ki, mövzuların böyük əksəriyyəti sərbəst araşdırmalardır, illa hansısa müəllifin araşdırmasından tam şəkildə istifadə etsək və ya geniş istifadə etsək, bunu qeyd edirik.

Kitabın ikinci cildi tamamlandıqdan sonra növbəti məqalələrin mövzuları yenə əvvəlki kimi elmi-akademik araşdırma metodlarına uyğun olaraq araşdırılacaq, şübhələrə müxtəlif aspektlərdən cavab veriləcək və növbəti cilddə yerləşdiriləcəkdir.Allahdan bu işdə asanlıq və müvəffəqiyyət diləyirəm!

Ateistlərin müxtəlif şübhələrinə cavablar olan bu kitab ensiklopedik genişlik və uzun müddət ərzində ərsəyə gəlməsi hədəfinə görə kitabın illər ərzində yazılması, toplanıb tərtib edilməsi zamanı müxtəlif cildlərində bənzər mövzular və yaxud da bənzər kateqoriyalar olması mümkündür. Hələlik bu nüsxə də bu mövzularda məlumat qıtlığı olduğundan dolayı oxucuların ixtiyarına verilir. Kitabın bütün cildləri tam hazır olduqdan sonra

isə son, yekun redaktə və korrektə işləri görülməsi nəzərdə tutulur! Ensiklopediyanın tamamlanması uzun illər vaxt tələb etsə də artıq hədəfdə olan atı cildlik ensiklopediyanın iki cildi hazırdır və oxucuların istifadəsinə verilmişdir. Bir daha xatırladırıq ki, bu ensiklopediyanın əsas hədəflərindən biri ateistlərin və digər dinə inanmayan güruhların bir çox şübhələrinə İslami mövqeyə uyğun, Quran, sünnə, əqli-məntiqi dəlillər, imkan daxilində təcrübi elmlərdən də istifadə edərək cavablar hazırlamaq, dinə inanmayan təbəqələrin müsəlmanlara ünvanlanmış məşhur şübhələrinə cavab verməyə üstünlük verməklə bir çox şübhələri cavablandırmaq, sonda bu genişhəcmli işi müsəlmanların xidmətinə verməkdir. Şəkk yoxdur ki, belə geniş araşdırmalar müsəlmanların ateist və digər dinə inanmayan təbəqələr tərəfindən İslam əleyhinə yönəlmiş müxtəlif iddialarına cavabların hazırlanması ilə ölkəmizdə bu sahədə olan böyük bir sıxıntının, elmi boşluğun aradan qaldırılmasına öz töhfəsini verə bilər. Nəzərə alsaq ki, geniş kütlələrə məhz din əleyhinə ünvanlanmış şübhələrə dəlillərilə İslami mövqeyin ortaya qoyularaq cavablar verilməsi daha mühümdür, o zaman bu işin məsuliyyəti və əhəmiyyəti daha da aydın görünmüş olur. Allahdan istəyirəm ki, bizi bu çətin və məsuliyyətli işi tamamlamağa müvəffəq etsin! Həmçinin, Allahdan istəyirəm ki, etdiyimiz bu araşdırmaları ateistlər və müsəlmanlar üçün faydalı etsin! Rəbbim haqqı axtaran insanlara bu elmi araşdırmalardan və toplanmış bilgilərdən yararlanmağı nəsib etsin!

***Yazdı:*** *Mədinə Beynəlxalq İslam universitetinin doktorantura tələbəsi Sahib Əsədov. Mədinə şəhəri:2022.02.16*

# Kainatın yaranması təsəvvürləri və İslami izah

Kainat necə yaranmışdır? Kainatın yaranması barədə söhbət əslində çox geniş mövzudur. Bu barədə olan fərziyyələrin hamısı əsasən iki məsələ üzərində dövr edir. Ya kainat əvvəldən var idi, ya da sonradan yarandı. Bu iki məsələdə kainatın yaş fərqi elə də önəmli deyil. Çünki, bunların hamısı ehtimallardır. Lakin, əsas məsələ istər kainat "əvvəldən var idi, istər sonradan yarandı" dedikdə əsas hədəf onu yaradanın olub olmaması məsələsinə bağlıdır ki, bu barədə müzakirələr də bu məqsədə xidmət etməlidir.

Kainatın yaranması haqda danışası olsaq, əsas altı yeddi ehtimal üzərində dayanmalı olacağıq. Gəlin bu ehtimalları bir-bir qeyd edək və müxtəsər təhlil edək. Bu təhlili isə İslam dininin Üsuli-Fiqh elminə əsasən "əs-Səbru vət-Təqsim"[1] qaydasına görə edəcəyik. Yəni, kainatın yaranması barədə olan ehtimalları bir araya yığdıqdan sonra fasid ehtimalları rədd edib, doğru ehtimalı qəbul edəcəyik. Gəlin başlayaq ehtimalları qeyd etməyə:

*1 . Əzəli kainat,*

*2 . Heç nəyin" yaratdığı kainat,*

*3 . Özü-özünü yaradan kainat,*

*4 . Təbiət qanunlarının yaratdığı kainat,*

*5 . Təsadüfən yaranan kainat,*

[1] əs-Səbru vət-Təqsim qaydasından burada qəsd olunan məna: "Məsələnin təməlində (müqayisə olunan) mövcud olan vəsfləri toplamaq, sonra isə uyğun gəlməyən vəsflərin batil olmasının səbəblərini göstərmək".

*6 . Müxtəlif kainatlar nəzəriyyəsi,*

*7 . Allahın yaratdığı kainat.*

**Birincisi:** **<u>Əzəli Kainat;</u>** Bu o deməkdir ki, kainat əvvəl də mövcud id, indi də var. Yəni, kainat həmişə mövcud olmuşdur və onun yaranma başlanğıcı yoxdur. Ateistlər son bir iki əsrdə bu mövzunu müzakirə edirlər. Lakin, bu mümkün ehtimal deyildir. Çünki, hər şey, hətta tətbiqi (təcrübi) elmlər belə ona dəlalət edir ki, kainat sonradan yaradılmışdır. Əgər Astronomiya elminə baxsaq, astronomlar deyirlər ki, ulduzların yaranma və ölüm tarixi vardır. Əgər Geologiya elminə baxsaq, onlar daşların, qayaların, dağların yaşlarını təxmin edir və deyirlər ki, filan ərazi neçə yüz min il öncə əmələ gəlib. Bu isə o deməkdir ki, kainat əzəli deyil. Gözlə gördüyümüz məxluqlar da yaşayır və ölürlər. Bu barədə dəlillər çoxdur. İstilik dinamikasının ikinci qanunu da bunun dəlillərindəndir. Ona görə də ateistlərdən bəziləri bu qanunu inkar etməyə çalışırlar. Eynşteyn deyir ki, bu qanun qanunların atasıdır.

İstilik dinamikasının ikinci qanunu (entropy). Bu qanun enerjidən xəbər verir. Burada avtomatik yayılma məsələsi var. Götürək bir neçə içində su olan stəkanda çernelin yayılması prossesini ki, bu avtomatik şəkildə baş verir. Təsəvvür edin, dörd stəkan şəkli var, hər birində suya biri digərindən daha çox yayılmışdır. Sonuncu stəkanda isə yayılma prossesi tam baş vermiş və stəkandakı suyun hər yerinə yayılmışdır. Buna yayılma prossesinin ölməsi deyilir. Yəni, çernil stəkandakı suyun hər yerinə yayıldığı üçün artıq yayılma prossesi dayanmışdır.

- *Birinci şəkildəki stəkanda çernil yoxdur.*

- *İkinci şəkildə çernil artıq stəkana tökülmüşdür.*
- *Üçüncü şəkildəki stəkanda isə artıq çernil stəkanın əksər hissəsinə yayılmışdır.*
- *Dördüncü şəkildə isə çernil stəkandakı suyun hər yerinə yayılmışdır.*

Buna «eyniləşmə» deyilir. "Enerji" də belədir. Məsələn; evin bir otağını, oradakı temperaturu götürək, orada enerji yayılır və otaqdakı istilik eyniləşir. Otaqda istiliyin eyniləşməsindən sonra bu prosses dayanır, yəni, ölür. Bu qanun deyir ki, kainatdakı enerji yayılır. Çəkdiyimiz stəkan misalındakı çox yayılma misalı kimi. İndi də enerji yayılmaqdadır. Əgər kainat əzəli olsaydı, yəni, kainatın başlanğıcı olmasaydı, onda kainat dördüncü stəkandakı suyun məsəli kimi olardı, yəni, istilik kainatda hər yerə yayılar və kainat ölərdi. Çünki, bu qanuna görə enerji ölümün yayıldığı kimi yayılır.

Burada «Big bang» (böyük partlayış) məsələsi var. Bunu iddia edənlər deyirlər ki, kainat kiçik bir nöqtədə baş verən partlayışdan sonra yaranmışdır. Antoni Flo adlı 50 ildən çox ateist olmuş şəxs ömrünün sonuna yaxın "kainatın yaradıcısı var" adlı kitab yazmışdır. Kitabın əvvəlində deyir ki: «Etiraf etmək insanı rahatlaşdırır. Mən də etiraf edirəm ki, «Big Bang» nəzəriyyəsi ateistləri pis vəziyyətə salmışdır. Çünki, bu səmavi dinlərin daim iddia etdiyi bir şeyi müdafiə etmişdir. Bu da kainatın yoxdan yaranması anlamına gəlir.»

İndi isə gəlin bir sual verək. Görəsən, bu nəzəriyyə "Big bang" – Böyük partlayış nəzəriyyəsi – yüz faiz doğrudurmu? Xeyr. Hətta, buna inanan keçmiş ateist Antoni Flo belə bunu yüz faiz

təsdiqləmir, lakin, ən yaxın nəzəriyyə kimi qəbul edirdi. Hətta, fizik ateistlərdən olan Steven Vainberq – onun "Böyük partlayışdan əvvəlki üç dəqiqə" adlı kitabı var – belə böyük partlayışa tam şəkildə inanmırdı. Çünki, o ateist idi. Buna rəğmən o deyirdi ki, bu ən yaxın nəzəriyyədir. Hətta, bir çoxlarımızın tanıdığı məşhur fizik Steven Hoking "Zamanın daha qısa tarixi" adlı kitabı vardır. Hətta, o belə bu nəzəriyyənin yüz faiz doğru olduğunu demirdi. Ona görə bir çox nəzəriyyələr yox olana kimi zəifləyir və sıradan çıxır ki, bu elmdə bilinən bir şeydir. Bir nəzəriyyə gəlir, doğru bilinir. Bir müddət sonra digər nəzəriyyə gəlib həmin nəzəriyyəni alt-üst edir, sıradan çıxarır. İndi «Big bang» nəzəriyyəsi barədə də bəzi suallar ortaya çıxır. Deməli, partlayış xaos törədir, nizam-intizam törətmir. Onda bu nəzəriyyə necə doğru ola bilər? Onlar bu suala cavab verə bilmirlər.

Həmçinin, onlar deyirlər ki, bu prosesdə nə baş verdiyini nə fizika, nə riyaziyyat qanunları ilə izah etmək mümkün deyil. Bu da "möcüzədir". Ateistlər möcüzələrə inanmasalar da özləri "Big bang möcüzəsinə" inanmış durumdadırlar. Deməli, bu nəzəriyyədə bir çatışmazlıq var.

Başqa bir çatışmazlıq isə belədir; Götürək mənfi və müsbət elektronları. Fiziklərə görə sabit olan budur ki, enerji maddəni ərsəyə gətirir. Eynşteyn maddə kütləsinin enerji yaratdığını deyir, hansı ki, bu hal işıq sürəti kvadratında ortaya çıxır. Atom bombasının izahı da bu fikirdə var.

Deməli, "Big Bang" müdafiəçiləri deyirlər ki, böyük partlayışdan sonra istilik yarandı və bu mühitdəki enerjidən ilk olaraq elektronlar ortaya çıxdı. Ona görə isbat etməyə çalışırlar ki,

enerji elektronları meydana gətirir, lakin, eyni vaxtda əks elektron da meydana gətirir. Deməli, əgər bu iki elektron bitişik olsa, biri digərini partladır. Beləcə "Qama şöləsi" yaranır. Əgər bu iddia doğru olsaydı, onda bütün elektronlar bir-birini partladardı və kainat yaranmazdı. Bunu izah edə bilməmələri onları çaşqınlığa və heyrətə salır. Ona görə də onlar təxminlər etməyə başladılar. Rus fiziklərindən biri təxmin edir ki, elektronlar əks elektronlardan bir qədər böyük formada ortaya çıxmışdır. Bu da özü həcmində olan əks elektronu məhv etmiş, artıq qalan hissələrdən isə kainat yaranmışdır. Sual veririk ki, buna dəlil nədir?

Xülasə, deyirlər ki, birinci zərrəciklər yarandı. Sonra protonlar əmələ gəldi, sonra neytronlar əmələ gəldi, sonra isə hidrogen formalaşdı. Hidrogenin formulu asandır. Lakin, burada daha bir sual yaranır ki, necə oldu ki, neytronla proton bir araya gəldi? Hətta, bu kiçik zərrələrin öz qanunları var, bu necə əmələ gəldi? Hidrogendən sonra helium əmələ gəldi. Burada da bir sual yaranır. Necə oldu ki, helium karbona çevrildi? Çünki, onlar bu ardıcıllığın ərsəyə gəldiyini, sonra da digər maddələrin yarandığını iddia edirlər. Necə oldu ki, helium karbona çevrildi? Bu mümkün deyil. Çünki, burada çox dəqiq prosseslər getməli idi, o qədər dəqiq ki, bunun baş verməsi mümkün deyil. Ona görə deyilir ki, əgər partlayışın ilk dəqiqələrində ilk partlayışın sürəti digərindən bir az artıq olardısa, onda kainat məhv olardı. Əgər bu sürət az olardısa, yenə kainat bir-birinə girərdi. Ona görə də böyük partlayışla əlaqədar suallar çoxdur.

Həmçinin, bu böyük partlayış sıfır zamanda baş verməli idi ki, bu da doğru deyil. Yəni, zaman başlamadan öncə özü “heç nə” olan bir şeyin varlığı mümkün deyil.

Həmçinin, "Big bang" nəzəriyyəsindən belə anlaşılır ki, kainatı ehtiva edən maddə və enerji kainat yarandıqdan sonra kainatın mövcud olduğu zaman boyunca sabitdir. Lakin, bu nəzəriyyəyə əsasən kainat "heç nədən" yaranmışdır. Böyük partlayışın ilk anında maddənin və enerjinin sabitliyi qanunu bircə dəfəlik pozulmuşdur, sonra yenidən kainatın tarixi boyunca davam etmişdir. Bu fikir də naqis fikirdir.

"Big bang" nəzəriyyəsinə elmi etirazlar və tənqidlər çoxdur. Sonuncunu qeyd etməklə kifayətlənirik. O da bu nəzəriyyənin Quranda Allahın yer üzünü altı gündə yaratmasına müxalif olmasıdır.

George Smoot deyirdi: "Heç bir şəkk yoxdur ki, big bang (Böyük partlayış) nəzəriyyəsi kainatın yoxdan yaranması hadisəsi və fikiri olaraq dini fikirə bənzəyir"[2].

George Smoot’un bu sözləri bu nəzəriyyənin dini fikri yalnız bir aspektdən dəstəklədiyinə görə deyilmişdir. O da kainatın əzəli olmaması və bir başlanğıcının olmasıdır. Yoxsa, "Big Bang" nəzəriyyəsi elə də dinə uyğun bir nəzəriyyə deyildir. Lakin, bu nəzəriyyə dünyanın yaranmasını təsdiqləyir. Bu isə bir çox ateistlərin xoşuna gəlmir. Ona görə də bu məsələni anlayan ateistlər başqa nəzəriyyələri daha üstün tuturlar. "Big bang" nəzəriyyəsinin ən böyük yanlışı isə bu fərziyyənin, yəni, kainatın yaranması ilə

[2] Time: Witness to the Birth of the Universe, Newyork, 2007. p: 17.

nəticələnən "böyük partlayışın" Allah olmadan baş verməsini müdafiə etməkdir. Göründüyü kimi ateistlər dini fikirləri bir qədər fərqli formada da təqdim etməklə nəzəriyyələr irəli sürməkdən və bu nəzəriyyələri təbliğ etməkdən çəkinmirlər. Əsas məqsəd isə Allahı inkar etməkdir. Hətta, "Big bang" nəzəriyyəsi "yoxdan yaranmanı" qəbul etdiyi üçün din alimləri demişlər ki, təkcə yoxdan var olmanı qəbul etmək Allahın varlığına dəlil kimi bəs edir. Çünki, yaranma varsa, Yaradan da mütləq olmalıdır. Kainatda heç bir şey səbəbsiz baş vermir. Hər bir əsər də öz sahibinə dəlalət edir. Hər bir hərəkət də o hərəkəti edənə işarə edir.

O zaman sual verilsə ki, kainat əzəlidirmi? Cavab: Xeyr, əzəli deyil. Yaradılmış bir şey əzəli ola bilməz.

**İkincisi: <u>Heç nəyin ərsəyə gətirdiyi kainat</u>**; Bu ehtimala gəldikdə isə bu olduqca bəsit və əsassız bir ehtimaldır. Qayda budur ki, bir şeydə bir vəsf yoxdursa, o şey başqasına da onu (o vəfsi) verə bilmir. Məsələn; elmi olmayan başqalarına özündə olmayan elmi öyrədə bilmədiyi kimi, əslən mövcud olmayan bir şey bir anda kainatı da yarada bilməz.

**Üçüncüsü: <u>Özü-özünü yaradan kainat</u>**; Bu da mümkün deyil. Çünki, heç nə olan (mövcud olmayan) bir şey varlığa səbəb ola bilməz. Belə bir şey nə özünü, nə də başqasını yarada bilməz.

**Dördüncüsü: <u>Təbiət qanunlarının yaratdığı kainat;</u>** Bu mövzuya da ateistlər çox diqqət çəkirlər. Steven Hoking kimi bir alim görürsən ki, qəribə bir fikir söyləyir. Nə deyir? Deyir insanlar əvvəl etiqad edirdilər ki, Allah yağış yağdırır. Biz isə bu dövrdə kəşf etmişik ki, buxarlanma olur, sonra yağış yağır. Bu cür fiziklər

çoxdur. Deyirlər ki, artıq kainatın nizamını bilirik. Bizim yaradana ehtiyacımız yoxdur. Bu söz qəribədir. Yəni, tutalım ki, səndə hansısa bir alət var. Sən o alətin işləmə mexanizmini öyrəndinsə, bu o deməkdir ki, o aləti düzəldən yoxdur? Bu sözü hətta, uşaqlar belə qəbul etməzlər.

Təbii ki, bu ehtimallardan danışarkən "təbiətin yaratdığı kainat" ifadəsindən məqsəd "təbiət qanunlarıdır", təbiətin özü deyil. "Təbiətin özü" desək onda yuxarıdakı "özü-özünü yaradan kainat" və ya "heç nəyin yaratdığı kainat" ehtimalları da bura daxil olardı.

İslam alimlərindən ibnul-Qeyyim demişdir: "Təbiət – ərəbcə (فعيلة) "fəi'lətun" vəznindədir. Yəni, üzərində iş görülən, təsirə məruz qalan. Bu isə fa'ilə, (فاعل) yəni, ona təsir edənə, onun üzərində iş görənə ehtiyac yaradır. Üzərində iş görülən bir şey isə mütləq şəkildə yaradılmış olmalıdır" [3].

Təbiət qanunları öz-özünə yaranmır ki! Bu o demək deyil ki, təbiət qanunları özü-özünə yaranır. Onun mütləq yaradıcısı olmalıdır. Götürək hamımızın bildiyi maşını. Kimsə desə ki, maşının işləmək mexanizmini bilirəmsə, onu kimin istehsal etdiyini bilmək mənə lazım deyil. Onda maşın alanda baxma kim istehsal edib, get ən tez xarab olan maşını al ki, onu düzəldən şirkəti tanımasam da olar. Adi bir uşaq sual versə ki, bu maşını kim düzəldib? Onda sən o uşağa deyəcəksən ki, bu maşının işləmə mexanizmini bilirəm deyə onu düzəldənə ehtiyac yoxdur? Bu nə məntiqdir? Onda uşaq sənə deyəcək ki, mən bu maşını kim düzəldib deyirəm, sən isə onun necə işləməyindən danışırsan!

---

[3] Səid ibn Hüseyn əl-Qahtaninin mühazirəsindən alıntı.

Baxın, buna görə də ateizm elmə ziddir. Təbiətin qanunlarını bilmək onu düzəldən olmadığı anlamına gəlmir. Bunu iddia etmək elmə zidd danışmaqdır.

Müasir elm sübut edir ki, kainatdakı qanunlar dəqiq və nizamlıdır. Təbiətdə kainatın sabit qanunları vardır. Əgər bu qanunlar bir qədər doğru çalışmasa zərrələr zərər görər və bu kainatda böyük pozuntulara yol açar. Günəş bir qədər dünyaya yaxın olsa, yer üzündəki bütün canlılar istidən həlak olar. Günəş bir qədər az yer üzündən uzaqlaşarsa, yer üzündə soyuqdan canlılar həlak olar. Bütün bunlar bizə yer üzünü qoruyan bir yaradanın olduğundan və kainatın dəqiq planlamasından xəbər verir. İnsan qəlbinin döyüntüləri həddən artıq çox və ya az olduqda insan vücudunda problemlər yaranır. İnsanın bədən temperaturu müəyyən həddi keçdikdə insan həyati təhlükə ilə üzləşir. Əgər kainatdakı və dünyadakı dəqiq qanunlar olmasaydı, tibdə, kimyada, fizikada və başqa elmlərdə alimlər qanunlar qoya bilməzdilər. Əgər kainatda nizamsızlıq olsaydı, bu qanunlar qoyulmazdı. Məsələ aydındır, ona görə də deyirik ki, elmdə bu qanunların qoyulması Yaradanın mövcud olduğuna dəlalət edir. Əgər təbiətdə bu cür qanunlar olmasaydı, hər şey qarışıq, kor-koranə və xaos içində olsaydı, onda kimsə çıxıb Yaradanın olmadığını iddia edə bilərdi. Görəsən, təbiətdəki sabit qanunlar nəyə dəlalət edir? Bundan daha böyük sual isə budur ki, bu qanunları kim qoymuşdur?! Mümkün deyil ki, qanun özü-özünü yaratsın!

Təbiət qanunları və “təbiət yaratdı” demək barədə bu məqaləmizi də oxumağı tövsiyə edirik: Təbiətin yaratdıqları yoxsa Allahın yaratdığı təbiət

Məqalənin tam adı belədir: "Təbiətin yaratdıqları? Yoxsa, Allahın yaratdıqları?".

**Beşincisi: <u>Təsadüfən yaranan kainat;</u>** "Təsadüfən yaranan kainat" ehtimalı və ya fərziyyəsi hədəfsiz kainat anlamını verir. Ateistlərin marağını ifadə edən təsadüfi yaranma həm varlığın mənasızlığına, həm də hədəfsiz, qayəsiz bir kainat anlamına gəlir. Ateistlər Allahın yaratması həqiqətini inkar etmək üçün bu yola da baş vurmuşlar. Təsadüfün mənasını isə bir misalla izah edək; Heç gözlənilmədən və planlaşdırmadan iki dost qəfildən üzbəüz gəlirlər… Bu, təsadüf adlanır. Onların qarşılaşmaq məqsədləri yox idi. Lakin, bu baş verdi. Bu kainatdakı mexanizmin təsadüfən bu qədər dəqiq çalışmasını heç bir ağıllı insan deyə bilməz. Təsadüf özüylə nizam-intizam gətirə bilməzdi.

Bir çox alimlər həyatın təsadüfən yaranmasının nə qədər elmi olub olmamasını araşdırmaq istəmişlər. Britaniyalı astronom Freid Hoyle Super Computerdən istifadə edərək məzun tələbələrin yardımıyla amibiya proteinlərinin təsadüfən yarana biləcəyi ehtimalı hesablanmışdır. Hansı ki, bu ehtimal həyatın ən bəsit formalarından biridir. Beləcə o iki min proteini sayır və bu proteinlərinin təsadüfən zahir olacağı ehtimalı hesablamağa səy göstərir. Sonda bu nəticəyə gəlir ki, bu amibiya proteinlərinin təsadüfən zahir olma ehtimalı 10.000 və yanında qırx min sıfır ədədi olan yazılması mümkün olmayan rəqəmdən yalnız bir ehtimalda mümkün ola bilər. Riyazi cəhətdən isə yanında 50-dən artıq sıfır olan 10 rəqəmi ilə verilən bütün ehtimallar mümkünsüz

hesab olunur. Bu qədər böyük sıfırları olan rəqəm ehtimalında isə bu sadəcə xəyali bir şeydir[4].

Assergon Timeblaton demişdir: "Görəsən qəribə deyilmi ki, kainatın heç bir qayə olmadan təsadüfən yarandığını iddia edənlərin özləri hər şeydə bir qayə, məqsəd axtarmaqda olduqca xəyalpərəst (ifratçı) insanlar olurlar!"[5].

"Təsadüf" həm də Darvinin "təkamül" nəzəriyyəsinin söykəndiyi əsaslardandır. Darvinist ateistlər deyirlər ki, təsadüf xalis təsadüf deyil, zəruri təsadüfdür. Onlar təkcə təsadüfdən deyil, təbii seçmədən və zəruri təsadüfdən danışırlar. Biz desək ki, "daşı atdın təsadüfən belə oldu, elə oldu", onlar deyəcəklər ki, biz hərəkətsiz əşyalarda baş verən təsadüfdən danışmırıq. Lakin, həqiqətdə bu özünü doğrultmur. Məsələn götürək buludları; buludların hərəkəti bizə görə təsadüf görünə bilər. Lakin, bu hərəkət Allahın təbiətə verdiyi qanunlar çərçivəsində hərəkət edir. Yəni, adətən buludlar müəyyən hündürlükdə hərəkət edir. Yağışın yağması üçün də müəyyən bulud kütləsinin cəmləşməsi, su buxarlanması prossesi zəruridir. Bizə dağınıq və təsadüfi görünən təbiət prossesləri əslində təbiətdəki qanunlardan kənara çıxmır. Deməli, bu təsadüfi deyildir.

Darvin deyirdi ki, ilk yaranış bir hüceyrədən olub və bu hüceyrə kortəbii şəkildə özü-özünü parçalamağa cəhd edib. Cəhd edib və bacarıb. “O zaman uğurlu cəhd qalır, uğursuz cəhd məhv olur” deyir və beləcə özünü buna inandırmağa çalışırdı. Daha böyük

[4] Bax: Sun’ul-Mutqin dilələt əl-Fiziyə alə Vucudil-Xaliq, Mustafa Nasr Qadih, səh 229, ixtisarla.

[5] Shrouds of the Night, Newyork, 2008, Springer, p: 373.

problem isə odur ki, guya bu hüceyrədən müxtəlif canlılar əmələ gəldi, canlılar çoxaldı və daim şəkildən şəkilə düşdü. Lakin, Darvinin dediyi ara keçid formalarının birinin də isbatı yoxdur. Əgər canlılar bir-birindən yaransaydı, burada ara keçid forması olardı. Bu isə Darvinizmin nəzəriyyəsini çökdürən məqamdır. Üstəlik, Darvin deyir bu hüceyrədən kiçik su canlısı yaranır, o da balığa çevrilir. Bu çevrilmə isə milyonlarla cəhdlərdən sonra alınır. Bunu belə ifadə edir ki, hətta, sözü daha inandırıcı olsun. Sonra balıq bir müddət sonra quruya çıxır və orda yaşamağa çalışır.

Burda da bir sual yaranır ki, balığın agciyərləri suda yaranıb, yoxsa, quruda? Əgər suda yaransa, o öləcəkdir. Yox, əgər quruda yaransa, balıq gözləsə ki, quruda ağciyəri yaransın, yenə suyun xaricində balıq öləcəkdi. Ona görə də burda artıq “möcüzəyə ehtiyac var” deyirlər. Bu nəzəriyyə doğrudursa, niyə yüzlərlə suallar qarşısında aciz qalır? Niyə möcüzəyə inanmayan ateist darvinistlər öz işlərinə yaradıqda möcüzəyə inanırlar? Sizcə bunda da bir ziddiyyət yoxdurmu? Deməli, bu kiçik hüceyrədən 35 milyondan çox canlı və növlər ortaya çıxdı. Bitki və ağaclar da bunun kimi formadan formaya keçdi deyə iddia olunur. Bax təkamül nəzəriyyəsi budur.

Darvinin özü belə bu nəzəriyyəyə inanmırdı. Darvinin təkamül nəzəriyyəsinin 1972-ci ildə Amerika məktəblərində tədrisi dayandırılmışdır. Ateist Şimali Koreya ölkəsi isə 2012-ci ildə rəsmi qərar verərək bu nəzəriyyənin tədrisini dayandırır və elan edir ki,

Darvinizm elmi əsaslara uyğun olmayan bir nəzəriyyədir. Təsəvvür edin artıq ateistlər belə bu nəzəriyyəyə etimad etmirlər[6].

**Altıncısı: <u>Çoxlu kainatlar nəzəriyyəsi (The Multiverse theory)</u>**; Bu barədə müasir ateistlər çox danışırlar. İlahi yaradılışı inkar etmək üçün hər yola əl atırlar. Steven Hoking və Riçard Davinks də bu nəzəriyyəni irəli sürən ateistlərdən olmuşlar. Çoxlu kainatlar nəzəriyyəsi fərziyyə və xəyal olmaqdan o yana keçmir. Bu nəzəriyyəni dəstəkləyənlər milyardlarla kainatın olduğunu deyirlər. Həyatın başqa yerlərdə də olduğunu deyirlər. Lakin, hələlik ki, elmi cəhətdən yalnız bizim kainatda həyatın olduğu isbat edilmişdir. (Söhbət dünyadan deyil, kainatdan gedir). Həmçinin, Riyaziyyat elmi də belə bir kainatın (milyardlarla) olmasının mümkünsüzlüyünə dəlalət edir. Milyardlarla kainatın mümkünlüyünü irəli sürənlərə bu kainatların necə yaranması barədə sual verilsə, sonra da bunlardan hansının əsas olduğu soruşulsa, cavab maraqlı olacaqdır. Bundan çətin suallar da bu iddianı və ya xəyalı edənlərə verilə bilər. Baxmayaraq ki, onlar kainatı Allahın yaratması kimi ən məntiqli cavab ilə bu ziddiyyətlərdən və cavabsız ehtimallardan qurtula bilərdilər.

Bu isə fəlsəfə, fərziyyə, xəyal olmaqla yanaşı, elmə də, riyaziyyata da ziddir. Hansı ki, ateizmi dəstəkləmək üçün elm iddiasında olanlar beləcə hər yola əl atır və elmdən kənara çıxmaq

---

[6] Xəbərin doğruluğuna şahidlik etmək üçün bu linkə baxa bilərsiniz: https://www.nature.com/news/south-korea-surrenders-to-creationist-demands 1.10773?fbclid=IwAR1E89PIz8OefUu6H4zFNEqp2gcT_UsIRSD5UIcP1Aud 5pMjEMG9K_UWiQ4

bahasına olsa belə, məntiqdən kənar olsa belə yenə də müxtəlif fərziyyələr irəli sürməyə vadar olurlar.

Ona görə də Edvard R.Harrison deyirdi: "Kainatın dəqiq bir nizamda olması onun ilk andan ilahi yaradılışa tabe olmasına dəlildir. O zaman özün seç: ya kor təsadüf ki, burada çoxlu kainatların olmasını lazımlı edir. Ya da yalnız bir kainatın olmasını lazımlı edən bir yaradılış![7]".

Digər alimlərdən William Stoeger, Allan Sandage, Sir Artur Eddington, John Polkinghorne, Charles H. Townes, Lucretius, Gerard Schroder, Paul Davies, Isaac Nyuton, George Ellis, John A. Russell, Gerard Schroder və başqaları "çoxlu kainatlar" nəzəriyyəsini şiddətlə tənqid etmişlər. Bu barədə daha ətraflı Cordan Leydnerin "Yaradana iman və elm" kitabına baxa bilərsiniz.

**Yeddincisi: <u>Allahın yaratdığı kainat</u>;** Bütün bu ehtimallardan sonra yalnız bir ehtimal qalır ki, o da kainatı Allahın yaratmasıdır. Biz müsəlmanlar da buna inanırıq və zərrə qədər də şəkk də etmirik! Allah kainatı altı gündə yaratmışdır. Dünyanın yaradılışı da bu müddətin içində baş vermişdir. Allah Quranda buyurur: *"Doğrudan da, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı və ulduzları Öz əmrinə tabe edən də Odur. Əslində, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah nə qədər xeyirxahdır"*. (Əraf. 54)

---

[7] Masks of the Universe, Harrison, 1985. pages: 252-263.

Uca Allah biz insanları yer üzünün canişini etmək istəmişdir. əl-Bəqərə surəsi 30-cu ayədə də buna işarə edilmişdir. Lakin, Allah yer üzünün canişini etmək istədiyi insanların Ona inanan bir toplum olmasını (bax: Nur. 55) istəmişdir. Əgər Allah bu dünyada bizə Özünü göstərmək istəsəydi, onda bizim inanmaqla inanmamaq arasında imtahana tabe olmağımızın bir mənası qalmazdı. Eyni zamanda Allah biz insanlara bu yaratdığı kainatda və bizim öz yaradılışımızda dəlilləri göstərəcəyini bildirmiş və buyurmuşdur: "*Quranın haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik*". (Fussilət, 53) Bu ayədə Allah bizə həm yaratdığı kainatda, həm də insanın öz yaradılışında Allahın kəlamının, Allahın yolunun haqq olmasına dəlillər olduğunu bizə xəbər verir. Sadəcə insan bu dəlilləri görməyi bacarmalıdır. Görmək istəməyən insan isə bəhanə axtaracaq və görməyəcəkdir. Sonra isə Allah şübhə edənlər barədə növbəti ayədə deyir: "*Doğrudan da, onlar öz Rəbbi ilə qarşılaşacaqlarına şübhə edirlər. Həqiqətən, O, hər şeyi əhatə edir*". (Fussilət, 54) Şübhə edənlər isə möcüzə görsələr belə inanmazlar. Necə ki, əvvəlki inanmayanlar peyğəmbərləri onlara möcüzə göstərdikləri halda gözləri görə-görə o möcüzələri “sehr” adlandırırlar.

Allah Quranda buyurur: "*O mərhəmətli Allah ki, göyləri və yeri yaratdı, göydən su endirib onunla sizin üçün növbənöv məhsullardan ruzi yetişdirdi, əmri ilə dənizdə üzmək üçün gəmiləri sizin ixtiyarınıza verdi və çayları sizə ram etdi; Müəyyən edilmiş yolla daim hərəkət edən günəşi və ayı sizə tabe etdi; gecəni və gündüzü sizə ram etdi*". (İbrahim, 32-33)

Əgər diqqət yetirsək, Allah bizə Quranda bu yaratdıqları ilə necə öz diqqətini və riayətini göstərir, hətta, biz bu aləmdəki nemətlərdən zövq alaq və bunu Yaradan barədə düşünək! Bu iki ayədə Allah;

Yeri və göyü yoxdan yaratdığını, günəşi və ayı bizim yaşayışımıza uyğun tabe etdirdiyinə (günəş bir az yerə yaxın olsa, və ya bir az uzaq olsa, hər iki halda yer üzündə canlılar məhv olar, lakin, bu baş vermir), bizə gecənin sükunətindəki və gündüzün aktivliyindəki faydaları verdiyini, səmadan bizə su endirdiyini, yer üzündə bizim üçün müxtəlif bitkilər çıxardığını, yer üzündə bizə çayları və digər təbii sərvətləri verdiyini, hətta, əllərimizlə düzəltdiyimiz gəmilərin onun izniylə dənizlərdə suyun üzərində getdiyini, təbiətdə olan ilahi qanunları Onun izniylə öyrənə biləcəyimizə işarə edir. Bütün bunlar həqiqəti axtaran ağıl sahibləri üçündür ki, Allah insanın kainatdakı müdhiş gözəlliklərə baxıb öz Yaradanı barədə düşünməsini istəyir. Ona görə də O başqa Quran ayəsində belə buyurur:

"*Doğrusu, göylərin və yerin xəlq edilməsində, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıllı adamlar üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!*" (Ali İmran, 190-191).

Bu ayədə Allah yerin və göyün yaradılması barədə doğru düşünənləri ağıllı adamlar adlandırır. Yəni, bunu ağıllı adamlar başa düşə bilir.

İsak Nyuton deyirdi: "Allah hər şeyin sayını da, çəkisini də, nisbətini də yaratmışdır"[8].

William Phillips deyirdi: "Mən Allaha inanıram. Həqiqətdə elə bir ilaha inanıram ki, o kainatı idarə edir"[9].

James P. Joule deyirdi: "Aydındır ki, kainatdakı nizamı qoruyan şey Allahın sərbəst İradəsidir"[10].

Owen Gigerich deyirdi: "Mən o təbiət kitabını təsdiqləyirəm ki, o kitab bizi kainatı bir hədəflə Yaradan Allaha və kainata dizayn verən Allaha yönəldir. Mən inanıram ki, mənim buna inanmağım bir alim kimi dəyərimə təsir etmir"[11].

**_İstifadə edilmiş ədəbiyyat:_**

*1 .Qurani-Kərim.*

*2 .Əl-İmən bil-Xaliq vəl-İlm, (Yaradana və Elmə iman) Cordan Leydner. (Məşhur alimlərin sözlərindən mötəbər iqtibaslar).*

*3 .Əs-Sun'ul-Mutqin, Diləläətul-Fi'ziyə alə Vucudil-Xaliq. (Möhtəşəm yaradılış, Yaradanın varlığına fizikadan dəlillər), müəllif: Mustafa Nasr Qadiyh.*

*4 .Keyfə bədə'əl-Xalq, dr. Amr Şərif, (Yaradılış necə başladı, dr. Amr Şərif)*

---

[8] A Dictionary of Scientific quotations, 1991, Oxford, Taylor Fransis, p, 182.
[9] http://novelists.net – p: 19.
[10] James Prescott, Coule and the Consept of Energy, p: 142.
[11] Good's Universe, Owen Gigerich, 2006, p: 79.

*5 .Əvhəm əl-İlhəd əl-İlmi, həl tətəa'radu əl-Kuşufəət əl-İlmiyyə məal-İmən bil-Xaliq, (Elmi ateizm xəyalları: Görəsən Yaradana inanmaqla elmi kəşflər ziddiyyət təşkil edirmi? Müəllif: prof. Muhəmməd Bəəsil ət-Ta'i).*

*6. Video mühazirə: Ateizmlə bağlı məsələlər, (2014) dr. Səid ibn Hüseyn əl-Qahtani.*

## Təcrübi elmin sərhədləri

Çox təəssüf olsun ki, bəzən dünyəvi elmdən payı olmayan ateistlər gecə-gündüz elmdən danışır, özlərini üstün ağıl sahibləri hesab edirlər. Bu yazımızda istər savadlı, istər də savadsız ateistlərə müsəlmanları çaşdırmaq istədikləri elmin sərhədlərini göstərəcəyik!

Ateistlərin günümüzdə ən çox söhbət açdıqları mövzulardan biri də "Elm və din" movzusudur. Onlar bu mövzunu açmaqla dinin elmə zidd olduğunu demək istəyirlər. Halbuki, din yox, xurafatlar elmə ziddir. O xurafatlar ki, onu həqiqi müsəlmanlar da inkar edirlər. Bu yazını oxuyan müsəlmanlar ateistlərin nəzərdə tutduqları elmlə həqiqi elmin arasını ayıra biləcək və onlara həm elmin hüdudlarını, həm də öz hədlərini bildirə biləcək, onlara elmdən danışmadan öncə elmin sərhədlərini izah edərək onların "elm çılğınlığına" bir sərhəd qoya biləcəklər!

"*Elm və din*" mövzusunda araşdırma edən şəxslərin çox vaxt unutduğu bir mövzu vardır, o da "təcrübi elmin sərhədləri"dir. Biz

bu mövzunu öyrənməklə biləcəyik ki, ateistlər əslində “bizə özlərini elmli göstərmək istəyirlər və elm deyildikdə yalnız öz istədikləri şeyləri qəsd edirlər”. Halbuki, elm onların təsəvvür etdikləri kimi dar çərçivədə deyil, elm daha geniş məfhumdur.

Biz bu məqaləni oxuduqda elmin sərhədlərinin geniş olduğunu biləcək və ateistlərin yalancı "elm" şüalarına qarşı məlumatlı olacağıq! Ümidrik ki, bu yazı elmi dar çərçivəyə salmaq istəyənlərə də mühüm bir xatırlatma olacaqdır! Müvəffəq edən Allahdır!

Görəsən təcrübi elm haraya qədər səlahiyyətli hesab olunur? Təcrübi elmlərin sərhədləri hara qədərdir? Təcrübi elmə tətbiqi elm də deyə bilərik. Günümüzdə ateistlərin “elm çılğınlığı”, dünyadakı mənəvi və maddi məfhumlar arasında fərq qoymadan hər məfhumu “dar təcrübə qabına” salmaq cəhdləri görəsən doğrudurmu? Görəsən elm yalnız təcrübi elmlərdən ibarətdirmi? Təcrübəyə tabe olmayan elmlər elm deyildirmi?

O zaman ki, ateist deyir: *"Mən təcrübi elm vasitəsilə isbat olunmayan bir şeyin varlığını qəbul etmirəm"*.

Biz ona deyirik: Sənin "mütləq həqiqət meyarı" kimi qəbul etdiyin bu "təcrübi elm" necə də məntiqdən və elmdən uzaqdır.

**Birincisi:** Ona görə ki, təcrübi elmə tabe olmayan o qədər ictimai, siyasi, məntiqi, əxlaqi, psixoloji və s. elmlər var ki…

Biz təcrübəni mütləq həqiqət meyarı kimi qəbul etsək, onda gərək bu elmlərin hamısını inkar edək. Bir də elm dedikdə yalnız

"təcrübi elm" nəzərdə tutulmur. Bu təcrübi elm sadəcə elmin bir hissəsidir. Uşaq da bilir ki, ata-anaya yaxşılıq etmək gərəkdiyini heç kim labaratoriyada öyrənmir. Labaratoriyada görüləsi xüsusi işlər olur. Lakin, bu bizə əxlaqi dəyərləri öyrədə bilmir. Çünki, labaratoriyada əxlaqi təcrübələr deyil, kimya, fizika, həndəsə və s. təcrübi elmlərə aid təcrübələr həyata keçirilir.

Təcrübi elm bizə əxlaqi hökmləri təqdim edə bilmir. Məsələn; oğurluq etmək yaxşı əməldir? Yoxsa, yox? Bunun yaxşı və ya pis olmağını bilmək üçün labaratoriyaya, nə fizikaya, nə də kimyaya, nə də başqa təcrübi elmə ehtiyac yoxdur. Yaxud da "yaxın bir qohumu qətl etmək icazəlidirmi?" - sualına təcrübi elm cavab verə bilmir.

Yaxud da bəşər övladı üçün müəyyən haqları gözləmək lazımdırmı? Heyvanların da müəyyən haqları vardırmı? Bu suallar mühüm olsa da, elmi araşdırmalar bu suallara cavab vermir. Deməli, elm bizə alimin necə işləyəcəyinin vəsfini xəbər verir. Lakin, hansısa əxlaqi hökmün doğru olub olmadığını bizə xəbər verə bilmir.

**İkincisi:** Elm **"necə?"** sualına cavab verir, **"nə üçün?"** sualına isə cavab vermir! Məsələn; elm maddənin bir haldan başqa hala necə keçdiyini izah edə bilər. Amma, kainatın nə üçün yarandığını, bizim nə üçün dünyada olduğumuzu, cinlərin nə üçün yaradıldığını və s. kimi sualları cavablaya bilməz. Çünki, bu, elmin öyrəndiyi sahə deyil. Elm məhdud bir sahə ilə məşğul olduğu üçün bu suallara cavab verə bilmir.

George Ellis demişdir: "Elm sənə fizika qanunlarının nə olduğunu bəyan edə bilər. Lakin, elm sənə bu qanunların nə üçün olduğunu xəbər verə bilməz. Kainatın nə üçün mövcud olduğunu elmin sənə xəbər verməsi mümkünsüzdür"[12].

Freeman Dayson deyirdi: "Biz nə üçün buradayıq? Kainatın (var olmasında) bir hədəf varmı? Bizim xeyiri və şəri tanımağımız haradandır? Bunun kimi yüzlərlə yanıltmaclar (suallar) elmin sərhədlərindən kənardır. Bu cür suallarin cavabı dinin hökmünə tabedir"[13].

Erwin Schrödinger demişdir: "Mən haradan gəlmişəm və hara gedəcəyəm? Bu sualın cavabını bilmirik. Bu bizdən hər kəsin soruşduğu bir sualdır. Elm bu suala cavab verə bilmir"[14].

Paul Davies demişdir: "Elm bizə “necə” sualı barəsində xəbər verdikdə yaxşıdır. Amma, “nə üçün” sualına elm cavab verdikdə isə yaxşı deyildir"[15].

**Üçüncüsü:** Təcrübi elm bizə zövqlər və gözəlliklər barədə bir şey təqdim edə bilmir. Nəyin çirkin, nəyin gözəl olduğunu, nəyin yaxşı, nəyin də pis olduğunu təcrübi elm bizə deyə bilmir. Elm bizə rəngləri necə gördüyümüzü və səsləri necə izah etdiyimizi izah edə bilər. Amma, elm bunlardan hansının yaxşı və ya pis olduğunu izah edə bilməz. O, insanların zövqlərini təcrübi elmə tabe etdirə

---

[12] George Ellis, God for the 21st Century, səh 165.
[13] Progress in religion: A talk by Freeman Dayson, əl-İmən bil-Xaliqi vəl-İlm, səh 25.
[14] Nature and the Greeks and Science and Humanism, 95-96.
[15] əl-İmən bil-Xaliq vəl-İlm, mərkəzu dəlil, səh 25.

bilmədiyi halda, saqqal və niqab (hicab) barədə də bizə meyar və ölçü verə bilməz.

**Dördüncüsü:** Təcrübi elm bizə elmi bilgiləri necə istifadə edəcəyimizi də öyrətmir. Məsələn; insan DNA-sının kəşfi məlumdur. Lakin, biz bunu bioloji silahların ərsəyə gəlməsində istifadə etməliyik? Yoxsa, biz bunu insanın irsi xəstəliklərinin müalicəsində istifadə etməliyik? Yoxsa, bu bilgi insanla heyvanın birgə yaşaması barədə əldə edilən təcrübədə istifadə edilməlidir?

**Beşincisi;** Elm bizə gözlə görmədiyimiz şeyləri, qeyb aləmini, metafizik məsələləri izah edə bilmir. Cinlər varmı? ruhlar varmı? Allah varmı? Bunun kimi suallara elm cavab verə bilmir. Çünki, təcrübi və ya tətbiqi elmin sərhəddi maddədə bitir. Deməli, dünyanın və ya kainatın yaranması kimi qeybi və keçmişdə baş vermiş hadisələri təcrübi elmlə araşdırmaq təcrübi elmin sərhədlərini keçmək sayılır.

Bütün bunlar o demək deyil ki, təcrübi elm dinə ziddir! Elmlə din bir-birinə qarşı ziddiyyətdə deyil. Əksinə, elm təsdiq edir ki, elmin elə sahələri var ki, təcrübi elmə əsaslanan kimsə o sahədən kənara çıxa bilməz. Çünki, hər elmin öz məşğul olduğu sahə var, elm öz sahəsinə aid olmayan məsələləri nə təsdiq, nə də inkar edə bilməz. Bu zaman həmin sahəyə aid olan digər elmi ixtisasa baş vurulmalıdır.

**Altıncısı:** Ateistlər təcrübi elmi həqiqət meyarı kimi qəbul etməkdə, ələxsus da Allahı təcrübi elmə əsasən inkar etməkdə elmi-metodiki əsaslanma cəhətdən ziddiyyətə düşürlər. Onlar Allaha gəldikdə onu "təcrübədən keçirməyə" çalışır, bunu mütləq həqiqət

meyarı kimi qələmə verir, başqa mövzulara gəldikdə isə bu batil qaydanı özləri pozur və öz qaydalarının xaricinə çıxırlar. Onlar deyirlər ki, bilik (mərifət) yalnız hiss və tərcübə ilə hasil olur, ağıl və xəbər ilə deyil. Hələ qaldı ki, fitri və ya ilham (vəhy) yolu ilə olsun, bunu heç qəbul etmirlər. Sonra isə onların Allahı inkar etmələrini gördükdə heç bunun "təcrübi yolla" deyil, əqli yolla olduğunu görürsən. Baxmayaraq ki, biz müsəlmanlar elə əqli yolla Allahın varlığını isbat edirik! Onlar isə "təcrübədən" keçirə bilmədikləri böyük ilahi qüvvəni əqli yolla inkar edir, sonra isə təcrübi olmayan seyi qəbul etmədiklərini deyirlər. Bu irad ona görə tutulur ki, onlar əqli elmləri mötəbər hesab etmirlər. Lakin, Allaha gəldikdə bizim mötəbər əqli dəlillərimizi qəbul etməyib öz ağıllarına əsaslanırlar ki, bu əsaslanmada təcrübi elmdən söhbət gedə bilməz. Əgər etiraz edib desələr ki, biz Allahı görmürük deyə təcrübədən keçirə bilmirik. Biz də deyirik ki, birincisi Allah təcrübəyə tabe deyildir. İkincisi isə: Siz təcrübədən keçirmədən və görmədən o qədər şeylərin varlığını qəbul edirsiniz ki, bu məsələdə biz sizin ziddiyyətdə olmağınıza onlarla, yüzlərlə misallar çəkə bilərik. İstər kainatın yaranması barədə olan fərziyyələrinizi, istər dünyanın yaranması barədə sözlərinizi, istər yadplanetlilər barədə olan sözlərinizi, istər xəbərə əsaslanan, təcrübəyə əsaslanmayan tarix elmindən ən qədim olan bilgiləri təhriflərlə bərabər "elmi həqiqət" olaraq qəbul etməyinizi, istər zənn və təxminlər üzərində olan nəzəriyyələri təcrübədən tam uzaq olduğunu bildiyiniz halda bunu "elmi həqiqət" adı altında qəbul etməyinizi və s. çoxsaylı misalları təfsilatıyla bərabər qeyd edə bilərik. Amma, yeri gəlmişkən onu da bildirək ki, bu həqiqət meyarlarına gəldikdə isə ağıl, hiss, xəbər (nəql etmə), təcrübi elm və s. bunların hamısına

baxılmalıdır. Əgər məsdərlər tərk olunarsa, yalnız təcrübi elm götürülərsə, bu zaman digər elmlərin hamısı xurafat hesab olunacaq ki, bu da digər elmlərə qarşı böyük bir cinayət olardı.

**Yeddincisi:** Sizlərə Misirli həkim, əczaçı dr. Əhməd İbrahimin "Ağılın bilməməzliyi" kitabında bu mövzuya aid dediyi sözləri təqdim edirik. O belə deyir:

"Həqiqət budur ki, elmi nəzəriyyə hansısa bir məfhum haqqında müəyyən bir təsəvvür təqdim edir ki, bu isə öz daxilində təcrübi müşahidələri (Facts), fərziyyələri və xəbərləri (Hypothesis) ehtiva edir. Nəticə etibarilə bu əqli metodla dəlil gətirməkdir ki, bunda da ixtilaf yoxdur. Lakin, bu başlanğıc və son olaraq bizim maddi bir şeylə müamiləmiz zamanı mümkündür. O mənada ki, bu metod bizim maddi, təbii bir məfhumla müamiləmiz əsnasında uğurlu nəticə verə bilər. Lakin, əgər biz hansısa bir mənəvi məfhum, mənəvi dəyər, yaradılış, qeyb aləmi və ya ədəbi rəvayətlərin mənaları, rəsmlər və ya insanla əlaqəli hər hansı bir şey (Humanities) barədə düşünəcək olsaq və ya məntiqi, fitri və ya riyazi məsələlərlə təcrübi metodu tətbiq etmək istəsək, bu zaman həqiqi bir problem ortaya çıxacaqdır. Buradan da aydın olur ki, təcrübi elmin maddi şeylərlə müamilədə uğur qazanması o demək deyil ki, “təcrübi elm” həqiqətlərə çatmaq üçün yeganə yoldur. Çünki, təcrübi elm bu həyatdakı hər şeylə rəftar üçün ən yaxşı metod deyil. Məsələn; biz sizdən birinin evindən asılmış hansısa bir məşhur rəsm əsərlərindən birini (fərz et ki, Mona Lizanın rəsmi) təsadüfi rənglənmiş və evin divarından asılmış olduğu halda hansının daha yaxşı olduğunu isbat etmək üçün siz öz balaca övladınıza təcrübi elmdən dəlil gətirə bilərsinizmi? Cavab əlbəttə

ki, "yox" olacaqdır. Çünki, zövqlər müxtəlifdir və bu qiymətləndirmə əslində təcrübi elmin sahəsi deyildir.

Bir şeyin qayəsini nə təsdiq, nə inkar edə bilməyən bir insan Allahın yaratdığı şeyləri şəkilləndirməsinin və qayəsinin batil elm olduğunu iddia edir. Hətta, ateistlər buna əsaslanaraq Darvin nəzəriyyəsini qəbul edir, Allahın "ağıllı dizayn" ilə kainatı gözəl biçimdə yaratmasını inkar edirlər. Bu hökm isə bütünlüklə batildir. Çünki, biz bayaqkı "Mona Liza" şəklini digər kor-koranə rənglənmiş şəkillərdən üstün tutmaq üçün "təcrübi elm"dən bir dəlil gətirməyə aciz qalacağıq. Bu zaman elmi hökm bu olacaq ki, hər kim ki, hansısa şəkilin "daha üstün olduğunu" iddia etsə, o bizə batil elm təqdim etmiş sayılacaqdır. Bu "üstün çıxarma" hökmünün batil olduğunu hər kəs bilir. Eyni qayda ilə də ateistlər Allahın yaratdığı kainatı düzgün olmayan metodla, təcrübəyə əsaslanılması mümkün olmayan şəkildə bu yaradılışdakı "ağıllı dizaynı" inkar edirlər. Halbuki, bu üstün çıxartma və ya aşağılama taktikası təcrübi elmə ziddir. Bu gözəllikləri təcrübi elm görə bilmir ki, ona qiymət də verə bilsin. Xülasə odur ki, bu təcrübi elmin sahəsi xaricindədir[16]."

Sonra isə o riyaziyyat elminin təcrübi elmə tabe olmaması, təcrübi elmin qaydalarına zidd olduğu üçün əslində ateistlərə görə riyaziyyatın "elm adlandırılmasının" doğru olmadığını izah edir və buna misallar çəkir, tənlik və teoremlərin təcrübi elmin tələb etdiyi qaydalara tabe olmadığını izah edir. Sonra isə Devid Heyom'un qeyd etdiyi (Problem of induction) ”Dəlillərin toplanması

[16] Dr. Əhməd İbrahim, Ağılın Bilməməzliyi. səh. 40-41.

problemi" məsələsi ilə hətta göstərir ki, təcrübi elmin özünün doğruluğunu belə təcrübi elmlə isbatlamaq mümkün deyil.

Ona görə də məntiqi həqiqətlər var ki, onun təcrübi elmlə isbatına ehtiyac yoxdur. Məsələn; İki bir-birinə zidd şey bir araya gəlmir, nə də yüksəlmir, yaxud da kvadrat olan bir şey eyni zamanda eyni dərəcədə dairəvi halda ola bilməz. Bunun kimi bir misalı təcrübi elm isbat edə bilməz, nə də inkar edə bilməz. Çünki, ola bilsin ki, bu halda bir şeyi bu dünyada tapa bilməsən də, bu başqa bir yerdə olsun. Ya da bunun üçün uzun və ya əbədi bir müddət lazım ola bilər.

Təcrübi elm ateistin və ya qeyrisinin ağlındakı fikirlərin doğruluq və yalan nisbətini də təcrübədən keçirə bilməz. Fikirlər, mənəvi aləm, insanın iç dünyası, əxlaq, məntiq, tarix, riyaziyyat, bir çox ictimai elmlər və s. bir çox elmlər və məfhumlar təcrübi elmə daxil deyil. Ona görə də bütün mütləq həqiqətləri təcrübi elmlə xüsusiləşdirib təcrübi (tətbiqi) elmdən kənar elmləri qəbul etməmək bəşər övladı üçün böyük bir təhlükədir. «Elm və din» mövzusunda bəhs edən şəxslərin çox vaxt unutduğu bir mövzu vardır, o da "təcrübi elmin sərhədləri"dir. Ümid edirik ki, bu yazı elmi dar çərçivəyə salmaq istəyənlərin işini pozmaqda yardımçı olacaqdır!

## *İstifadə edilmiş ədəbiyyat:*

• *Təcrübi elmin hüdudları məqaləsi — (ərəbcə) Qanət Beyyinətun li-muqaranətil-Ədyən var-Raddi aləş-Şubuhəət.*

• *1+1=3 İslama və onun əsaslarına qarşı yayılan şübhələrin yanlış əsasları, Əhməd Seyyid) (ərəbcə) Usulul-Xata fiş-Şubuhəət əl-Musərati Diddil-İsləm va səvabitəhu. Əhməd Seyyid. 2017.*

• *Ağılın Bilməməzliyi, dr. Əhməd İbrahim, səh, (ərəbcə) 2011.*

• *Yaradana və elmə iman, məşhurların sözləri (ərəbcə) əl-İmənu bil-Xaliqi vəl-İlm, iqtibəəsəət muvassəqah li-məşəhiyril-Uləməi fil-Asril-Hədis, Cordon Leydneer) 2018.*

• *Ciləḍul-İlhəd, Dr. Muhəmməd əs-Səidi və dr. Ali əl-Umran. 2018.*

• *Ateizm, problem içində olan fərziyyə, əl-İlhəd Fardiyyətun fi əzmə, Əhməd Bəlqis. 2018.*

• *Video dərs: doktor Səid ibn Vəhb əl-Qahtani, Hudud əl-İlmit-Təcribi. (Təcrübi elmin hüdudları: https://youtu.be/cSaxq41Y83s)*

## Allah insanı niyə yaradıb?

**Sual:** *Əssəlamu aleykum. Allah insanı niyə yaratdı? Əgər əsas məqsəd ibadət və tövhid idisə, onda Allah insanı niyə mələklər kimi yaratmadı? Yəni, məqsəd və səbəb sırf ibadət idi, öz dərgahında yaradıb ancaq özünə ibadət etdirərdi də, indiki mələklər kimi. Məncə əsas səbəb bu deyil, sırf ibadət üçün dünyanın yaranmasına və bizim burda olmağımıza ehtiyac yoxdur.*

**Cavab:** Va aleykumus Sələm va rahmatullah.

**Birincisi:** Allah bizi Onu tanıyaraq ibadət etməyimiz və hansımızın daha yaxşı əməl sahibi olmağımızı ayırd etmək üçün yaratmışdır.

Deməli, insan ibadət etmək üçün Rəbbini tanımalı, Onun əzəmətini və Qüdrətini bilməlidir. Uca Allah Quranda buyurmuşdur:

*"Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allahdır. Vəhy onların arasında ona görə nazil olur ki, Allahın hər şeyə qadir olduğunu və Allahın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz".* (Talaq. 12)

Bu ayədə Allah yaratmasından olan məqsədi izah edir, Öz Qüdrətininin kamilliyinə şahid etmək və hər şeyi elmi ilə əhatə etdiyini bilməyimizi istəyir.

*"Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır".* (Mulk. 2)

Allah Quranda iman əhlinə xitab edərək cinlərin və insanların Allaha ibadət üçün yaratdığını buyurmuşdur. Quranın bir ayəsini inkar edən isə müsəlman ola bilməz. "Mən Allahdan daha yaxşı cavabı bilirəm" deyən insan, Allaha deyil öz ağılına ibadət edənin hökmündədir. Uca Allah Quranda buyurur:

*"Mən cinləri və insanları yalnız mənə ibadət etmək üçün yaratdım". (əz-Zəriat. 56)*

Allah bizə Quranda bunun cavabını verir və insanı nə üçün yaratdığını bildirir.

Onu da bilmək lazımdır ki, Allah insanı üstün bir ağılla yaratdı və heyvanlardan fərqli etdi. O istədi ki, Onun sonsuz Qüdrətinin kamilliyinə başqa bir məxluqdan olan şahidləri də olsun. Elə bir şahidlər ki, bu şahidlər öz pis əməli ilə heyvandan aşağı səviyyəyə də enə bilər, yaxşı əməli ilə mələklərdən yüksək dərəcələri də qazana bilər. Məhz bu məxluq ağıl neməti verilmiş insan idi. Həmçinin, alimlər deyirlər ki, Allah gözəl ism və sifətlərinin (Rəhməti, Bağışlaması, İzzəti, Qüdrəti, Yaratması, Hökmdarlığı və s) təcəllisini insana göstərmək istədi. İnsanlar isə yaradılmışlar olaraq bu Uca Qüdrət sahibinə, Yaradana səcdə edib ibadət etməklə O Yaradanın  layiq olduğu bir işi edir. Buna baxmayaraq, insan bu Qüdrətli Yaradanın layiqli şəkildə Şəninə tériflər edib ibadət edə bilmir. Deməli, insanın yaranmasındakı qayə, məqsəd Allahı tanıyıb ona ibadət etməkdir.

Sadəcə bu cavabda bir çox insanlar iki məsələni qarışdırırlar ki, İbnul-Qeyyim bunu "Bədəiul-Fəvaid" kitabında bəyan etmişdir:

*Birincisi;* Qullardan istənilən məqsəd,

*İkincisi;* Qullar vasitəsilə ərsəyə gələn məqsəd.

Qullardan istənilən məqsəd Allahı tanıyaraq Ona ibadət etməkdir.

Qullar vasitəsilə ərsəyə gələn məqsəd isə (əmələ görə) ədalətli, fəzilətli qarşılıq, ya mükafat, ya da cəzadır.

Bununla da tövhidin (təkAllahlılığın) qayəsi gerçəkləşir"[17].

---

[17] Bədəiul-Fəvaid, ixtisarla, ətraflı bax, 4/971.

**İkincisi:** Allah etdiklərindən sorğu sual olunmaz. Lakin, bəndələr sorğu-sual olunarlar. Uca Allah buyurur: *"Allah gördüyü işlərdən sorğu-sual olunmaz, onlar isə sorğu-sual olunacaqlar"*. (Ənbiya, 23)

**Üçüncüsü:** Sualda deyirsiniz ki, "sırf ibadət üçün dünyanın yaranmasına ehtiyac yoxdur". Bəli, insan sırf ibadətlə kifayətlənmir. Digər yaxşı əmməlləri də edir, öz həyatını gözəl yaşamağı da unutmur. Allah bizə ibadəti əmr etsə də, bizim dünyada inkişaf etməyimizi və yaxşı yaşamağımızı da qadağan etmir. O bizə səhərdən axşama kimi ancaq ibadət etməyi də əmr etməmişdir. Uca Allah Quranda buyurur*: "Allahın sənə verdiyi ilə Axirət yurduna can at. Dünyadakı nəsibini də unutma"*. (Qasas, 77)

Ona görə də ibadətin xüsusi vaxtları var. Bununla yanaşı Allahın bizim ibadətimizə ehtiyacı yoxdur. Əksinə, bütün bu xeyir əməllərə bizim ehtiyacımız var. Məqsəd isə hansımızın daha yaxşı əməl sahibi olmasını ayırd etməkdir.

**Dördüncüsü:** Axirət dünyasına şəkk edənlər hər şeyin bu dünyada olduğunu, cənnətin də, cəhənnəmin də bu dünyada olduğunu düşünürlər. Halbuki, bu dünya əməl meydanıdır. Əməlin nəticəsi isə iki yerdən birinə (cənnətə və ya cəhənnəmə) aparacaq. Əgər hər şey bu dünyada olsa, həyat mənasız olar! Onda bu həyatın mənası olmazdı. Əksinə, dinin verdiyi arqument ilə həyat daha mənalı olur. Çünki, ateistin xəyallarındakı aqibətlə görə insan öləndə torpaq olub gedir. Bu baxımdan da məşhur filosoflar deyiblər ki, əgər həyat ölüb getməklə tükənirsə, burada yeni bir həyat başlamırsa, o zaman həyatın, xüsusən də əxlaqın bir mənası qalmır. Bu zaman dünya tam məqsədsiz olur və hər şey sanki, boş

boşuna yaranmışdır. Amma, İslami cavaba görə hər şey planlıdır. İnsan dünya ilə birgə «beş mərhələ»keçir. Yazıq ateist isə ancaq bu beş mərhələdən biri barədə düşünür. O ruhlar aləmindən, ana bətnindən keçib dünyaya gəldiyini anlamır, üçüncü mərhələ olan dünyadan sonra isə, qəbir aləminə, oradan da beşinci mərhələ olan axirət aləminə keçid etdiyini bilmir və ya qəbul etmir. Əlbəttə, belə bir insanın həyatı mənasız olar.

Üstəlik də bu beş mərhələni ona görə qeyd etdik ki, bu dünya əməl meydanıdır, axirət isə əməl meydanı deyil qarşılıq görmək (mükafat və ya cəza) meydanıdır. *Dünya əməl meydanı olduğu üçün biz burada ibadət etməli və yaxşı işlər görməliyik. Sual verilsə ki, niyə?*

**Cavab:** Çünki, bir ateist deyə bilməsin ki, Allah insanları məcburi cənnətə və ya cəhənnəmə niyə salır? Əksinə, Allah bu dünyanı əməl meydanı edib ki, hər kəs layiq olduğu yolu özü seçsin. Ona görə də buyurub: *"Sizi yaradan Odur. Kiminiz kafir, kiminiz də mömindir. Allah nə etdiklərinizi görür"*. (Təğabun, 2)

Bizə qəribə suallar yazan insanlar özləri bu yolu seçiblər!Ona görə biz onların hər dəfə Allahı sorğu-sual edirmiş kimi iddialı danışıqlarını normal qəbul edirik! Allahın da Quranda dediyi kimi: *"İman gətirməyənlərə de: Əlinizdən gələni edin, biz də edəcəyik. Gözləyin! Biz də gözləyirik"*. (Yusuf, 121-122)

Xülasə odur ki, onlar cənnəti bu dünyada axtardıqları üçün, cənnətin başqa yerdə olduğunu anlamamış və belə qəribə suallar verməyə başlamışlar. İnsanın həyatı təkcə bu dünyadan ibarət deyil. Hər mərhələnin öz məşğuliyyəti var. Dünyada da ibadət və yaxşı

işlər görülməlidir. Dünya həyatı da unudulmamalıdır, Allahın əmr etdiyi kimi təmiz həyat yaşayıb nemətlərdən də istifadə etmək lazımdır. Yəni, ibadət edən əsil müsəlman nemətlərdən məhrum olmur, əksinə, mənəvi səadət qazanır.

**Beşincisi:** Lakin, siz desəniz ki, mən bunu başa düşə bilmirəm. Biz deyəcəyik ki, sizin hər şeyi başa düşməyiniz vacib deyil. Çünki, İnsanın həyatda bilmədiyi şeylər çoxdur. Bu isə insanın ağlının hər şeyi dərk etmək istəyinə, lakin, dərk edə bilmədiyinə qayıdır. İnsanın ağılı hər şeyi mütləq idrak edə bilmir. Məsələn; insanın əli müəyyən ölçüdə kiloqram ağırlıq qaldıra bilir, insanın ayağı müəyyən ölçüdə məsafə (km) qət edə bilir. İnsanın gözü müəyyən məsafəni görə bilir. Eləcə də insanın ağılı idrakı müəyyən şeyləri dərk edə bilir. Qeybi məsələləri və bir çox şeyin hikmətini insan bilməyə bilir. Zatən bunu bilmək vacib deyil. Ona görə də insan "maddi elmlərə" əsaslanaraq qeyb aləmini dərk edə bilmir. Çünki, maddi elmlər təcrübəyə əsaslanır, əsasən, gözlə görülən şeyləri əhatə edir. Maddi elmlər qeyb aləminə müdaxilə edə bilmir. Siz havanı görmədiyiniz halda bunu qəbul edirsiniz. Bu onun olmaması anlamına gəlmir. Sizin düşündüyünüz maddi elmlər "necə?" sualına cavab verə bilər. İnsan Maddi elmlərlə necə sualının cavabını tapa bilər. «Nə üçün?» suallarının cavabını isə həmişə tapa bilməz .

**Altıncısı:** Təkcə ateistlər hələ dünyanın necə yaranması barədə altı fikirdə ixtilaf ediblər. İndi biz onlardan hansının fikrinə etimad edək? Onlar maddi elmlərin, texnikanın bu qədər inkişafına baxmayaraq bircə məsələdə bu qədər ixtilaf edib və bu qədər ixtilaf ətrafında yüzlərlə kitablar yazıblar. Amma, yenə ortaq bir məxrəcə gələ bilməyiblər. Deməli, hər şeydən məsul olan var. Allah

yaratmaqdan məsul olandır. O isə nə üçün yaratdığının səbəbini bizə deyir, amma, bizim özümüz də dünən nə yediyimizi unutduğumuz halda durub Allahla razılaşmırıqsa, sizcə bu qəribə məntiq deyilmi?!

## Nə üçün məhz İslam və başqa dinlər yox?

Bəzən həqiqi din axtarışında olan, bəzən də ateizmə meylli kəslər belə bir sual verə bilirlər:

"Nə üçün məhz İslamı seçmək tələb olunur?" Yaxud da "mən nə üçün İslamın haqq dini olduğuna inanmalıyam?" Ortada bu qədər dinlər ola-ola mən nə üçün sırf İslamı seçməliyəm?!

**Biz bu suala iki cavab verəcəyik:**

Birinci cavab daha qısa və daha konkretdir. İkinci cavab isə ətraflı (təfsilatlı) cavabdır.

**Sualın qısa cavabı:**

Dinlərə və İslama ümumi nəzər yetirməklə biz bu suala cavab tapa bilərik; bu zaman biz şahidi ola bilərik ki, dinlər iki qismə bölünür:

***a)*** *Kainatı Yaradan, özü yaranmamış bir Rəbbə ibadət etməyə çağıran dinlər (İslam, xristianlıq, yəhudilik).*

***b)** Heyvan, insan və bütlər kimi yaradılmış şeylərə ibadətə çağıran dinlər. (Bütpərəstlik və başqa bu tipli dinlər).*

Sağlam ağıl və məntiq bu ikinci qism yaranmışlara (heyvana, insana və ya bütə) ibadət edilən dinlərin yanlış olduğunu qəbul edər və bu bəşər ağılından icad edilmiş dinlərdən uzaq durmağa çalışar.

Yerdə qalan dörd dinə gəldikdə isə xristianlıqda "ata, oğul, müqəddəs ruh" anlayışı və ya "üçlüyünün" (təslis inancı) olması bütün peyğəmbərlərin təkAllahlıq yoluna müxaliflik və açıq sübutdur ki, xristianlıq təhrif olunmuşdur. Üstəlik də üç ilahın olması açıq-aydın ziddiyyətdir ki, özüylə çox fəsadlı mənalar gətirir. Hətta, onların bir ilahlarının olması ehtimalında bu ilah zəif bir ilah olaraq ortaya çıxır; çünki, o gah yemək yeyir, gah təqiblərə məruz qalır, gah da çarmıxa çəkilir. Allahın bir və ya üç olmasında ixtilaf edən bir din barədə də çox danışmağa ehtiyac görünmür.

Yəhudi dininə gəldikdə isə bu din qövmiyyətçiliyə dəvət edir, onlar yəhudilərin başqa hər millətdən üstün olduğunu deyirlər. Onlar yəhudilərin ağa olduğuna, başqa millətlərin isə onlara kölə olmasının gərəkdiyinə etiqad edirlər. Yəhudi dinini qəbul etməkçün isə ya birinin anası yəhudi olmalıdır, ya da yəhudilərin ən üstün olduğu fikrini qəbul etməlidir. Qövmiyyətçiliyi ön plana çəkən bir din barədə isə artıq söhbət bu nöqtədə dayanır və artıq sözlərə ehtiyac qalmır.

Qaldı Zərdüşt dini; Bu dinə görə iki ilah var, xeyir və şər ilahı. Ona görə də dinlərdən danışan bəzi araşdırmaçıların Zərdüşt dinini politeist (təkAllahlı) dinlərlə eyni tutmaları və eyni kateqoriyaya ayırmaları elmi cəhətdən doğru deyildir.

Zərdüştlük etiqadını nəql edən Zərdüşt haqqında isə əlimizdə tutarlı məlumatlar yoxdur. Lakin, onların odu müqəddəs tutmalarıyla atəşpərəstliyə başlanğıc vermələri, atəşə sitayiş ayinləri, iki Allahın (xeyir və şər) olmasını demələri bu dinin Allaha deyil oda sitayişə xidmət etdiyini bilmək bu dinin də ilahidən gəlmə deyil, bəşəri ixtira olduğunu göstərir.

Qalır bu dinlərin içində yeganə yol olan İslam dini… İslam isə ağıla, məntiqə və sağlam fitrətə uyğun bir dindir .

## Nəyə görə məhz İslam?

**Birincisi;** Ona görə ki, İslam bütün bəşəriyyətə xitab edir;

**İkincisi;** İslam peyğəmbəri peyğəmbəri olmamışdan əvvəl sadiqliyi və doğruluğu ilə tanınmış və bilinmişdir.

**Üçüncüsü;** İslami məsdərlər hərtərəfli şəkildə hərfbəhərf, nöqtə-vergülünə kimi qorunmuşdur. Bu xüsusiyyət isə Yaradanın izni olmadan mümkün deyil ki, 14 əsrdir bu cür qorunub saxlanılsın.

**Dördüncüsü;** İslamın kainatı Yaradan qüvvə barəsində təqdim etdiyi təsəvvür çox aydın və dolğun təsəvvürdür ki, sağlam ağıl və məntiq də bunu qəbul edir.

**Beşincisi;** Qurani-Kərimi düzgün anladığımız müddətcə Quranda bir ziddiyyətin olmadığını görərik. Əgər Allahdan qeyrisindən nazil olsaydı, onda Quranda çoxlu ziddiyyətlər olardı.

**Altıncısı;** İslam dini kainatın yaranması barədə də dolğun, asan və məntiqi izah təqdim edir. Halbuki, kainatın yaranması müasir elmdə ən çətin və qəliz mövzulardan biridir.

**Yeddincisi;** İslam dini insanın yaranması, bu dünyadakı missiyası barədə aydın məlumat versə də, fəlsəfə və məntiq əhli bu mövzuda daim böyük sıxıntı çəkmişlər.

**Səkkizincisi;** Bütün dinlər arasında ən şərəfli əxlaqlara dəvət edən, məsdərləri bu barədə dəlillərlə dolub daşan ikinci bir din yoxdur. Bu da ağıl sahiblərinə görə yalnız həqiqi, ilahi bir dində mümkün ola bilər.

Belə olduğu halda bütün bunları Bilən və asanlaşdıran bir Yaradan vardır ki, o bizi yaradıb və dünyaya göndərib ki, biz ona ibadət edək.

**Sualın təfsilatlı cavabı isə belədir:**

**Birinci məsələ:** İslam peyğəmbərinin doğruluğu, sadiqliyi; Bu peyğəmbər elə bir insan idi ki, peyğəmbərlikdən öncə artıq onu "Muhəmmədul-Əmin" (yəni, Etibarlı Muhəmməd) və ya "Sadiqul-Əmin" (yəni, doğru sözlü, etibarlı) deyə adlandırırdılar. İnsanlar Onun heç zaman yalan danışdığının şahidi olmamışdılar. Bu nahiyədən onun cəmiyyətində onun özü kimi doğru sözlü və etibarlılığı ilə məşhurlaşmış ikinci bir adam yox idi. Hətta, o ilk dəfə peyğəmbərliyini elan etmək istədikdə: *"Ey insanlar! Əgər mən desəm ki, bu vadinin arxasında bir ordu var və onlar bizə hücum etmək istəyirlər, məni təsdiqləyərsinizmi?! – dediyi zaman: Bəli*

*(inanarıq), ey Muhəmməd, biz sənin heç bir zaman yalan danışdığının şahidi olmamışıq – dedilər"*[18].

Həmçinin, yenə o peyğəmbər olmamışdan öncə Kəbənin təmiri zamanı qara daşı kimin daşıyacağı barədə ixtilaf düşdükdə bu işi görmək üçün hər kəsin razı qaldığı şəxs idi və bu iş ona həvalə olunur. Çünki, o sadiqliyi, vəfalılığı, doğruluğu ilə az yaşlarında ikən tanınmışdı. Onun necə doğru sözlü olması barədə çoxlu rəvayətlər qeyd etmək olar. Hansı ki, bir insanın iddiasının doğru olub olmadığını bilmək üçün ilk növbədə onun insanlar arasında doğrusözlü, yoxsa, bunun əksi bir adla tanınmasının bilinməsi labüddür. Ona görə də birinci bu mühüm amili qeyd etdik.

**İkinci məsələ:** İslam dini nə firqələrdən bir firqə deyil, nə də yer üzündə insanların ixtira etdiyi əqidələrdən biri deyildir;

Əksinə, İslam bütün peyğəmbərlərin dininin əsli olmuş, haqq əqidənin və düzgün ibadətlərin əsli (əsası) olmuşdur. İslam təkAllahlılıq (tövhid) dinlərinin ən saf olanıdır.

Deməli, İslam yolunu azmış, təhrifə məruz qoyulmuş dinlərin yolunun düzəldilməsini hədəfə alaraq son ilahi din olaraq qarşımıza çıxır. İslam, Adəmdən İsaya kimi (Adəm, Nuh, Saleh, Eyyub, Hud, İbrahim, Musa, Davud, Yunus, Harun və İsa) gəlib keçmiş bütün peyğəmbərlərin yolunun geri qaytarılmasıdır. Tövrat və İncilin ifadəsinə əsasən bu peyğəmbərlərin hamısının əqidəsi təkAllahlılıq olmuşdur. Bu saf əqidə nə bir Allahı üç hesab etmir, nə Allahı şəkillə vəsf etmir, nə də özündən intihar edərək ölən ilahları vəsf etmir. Nə də bu din ilahların başqa ilahlarla ixtilaf etməsindən

[18] Bax: "Səhih əl-Buxari". 4770.

danışmır. Nə də bu din müqəddəs ruhun atadan ayrılmasından, nə də tayfaların ilahından danışmır. Uca Allah buyurur:

*"Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin tövhid (təkAllahlılıq etiqadı) müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və Ona üz tutanı Özünə tərəf yönəldər"*. (əş-Şura, 13)

Həmçinin, Allah buyurmuşdur: *"Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi sənə də vəhy etdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy etdik. Davuda da Zəburu verdik"*. (ən-Nisa. 163)

Digər bir ayə isə belədir: *"İbrahim də, Yaqub da bunu oğullarına vəsiyyət etdilər: "Ey oğullarım! Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq ölməlisiniz!""* (əl-Bəqərə, 132)

Deməli, İslam başqa dinlər kimi deyildir. İslam bütün (peyğəmbərlərə gələn) dinlərin əslidir. O dinlər ki, insanlar o dinləri sonradan təhrif etdilər. Peyğəmbərlərin demədiyi sözləri onların adından dedilər, etmədikləri şeyləri onların adından etdilər. Xüsusən də yəhudilik və xristianlıq dinlərinə mənsub olanlar öz dinlərini bilə bilə təhrif etmişdilər. Halbuki, onlara İslam üzərində olan peyğəmbərlər gəlmişdi. O peyğəmbərlər onlara tək Allaha ibadət etməyi, Ona ortaq qoşmamağı, Allahı inkar etməməyi, Ona

inanmağı əmr edirdilər. Qurani-Kərim onların dinlərini təhrif etmələrini təsdiqləyir:

*"Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: “Bu, Allah tərəfindəndir!”– deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına!"* (əl-Bəqərə. 79).

Qurani-Kərim onların öz əlləriylə kitab yazıb o kitabı yalandan Allaha nisbət etmələrini necə də gözəl vurğulamışdır. Bizim isə heç bir şəkkimiz yoxdur ki, Allah İslam dinini göndərməklə yəhudi və xristianların təhriflərindən bizi qorumuş və bizə doğru yolu göstərmişdir. Ona görə də Qurani-Kərim doğru yolu göstərən və şəkk-şübhə dogurmayan bir ilahi kitabdır. Allah elə Quranın girişində buyurur: *"Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır"*. (əl-Bəqərə. 2).

**Üçüncü məsələ:** Başqa dinlərdə şirk elementləri vardır, İslam isə şirkdən və küfrdən qorunmuş yeganə dindir; məsələn, xristianlar İsa peyğəmbəri "Allahın oğlu" adlandırır, onu peygəmbərlikdən çıxararaq ilahi sifətlər verirlər. Bu isə Allaha şərik qoşmaqdır, üstəlik də İsa peyğəmbərin dinini təhrif etməkdir. Yəhudilər də həmçinin, "Üzeyir Allahın oğludur" demiş, mələklər də Allahın "qızlarıdır" demişlər.

Quranda Allah buyurur: *"Yəhudilər: “Üzeyr Allahın oğludur”– dedilər. Xaçpərəstlər də: “Məsih Allahın oğludur”– dedilər. Bu onların ağızlarından çıxan sözlərdir"*. (ət-Tövbə, 30)

Bütün bunlar şirk və küfr eleməntləridir ki, xalis və həqiqi dində belə bir şeyin olması mümkün deyildir. Hinduslar da Allaha şərik qoşur və bütlərə ibadət edirlər. Ümumiyyətlə, bütpərsətliyi din kimi qəbul etmək və təkAllahlılıq dinlərinə tay etmək doğru deyildir.

Sadəcə bunu ateistlərin dinlərə misal çəkmələridən dolayı qeyd etdik. Eləcə də digər İslamdan başqa istənilən dində şirk və küfr elementləri vardır.

**Dördüncü məsələ:** Allah qatında din yalnız İslamdır; Uca Allah buyurmuşdur:

*"Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, bilsin ki, Allah tez haqq-hesab çəkəndir".* (Ali İmran, 19)

Başqa bir ayədə isə buyurmuşdur:

*"İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar".* (Ali İmran, 85)

**Beşinci məsələ:** İslam sonuncu dindir və ilahi şəriətlərin (qanunların) tamamlayıcısıdır; İslam dinindəki hökmlər Qiyamət gününə kimi insanlara din olaraq bəs edir. Allah Məhəmməd peyğəmbəri sonuncu peyğəmbər adlandırmışdır. Onun şəriəti və yolu da son şəriət və yoldur. Allah Quranda buyurur:

"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir". (Əhzab, 40)

Bu o deməkdir ki, onun dəvəti hansısa nəsli və ya hansısa qəbiləni əhatə etmir, əksinə, bu dəvət dünyadakı bütün kasıbları, bütün varlıları, bütün güclüləri və bütün zəifləri, bütün zalımları və bütün adilləri, insan və cin toplumunun hamısını əhatə edir.

**Altıncı məsələ:** İslam bütün bəşəriyyətə xitab edir; Allah Quranda buyurur: *"Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik"*. (əl-Ənbiya, 107)

Peyğəmbər bəşəriyyətə rəhmət olaraq göndərildiyi kimi, Qurani-Kərim də xatırlatma və rəhmət olaraq göndərilmişdir. Allah Quranda buyurur:

*"Bu Quran aləmlərə ancaq xatırlatmadır"*. (Sad, 87)

Qurani-Kərim bütün bəşəriyyətə öyüd-nəsihət sayılır.

**Yeddinci məsələ:** İslam dini bizə adilliyi əmr edir; İslam dini dostla, düşmənlə, yaxınla, uzaqla adil davranmağı əmr etmişdir. Uca Allah Quranda buyurur: *"Allah ədalətli olmağı əmr edir.» (ən-Nəhl, 90) Həmçinin, buyurmuşdur: «Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun"*. (əl-Ənam, 52)

İslam dini bununla da kifayətlənməyərək hətta sevmədiyimiz kəslər və düşmənlərimiz belə olsa, onlarla ədalətli davranmağı əmr etmişdir:

*"Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! "* (əl-Maidə, 8)

Xüsusən də indiki zamanda bəzi insanlar özüylə bir fikirdə olmayanları çox rahat və adillikdən uzaq bir şəkildə təhqir edirlər ki, bu hal dünyada geniş yayılmışdır. İslam isə insanları təmkinli

olmağa çağırmışdır və bu məsələdə ədalətsizlik edib həddi aşmaqdan çəkindirmişdir.

**Səkkizinci məsələ:** İslam elmə, oxumağa, inkişafa səsləyir: İslamın müqəddəs kitabı olan Qurani-Kərim elmə, oxumağa, öyrənməyə səsləyir. Ona görə də Quranın ilk nazil olan ayəsi: *"Oxu"* əmridir. (əl-Ələq surəsi, 1-ci ayə) Bu ayə peyğəmbərin Cəbrayıl adlı ilahi vəhy mələyindən eşitdiyi ilk vəhydir.

O cümlədən də, elm öyrənmək insanların dərəcəsinin yüksəlməsi və Allahın razılığını qazanmaq üçün bir vasitədir.

*"Allah sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaldar"*. (Mücadilə, 11)

Məhəmməd peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) demişdir: *"Elm tələb etmək (öyrənmək) hər bir müsəlmana vacibdir"*[19].

Başqa bir rəvayətdə Məhəmməd peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) buyurmuşdur: *"Sizin yanınıza elm öyrənmək üçün qövmlər gələcəklər. Əgər onları görsəniz, peyğəmbərin vəsiyyətinə uyğun şəkildə: Xoş gəlmişsiniz! deyin və onları öyrədin"*[20].

Bu gün bizdən biri bir xarici dili öyrənməkdə çətinlik çəkərkən və ya bunu bir neçə aya və ya ilə edərkən, peyğəmbərin tapşırığı ilə səhabələrdən biri 21 gün ərzində İbrani dilini öyrənən Səhabənin halını unuduruq.

---

[19] Sahihul-Cami, 308 və 309; şeyx Albani «səhihdir» demişdir.
[20] Sunəni ibn Macəh, 247; əs-Sahiha, 280-də Albani "həsən" – demişdir.

Başqa bir hədisdə peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) buyurur:

*"İnsan öldüyü zaman onun əməli kəsilir. Yalnız üç şeydən başqa: Davamlı sədəqə vermək və ya faydalı bir elm qoyub getmək və ya ona dua edən övlad qoyub getmək"*[21].

Hədisdə *"Faydalı bir elm qoyub getmək"* elmə verilən böyük bir qiymətdir. Bu elm insanın özünə də, cəmiyyətə də faydalı olan elmdir. İslam dini cəmiyyətə faydalı olan, cəmiyyətin faydalı inkişafına aparan yollara rəğbətləndirir.

Praktiki olaraq da İslamın 14 əsrlik tarixində olmuş nəhəng İslam dövlətləri daim elmin və elmi tərəqqinin tərəfində olmuşlar. Əməvilər, Abbasilər, Osmanlılar, Məmlukilər, Əndəlüs dövləti və başqa böyük İslam dövlətləri daim alimlərə xüsusi diqqət ayırmışlar. Məhz İslam alimlərinin coğrafiya, kimya, həndəsə, cəbr (riyaziyyat), tibb və başqa elmlərdə möhtəşəm uğurları Avropa elminin sonrakı inkişafına bir məsdər olmuşdur. Təkcə müsəlmanların qərb dünyasını dünyəvi elmlərin əsasını qoymaqda və inkişaf etdirməkdə uzun əsrlər boyu qabaqlamasından danışsaq, ortaya cildlərlə kitablar çıxar. Bu da ona dəlalət edir ki, bütün bunlar İslam təlimindən qaynaqlanır. Müsəlmanların son əsrdə hərtərəfli zəifləməsinin başlıca amili ideoloji deyil, siyasi amillərlə bağlıdır. Çünki, son nəhəng İslam dövləti olan Osmanlı Qərbin böyük dövlətləri vasitəsilə təklənmiş və çökdürülmüşdür. Osmanlı dövləti altı-yeddi əsr boyunca avropaya göz dağı olan qocaman bir dövlət olmuşdur. Onu yalnız təkləmək yoluyla çökdürən Avropa

[21] Səhihi-Muslim, 1631.

ölkələri 100 ildir ki, müsəlmanların elmdən uzaq düşməsi üçün çalışırlar və azğın firqələrin inkişafına yardım etməklə müsəlmanların başını iç savaşları, ixtilaflar ilə qatmaq istəyirlər. Onlar hər bir vəchlə müsəlmanların elmi inkişafına mane olmağa çalışırlar. Hal-hazırda müsəlmanlara qarşı qərb aləmində istifadə olunan əsas psixoloji silahlardan biri də “islamofobiya” təbliğatıdır. Lakin, onlar nə etsələr də müsəlman aləmi elmə olan marağını İslami təlimlərdən aldıqları üçün bu ümmət gec-tez öz izzətinə qayıdacaqdır. Müasir müsəlman alimlərin müasir elmi nəaliyyətləri barədə bu keçiddən oxuya bilərsiniz: Müasir dövrdə müsəlman alimlərin nəaliyyətləri

Bu mövzuda saatlarla danışmaq olar, lakin, biz bu qədərilə kifayətlənirik.

Qərbdəki İslamafobiya (İslam qorxusu) təbliğatı barədə isə bu məqalələrimizdən ətraflı məlumat almaq olar:

*İslamofobiya, Qərbin İslam düşmənçiliyinin təzahürü: (1-ci hissə).*

*İslamofobiya, Qərbin İslam düşmənçiliyinin təzahürü: (2-ci hissə).*

## İstifadə edilmiş mənbələr:

*Qurani-Kərim.*

*Səhih əl-Buxari.*

*Səhih əl-Muslim.*

*Sunəni ibn Macəh.*

*Silsilətus-Sahiha.*

*Siratu İbn Hişam..*

*Sahihul-Cami. Albani.*

*Ər-Raculu vəs-Sirval əl-Əhmər.*

## Əgər din doğrudursa, nəyə görə dindarlar ixtilaf edirlər?

*Bu şübhə bəzən bu şəkildə də ifadə edilir: Əgər İslam haqdırsa, müsəlmanlar niyə ixtilaf edirlər? (Ateist, deist şübhəsinə cavab)*

**Sual**: *Onlar deyirlər ki, əgər İslam dini haqdırsa, müsəlmanlar doğru yolla gedirlərsə, onda niyə onlar ixtilaf edirlər? Əgər onlar haqq yoldadırlarsa, niyə bu qədər ixtilaflar var?*

**Cavab:** Bu suala cavab bir neçə aspektdən olacaqdır:

**Birincisi**: Başqa peşə və ixtisas sahibləri də ixtilaf edirlər; Həyatın bütün sahələrində ixtilaf mövcuddur. Yalnız dindarlar ixtilaf etmirlər. Dünyəvi alimdən fəhləyə kimi ixtilaf edirlər. Dünyəvi alimlər öz aralarında ixtilaf edir, fəlsəfəçilər, ateistlər, deistlər, aqnostiklər, liberallar, demokratlar, secularislər, praqmatistlər, humanistlər, qlobalistlər, şairlər, jurnalistlər,

biznesmenlər, müğənnilər, hətta, bazarda meyvə satanlar belə ixtilaf edirlər .

Bir fəlsəfəçi düşünür ki, fəlsəfəni bilməyən özünü dərk etməyib. Digər fəlsəfəçi isə başqa şey düşünür. Onlar fəlsəfi fikirlərdə də ixtilaf edirlər. Necə ki, fəlsəfə məktəbinin qədim mütəfəkkirləri daim bir-biri ilə münazirə edir, bir-birinin fikirlərini tənqid edirdilər.

Bəzi ədəbiyyatçılar həyatı şeirdən, qəzəldən, poemadan və s. ibarət olduğunu düşünür. Bəzilərii isə ömrünü meyxana deməkdə keçirir. Bunun əsil ədəbiyyat olduğunu düşünür. Yeni ateist ədəbiyyatçılar isə çıxıb deyirlər ki, köhnə şairlər heç kim olublar, sonra ədəbiyyatı əxlaq normalarını aşmaqla zirvəyə qaldıracaqlarını düşünür, xalqın böyük şairlərini nifrətlə yad edirlər, onları şair hesab etmir və bir-bir alçaldırlar.

Jurnalistlər də iki qismə bölünür. Xəbərləri doğru çatdıran və insaflı jurnalistlər. Başqa bir qism jurnalistlər isə hadisələrə və ya məsələlərə qərəzli mövqe tutmaqla yanaşı ciblərini vicdanlarından önə çəkirlər.

Astronomlar da ixtilaf edirlər. Onların əksəriyyəti heç dindar da deyillər. Lakin, son illərdə "yerin düz olduğunu" deyən astronomlarla, "yerin kürəvi olduğunu" deyən astronomlar bir-birilərilə əməlli başlı ixtilaf ediblər. Hələ biz onların göy cisimlərilə əlaqəli ixtilaflarından danışmırıq.

Siyasətçilər də ixtilaf edirlər. Dünyadakı siyasi ixtilaflardan isə danış ki, danışasan, qurtarmaz. Hələ siyasi şərhçilərin

proqnozlarından, hansısa bir ölkənin təkcə müxalifətçiləri arasında olan ixtilaflardan danış ki, qurtarmaz .

Tarixçilər də ixtilaf edirlər. Onlar bəzən bir məsələdə dörd beş fikir bildirirlər. Tarixçi dindar olmaq anlamına gəlmir yaxşı ki. Nədənsə bəzilərinin ancaq müsəlmanların ixtilafları yadlarına düşür .

Bir cəmiyyətin düşünən beyinləri, ziyalıları bir çox məsələdə ixtilaf edirlər.

Dünyəvi alimlər bir çox nəzəriyyələr üzərində ixtilaf edirlər. Bir il hər kəsə mütləq həqiqət kimi görünən hansısa "elmi nəzəriyyə" bir neçə il sonra digər alimlər tərəfindən rədd edilir və yerinə başqa nəzəriyyə müdafiə olunur. Onlardan bəziləri elmləri yalnız "təcrübi elmlərlə" məhdudlaşdırır, bəziləri isə digər faydalı elmləri də elm hesab edirlər.

Bir ailənin üzvləri, ərlə-arvad, bacı-qardaş və s. öz aralarında ixtilaf edirlər. Bəzən öz evindəkilərlə bütün günü didişib dava edən adamlar çıxıb deyirlər ki: “müsəlmanlar ixtilaf edirlər.”

**Ateistlər** də ixtilaf edirlər. Onlar kainatın yaranmasında bir neçə fikiri dəstəkləyirlər. Bəziləri kainatın əzəli olduğunu, bəziləri kainatın sonradan bir partlayış nəticəsində yarandığını deyir, digərləri də "çoxlu kainatlar" nəzəriyyəsini irəli sürürlər. Lakin, ortaq bir fikirə gələ bilmirlər. Dünyanın yaranmasında isə avropalı ateistlər darvinizmi dəstəkləyir, şimali koreyalı ateistlər isə darvinizmi inkar edirlər.

Ümumiyyətlə, dindar olmayan bir çoxları da ixtilaf edirlər; onlardan bəziləri cəmiyyətin islahı üçün “liberalizm yaxşıdır” - deyir, bəziləri deyir: “secularizm yaxşıdır”, bəziləri deyir: “praqmatizm yaxşıdır”, bəziləri deyir: “demokratiya yaxşıdır”, bəziləri deyir: “kommunizm yaxşıdır” və s.

Xülasə odur ki, ixtilaf etmək insanın fitrətində vardır. Ona görə də Öz yaratdıqlarını ən gözəl şəkildə tanıyan Allah buyurur ki:

*"İnsan isə ən çox mübahisə edəndir"*. (əl-Kəhf, 54)

Deməli, insan mübahisə etməyi xoşlayır. Fikir bildirmək, etiraz etmək, tənqid etmək insanda təbii hallardır. Lakin, insanın daha çox mübahisə edən olması, mübahisəyə meyilli olması ayədən də görünür. İnsanlar özləri də buna şahidlik edə bilərlər.

**O zaman ixtilafın səbəblərindən bəziləri bunlardır:**

*a) Birinci səbəb insanın yaradılış fitrətinə qayıdır.*
*b) Paxıllıq, kin-küdurət və s. Dəlil isə bu ayədir:*

"İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və qorxudan peyğəmbərlər göndərdi, onlarla birlikdə haqq olan kitab nazil etdi ki, insanlar arasında onların ixtilafa düşdükləri şeylərə dair hökm versin. Halbuki kitab verilmiş şəxslər özlərinə açıq-aydın dəlillər gəldikdən sonra aralarındakı paxıllıq üzündən ixtilafa düşdülər. Allah isə Öz icazəsi ilə iman gətirənləri ixtilafda olduqları məsələlərdə haqqa yönəltdi. Allah istədiyini düz yola yönəldər". (əl-Bəqərə, 213).

*Səbəblərin qalanlarını daha müxtəsər qeyd edəcəyik.*

c) Müxtəlif xarakterli insanların bir-biriylə anlaşa bilməmələri.

d) İnsanın öz havasına tabe olub bir məsələdə haqqı axtarmaqdansa, nəfsinin havasına uyğun gələn şeyləri müdafiə etməsi.

e) İxtilaf edən tərəflərin ixtilaf etdikləri məsələnin həqiqətini bilməmələri.

f) Başçılıq və şöhrət sevgisi və ya qövmiyyətçilik davaları.

j) Müəyyən şəxslərin və ya fikir cərəyanlarının sözlərinə təəssübkeşlik.

k) Əvvəlki nəsillərin sözlərinin dəlillərinə baxmadan onları kor-koranə təqlid etmək.

r) Anlayışların müxtəlif olması.

Bu ixtilaf səbəblərini çoxaltmaq da olar. Lakin, bizim bu yazıdakı məqsədimiz bu deyil. Xülasə odur ki, nə qədər ki, insanlar mövcuddur, nə qədər ki, insanlar bir-birinə qaynayıb qarışırlar o qədər də ixtilaflar mövcud olacaqdır .

**İkincisi:** *Görəsən İslam dininin ixtilafa münasibəti necədir?*

Uca Allah Qurani-Kərimdə buyurmuşdur: *"Əgər Rəbbin istəsəydi, insanları vahid bir ümmət edərdi. Amma onlar elə hey ixtilafdadırlar"*. (Hud, 118)

Bu ayədə Uca Allah demir ki, müsəlmanlar ixtilaf edir. Əksinə, Allah insanların hamısının ixtilaf etdiyini bildirir. Deməli, nə qədər ki, insanlar müxtəlif beyinlərə və müxtəlif xarakterlərə sahibləridirlər, o qədər də onlar ixtilaf edəcəklər.

İslam dini ixtilafı yaxşı hal hesab etmir. Ona görə də Quranda Allah müsəlmanlara ixtilaf etməyi qadağan edərək buyurur:

*"Bir-birinizlə mübahisə etməyin, yoxsa, ruhdan düşər və zəifləyərsiniz"*. (əl-Ənfal, 46)

Deməli, Allah bizə ixtilaf etməyi müsəlmanların zəifləməsinə gətirəcəyini bildirir .

*Onda görəsən ixtilafa düşdüyümüz zaman nə etməliyik?* Yenə buna da Quran ayəsi cavab verir:

*"Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Onun Elçisinə müraciət edin. Bu, sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır"*. (ən-Nisə, 59)

Başqa bir ayə də yenə ixtilafı, parçalanmağı qadağan edir: *"Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz "*. (Ali İmran, 103)

Göründüyü kimi İslam dini ixtilafı qadağan edir, ittifaqı və birliyi əmr edir. Bir çox din xadimləri bu ayəyə əməl etmirlər. Çünki, insanlar ixtilaf etdikləri zaman Qurana və peyğəmbərin sabit hədislərinə əməl etsələr, çox ixtilaflardan xilas olardılar.

Lakin, ixtilaf qaçınılmazdır. Yuxarıda da qeyd etdik ki, qeyri din sahələrində də ixtilaflar mövcuddur. Lakin, Muhəmməd peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) buyurmuşdur ki, yəhudilər yetmiş bir, xristianlar yetmiş iki, müsəlmanlar isə yetmiş üç firqəyə

bölünəcəklər. Onların hamısı cəhənnəmə gedəcək, yalnız birindən başqa» Sonra isə Peyğəmbər yetmiş üç firqədən kimlərin nəcat tapacağını bəyan edərək buyurmuşdur: *"Bu gün mən və səhabələrim hansı yol üzərindəyiksə, o yolla gedənlər nəcat tapacaqlar"*[22].

Peyğəmbərin bütün ümməti (yetmiş üç firqənin hamısı) əvvəl axır cənnətə düşəcəkdir. Lakin, günahlarından təmizləndikdən sonra bu baş verəcəkdir. Allaha və Onun elçisinə inanan kəslərə zülm edilməyəcəkdir. Hər kəs öz əməlinin qarşılığını görəcəkdir. Yetmiş üç firqədən nəcat tapmış bir firqə isə birbaşa cənnətə gedəcəkdir. Onlar da peyğəmbərin yoluna xurafat, mövhumat qatmadan onun və səhabələrinin yoluyla gedənlərdir. Peyğəmbəri görən əhli-beyti də onun səhabələrindəndir.

**Üçüncüsü:** *Bir sahədə ixtilafın olması həmin sahənin əlverişsiz, faydasız olması və ya batil olması anlamına gəlmir*. Məsələn; Biz kimya, riyaziyyat və tibb elmlərində müxtəlif sahələrdə "ixtilaf var" deyib o sahələri tərk etsək, onda gərək bütün elm sahələrini tərk edək və deyək ki, "niyə bu elmlərdə alimlər ixtilaf edirlər?". "Biz ixtilaf etməyən elm istəyirik" desək, bizə ağıllı insanlar gülərlər. Çünki, bəzən ixtilaf, tənqid və s. kimi şeylər mövzuların daha dəqiq araşdırılmasına xidmət edir. Məsələn; Əgər müsəlmanlar arasında "qəzavü-qədər" mövzusunda ixtilaf olmasaydı, bu gün İslam alimləri bu mövzularda bizə doğru İslami mövqeyi sərgiləyən daha az kitablarla xidmət etmiş olardılar. Lakin, o zaman ki, bu mövzuda ixtilaf edən "qədəriyyə" və "cəbriyyə" firqələri peyda oldu, alimlər əsil İslamın movqeyini, doğru rəyi ortaya qoyan bir çox əsərlər yazıb həqiqəti bəyan etdilər. Bunun la da həmin firqələr tarixin

[22] (Səhih ət-Tirmizi. 2641)

qaranlığına getdilər və insanlara haqq bəyan oldu. Bunun kimi misallar çoxdur, bu qədərilə kifayətlənirik .

**Dördüncüsü:** *Bu dünyada daim bir-birinə əks məfhumlar mövcuddur*; Bu da dünyanın imtahan qayələrindən biridir. Bu əks məfhumlar olmasaydı, dünyanın bir marağı olmazdı. Bu əks məfhumlar dünyamıza rəng qatır. Bu əks məfhumlara gecə-gündüz, xeyir-şər, acı-şirin, dərman-zəhər, gözəl-çirkin, sevgi-nifrət, varlı-kasıb, yaş-quru, ağıllı-axmaq, ağ-qara, doğru-yalan, yaxşı-pis, arıq-kök, uzun-qısa və s. saydıqca bitməyən əks məfhumlar vardır ki, ittifaq-ixtilaf da buraya əlavə olunarsa, anlayacağıq ki, ittifaqın qədrini bilməyən kəs ixtilafın zərərini də anlamaz. Bu əks məfhumları siyahısını özünüz də uzada bilərsiniz. Biz qeyd etmədiyimiz bəzi əks məfhumları qeyd etməklə dünyada nə qədər xeyir və şər kimi imtahan vəsilələrinin olduğunu anlaya bilərsiniz. Məsələn; «gənc və qoca» kimi bir-birinə əks məfhumlardan anlayacaqsınız ki, hər şeyin başlanğıcı olduğu kimi, bir sonu da vardır.

**• Sonda bu yazıda gəlinən nəticə budur ki:**

İslam dini ixtilafı qadağan edir. Bütün insanlar ixtilaf edirlər, bütün peşələrdə, bütün ixtisaslarda və bütün sahələrdə insanlar arasında ixtilaf vardır. Nə qədər ki, insanlar müxtəlif xarakterdə və müxtəlif səviyyədədirlər, o qədər də ixtilaf mövcud olacaqdır.

İxtilafın səbəblərini dərk etmədən ixtilafı hüccət gətirmək doğru deyil.

Hansısa sahədə ixtilafın olması heç də o sahənin bəşəriyyətə xeyirli olmadığı anlamına gəlmir.

Bu dünyada daim bir-birinə əks məfhumlar mövcuddur. Bu da dünyanın imtahan qayələrindən biridir. Bu əks məfhumlar olmasaydı, dünyanın bir marağı olmazdı. Bu əks məfhumlar dünyamıza rəng qatır .

## "İnsanlar öz ölkəsinin dinini mənimsəyir" - şübhəsi.

**Şübhə belədir:** *Deməli, ateistlər tez-tez bu şübhəni səsləndirir və belə deyirlər: "Sən Azərbaycanda doğulduğun üçün müsəlman olmusan, məsələn; əgər Çində doğulsaydın, bütpərəst olardın. Ona görə də dinlər doğru deyil".*

**Bu şübhənin cavabı:** Bu şübhəyə iki nahiyədən yanaşmaq olar. Birinci nahiyə birbaşa şübhənin cavabıdır ki, buna üç aspektdən cavab verəcəyik. İkinci nahiyə isə bəzilərinin eyni sualı bir qədər fərqli verməsilə əlaqədardır. Bu sualın fərqli və şaxəli formasına isə artıq başqa bir yazımızda bundan əvvəl cavab vermişdik (23).

Bu bu haşiyədə verdiyimiz məqalədə suala uyğun olaraq daha çox İslamı tanımadan, İslam barədə xəbər tutmadan bu dünyada yaşayıb sonra vəfat etmiş şəxslərin aqibəti müzakirə edilmişdir.

[21] - Kitabın birinci hissəsində qəsd olunan mövzu mövcuddur. İnternet üzərindən isə feqih.com saytından "İslam çatmayıb başqa dində olanın aqibəti nə olacaq?" adlı məlaləni oxuya bilərsiniz.

**Konkret olaraq yuxarıda verilən şübhənin cavabına gəldikdə isə bu ən saçma şübhələrdən biridir.**

**Birincisi:** Ona görə ki, bu etiraz əsl etibarilə yanlışdır. Bunun mənası odur ki, məsələn; kimsə sənə hansısa fikir ifadə edir, sən də ona deyirsən ki, "yox, bilirsizmi, bu fikir filan yerdən və ya filan şəxsdən və ya filan camaatdan və ya filan kitabdan gəlib, deməli doğru deyil". Amma, həmin fikirin nə olduğu barədə düşünmürsən.

Bu etiraz və ya bu üslub heç cürə nəyinsə doğru olub olmadığını isbat etməyin yolu deyil. Bu məsələdə yeganə məntiqi yol isə həmin fikrin həqiqətə və ya reallığa nə qədər uyğun olmasıyla ölçməklədir. Lakin, burada məsələnin əslinə baxılmalıdır. Bir misal verək; Məsələn, mən əgər hansısa bir şey satıram, tutalım ki, bir kitab satıram. Satdığım kitabı tərifləyərək desəm ki, əgər bu kitabı oxusan, faydalanacaqsan, əqlini inkişaf etdirəcəksən. Eləcə də bu kitabı satmaq hal-hazırda mənim xeyrimədir ki, onu sataraq pul qazanım. Məgər bu o deməkdir ki, bu satdığım kitabın içindəkilər pis və çirkin şeylərdir?

Həmçinin, bu məsələ ona oxşayır ki, bir insan çıxıb digərinə deyir ki: "günahsız insanların öldürülməsinə gətirib çıxaran döyüşlər pis və çirkindir". O da (ateist və ya qeyrisi) cavabında deyir ki: Sənin sözün batidir. Çünki, sən hal-hazırda elə bir cəmiyyətdə yaşayırsan ki, bu mühitdəki fərdlər insana, insanlığa böyük qiymət verirlər. Əgər sən qədim zamanda yaşasaydın, sən başqa fikirdə olardın. Sən bunu ona görə deyirsən ki, sən yaşadığın cəmiyyətin  mədəniyyətindən təsirlənmisən. O cəmiyyət ki, insanın azad olduğunu və onun şəxsiyyətinin hörmət və şərəfi olduğunu deyir. Onda biz deyə bilərikmi “hər kimsə fərdə, insana yüksək

qiymət verirsə, insanlara hörmətlə yanaşırsa, deməli, onun bu sözü batildir? Əlbəttə ki, yox!

Həmçinin, bu iddia, o uşağın sözünə oxşayır ki, o digər uşağa belə deyir: "Sənin öyrəndiyin riyaziyyat fənni doğru deyil. Çünki, mənim sənin müəllimindən xoşum gəlmir və ya sənin müəllimən sənə riyaziyyatı ona görə öyrədib ki, bunun qarşılığında qazanc əldə etsin və s.".

Bu cür danışmağın isə ümumiyyətlə riyaziyyat fənninin doğru və ya yanlış olmasıyla heç bir əlaqəsi yoxdur. Həmçinin, belə sözlərin riyaziyyatın əsası ilə də bir əlaqəsi yoxdur ki, hətta, onun doğru və ya yanlış olduğuna dəlalət etsin. Əksinə, bir fikrin doğru-düzgün olması onun doğru şəkildə öyrənilməsindən keçir ki, bu fikir həqiqətə uyğun, məntiqi, yerli-yerində və gerçəkliyə uyğun olmalıdır.

Ona görə də bu şübhəni yayan ateistlərin bu düşüncə adamı Richard Darwinksin düşdüyü problem də budur ki, o, əsas etibarilə yanlış olan bir şeyi dəlil hesab edir. Yəni, onun dediyinə əsasən "əgər sən müsəlmanların çox olduğu yerdə doğulmusansa, onda sənin İslama nisbət olunmağın doğru deyil, onda deməli, bu doğru deyilsə, deməli İslam da doğru deyil". Ona görə də deyirik ki, məntiqi nəticə tamamilə yanlış və absurddur. Ona görə də əvvəldə dedik ki, bu etiraz əsl (əsas) etibarilə yanlışdır. Hətta, biz müsəlmanlar belə, məsələn, xristianları İslama dəvət edərkən bu üslubdan istifadə edərək demirik ki, "sən Avropada doğulduğun üçün xristian olmusan". Çünki, bu nisbi bir məsələdir. Mütləq həqiqət deyildir. Əksinə, biz xristianların içində olduqları şirk,

xurafat, küfr və təhrifləri göstərərək onları islah etməyə çalışacağıq. Bu isə tam məntiqi üslubdur.

**İkincisi:** Bu saçma iddianın özü tənqidə məruz qalır. Biz bu iddianı edən Richard Dawinks'ə deyə bilərik ki, sən bu məsələdə bir iddia gətirirsən də, özün bir yox iki nisbətə görə ateist olmusan.

Birincisi, coğrafi nisbətə görə, ikincisi, zaman nisbətinə görə.

Coğrafi nisbətə görə ona görə ateist olmusan ki, çünki, sənin doğulduğun yer Britaniyadır və sən ateistlərin çox olduğu bir ölkədənsən. Öz iddia etdiyin məntiqə görə də sənin ateist olmağın da doğru deyil. Çünki, əgər sən Pakistanda doğulsaydın, ola bilərdi ki, sən indi Quranın heyrətamiz cəhətləri barəsində hansısa bir elmi iş yazırdın. Deməli, sən, Cənubi Koreya və sabiq Sovet ittifaqı dövlətlərində olan ateistlər də coğrafi nisbətə görə ateist olmusunuz.

Zaman nisbətinə gəldikdə isə, sən ateizmin yayıldığı bir əsrdə yaşamısan, yəni, 20-ci əsrin sonlarında və 21-ci əsrin əvvəllərində yaşamısan. Beləcə, sizin öz sözünüzü özünüzə qaytarmaq çox asandır. Deməli, dinlərin coğrafi nisbətlə olması barədə etiraz yersiz etirazdır. Ona görə ki, bunun nə məntiq, nə də səbəb aspektindən dinin doğru və ya yanlış olması ilə heç bir əlaqəsi yoxdur. İkinci tərəfdən isə ateistlər də eyni etiraza və ya tənqidə məruz qala bilir, özü də təkcə coğrafi nisbət baxımından deyil, zaman nisbəti baxımından da bu baş verir. Artıq bunun izahını yuxarıda verdik.

**Üçüncüsü:** Dünyanın şərqində və qərbində ateistlərə sonradan rədd verən neçə alimlər olmuşdur ki, onlar vaxtilə ateizmi qəbul edən şəxslər olmuşlar. Onlar sonradan ateizm fikrindən döndülər.

• 20-ci əsrdə ateizmə dəvət edən, kitabları ən çox yayılan şəxslərdən biri **C.S.Lewis** olmuşdur. O Kambric universitetində müəllim idi, özü də ateist idi. Onun "Şər problem" və başqa mövzularda əsərləri vardır. Lakin, o tam bir fikir mədrəsəsini təmsil edir. Onun əsasını qoyduğu bu fikir mədrəsəinin mübahisə və dialoq məsələlərinə yanaşmasından bu gün də istifadə edənlər var.

• **Antony Flo** 20-ci əsrin ortalarında ən məşhur ateist idi. Sonra 21-ci əsrin əvvəllərində Allaha iman gətirdi və yazdıqlarını inkar etdi. Təsəvvür edin ki, o ateizmin müdafiəsi üçün onlarla kitablar yazmışdı. 50 illik ateist həyatından sonra bütün o fikirlərdən tövbə edir və Allahın var olduğunu, özünün əvvəlki fikirlərinin yanlış olduğunu elan edir. Beləcə, ateizm təbliğatına böyük bir zərbə vurmuş olur.

• Həmçinin, **McGrath** da vaxtilə ateist olan şəxslərdən biridir. Lakin, sonradan Ateizmə qarşı mübarizə aparmış və bu yolda çoxlu kitablar yazmışdır. O, hal-hazırda ateistlərin lideri R.Dawinksə ən güclü rəddiyyə verənlərdən biridir.

• Ərəb ölkələrində isə **Mustafa Mahmud** da əvvəllər ateist idi. Sonradan Ateistlikdən tövbə edir ateistlərə qarşı ciddi şəkildə mübarizə aparır. O, "Allah və insan", "Ateist Dostum" və başqa bir çox kitabların müəllifidir.

• **Aqqad** da vaxtilə ateist olan şəxslərdən biri idi və vaxtilə ateizmdən və marksizmdən yazmışdı.

• Abdullah əl-Məsiri də azadlıq və başqa ateizm şüarları barədə yazmışdı. O, ateizm etiqadını iqtisadi, siyasi və ictimai aspektlərdən incələmişdir. O da vaxtilə ateist olmuşdur. Belə şəxslər çoxdur.

Xülasə, görəsən *Richard Dawinks* bütün bu şəxslərin "coğrafi nisbət" halını nəzərə alaraq ateizmdən çıxmasını necə izah edir? Bax bu yerdə Dawinks çıxılmaz vəziyyətə düşücəkdir. Ona görə də "coğrafi nisbəti" irəli çəkərək imana qarşı etiraz kimi qoymaq nə məntiqi, nə də elmi bir üslub deyildir. Bu, məntiqi tərtib olan müqəddimə və nəticə tərtibindən də uzaqdır[24].

## Ateistin sualı: şəkildəki uşaq niyə o haldadır?

**Sual:** *Deməli, bizə bir şəkil göndərdilər. Şəkildə iki uşaq təsvir olunur. Biri yumşaq yorğan-döşəkdə, təmiz bir yerdə oyuncağını qucaqlayıb yatır, ikincisi isə, çöldə, torpağın üstündə başını yerdəki iki daşların üstünə qoyub yatır. Sonra isə bu şəkili göndərən ateist və ya deist bu iki şəkil arasındakı fərqi qəsd edərək belə bir sual verir: Niyə? Gəl sən de ki, imtahan dünyasıdır! Həddi büluga qədər nə imtahan? Hansı imtahan?*

[24] Mənbə: dr. Səmi Amirinin bu mövzuda videoçıxışından ixtisar və əlavələrlə istifadə edilmişdir. (Bu mövzuya yaxın mövzuda sərbəst araşdırmamızın linki isə məqalənin əvvəlində verilmişdir).

**Cavab:**

**Birincisi:** Siz İslamdakı "Dünya imtahandır" deməkdən məqsədin nə olduğunu anlamamısınız. Elə "dünya imtahandır" demək o deməkdir ki, dünya rahatlıq yeri deyil, nə də cənnət kimi rahat bir yer deyil. Dünyaya gələn, istər uşaq olsun, istər böyük olsun, dünyadakı çətinliklərlə qarşılaşacaqdır. Siz birinci İslamdakı «imtahan» məqsədini doğru anlamağa çalışın, yoxsa, ədalət prinsipi ilə bu mövzuya yanaşmış olmazsınız. Gəlin Qurandakı imtahan ayəsini birlikdə oxuyaq:

*"Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır". (Mülk, 2).*

Bu ayədə deyilmir ki, uşaqlar valideynlərinin həyat tərzindən kənarda qalacaqlar və ya deyilmir ki, uşaqlar insanların dünyadakı ədalətsiz maddi bölgüsündən təsirlənməyəcəklər. Unutmayın ki, kasıbların haqqını varlı insanlar yeyir. Yoxsa, bu şəkildəki iki fərq ortaya çıxmazdı. Siz bu iki fərqə görə Allahı deyil, insanları ittiham etməlisiniz! Əmin, olun ki, sizi aldadıblar. Çünki, Allah Quranda varlılara əmr edib ki, kasıblara zəkat və sədəqə versinlər. Sizin etdiyiniz ittiham o vaxt doğru ola bilərdi ki, Allah zəkat və sədəqə verməyi əmr etməsin, pulu ədalətli bölməyi buyurmasın. Siz məntiqlə danışmaq istəyirsinizsə, bunu da məntiqlə düşünün. Bunu düşünsəniz biləcəksiniz ki, bu iki şəkildəki fərqin günahkarı Allah deyil, zalım insanlardır .

**İkincisi:** Hətta, yumşaq döşəkdə yatanlar belə həyatın acı tərəfindən qurtula bilmirlər. Kimisinə görə yumşaq döşəkdə yatmaq

xoşbəxtlik sayıla bilər. Amma, minlərlə yumşaq döşəkdə yatan xəstə uşaqlar da var ki, onlardan kimisinə həftədə qan köçürülməzsə, həyatını itirə bilər. Kimisi isə, başqa bir xəstəlikdən əziyyət çəkir. Yumşaq döşək onu həmin sıxıntıdan qurtarmır. Siz əslində bu etirazı etməklə "dünyada nəyə görə problemlər var?" demək istəyirsiniz. Xoşbəxtliyin nisbi bir şey olduğunu bildiyimiz halda bu "qəribə müqayisəni" edirsiniz .

Əslində biz sizə yüzlərlə bizə nisbi olaraq şər görünən şeyləri misal gətirə bilərik. Cavabın sonunda "şər problemini" başa düşməyiniz üçün bir məqaləmizi oxumağı tövsiyə edəcəyik.

Məsələn; bu iki uşağın imtahanı onlar böyüdükdə ola bilər. Fərz et ki, onlar böyüyüb və bu hal davam edir. Biri kasıb, digəri varlıdır. Allah bu varlı və kasıb uşağın imtahanını yaxşı və pis əməllərinə görə edəcək, necə ki, yuxarıdakı imtahan ayəsi buna işarət edir. Varlı və ya kasıb olmaq insanın ləyaqətli olmasına maneə deyil. Varlı və kasıb olmaq insanın yaxşı və pis olmasına maneə deyil. Əksinə, varlı olanlar bu dünyada bütün zülmlərin ən çox törədiciləri hesab olunur. O yumşaq yataqda yatan necə uşaqlar böyüyüb pula pul deməyən, barlara pul tökən və ən çox pis əməlləri edənlərə də çevrilə bilirlər. Təbii ki, bu da nisbi bir misaldır. İmtahan barədə başqa bir misal verək; varlı və kasıb uşağın valideynlərinə qayğısı məsələsi; Necə varlılar var ki, valideynini "qocalar evinə" atıblar. Halbuki, o varlı övladların imtahanı valideynləri idi. Neçə-neçə kasıb uşaqlar var ki, kasıb olsa da valideynlərinə yaxşı qayğı göstərmişlər, valideynləri də onlardan razı olmuşdur. Belə kasıb övladlar belə varlı övladlardan üstün olur və İslamdakı imtahan qayəsini uğurla keçmiş olurlar. Bu

misallardan məqsəd odur ki, kasıb və ya varlı olmaq nisbi bir şeydir və insanın bu dünyada Allahın qəsd etdiyi imtahana tabe edilməsinə maneə deyildir .

**Üçüncüsü:** Əslində sizin bu şəkili atmağınız və bu cür sual verməyiniz elmi baxımdan doğru mühakimə yürütmək deyil. O baxımdan ki, siz dünyadakı şər problemini (the problem of evil) düzgün anlamamısınız. Dünyada heç bir şər olmasın demək, “bu dünya cənnət olsun” deməkdir. Halbuki, biz müsəlmanlar da onu deyirik ki, bu dünyada hər kəsin axtardığı iki mühüm şey "xoşbəxtlik və əbədi həyat" yalnız cənnətdə mümkündür. Siz isə onu bu dünyada axtarmaqla yanlışa yol verirsiniz. Əslində hər kəsin axtardığı bu iki şeydə qayələr eyni olsa da axtarış yeri səhv salınıb. Axirət isə doğru ünvandır. Qaldı ki, bu mühakimənin doğru olmamasının izahına; Sizin deməyinizdən belə çıxır ki, “niyə bu dünyada şər var?” Sonra da demək istəyirsiniz ki, şər varsa, qeyri bərabərlik varsa, deməli Allah yoxdur. Əksinə, şərin varlığı Allahın varlığına dəlildir. Xeyirin olmasıyla bərabər şərin olması, acı ilə şirin, qaranlıq ilə işıq, gecə ilə gündüz, yaxşı ilə pis, axmaq ilə ağıllı, mənfi ilə müsbət, isti ilə soyuq, alçaq ilə yüksək, dərman ilə zəhərin olması təbiidir. Bunlar bir birinə əks olduğu kimi biri digərini tamamlayır. Buna aid siz özünüz yüzlərlə misallar çəkə bilərsiniz. Allah isə xeyir və şər ilə imtahana çəkir, yalnız şər ilə deyil. Məsələn; Allah Quranda buyurur: "Biz sizi sınamaq üçün şər

və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız!" (Ənbiya, 35)[25].

## Qisas barədə sual və cavabı

**Sual belədir:** *Dişə diş, qana qan, qardaşa qardaş, qula qul, yaranın belə öz qisasi var, bu nə dərəcə doğrudur? Mən kiminsə qardaşını öldürürəm, o da mənim qardaşımı öldürür, yəni, mən yox, məhz qardaşım... Qardaşımın nə günahı var ki, qoy məni öldürsün da! Bu nə dərəcə düzgündü?*

**Cavab:** Va aleykumus Sələm va rahmatullah. Bu sualı verən insan məsələni əslən düz başa düşməyib. Zatən bunu deyən insan ədalətli olmaq istəsəydi, İslamdakı gözəllikləri çoxdan görərdi. Lakin, biz ona düzgün anlamaqda yardım edə bilərik. Yetər ki, o haqqı görsün.

**Birincisi:** Sual verən şəxs əslən Quranda və İslamda olmayan bir şeyi Qurana və İslama nisbət edir. Həmin ayə əslində belədir: *"Biz Tövratda onlara yazıb buyurduq ki, cana can, gözə göz, buruna burun, qulağa qulaq, dişə diş, vurulmuş yaralara da*

---

[25] Bunu daha yaxşı anlamaq üçün, həmçinin, xeyir, şər mövzusunda ateistlərin yanlış təsəvvürlərinin və bir çox şübhələrinin cavabını isə bu linki aşağıda qeyd olunmuş məqaləmizdə oxuya bilərsiniz: http://senxatirlat.com/ateizmde-serr-problemi-anlayisina-munasibet-problem-evil/

*yaralar qisas alınmalıdır. Hər kəs bunu sədəqə etsə (qisasdan vaz keçsə), bu onun üçün kəffarə olar. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar zalımlardır".* (əl-Maidə, 45)

Ayədə deyilmir ki, "günahı edənin özü yox, onun qardaşı məsuliyyət daşıyır". Ayədə qətiyyən belə bir şey deyilmir. Onda biz də özümüzdən belə batil məna çıxara bilmərik .

**İkincisi:** Bu ayədə məna odur ki, məsələn; kimsə sənin qulağını qəsdən tutub kəssə, gözünün birini qəsdən, sənə zülm edərək kor etsə, sənin onun etdiyini edib həddi aşmadan intiqam almağa haqqının çatmasıdır. Lakin, ayənin sonunda deyir ki, hər kəs bunu sədəqə etsə, yeni, qisas almaqdan vaz keçsə, həmin şəxsi bağışlasa bu onun üçün daha xeyirlidir.

**Üçüncüsü:** Şübhədə yol verilmiş ən böyük yalan isə guya ki, sənin qardaşını öldürən şəxsin sən də gedib onun qardaşını öldürə bilərsənmiş guya ki...Bu da açıq aydın yalan və növbəti ateist uydurmasıdır ki, onlar bu cür yalan məlumatları insanlar arasında yayırlar. Onlar İslama qarşı qərəzli olduqlarından dolayı (əvvəldən də bu dini bilmədiklərindən dolayı) belə əməllər edirlər.

**Dördüncüsü:** Bu ayədə Tövratdakı qisas hökmündən danışılsa da, İslamda da tam ədalətli bir qisas hökmü vardır. Ona görə də Qurani-Kərimdə: "Qisasda sizin üçün həyat (əmin-amanlıq) vardır, ey ağıl sahibləri!" (əl-Bəqərə, 179) deyilmişdir. Bu isə qisas nəticəsində insanlar arasındakı düşmənçiyin aradan qalxmasının təmin olunmasıdır. Bəzi qəbilələrdə nəsildən nəsilə keçən "qan davaları" İslamdakı qisas hökmünün tətbiqi ilə də aradan qalxa bilər. Əksinə, şübhədə deyildiyi kimi sənin qardaşını öldürənin

qardaşını sən öldürə bilməzsən. Çünki, Quran bunun tam əksini deyir. Çünki, Quran hər bir günahkarın yalnız öz cinayətinin məsuliyyətini daşıdığını bizə ifadə edir. Uca Allah Quranda buyurur: "Hər kəsin qazandığı günah yalnız öz əleyhinədir. Heç bir günahkar başqasının günahını daşımaz". (əl-Ənam, 164)

**Beşincisi:** Allah Təala Öz qullarını daha yaxşı tanıdığı üçün onlara iki seçim vermişdir. Ona görə ki, insanlar müxtəlifdirlər. Kiminsə üçün bağışlamaq rahatlıq gətirirsə, kiminsə üçün isə intiqam almaq rahatlıq gətirir. Lakin, Allah bağışlamağı tövsiyə edir. Bununla yanaşı Allah bağışlayan, kini intiqam almadan soyumayan insanların da olduğunu bildiyi üçün, intiqam almağa icazə versə də :

**a)** İntiqamda həddi aşmağı qadağan etmişdir. Yəni, dişə diş, gözə göz. Bundan artığını etməyi qadağan etmişdir.

**b)** Uca Allah bağışlamağın intiqam almaqdan daha üstün olduğunu bəyan etmişdir. İslam dini bağışlamaqla insanın daha da Allah qatında ucaldığını və insanın böyük bir savab əməl etdiyini bildirir.

**c)** İnsan öz qisasını almaq üçün çalışıb özbaşınalıq etməməli, bilməlidir ki, bu hökmlər şəriətin hökmləridir. Hətta, şəriət tətbiq olunan ölkələrdə belə insanlar qaziyə müraciət edib razılığa gəlirlər. Lakin, bu hökmlər tətbiq olunmayan yerlərdə insan daha da hikmətli olmalıdırlar. Əgər ayədəki kimi qisas alınması mümkünsüz olarsa, onda intiqamını almaq üçün cinayətkar şəxs mövcuddursa, ondan, özünə fiziki zərər verilməsi halına görə lazımi orqanlara müracət etməlidir.

*Ümid edirəm ki, bu cavabdan sonra sizin İslam dini haqqında təsəvvürünüz tam dəyişəcəkdir.*

## İslam dini şumerlərdən götürülüb?

**Sual**: *Bəzi aqnostiklər, deistlər və ateistlər: "Şumerlər haqqında qədim yazılar oxunandan sonra İslam dininin guya Şumerlərdən gəldiyinin məlum olduğunu" — deyirlər. Bu nə dərəcədə doğrudur? Onlar həmçinin yerin yaşı və peyğəmbərlərin yer üzündə yaşadığı müddət barədə şübhə gətirməyə çalışır və Şumerləri, babilistan xalqını və s. yer üzündə ilk sivilizasiya kimi təqdim etməyə çalışırlar. Sonra da peyğəmbərlər və İslami biliklər barədə guya Şumerlərin qədim yazılarında dini biliklər barədə eyni məlumatların olduğunu iddia edirlər. Nəticədə demək istəyirlər ki, İslam dini bu qədim sivilizasiyaların dini etiqadları dan götürülüb. Buna necə cavab verə bilərsiniz?*

**Cavab:** Bu batil sözdür, yanlış məlumatdır. Bunu yalnız dindən anlayışı olmayan bir insan söyləyə bilər. Qədim Şumer yazıları oxunduqdan sonra onların dini fikirləri və ayinləri barədə daha dolğun bilgilər əldə edilmişdir. Bu dini bilgiləri araşdırdığımız zaman qəribə faktlarla rastlaşdıq. Elə faktlar ki, dindən bir azca başı çıxan insan bu bilgilərə tanış olarsa, edilən bu iddianın yanlış olduğunu anlayar. Bu yazılarda Nuh Peyğəmbərin tufanından, dünyanı su basmasından danışılır. Ən qəribəsi isə Şumerlərin, eyni

zamanda Babilistan əhlinin bütpərəstlik (politeist) inancına sahib olduğunu qeyd olunur. Bunu bilən insanlar yenə də təkAllahlılıq (monoteist) dini olan İslama qarşı iddialar irəli sürürlər. Digər bir neçə iddianı da qarşıda qeyd edərək cavablandıracağıq. Nuhun Tufanından isə qarşıda bəhs edəcəyik.

Onlara ən mühüm cavabımız odur ki, İslami mənbələrdə qeyd olunur ki, yer üzündə bütpərsətlik meydana çıxmamışdan on əsr əvvəl təkAllahlıq dövrü olmuşdur. Bu rəvayətlər təfsir kitablarında da mövcuddur.

Məsələn; İbn Abbasın rəvayətində peyğəmbər Adəmlə Nuh arasında nə qədər zaman kəsimi olduğunu xəbər verərək deyir: "Adəmlə Nuh arasında on qərn (əsr və ya nəsil) olmuşdur. Onların hamısı haqq şəriət üzərində olmuşdular. Bundan sonra onlar ixtilaf etdilər. Beləcə, Allah müjdəçi və qorxudan peyğəmbərlər göndərdi…"[26].

Yəni, Adəm peyğəmbərlə Nuh peyğəmbər arasında on qərn olmuşdur. Bəzi araşdırmaçılar burada işlədilən «qərn» sözünü əsr deyil, nəsil kimi başa düşmüşlər. Yəni, on nəsil. Adəmdən Nuha kimi insanların ömrü təxminən min il olurdu. Əgər on nəsil müddəti bu amil nəzərə alınaraq hesablanarsa, o zaman bu müddət çox uzun olacaqdı. Əlqərəz, bu müddətdə insanlar tək Allaha ibadət etmiş və ona şərik qoşmayaraq bütpərəstlikdən uzaq olmuşlar. Bizim haqqında danışdığımız zaman dilimi Şumerlərdən əvvəlki zaman dilimidir. Şumerlər isə bütpərəstlik dininə sitayiş etmişlər. Ona görə də biz mötəbər İslami mənbələrə əsasən rahat şəkildə deyə bilərik

[26] Silsilətul-Əhadis-əs-sahihə. Albani. 7/854; səhihdir.

ki, Şumerlər Nuh peyğəmbərdən sonra olublar və ya ən azı onların əcdadları Nuh peyğəmbərin zamanına çatıblar. Çünki, İslami mənbələr Nuh Peyğəmbərə kimi yer üzündə bütpərəstliyin olmadığını bizə xəbər verir. Qaldı ki, hansısa dini mənbələrdə guya dəqiq bir neçə min il rəqəminin verilməsinə biz bu barədə mötəbər bir İslami mənbə olmadığına şahidlik edirik. Ən azından elmi araşdırma əmanəti adına deyək ki, araşdırma zamanı belə bir mötəbər mənbə ilə rastlaşmadıq.

İndi isə gəlin görək Şumerlər kimlərdir? Nə zaman yaşayıblar? Mühüm bir girişdən sonra bu suala cavab verəcəyik;

Əldə etdiyimiz məlumata görə Şumerlər bizim eradan əvvəl 8-ci minillikdə yaşayıblar. Təbii ki, bu dünyəvi alimlərin dəqiq deyil, təxmin etdikləri bir bilgidir. Bu dörd min, beş min, on min də ola bilər. Bundan daha çox da ola bilər. Sözümüz bunda deyil. Lakin, ortada qarışdırıldığı müşahidə olunan iki məsələ var. O da yerin yaşı ilə ən qədim insanın yaşıdır. Yenə İslami mənbələrə müraciət etdikdə biz insanın yerin yaranmasından sonra yarandığına dəlil olduğunu görürük. Bu iki hadisə arasındakı zaman müddəti də bizə məlum deyil.

Əgər Adəm peyğəmbərlə Muhəmməd peyğəmbər (Allahın onlara salavatı və salamı olsun) arasında zaman dilimini hesablamaq araşdırmaçılar üçün çox çətin bir mövzudursa, onda görün indi yerin yaşını hesablamaq nə qədər çətin bir işdir. Bu barədə olan ehtimallar yaxın ehtimallar olmaqdan da uzaq görünür. Qaldı ki, bu müddəti dəqiq və yəqinliklə bilmək olsun. Bundan isə heç söhbət belə gedə bilməz. Çünki, yerin yaranmasından bu yana olan müddət barədə də dünyəvi alimlər müxtəlif fərziyyələr irəli

sürürlər; Onlardan bəziləri yerin «üç millyon» il yaşının olduğunu deyir, bir qismi yerin «dörd milyon yarım» il yaşının olduğunu deyir. Bəziləri isə daha da uzağa gedərək yerin 13 milyondan çox yaşının olduğunu deyirlər. Təbii ki, bunlar hamısı təxmin və fərziyyə olmaqdan o yana keçmir. Eləcə də insanın yaranması və bəşər övladının yaşı barədə olan bilgilər də bu qəbildən olan təxmin və fərziyyələrdir.

Amma, bəşər övladının yer üzündəki mövcudluğunun neçə il olması məsələsinə gəldikdə isə guya bəziləri dini kitablarda 7000, bəzilərində 4300, bəzilərində 5000-dən yuxarı müxtəlif rəqəmlər qeyd olunmuşdur. Bəzi araşdırmaçılar muxtəlif metodlarla hesablama apararkən onlardan kimisi bəşər övladının bu dünyada mövcud olması müddətini 10.000-ə yaxın, bəziləri 19000, bəziləri isə 100.000 və s. rəqəmlər demişlər ki, bu rəqəmlərin heç birini İslam alimləri mötəbər hesab etməmişlər. Bu rəqəmlərin hər biri müxtəlif hesablama metodları və üslubları ilə həyata keçirilmişdir. Doğru olan görüş isə bu xəbərin qeybi bir xəbər olmasıdır. Bu müddəti bizə bəyan edən aydın və mötəbər bir dəlil yoxdur. Bizə məlum olan isə odur ki, Nuh peyğəmbər Şumer və Babilistan əhlindən daha əvvəl yaşamışdır. Bunu isə ona əsasən deyə bilirik ki, (yuxarıda da bu barədə mötəbər rəvayət qeyd etmişik) Adəm peyğəmbərdən sonra  on əsr təkAllahlılıq dini olmuşdur. Bu zaman kəsimindən sonra isə ilk bütpərəstlik Nuh peyğəmbərin zamanında yaranmışdır. İnsanlar yollarını azdiği zaman Allah Nuh peyğəmbəri onlara elçi göndərmişdir.

Babil və Şumer tayfaları arasında bütpərəstliyin yayılması üçün isə xeyli zaman gərəkirdi. Yəni, Babil və Şumerlərdə bütpərəstlik o

qədər geniş vüsət almışdı ki, bu cür geniş yayılma Nuh peyğəmbərin zamanında mümkün deyildi. Çünki, arada zaman fərqi var idi. Şirk Nuh Peyğəmbərin zamanında kifayət qədər yayılsa da, babil və şumerlərin çatmazdı. Ona görə ki, Nuha qədər yer üzündə insanlar tövhid üzərində idilər. Tövhiddən dərhal sonra şirk Babil və Şumerdəki kimi yayılmasa da kifayət qədər yayılmışdı. Eyni zamanda tarix daha çox Nuhun tufanından sonra bu barədə tarixi həkk edən Şumer mənbələri olduğunu bizə işarət edir. Onların yenidən bütpərəstliyə qayıtmaları da bir qədər sonra yenidən baş verdi. Yəni, Nuhun tufanı barədə Şumer yazılarında keçdiyi iddia olunan məlumatlar təkcə dini məlumat kimi deyil, həm də bəşər tarixinin çox mühüm ikinci həyatının başlanması anlamına gəlir ki, belə mühüm bir tarixi məlumatın Şumer mənbələrində qeyd olunması faktı əgər isbatlanarsa, bu birincisi, Qurandakı həqiqəti inkar edən deyil, əksinə, təsdiqləyən bir məlumatdır. Qurani-Kərim heç bir tarixi mənbədə ətraflı izah olunmayan Nuhun tufanınını xırda detallarına kimi bizə vəsf etmişdir. Qurani-Kərim başqa dini kitablardakı yanlışları, təhrifləri belə düzəldərək bizə bir çox tarixi hadisələr barədə dəqiq məlumatlar vermişdir. Qurani-Kərim hətta, bir çox mövzularda Tövrat və İncildəki (İstər Nuhun tufanı, istər Musa, istər İsa peyğəmbər barədə və başqa mövzularda) təhrifləri bəyan edir və bizə ilahi kitab olduğunu sübut edir.

Onu da qeyd edək ki, Nuhun tufanı barədə nəinki, qədim dini kitablarda və nəinki, Şumerlərdə, hətta, başqa tarixi mənbələrdə də rast gəlmək mümkündür. Bu isə bir neçə məna verir:

**Birincisi:** Bəşər tarixi üçün önəmli olan böyük bir hadisənin bir çox mənbələrdə qeyd olunması normal bir haldır. Bu, adətən həmin hadisənin daha mötəbər surətdə təsdiqlənməsi mənasını verir.

**İkincisi:** Qədim bir hadisənin bir çox mənbələrdə olması, xüsusən də, daha sonrakı mənbələrdən birində daha geniş və daha dəqiq izah olunması, digər mənbələrdəki təhrifləri vurğulaması isə yalnız həmin mənbənin (Quranın) möhtəşəmliyinə və ilahiliyinə dəlalət edir.

**Üçüncüsü:** Nuhun tufanı barədə Şumer yazılarında məlumat verilməsi təbii bir şeydir. Çünki, tarix daim baş verdikdən sonra yazılır. Hadisə baş verməmişdən öncə tarix yazılmır. Bu bilgilər Qurandakı bilgiləri təsdiqləyir, inkar etmir.

Qayıdaq mövzumuza; Şumerlər kimlərdir? Nə zaman yaşayıblar? Artıq Şumerlilərin dini olan bütpərsətlik və dünyəvi alimlər tərəfindən deyilən onların dünyada olduqları zaman dilimi (b.e.ə 8-ci minillik) barədə də məlumat vermişik.

Mesopotamiya dini qədim zamanlardan Xristian və İslam dövrünün başlanmasına qədər Yaxın Şərq reqionunda yayılan dini inaclardır. Bu inanclar o zaman orada yaşayan bütün xalqlar arasında yayılmışdır. Bu inancların mənşəyi Şumerdən gəlir. Sonra onlar başqa xalqlar arasında yayılmıışdır.

Şumer, Akkad, Babil, Assuriya kimi dövlətlərin dinlərinin mənşəyi birdir. Onların hamısını "Mesopotamiya dini" kimi adlandırırlar.

Bu dinləri bir araya gətirən amil isə şəkk yoxdur ki, bütpərəstlik amilidir. Şumerlilər bütpərəstliyə inanırdılar. Bəli, onlar müsəlmanlar kimi bir Allaha deyil, onlarla, yüzlərlə tanrıların olduğuna inanırdılar.

Bütpərəst (politeist) bir dini təkAllahlılıq dini ilə müqayisə edib eyniləşdirmək nə məntiqdən, nə də ədalətdən olardı. Lakin, bu gün bunu hüccət və dəlil hesab edənlər çəkinmədən iman ilə şirki, küfrü bir araya cəm etmək istəyir. Tarixdə edilməyən ən gülməli iddianı edərək sanki, demək istəyirlər ki, "bu bir Allahı qəbul edən İslam dini yüzlərlə tanrıları qəbul edən dinlərlə eyni kökə malikdir". Təbii ki, bu iddia batildir. Çünki, bütün peyğəmbərlərin mübarizəsi bütpərəstliyə qarşı olmuşdur. Qurani-Kərim də bunu ifadə edir: *"Biz Nuhu öz xalqına elçi göndərdik. O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Mən sizə üz verəcək Böyük günün əzabından qorxuram"*. (Əraf, 59) Eyni sözləri Hud peyğəmbər (Əraf, 65-də) də deyir. Eyni sözləri Saleh peyğəmbər də deyir (Əraf, 73). Şueyb peyğəmbər də eyni sözləri öz qövmünə demişdir (Əraf, 85) və başqa peyğəmbərlər hamısı təkAllahlığa dəvət etmişlər. Xülasə odur ki, təkAllahlılıq dini ilə bütpərəstlik qətiyyən eyniləşdirilə bilməz. Ona görə də deyirik ki, şumerlərin, babilistan əhlinin və ümumilikdə Mesapatomiyadakı bütpərəst dinləri İslamdan şübhəsiz ki, uzaqdırlar.

Həmçinin, Şumerlərin yazılarında mövcud olan rəmzlərdən biri də üstəgəl işarəsidir ki, bu cür simvollar başqa qədim yazılarda da görülməkdədir. Misir yazılarında da buna bənzər qədim işarələr olmuşdur ki, bu məhz "xaç simvolu" ilə əlaqəli olub olmamasını demək çətindir. Çünki, tarixdə qədim xalqların istifadə etdikləri

yazılardan oxşar görünüşlü olub başqa məna verən simvollar da az olmamışdır. Hətta, misal üçün müasir bir misal deyək; bu gün şevrolet markalı maşının markası olan “üstəgəl” işarəsinə bənzər işarəni kimlərsə xaça da bənzədə bilər. Lakin, bu barədə bilgisi olanlar şirkət rəsmilərindən öyrəndikdə onlar bunun xaç deyil, başqa məna üçün istifadə etdiklərini bildiriblər.

Başqa bir versiya isə Şumerlərdə çarmıxa çəkmək adətinin qədim bir cəza adəti olması versiyasıdır ki, çarmıx həmin xaça bənzər bir simvolları da ifadə edilə bilərdi və bunun xristianlarla heç bir əlaqəsi olmaya bilər.  Bu da ehtimal olunur. Lakin, hər bir halda bu heç nəyi dəyişmir və zənn, təxmin olmaqdan o yana keçmir, nə də bir dəlil hesab olunmur. Baxmayaraq ki, Şumerlərin yazılarında xaça bənzər bir işarənin olması biz müsəlmanları maraqlandırmır. Çünki, qədim xalqlarda çarmıxa çəkmək cəzası məşhur bir şey olmuşdur. Bu onlara görə bir başqa mənaya çalan simvol və ya hətta hərif də ola bilərdi.

Həmçinin, şumerlərin dinində mühüm yer tutan məsələlərdən biri də cadugərlik, sehrbazlıq idi. Hətta, Quranda sehrdən bəhs edən ayədə "Babil" sözü keçir və həmin ayə sehri, cadunu pisləyir. Ayənin əvvəli belə başlayır:

"*Onlar Suleymanın səltənətində şeytanların oxuduqlarının ardınca getdilər. Süleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular…*" (əl-Bəqərə, 102)

Bu da (cadugərlik, sehrbazlıq) bildiyimiz kimi İslam dinində qadağan və haram əməl hesab edilir. Lakin, bu şübhəni gətirənlər

bu qədər İslama zidd gələn mövzuları, İslamla uyğun olmayan məsələləri sırf müsəlman övladlarını dinlərində şəkk-şübhəyə salmaq üçün gətirirlər. Hətta, Şumer və Babil dini barədə Azərbaycan dilində olan vikipediyada bu qədim sivilizasiyaların İslam dini ilə yersiz əlaqələndirilməsinin dəfələrlə şahidi olduq. Baxmayaraq ki, Şumerlərin təkcə bütpərəstliyə inanmaları bu şübhəni alt-üst etməyə kifayətdir.

Cadugərliyin Babildə yayılması və bunun həmin ölkədə dəstəklənməsi və bu barədə istər Babildə, istər də Şumerlərdə eyni vəziyyətin olması bizə çox mühüm bir ipucu verir. Bu da sehrin, cadugərliyin Suleyman peyğəmbərdən sonra yayılması həqiqətini ortaya qoyur. Çünki, Qurani-Kərim xəbər verir ki, bu Suleymanın səltənətində yayılmışdı [27]. Süleyman peyğəmbər isə Nuh peyğəmbərdən çox-çox sonralar yaşamışdır. Bunun neçə yüz və ya min il olması bizə bəlli olmasa da… Bu bir daha sübut edir ki, Nuhun tufanına bənzər tufan barədə Şumerlərdə olan bilgilər elə onlardan əvvəl baş vermiş tarixi həqiqətləri göstərir. Bu sübut edir ki, Nuh peyğəmbər Şumerlərdən əvvəl yaşayıb.

Yuxarıda qeyd olunan ayəni oxuyan kəs açıq-aydın Quranın cadugərliyi pislədiyinin və sehri qadağan etdiyinin şahidi olur. Lakin, istər bu məlumat, istər də İbrahim peyğəmbərin bütpərəstliyə qarşı mübarizəsi Azərbaycan dilində olan “vikipediyada” təhrif edilərək elə təqdim olunur ki, oxucuya İslamın və tövhidin təbliğatçısı olan peyğəmbərlərin zamanında bütpərəstlik barədə məlumat verilsə də, onların bütpərəstliyə qarşı mübarizəsi barədə məlumat verilmir. Ərəb dilində buna təhrif

[27] (Bax: əl-Bəqərə surəsi, 102-ci ayə)

deyilir. Elə bizim dilimizdə də. Həmin məqalə birbaşa məlumatların qeyri dini cəhətdən izahı və təfsilatlarının verilməməsi ilə oxucuda yalnış təsəvvür oyadır, həmçinin bu, oxucuda “guya səmavi dinlərin qədim mədəniyyətlərin məhsulu olması” təəssüratı yaradır.

Hətta, həmin yazıda guya Şumerlərin bəzi rəqəmləri barədə bilgilər verildiyi zaman, məsələn; 12 rəqəmi barədə danışıldıqda yəhudilikdəki 12 rəqəmi və yəhudilikdən təsirlənən şiələrin 12 imanını qabardaraq 12 rəqəmini İslami bir rəqəm kimi təqdim etmələri də məqalə sahibinin İslamdan xəbəri olmamasını göstərir. Halbuki, bu əlaqələndirmə əvəzinə ilin 12 ayı kimi bir əlaqələndirmə də edilə bilərdi.

Azərbaycan dilində Babil barədə Vikipediyada verilmiş məlumatlar əslində çox hiyləli şəkildə bir məqsədə xidmət edərək yığılmışdır. Elə son cümləsinə kimi bir məqsədə qulluq edən məqalənin sonunda belə deyilir: "Yəni, bu yəhudi mətnlərinin məzmunu Quranla üst-üstə düşür". Gah İslamı Şumerlərlə, gah Babillə, gah da yəhudi və xristianlarla əlaqələndirmək məqsədi güdən bu məqalə yalnız dindən xəbəri olmayan insanları çaşdıra bilər. Çünki, həmin məqalədə İslam dini yəhudilik və xristanlıqla əlaqələndirilir, lakin, bu dinlər arasında olan böyük fərqlər qeyd olunmur. Şumer və Babil barədə də eyni qəribə metodun şahidi oluruq, onların bütpərəst olmalarına baxmayaraq, yenə, qəribə bir şəkildə oxucuya şüuraltı bilgilər eyni üslubda təqdim edilir. Bunu ona görə deyirik ki, bizə sualı ünvanlayan şəxsin məlumatı aldığı yeri oxuduq və həmin yazının elmi əmanətə zərərli və qərəzli bir yazı olduğunun şahidi olduq. Bütün bunlardan sonra bu qənaətə

gəlirik ki, vikipediyadaki Babil və Şumerlərlə əlaqəli bilgilər yenidən işlənməlidir. Bu işi isə dindən anlayışı olan mütəxəssislərin köməyi ilə etmək məsləhət görülür.

## Zəiflərin, uşaqların ölümü və xəstəliyi barədə

**Sual:** *Belə bir sual göndərdilər: Dünyada baş verən şər hadisələrdə günahsız insanlar, zəiflər və uşaqlar öldürülür. Onların nə günahı var axı? Nəyə görə insanların törətdikləri vəhşi əməllərdə və ya təbii fəlakətlərdə günahsız canlar həlak olur? Allah bunların ölümünə niyə müdaxilə etmir?*

**Cavab:** Ümumiyyətlə insanlar arasında yanlış bir anlayış var ki, günahsız insanların, uşaq və zəiflərin başına şər hadisə gəlməsi və ya onların acı çəkməsi mümkün olmalı deyil. Çünki, onlar buna layiq deyillər və ya elə bir iş görməyiblər ki, başlarına şər hadisə gəlsin və ya acı çəksinlər. Xüsusən də uşaqlar və körpələri qeyd edirlər .

Problem isə yalnız bunda deyil. O zaman ki, bəzi insanlar onların acısına, istirabına həddən çox fikir verirlər, lakin, bu dəfə kimisə günahkar çıxarmağa və ya təqsirləndirməyə başlayırlar. Səbəbkarı təqsirləndirmək üçün isə birinci səbəbi bilmək lazımdır. Məsələn; Suriya müharibəsində göydən yağan bombaları hər halda Allah yağdırmır. (Bütün işlərdə Allahın icazəsi olsa da şər işlər Allaha nisbət edilə bilməz). Bu bombaları insan əqlinin inkişafı

nəticəsində yüksək texniki vəziyyətdə olan döyüş təyyarələri atır. Maraqlısı budur ki, bu məsələnin təsəvvürü o təyyarədə vaxtı ilə insanların başına bomba yağdıran birinin övladı da gələcəkdə böyüyüb dinsiz olsa və uşaqların ölümündə öz bombardmançı atasını təqsirli görmək yerinə Allahı təqsirli gördükdə ona desələr ki, axı sənin atan bu bombaları atıb körpə uşaqların ölümünə səbəb olmayıbmı? Sən niyə Allahı suçlayırsan? Həmin adamın isə: "Allah gərək buna icazə verməzdi" deməsi kimi absurd bir iddiadan ibarətdir. Yəqin ki, məsələ daha yaxşı anlaşıldı .

Yaxşı, indi isə görək Allahın hansısa hadisəyə müdaxilə etməməsinə görə biz Allahı ittiham edə bilərikmi? Görəsən, biz əslində kimisə təqsirləndirməliyikmi? Əgər təqsirləndirəcəyiksə, uşaqları bombalayan insan övladını təqsirləndirməliyik? Yoxsa, Allahı?

Birdən sual olsa ki, təbii fəlakətlərdə ölənlər necə olsun bəs? Onda suala daha ümumi cavab verməzdən əvvəl deyirik ki, uşaq və zəiflərin ölümü müxtəlif səbəblərdən olur. Bu bir maşın qəzasında da ola bilər, bir zəlzələdə də ola bilər. Biz bəşər övladı olaraq sosial şəbəkələrdən eşitdiyimiz xəbərlərdə zəlzələ fəlakətlərində günlərlə heç nə yeyib içmədən dağıntılar altında qalmış uşaqların da sağ-salamat qalmasının dəfələrlə şahidi olmuş, izləmişik .

Hər bir insanın həyatında xoşbəxt və bədbəxt hadisələr olur. Bəzi insanlar xoşbəxt hadisələrə Allahın müdaxilə etməsini istəmədikləri halda, bədbəxt hadisələrə Allahın müdaxilə etməsini istəyirlər. Bir sözlə yalnız xoşbəxtliyin olduğu cənnət kimi bir yer istəyirlər. İnsan ən birinci dünya adlanan və əbədi olmayan keçid həyatından başqa bir həyata, son mənzilə, gedəcəyini düşünməlidir.

Uşaqların fitrət üzərində ölməsi halında Cənnətə gedəcəklərindən hələ danışmırıq, ola bilsin ki, onlardan bəziləri yaşasaydılar həmin qazanacaqları cənnəti də itirə bilərdilər .

Deməli, bu cür hallarda günahkar axtarmaqla bir növ insanlar düşdükləri emosional durumundan çıxış yolu axtarırlar. Sanki, kimisə ittiham etməklə problem qurtarır. Əslində isə belə deyil. Təbii ki, Yaradanı bu hadisələrdə suçlamaq ya imanı və elmi zəif insanlar tərəfindən baş verir, ya da ümumiyyətlə dinlə əlaqəsi olmayan şəxslər tərəfindən baş verir. Onlar belə düşünürlər ki, yaradan onları qorumağa qadirdisə, bu kimi hallar niyə baş verir? Bu düşüncə yanlışdır;

**Birincisi:** Ona görə ki imtahan dünyası ümumidir, lakin, insanın əbədi qalacağı yer deyil. Əbədi qalacaq yerdə Allah hər kəsi layiqli yerində edəcək, günahsız ölən körpələr də dünyanın bir çox sıxıntısını görmədən əbədi səadətə çata biləcəklər. Bu, bir insanın keçdiyi dünya həyatı mərhələsini kimisi dünyada bir gün qalmaqla, kimisi beş il, kimisi altmış il və s. qalmaqla başa vurur. Bəzən altmış il yaşayan insan pis əməllərinə görə cənnəti itirir, beş il yaşayıb ölən uşaq isə Cənnətə düşür. Bunlar nisbi məsələlərdir. Ona görə də şərt dünyada çox qalmaq deyil. Ona görə də bəzi insanlar yaşadıqca günahlarının çoxaldığı üçün heç dirilməməyi təmənna edəcək: O gün insan öz əlləri ilə nələr etdiyini görəcək, kafir isə deyəcəkdir: "Kaş mən torpaq olaydım!" (Nəziat, 40) Deməli, o insanların yaşamaları heç də xeyirlərinə olmadı və yollarını azdılar. Ona görə də insanın aşağı yaşı hesab olunan illərində ölən uşaqların əgər yaşasaydı, yaxşı və ya pis insan olacağını - Allahdan başqa - heç kim bilmir .

Biz dünyanın imtahan yeri olduğunu, imtahan olunmadan bu keçid diyarında əbədi həyata gedənlərin yüklənmədən getmələrini, lakin, əsas təhlükədən xilas olduqlarını, bunun kimi körpəyə və ya uşağa üz verən ağrı-acının, o böyüyəndə də istəlinən yaş həddində də üz verə biləcəyini bilmək gərəkir. Günahsız yerə öldürülənlər və zəiflərin ölümü də onların bu kədərlərlə dolu dünyadan daha xoşbəxt bir aləmə getmələrilə nəticələnir. Onlar bu dünyanın hüzünlərindən rahatlayırlar və başqa rahat aləmə gedirlər. *Muhəmməd (sallallahu aleyhi və səlləm) peyğəmbər bir dəfə bir cənazənin şahidi olur və buyurur: "Rahatladı və ondan rahatladılar". (Səhabələr) dedilər: "Ey Allahın Elçisi! Bu rahatlanan və özündən rahat qalınan nə deməkdir?" (Peyğəmbər) dedi: "Mömin qul dünyanın yorğunluğundan və əziyyətindən Allahın rəhmətinə getməklə rahatlayır. Günahkar kimsəyə gəldikdə isə onun şərrindən insanlar, ölkələr, ağaclar və heyvanlar rahatlayır"*[28].

Bu məqamda hər bir şərin xeyirli tərəfinin olması, xalis şərin olmaması amili də nəzərə alınmalıdır .

**İkincisi:** Bəzi insanlar özlərinin hadisələrə "emosional reaksiya vermələrini və şəfqətlərini" Allahın hadisələrə yanaşması ilə eyni tutur, müqayisə etməyə çalışırlar. Eyni zamanda Allahın ad və sifətlərini bilmədikləri üçün Onun "yazığı gəlməsinin, acımasının, rəhmətinin" insanlardakı "yazığı gəlmə və rəhmət" hissləriylə eyni tutur və ya müqayisə etməyə çalışırlar. Şəkk yoxdur ki, Kainatın yaradıcısı olan Allah məxluqlarla bərabər tutula bilməz və məxluqun hissiyatı olduğu kimi Allaha nisbət oluna bilməz. Mütləq

[28] Səhih əl-Buxari, 6147; Səhihi Müslim, 950.

ki, Yaradıcı və yaradılmışların fərqi var və olmalıdır da. Lakin, bu o demək deyil ki, Allah kainatı başlı-başına buraxmışdır. Bununla yanaşı qeyd olunduğu kimi dünya cənnət deyil ki, burada heç bir pis hal, zülm, haqsızlıq və şərin növləri olmasın .

Uşaqlara gəldikdə isə insanların onlara daha çox yazığı gəlməsi onların yaşlarının az olmasına görədir, başqa bir şeyə görə deyil. Çünki, böyüklər də ağrılara, iztirablara və xəstəliklərə tuş gəlsələr də biz eyni (uşaqlar üçün edilən) reaksiyanı onların durumuna münasibətdə müşahidə edə bilmirik. Ona görə də əgər belə demək doğru olarsa, bu cür düşünərək Allahı ittiham etmək mövzuya dəxli olmayan düşüncə tərzidir. Lakin, bilmək lazımdır ki, hər kimin başına belə bir hadisə gələrsə (uşaq ölümü) və o və səbr edərsə, o kimsə buna görə savab qazanar. Kim də səbr etməzsə, zərəri özünə olar. Eləcə də kim uşağa və körpəyə əziyyət verərsə və ya buna qəsdən səbəb olarsa, o kəs bu əməlin məsuliyyətini daşıyır və Qiyamət günü Allah ondan o uşağın intiqamını alar .

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər(sallallahu aleyhi və səlləm) belə demişdir:

*"Bir insanın uşağı öldükdə Allah mələklərinə deyər: Qulumun övladının canını aldınızmı? (Mələklər) deyərlər: Bəli. Allah deyər: Onun qəlbinin meyvəsinimi aldınız? (Mələklər) deyərlər: Bəli. Allah deyər: Qulum nə dedi? (Mələklər) deyərlər: "Sənə həmd-sənalar etdi və innə lilləhi va innə ileyhi raciun!" Allah deyər: Qulum üçün cənnətdə bir ev inşa edin və onu Həmd evi adlandırın"*[29].

[29] Sünən ət-Tirmizi, 1021.

Fikir versəniz, bu ilahi hədisdə Allah buyurur: *"Onun qəlbinin meyvəsinimi aldınız?"* Bu elə bir vəsfdir ki, bunu yalnız Allahın övlad verdiyi kimsələr anlaya bilərlər. O zaman ki, insan qəlbində bu böyük neməti hiss edir, o insan bu övlad nemətini itirdiyi zaman bu müsibətə səbr edərsə, böyük savab qazanar. Bəs sonra nə?

Sonra isə əgər özü və övladı, hər ikisi cənnət əhlindən olsalar, Allah onları cənnətdə bir arada cəm edər. Beləcə, uşaq ölümünə səbr etmək o uşaqların valideynləri və yaxınlarının cənnətdə bir araya gəlmələrinin bir yoludur .

Muhəmməd peyğəmbər (sallallahu aleyhi və səlləm) özü də uşaq ikən atasını görmədən öncə atası ölmüş, anası isə o balaca uşaq olarkən (6 yaşında olarkən) vəfat etmişdi. Sonra isə babası ölmüşdü.

Peyğəmbər olduqdan sonra onu böyüdən əmisi dünyasını dəyişdi. Həyat yoldaşı Xədicə vəfat etdi. Sonra əmisi Həmzə vəfat etdi. Ardınca da bir çox yaxın səhabələri. Əsasən də oğlu İbrahim bir yaş yarımı keçməmişdi ki, vəfat etdi. Peyğəmbər səbr etdi, ağladı və gözlərindən yaş gələrək belə dedi:

*"Həqiqətən də gözdən yaş gələr, qəlb kədərlənər, yalnız Rəbbimizi razı salan söz deyərik. Ey İbrahim! Həqiqətən də biz səninlə ayrılığa kədərliyik!"*[30].

Muhəmməd peyğəmbər (Sallallahu aleyhi və səlləm) də yaxın qohumlarının və ən əsası bir yaş yarımlıq oğlu İbrahimi itirməklə

---

[30] Buxari, 1220; Muslim, 4279.

imtahan olunsa da, insanlara bir qəzavü-qədərə razılıq nümunəsi oldu .

## Sovet Azərbaycanında dinsizliyi necə yaydılar?

*1920-ci ildə Azərbaycan ərazisi 70 minlik rus ordusu tərəfindən işğal edildi. Bəzi mənbələrdə həmin dövrdə müstəqil dövlət olan Azərbaycan Demokratik Respublikasının (ADR) 25 minlik ordusunun olduğu vurğulanır. Lakin, qüvvələrin qeyri-bərabərliyi ilə yanaşı düşmən, Azərbaycanın ordusunun əksər hissəsinin Qarabağ tərəfdə çıxarılmış erməni fitnəsi ilə məşğul etməyə nail olur və şimal sərhəddinə yaxın olan azsaylı Azərbaycan ordusunun müqavimətini iki saat ərzində qıra bilir. 1920-ci ilin 28 aprel tarixində şimal sərhədlərini yarıb keçən rus ordusu faktiki olaraq Azərbaycanı işğal edir. Bu işğal ateizmin communist növünü Azərbaycanda yaymaq üçün münbit şərait yaratdı.*

*Məlum olduğu kimi Azərbaycan xalqının inancı İslamın gəlişindən sonra İslam dini ilə bağlı olmuşdur. Xalqımızı İslam dinindən ayırmaq üçün sovet hökumətini çətin bir tapşırıq gözləyirdi.*

*Xalqın müqaviməti elə də asanlıqla kəsilmədi. 1920-ci ildə Zaqatalada, Gəncədə, Şəmkirdə, Qubada, Lənkəranda Sovet işğalına qarşı böyük üsyanlar olsa da bu üsyanlar amansızlıqla yatırıldı. 1930-cu ildə Şəki və Zaqatalada yenidən Sovet*

*imperiyasına qarşı güclü üsyanlar olsa da bu üsyanlar da amansızlıqla yatırdıldı.*

## Əsas mövzu:

Bu kiçik girişdən sonra qeyd edim ki, bu dəfəki yazımızda yetmiş illik sovet hakimiyyəti dövründə ölkəmizdəki dini durumu bacardıqca müxtəsər və anlaşılan şəkildə vəsf etməyə çalışacağıq:

• ***Təhsil ocaqlarında din qadağan olunur;***

Din əleyhinə verilən ilk qərar təbii ki, işğaldan iki həftə keçəndən sonra may ayının 15-də bütün məktəb və universitetlərdə dini təhsilin və dinə aid hər ayinin qadağan edilməsi barədə oldu.

• ***Hicab və dini papaqlar qadağan olunur;***

• 1929-cu ildə "hicab və dini papaqların qadağan olunması" Kommunist partiyasının qurultayında müzakirə olunur və Azərbaycan dilində təbliğat üçün vəsait hazırlanmasına başlanılır.

• ***Allahsızlar ittifaqı qurulur;***

1924-cü ildə Yaroslavskinin təklifi ilə Sovet hökumətində "Allahsızlar ittifaqı" yaradılması təklif olunur və elə həmin ildə ittifaq yaradılır. Azərbaycanda da həmin ildə Allahsızlar ittifaqının əsası qoyulur və iş planı yazılır[31].

1925-ci ildə isə ittifaq Azərbaycanda rəsmi fəaliyyətə başlayır, Bakıda və digər bölgələrdə ittifaqın şöbələri açılır. Beləcə, Azərbaycanda genişmiqyaslı ateizm təbliğatı mərkəzləşdirilmiş və

[31] Hadisələrin tarixi və mənbələri haqda aha ətraflı bax: Sovet Azərbaycanında Ateizm Təbliğatı. Sahib Əsədov.

sistemli şəkildə daha da qüvvətli təşkil olunur. Həmin ittifaq öz üzvlərinə "Allahsız biletləri" (kartoçki bezbojniki) paylayırdı.

1929-cu ildə Allahsızlar ittifaqının adı dəyişdirilərək "Mübariz Allahsızlar ittifaqı" adlanır.

Lakin, artıq 1923-cü ildə *"Maddiyyatçılar klubu"*[32] adlı ateizm təbliğatı məqsədilə elə Bakıda fəaliyyət göstərən bir mərkəz də var idi. Bəzi araşdırmaçılar bu klubun "Allahsızlar ittifaqı"nın bir şöbəsi olduğunu desələr də bu klubun həmin ittifaqla bir əlaqəsi yox idi. Həm də həmin klub nizamsız bir mərkəz idi.

1937-ci ildə isə "Mübariz Allahsızlar ittifaqı" faktiki olaraq öz fəaliyyətini itirmişdi. İkinci dünya müharibəsində dindarların da müharibəyə cəlb edilməsi ilə əlaqədar olaraq ittifaqın sezilən bir fəaliyyəti olmamışdır[33].

Yalnız 1947-ci ildə (öz fəaliyyətini itirmiş) bu ittifaq ləğv olunur və onun fəaliyyətini "elmi ateizm" təbliğatı çərçivəsində davam etdirən yeni "bilik" cəmiyyəti yaradılır. Bu cəmiyyət ateizm kitablarını nəşr etmək, bu işə nəzarət, rayon və bölgələrdə ateizm mühazirələrinin təşkili, bu təbliğatın müxtəlif vasitə və üsullarla canlı tutulması işlərini görürdü.

***Ateizm muzeyləri açılır:***

1935-ci ildə Bakıda yerləşən elmlər akademiyasının tabeçiliyinə verilən "Din tarixi və ateizm" muzeyi açılır. Burada dinə qarşı

[32] Azərbaycanda Mədəniyyət inqilabı (1920-1940). Vəkilov Mehdixan. səh. 87. Bakı. 2005-ci il.
[33] Bax: Sovet Azərbaycanında Ateizm Təbliğatı. Sahib Əsədov. Səh. 46. İttifaqın fəaliyyətinin yenidən zəifləməsi.

təbliğat qurulur, din əleyhinə olan eksponatlar toplanır. Eksponatların sayı üç mindən çox idi. Artıq 1938-ci ildə bu muzeyin ziyarətçilərinin sayı otuz səkkiz min nəfərdən çox idi[34].

Gəncə şəhərində də belə böyük muzey açılması planlaşdırılmışdı.

Bakıda başqa bir muzey isə 1967-ci ildə açılır. Muzeyin adı "Ateizm tarixi muzeyi" idi. Buradakı eksponatların sayı isə dörd minə yaxın idi. 1990-cı ildə muzeyin adı dəyişdirilərək «Azərbaycan dövlət din tarixi muzeyi» adlanır.

Bu iki muzey həmin dövrdə məlum olan ən böyük ateizm muzeyləri olmuşdur.

Məktəb və universitetlərdə, rayon və kəndlərdə də ateizmi təbliğ edən kiçik muzey guşələri təşkil edilirdi.

***Məscidlər ya dağıdılır, ya anbara və ya hökumət binalarına çevrilir;***

Məscidlər bağlandı, ya anbara, ya da digər məqsədlərlə istifadə olunan hökumət binalarına çevrildi. Artıq demək olar ki, 1935-ci ildə bütün məscidlər bağlanır. İkinci dünya müharibəsindən bir az əvvəl bəzi azsaylı məscidlərin açılmasına icazə verilir, lakin, bu dini ayinlərin icrası üçün deyildi. Bu qərarın məqsədi sadəcə sovet hökumətini müharibədən əvvəl və ya müharibə vaxtı dəstəkləmək barədə din adamlarının yardımlaşması üçün söhbətlər etmələri, bunun üçün bir araya gəlmələri idi. Yalnız Sovet hökumətinin son

[34] İzvestiya qəzeti. Az.Fan. Rusiya. 1979. No: 3. Səh. 50.

onilliyində Azərbaycanın rayon və şəhərlərində 17 məscidin fəaliyyətinə müəyyən şərtlər daxilində icazə verilmişdi.

**Elmi ateizmin hərtərəfli təbliğatına şərait yaradılır;**

Azərbaycanda "elmi ateizmin" təbliğatı hələ 30-cu illərdən başlamışdı. Lakin, 50-ci illərdə bu barədə daha çox qurultaylar, mühazirə, tədbir və yığıncaqlar təşkil edildi, universitetlərdə, elm mərkəzlərində, kitabxana və klublarda və s. təbliğat gücləndirildi. 70 il ərzində ateizm təbliğatı üçün yüzlərlə kitab və broşurlar yazıldı. Məktəblərdə Darvin nəzəriyyəsinin tədrisi təşkil edildi. Tədris prosesinin materialist dünya görüşü əsasında təşkilinə xüsusi diqqət yetirildi.

**Azərbaycan xalqının ziyalılarına divan tutulur;**

Azərbaycanın ziyalılarına, fikir sahiblərinə, din xadimlərinə divan tutuldu. 40.000-dən artıq Azərbaycanın cəmiyyətə xüsusi təsiri olan vətəndaşı sovet hakimiyyətinin ilk illərində qətlə yetirildilər. Ziyalılar üçün sovet ideologiyası ilə və ya onun adi bir fikirləri ilə razılaşmamaları, bircə əmrə "yox" demələri bəs edirdi ki, onları ya öldürsünlər, ya da sürgünə göndərsinlər. 1920-ci ildən 1937-ci ilə kimi edilən repressiyalarda öldürülmüş və sürgün edilmiş minlərlə azərbaycanlının xəbərini isə yəqin ki, bilməyən yoxdur. Repressiya olunanların içində din xadimləri də az deyildilər.

**Dinə qarşı mübarizənin mərhələləri;**

Araşdırmaçılar bu mübarizəni bir-neçə mərhələyə bölürlər. Bəziləri ilk on illiyi, bəziləri isə ilk yeddi illiyi ən şiddətli mərhələ

hesab etsələr də bu doğru deyil. Çünki, elə ilk beşillikdə sovet Azərbaycanına rəhbərlik etmiş Nəriman Nərimanovun (1920-1925) mövqeyi bu şiddəti azaldırdı. O, Mircəfər Bağovdan (1933-1953) fərqli olaraq dinə qarşı mübarizənin daha yumşaq təşkil edilməsini, dindarların dini heysiyyətinə toxunmadan bu işin görülməsini lazım bilirdi. Lenin də zahirdə onun bu fikrini dəstəkləmişdi. Lakin, daha doğru olanı 1925-ci ildən N. Nərimanovun müəmmalı vəfatı ilinə təsadüf edən "Azərbaycan Allahsızlar ittifaqı" nın fəaliyyətə başlaması ilə dinə qarşı mübarizə şiddətləndi. Bu şiddət ikinci dünya müharibəsinə kimi davam etdi. 1937-ci ilin repressiya illəri də bura daxil idi. İkinci dünya müharibəsindən sonra qətl, sürgün və həbslər azalsa da, bu hallar yenə mövcud idi, üstəlik də ateizmi təbliğ edən köhnə cəmiyyətin yenisi ilə əvəz edilməsi də bir qədər yumşalmaya səbəb olmuşdu.

Ona görə də araşdırmaçılar ikinci dünya müharibəsindən əvvəlki dönəmi dinə qarşı şiddətli mərhələ, müharibənin başlanması ərəfəsində — dindarlardan döyüşdə istifadə edilməsi amilinə görə — isə yeni "dinə qarşı yumşalma" mərhələsi olduğunu qeyd etmişlər. 1938-ci ildən etibarən müharibənin yaxınlaşması ərəfəsində «dindarlara seçkilərdə səsvermə hüququnun verilməsi» də dindarlarla hökumət arasında münasibətləri yumşaltmaq tədbirlərindən hesab olunurdu.

Sovet hakimiyyətinin son beş ilində isə dini vəziyyət daha da yaxşılaşmışdı. Son beş ildə M. S. Qorbaçovun (1985) sovet imperiyasında yaranmış, ictimai, iqtisadi və siyasi böhranı «həll etmək» cəhdləri zamanı artıq dünyadakı dəyişən vəziyyət sovet hökuməti daxilinə də təsirsiz ötüşməmişdi. Dini durum da buna

daxil idi. Bu illərdə dini qurumların fəaliyyətində geniş canlanma yaranmışdı. Hətta, bu illərdə (1986) Ərəbistandan gələn məşhur sünni müsəlman səyyah, ədib Muhəmməd Nasir əl-Abudi öz nümayəndə heyəti ilə şeyxulislam Allahşükür Paşazadə ilə görüşmüş, onun şəxsi müşayiəti ilə Azərbaycanın müxtəlif bölgələrində məscidləri ziyarət etmiş, ziyalı, ağsaqqal din xadimləri ilə görüşmüş, hətta, Azərbaycan səfəri barədə "Sovet ittifaqındakı müsəlmanların ziyarəti — Azərbaycan cümhuriyyəti" adlı ərəbcə kitab da yazmışdı. Həmin kitabın iki nüsxəsi hal-hazırda Mədinə şəhərində yerləşən Peyğəmbər məscidinin kitabxanasında mövcuddur.

**Dinə qarşı mübarizənin mahiyyəti nədən ibarət idi?**

Qeyd olunduğu kimi dinə qarşı mübarizə Azərbaycanda İslam dininə qarşı yönəlmişdi. Əsas hədəf gənclər, məktəb və universitet tələbələri, ziyalılar və hökumət işçiləri idi. Dinə qarşı mübarizə: İslami bayramları geriçilik göstərmək, Qurban və Ramazan bayramının mahiyyətini dəyişmək, xurafatçı və mövhumatçı dindar təbəqələrin, İslam təlimindən uzaq düşmüş və dini pərdə altında öz şəxsi maraqlarını güdən din xadimlərini tez-tez gündəmə gətirmək, həqiqi İslamı onlara aid etmək, dindarları hakim siniflərə xidmət edən bir təbəqə kimi qiymətləndirmək, dinin boş və cəfəngiyyat olduğunu, insanların ixtirası olduğunu bildirmək, dinə qarşı fikirlərdə xüsusən də Karl Marksın, Fridrix Engelsin və Vladimir Leninin kommunist fikirlərini önə çəkməklə həyata keçirilirdi. Onlar iddia edirdilər ki, elm və texnika inkişaf etdikcə insanlar özləri dini tərk edəcəklər. Həqiqi nəticə isə bunun əksi olduğunu bizə göstərdi. Əksinə, elm və texnika inkişaf etdikcə insanların

Allahın Qüdrətinə, Əzəmətinə inamları daha da artdı. Karl Marksın bir çox ictimai, siyasi və iqtisadi kahinlikləri və öncəgörmələrinin də yalan olduğu zaman keçdikcə daha aydın şəkildə ortaya çıxmış oldu.

Bütün tədbirlər isə "yeni sovet insanı modelini" yaratmaq qayəsinə xidmət edirdi ki, bu da dindən tam uzaq olan insanlardan ibarət olmalı idi. Bu "yeni insan modeli" həmin dövrdə inkişaf etmiş ölkələrin də qınağından yan keçməmişdi. Onlar insanları məcburi dinsiz etməyi insan hüquqlarının, vicdan azadlığının pozulması kimi qiymətləndirirdilər.

Dinə qarşı yumşalma dövründə isə kommunist kitablarında "dindarları təhqir etmək" qadağan olunur, təhqirsiz təbliğat aparmaq tövsiyə olunur, əvvəlki dövrdə Leninin və Engelsin bu barədə gizlədilən sözləri ictimaiyyətə çatdırılırdı. Onlar kitablarında yazmışdılar ki, dindarları təhqir etmək dinin qarşısını almır, əksinə, dini hisləri gücləndirir. «Marksın təliminə görə dini birdəfəlik qadağan etmək, təqib onu daha da gücləndirəcəkdi"[35].

**Sovet hökumətinin rəsmi dəstəyi:** Şəkk yoxdur ki, bu təbliğatın əsas dayağı Kommunist Sovet hökuməti idi. Ona görə də araşdırmaçılar qeyd edirlər ki, Lenin və dostları Karl Marksın yalanlarına inanmasaydılar, bu batil ideologiyanın böyük kütlələrə çatdırılması baş tutmayacaqdı. Lakin, elə kommunizmin əlverişsiz xəyallardan ibarət olmasını əlli-altmış il sonra anlayan qoca kommunistlər hər bir vəchlə hakimiyyətin qorunmasına və ömrünün uzadılmasına çalışırdılar. Çünki, yetmiş illik hakimiyyətin

[35] Bax: Məişət, ənənə və ateist tərbiyə, Maqsud Cəlilov, səh 5, Bakı, 1983.

sonuna iyirmi il qalmış onlar bu sistemin çox tab gətirə bilməyəcəyini anlamışdılar. Hər sahədə böhranlar yaranmışdı, islahatların bir faydası olmurdu. Ateizm təbliğatı isə başqa tərəfdən əks təsir yaradır və dini hislərin güclənməsinə səbəb olurdu. Ateizmə rəsmi dəstəyi Lenin belə ifadə edirdi: «Bizim təbliğatımıza mütləq şəkildə ateizm təbliğatı da daxildir"[36].

Kommunist partiyasının rəsmi dəstəyi "Allahsızlar ittifaqı"nın maliyyə məsələlərində də əsas yardımı təşkil edirdi.

• **Medianın səfərbər olunması:** Həmin dövrdə «media ateizm təbliğatında əsas işi görürdü» desək yanılmarıq. Televiziya, radio, qəzet və jurnallar bütün qüvvəsi ilə kommunist əqidəni yayır, insanları ateist tərbiyəsində yetişdirmək üçün əllərindən gələni edirdilər.

• **Televiziya** üçün 1924-cü ildə "Bayquş" filmi, 1925-ci ildə "Bismillah" filmi, 1931-ci ildə "Qurban bayramı" filmi, 1934-cü ildə "Adətlərin məhvi" filmi, başqa adıyla "İsmət" filmi, 1963-də "Axırıncı namaz" filmi, 1971-də "Imadəddin Nəsimi" filmləri çəkilir. 1979-cu ildə isə Sovet Azərbaycanında çəkilmiş ən bahalı film olan "Babək" filmi çəkilir. Həmin filmin çəkilməsinə 1.650.000 rubl vəsait ayrılmışdı. Bir çox filmlərdə də ateizm məqsədlərinə xidmət edən xüsusi fraqmentlər çəkilirdi.

• **Radio** da gecə-gündüz kommunist təbliğat maşını olaraq öz fəaliyyətini davam etdirirdi.

---

[36] Ateizm tərbiyəsinə kommunist partiyasının rəhbərliyi. Müstəcəb Muradov. səh 3, Bakı, 1985.

• **Qəzet və jurnallardan** isə "Molla Nəsrəddin" (1906-1931) jurnalı, bu jurnal sovet dövründə dinə qarşı mübarizə motivini dəyişmişdi. Sonradan adı dəyişdirilərək "Allahsız" (bezbojnik) jurnalına çevrilir (1931-1933). "Kommunist" qəzeti (1920-1991), "Kirpi jurnalı" (1952-1989) isə din əleyhinə karikaturalar çəkməklə məşğul idi.

• **Ziyalıların təsirindən istifadə:** Azərbaycanın Sovet rejiminə baş əyməyən ziyalıları, şair və yazıçıları, alimləri və s. qətl və ya sürgünə düçar etdilər. Repressiya qurbanlarını bir çoxumuz yəqin ki, tanıyırıq.

Ziyalıların digər sağ qalanları isə ya ictimai fəaliyyətdən uzaqlaşdılar, ya da sovet kommunistlərinin şərtlərinə razılaşıb öz fəaliyyətlərinə davam etməyi seçdilər. Kommunistləri dəstəkləyən, bəzən isə ateizm təbliğatını birbaşa dəstəkləyən ziyalılar isə bunu ya qorxudan, ya da vəzifə hərisliyindən edirdilər.

Bu (Sovet dövründə dini durum) barədə xüsusi araşdırması olan AMEA-nın elmi işçisi Müstəqil Ağayev - özünün 20-ci əsrdə Azərbaycanda din problemi adlı kitabının 115-ci səhifəsində belə deyir:

"Sovet ideologiyası çərçivəsində işləməyə məhkum olmuş filosoflar, digər mütəfəkkirlər tədqiq etdikləri şəxsiyyətlərin yaradıcılığında İslam dini əleyhinə olan ən kiçik və ən zəif fikri belə üzə çıxarıb şişirdilmiş və qabarıq şəkildə verməklə bolşevizmə sədaqətli olduqlarını sübut etməyə çalışırdılar. Zamanın tələbi belə idi. Bundan qaçmaq mümkün deyildi. Yazılma tarixindən asılı olmayaraq, din əleyhinə olan hər hansı bir əsərin mövcud

ideologiya üzərindən təhlili və tənqidi alimlərin, tədqiqatçıların qarşısına qoyulmuş vacib bir vəzifə idi. Bu vəzifənin icrasında kiçik bir səhvə yol verənlər cəzalandırılırdılar. Bəziləri qorxudan, bəziləri isə yarınmaq xatirinə öz fəaliyyətlərini bu istiqamətə yönəldirdilər. Ona görə də bu dövrdə din əleyhinə yazılmış əsərlər, məqalələr, məruzə və mühazirələr çoxluq təşkil edirdi".

Bundan əvvəl isə müəllif öz fikrini daha təkidlə ifadə edərək deyir ki: Həmin dövrdə hər bir vəchlə sovet hakimiyyətini müdafiə edən yazılar yazan filosofların səsini nədənsə eşitmirik! Artıq Azərbaycanın müstəqilliyindən o beş ildən çox vaxt keçsə də, nədənsə o cür yazılar daha yazılmır. - Bu da bir daha həmin yazıların dövrün tələbi olmasının əyani sübutudur.

• **Milli və dini kimliyə qarşı mübarizə:**

Sovet dövründə Azərbaycan əlifbası iki dəfə dəyişilmiş, üçüncü dəfə isə rus dili ön plana keçmişdi . 1929-cu ildə ərəb əlifbasından latın əlifbasına keçilir. 1938-ci ildə latın əlifbasından kiril əlifbasına keçilir. 1953-cü ildə isə rəsmi idarələrdə rus dilindən istifadə olunması qərarı verilir. Bütün bunlar hamısı ruslaşdırma siyasətinin tərkibi idi. Həm də bu gələcək nəsillərin tez-tez əlifba dəyişikliyi səbəbilə öz keçmiş tarixilə bağlarının qoparılması, keçmiş yazıların oxumasını çətinləşdirmək demək idi.

Ayrıca türkçülük ideyaları olan şəxslər, o cümlədən də sovet hakimiyyətindən əvvəlki müstəqil Azərbaycan hökumətinin nümayəndələrinə qarşı ən sərt tədbirlər görülmüş, onlar vətən xaini adlandırılmışdılar.

Xalqın dini kimliyinə qarşı mübarizədə isə hətta dinlə əlaqəsi olan adətlər müəyyənləşdirilir və qadağan edilirdi. "Yeni adətlərin icad edilməsi" və bu yeni adətlərin köhnə adətləri aradan qaldırma vasitəsi etmək sovet rejiminin əsas siyasətlərindən biri idi. Bu siyasəti həyata keçirmək üçün də xüsusi kitablar yazılmışdı.

• **Sovet hökumətinin həqiqi siması:**

Qəddar sovet kommunist rejimi Azərbaycan xalqına qarşı genosid tətbiq etmişdir. İşğalın ilk illərində Azərbaycan xalqının 40.000-dən çox vətəndaşını, özü də düşünən beyinləri, ziyalıları, ağsaqqalları, savadlı insanları, bir sözlə xalqın qaymaqlarını qətl etdilər. Çünki, onlar yalnız  xalqın başbilənlərini məhv etdikdən sonra xalqın müqavimət ruhunu qırmış olacaqdılar.

Biz hələ ikinci dünya müharibəsində sovet ordusu tərəfindən nasistlərə qarşı vuruşaraq ölmüş 400.000 azərbaycanlı kişinin məhv olmasından danışmırıq. O kəslər ki, kommunist ideyaları uğrunda canlarından keçmişdilər. Onlar bilmirdilər ki, bu qaniçən rejim onların övladlarına qarşı təşəkkür etmək əvəzinə, onlara 20 yanvar faciəsilə cavab verəcəklər! Başqa ölkələrdən fərqli olaraq Azərbaycan nefti qədər heç bir ölkənin fayda vermədiyi, sovet hökumətinə sadiqlik göstərən bir ölkəni xaincəsinə vəfasızlıq edərək 1990-cı ilin 20 yanvar gecəsində yüzlərlə insanı qanına qəltan edən sovet ordusu Sovet hakimiyyətinin əsil simasını ortaya çıxarmış oldu. Bu hadisə Sovet imperiyasının son iyrənc nəriltisi idi. Ağıl sahibləri üçün isə parlaq şüarlarla saf insanları aldadan, Azərbaycanda minlərlə insanların qətli ilə başlayan hakimiyyətin yetmiş il sonra başqa bir qətliamı Bakının mərkəzində törətməsi

sadəcə böyük bir ibarətdir. Yəni, yetmiş ilin əvvəli də, ortası da, axırı da qan, qətliam, qırğın oldu!

*Son olaraq;* bu gün sosial şəbəkələrdə kommunistləri dəstəkləyən, xalqımıza bu qədər qan, zülm gətirmiş düşmənləri sevənlərə sadəcə tövsiyəmiz vicdanlı, ədalətli olmağa çağırmaq, qəflət yuxusundan ayılmaqdır. Düşmənlərinizi tanıyın, onları arzulamayın! Çünki, düşmən yalnız qan və fəlakət gətirir! Bu düşmən isə vətənimizi taladı, yaxşılığımıza vəfasızlıq, xainliklə cavab verdi, insanları isə Allahdan uzaq saldı!

## "Əl-ilah" adında büt olubmu?

**Birincisi:** Biz hər bir iddia sahibindən dəlil tələb etdiyimiz kimi, ateist və qeyrilərindən də bu iddiaya dəlil tələb edirik. Elə bir dəlil ki, sırf həmin dövrə aid olsun. Yəni, ən azından yeddinci əsrdə bunu kiminsə dediyini bildirən bir dəlil. Hansısa 20 il bundan qabaq kiminsə yuxudan durub ağlına "fərziyyə" gələndə vərəqə yazdığı "fikiri" demirik. Bunu deyənlərdən ciddi dəlil tələb edirik .

**İkincisi:** Quranın ən qədim və mötəbər təfsir kitabı hesab olunan İbn Cərir ət-Təbərinin «Cə'miul-Bəyan» təfsir kitabında və başqa təfsir kitablarında «Lat» adlı bütün varlığından danışılsa da, «İlah» adlı bütün varlığından heç danışılmayıb. Bunun kimi də başqa qədim təfsirçilər, hətta, tarixçilər belə nə ilah adlı bütün

mövcudluğundan danışmayıblar, nə də bunun ərəblərin Allahı olduğunu deməmişlər .

**Lüğəvi cəhətdən:** «Əl-ilah» sözü ərəbcə: Haqlı və ya haqsız olaraq hər bir ibadət olunana deyilir[37]. Digər lüğətlərdə də həmin «Lat» sözünün kökü ərəbcə qadın cinsindən "əl-ləətu (اللات) " kökündəndir. Bəzi şərqşünaslar bu sözü şişirdib «Allah» sözünə bənzətməyə çalışmışlar. Həmin "Lat" adlı bütləşdirilən şəxs İslamdan əvvəlki təxminən əlli il əvvəl yaşayan bir insan olmuşdur. Lat adlı bu şəxs كان يلُتُّ السويق (Kə'nə yəlluttu əs-səviq) yəni, Lat Kəbə ziyarətçiləri üçün buğda və arpa əzib qarışdıraraq yemək hazırlayardı. Bir çox araşdırmaçılar Lat sözünün elə «qarışdırmaq» sözündən لَتَّ (Lənttə: sonra isə Lət və Lat - olaraq oxunmuşdur) olduğunu demişlər. Doğru olan da budur.

Həmin "Lat" sözü ərəbcə اللات olaraq yazılır, «Allah» sözünün əsli olan "əl-ilah" sözü isə belə yazılır الإله :Allah sözü isə belə yazılır : الله Göründüyü kimi fərq ortadadır. "Allah" adında bir bütün olması isə göründüyü kimi fərziyədən başqa bir şey deyil.

Ateist və qeyrilərinə xatırladırıq ki, bu şübhə ateistlərin ixtirası deyil, bəzi şərqşünasların ixtirasıdır ki, onlar sadəcə "əl-Lat" adlı bütün "t" hərfini silib "h" hərfi ilə əvəz etməklə «əl-ilah» sözünə bənzəməyə çalışmışlar. Bu isə qondarma bir bənzətmədir. Tarix kitablarında həmin dövrün bütlərinin adları keçir. Qurani-Kərimin özündə "Lat" adlı büt şiddətlə pislənilir. Əgər bu əlaqə olsaydı bu pislənmənin nə mənası qalır ki?

---

[37] "əl-Məani" lüğəti, əl-ilah sözünün izahı.

**Üçüncüsü:** Kəbədə vaxtilə bütlərin olmasına gəldikdə isə Kəbənin tarixindən məlumdur ki, Kəbədə əvvəllər bütlərə ibadət edilməyib. İbrahim peyğəmbər oranı təkallahlılıq ibadət yeri kimi Allahın əmri ilə inşa edib. Lakin, İbrahim peyğəmbərdən bir neçə əsr sonra  insanlar bütpərəstlik yoluna düşdülər və Kəbəyə bütləri daxil etdilər. Əgər Muhəmməd peyğəmbərin (ﷺ) "Allah" adlı bütü var idisə, onda niyə Kəbədə bütün bütləri dağıtdı və heç bir bütü saxlamadı?

Həmin dövrün dörd böyük bütlərini dağıtmaq üçün Muhəmməd peyğəmbər (ﷺ) səhabələrindən; Səid ibn Zeydi "Mənat" adlı bütü dağıtmağa, Amr ibn As'ı «Suva» adlı bütü dağıtmağa, Xalid ibn Vəlidi "Üzza" adlı bütü dağıtmağa göndərmişdi. Bunlar Məkkə ətrafında olan bütlər idi. "Lat" isə Məkkə yaxınlığında yerləşən Taif şəhərində olan, Səqif oğullarına aid bir büt idi. Hicrətin 8-ci ilində bu büt də Məkkənin fəthindən sonra peyğəmbərin əmri ilə dağıdılmışdır .

Tarixdən yaxşı məlumdur ki, ərəblərin ən qədim bütü «Mənat» adlı büt olmuşdur. Bu büt onların ən möhtərəm  və ən qədim bütü idi. Görəsən, ateistlərin iddiası bir az məntiqi olsaydı, onda ərəblər özlərinə seçdikləri "tanrının" adını ən qədim bütlə əlaqələndirməli deyildilərmi?

**Daha bir sual:** Peyğəmbər (ﷺ) dağıdılmasını əmr etdiyi bir bütün adını niyə saxlamalı olsun ki? Axı Quran, hədislər və bütün tarixi mənbələr İslam dininin sırf bütpərəstliyə qarşı mübarizə aparmasına dəlalət edir! İslamın məqsədi təkallahlıq olmuşdur. Təkallahlıq dinləri daim bütpərəstliyə qarşı olmuşdur. Hansısa bir tək Allaha inananları böyük və yeganə yaradıcıya inandıqları üçün

olmayan bir bütlə əlaqələndirmək nə dərəcədə doğru ola bilər? Təəssüflər olsun ki, ateistlərin problemi təkallahlıq inancını ümumiyyətlə millətçiliklə, irqçilik və siyasətlə qarışdırmalarıdır. O baxımdan ki, hər millətin kainatı idarə edən yeganə tanrı kimi qəbul etdikləri tanrıları belə özəl tanrı və ya büt kimi qələmə verirlər. Xatırladaq ki, söhbət bütlərdən deyil yeganə ilahi qüvvədən gedir .

*Ateistlərin daha bir yanlış bilgisi isə budur:* Əgər kainatı yaradan yeganə bir qüvvə varsa, məsələn, türk buna "tarnrı" deyirsə, ərəb buna "Allah" deyirsə, yəhudi "yehova" deyirsə, rus buna "boq" deyirsə, o demək deyil ki, onların hərəsi bir bütdür və s. Xeyir, bu ateistlərdən və deistlərdən bir çoxunun yanıldığı bir məsələdir .

**Dördüncüsü:** İslamın beynəlxalq bir din deyil, ərəblərə məxsus din olması şübhəsinə isə bu məqaləmizdə geniş cavab verilmişdir, məqaləni haşiyədəki keçiddən daxil olub oxuya bilərsiniz[38].

❀ ❀ ❀

[38] http://www.feqih.com/erebin-dini-yoxsa-butun-dunyanin-dini/
Məqalənin adı: Ərəbin dini? Yoxsa, bütün dünyanın dini?

## İslamda çoxarvadlılıq məsələsi

Günümüzdə İslam dinindəki bu çoxarvadlılıq məsələsini bəzi insanlar başqa cür təqdim etmək istəyirlər. Halbuki, çoxarvadlılıq İslam dinində müəyyən şərtlərlə icazəli edilmişdir. Bu şərtləri bildikdən sonra, çoxarvadlılığın günümüzdə nə qədər gerçəkliyə uyğun olduğunu, cəmiyyətimizdə bir çox kişilərin tək arvadı olsa da başqa qadınlarla gəzməsi, "bazlıq etməsi", gizlində əxlaqsız filmlərə baxması və s. problemləri cəmiyyətimizin sadə insanları çox yaxşı bilir. Evlilik yaşının yüksəlməsi, insanların ailə münasibətlərində ciddi olmamaları, boşanmaların pik həddə olması, hər il boşanma rekordlarının təzələnməsi insanlarımızın nə qədər mənəvi deqradasiyaya məruz qalmasından xəbər verir. Dini "utopiya" adlandıranların özlərini avropadakı hər cür əxlaqi rəzillikləri "insan haqları" deyə müdafiə etdikləri bir dönəmdə İslamda xüsusən də İslam cəmiyyətlərində bir faizə belə çatmayan çorarvadlılığı özlərinə dərd edinmişlər. İslam dini çoxarvadlılığa icazə versə də həyat yoldaşları arasında ədalətsiz davranmaq, birinə baxıb digərinə baxmamaq və s. kimi hallar olarsa, bu cür edən kişinin Qiyamət günü sifətinin bir tərəfinin əyri olacağı vəd edilib peyğəmbər tərəfindən. Belə kəslərə əzab vəd edilmişdir. Ədalətsiz olacağından qorxan kişilərə bir qadınla evlənmək məsləhət görülmüşdür. (Nisə surəsi, 3).

**Çoxarvadlılığın şərtləri isə bunlardır:**

- Bu evlilik sayı dördü keçə bilməz (Nisə surəsi, 3-cü ayə)
- Digər şərt isə ədalətli olmaqdır. (Nisə surəsi, 3)

• Həmçinin, insanın maddi gücü də olmalıdır. Maddi gücü olmadan evlənib xalqın qızını boşayıb bədbəxt etməkdən də çəkindirən dəlillər, qadınları incidən kişiləri sərt tənbeh edən rəvayətlər var.

• İki bacı ilə eyni vaxtda evlənmək dinimizdə haram hesab edilir .

**Çoxarvadlılığın bəzi hikmətləri:**

**1 -** *Cəmiyyətin rəzilliklərdən uzaq, təmiz qalmasını təmin etmək; Çoxarvadlılığı qadağan edən cəmiyətlərdə bu hallar müşahidə olunur:*

Qeyri-qanuni cinsi əlaqə nəticəsində atası bilinməyən, "vələdzina" uşaqlar dünyaya gəlir .

Əxlaqsızlıq yuvaları və fahişəlik geniş şəkildə yayılır və cəmiyyətə mənfi təsir göstərir .

Əxlaqsızlığın yayılması bir çox psixoloji problemlərə və fizioloji xəstəliklərə gətirib çıxarır .

Ailə münasibətlərində ərlə arvad arasında möhkəm etibarlılıq bağlarının zədələnməsi baş verir; necə ki, bizim cəmiyyətdə də qadınların əksəriyyəti öz kişilərinə etibar etmirlər .

Çoxarvadlılığa qarşı gələn cəmiyyətlərdə bu və digər problemlər baş verir[39].

**2 -** Bəzi kişilərin psixoloji və bədən fiziologiyasının tələbatı çox güclü olduğundan onlar bir qadınla öz cinsi ehtiyaclarını ödəməklə

[39] əz-Zəvac, lil-Həfnəvi, 223.

kifayətlənə bilmirlər, onların özlərinə gizli sevgili tutmaları və ya fahişələrə müraciət etmələrinin qarşısı öz halal həyat yoldaşına müraciət edilərək alınır və onun bu ehtiyacı əxlaqını korlamadan ödənilir[40].

**3 -** Əgər kişinin bir həyat yoldaşı varsa və o qadın sağalmaz bir xəstəliyə yoluxubsa və yaxud da qadın sonsuzdur və uşağı olmursa, əri isə onu boşamaq istəmir, onunla evliliyini davam etdirmək istəyirsə, belə olduğu halda onu boşamaqla ona əziyyət verməlidirmi? Yoxsa, özünün və həyat yoldaşının rəğbətini nəzərə alıb ortaq razılığa gələrək həyat yoldaşını boşamadan başqa bir qadınla evlənməlidir?

Şəkk yoxdur ki, yeganə həll yolu vicdanı diri olan bir insanın bu işə razılıq verməsindədir[41]. Çünki, qadını "uşağı olmur" deyə boşayıb dolanışığını təmin etməyəcək pis durumda qoymaq nə kişilikdən, nə də insanlıqdan deyil. Belə bir qadın sonsuz olduğu üçün başqa kişiylə evlənə bilmir, qazanc yeri də yoxdur, onu yardımsız qoymaq çox pis bir əməl olardı. Bu durumda övlad istəyən bir kişini övladdan məhrum etmək də doğru deyildir. Bu durumda yeganə çıxış yolu həmin qadının öz ərinin başqa bir qadınla evlənməsinə razı olmasındadır .

**4 -** İslami aspektdən cəmiyyət bir tərəzi kimidir, bu tərəzinin hər iki tərəfi gərək qadın və kişi sayının bərabərliyində də özünü göstərsin! Lakin, görəsən bu say tarazlığı və bərabərliyi pozularsa

[40] Fiqhus-Sunnə, Seyyid Sabiq. 2/250.
[41] Fiqhul-İsləmi və ədillətuhu, 7/171.

və qadınların sayı kişilərin sayını dəfələrlə üstələyərsə, o zaman nə etməliyik?

Görəsən qadın evlilik və ana olmaq nemətindən məhrum edilməlidirmi? Bəzi qadınlar ərə getməyərək evdə qalıb sonra da əxlaqsızlıq və rəzillik girdabına düşsünlərmi? Yoxsa, biz bu problemi şərəfli bir evlilik yoluyla həll edərək o qadının şərəfini, ailənin təmizliyini və cəmiyyətin salamatlığını qoruyaraq həll edə bilərik?! Əlbəttə ki, bu sonuncu daha məqbul həll yoludur![42]

**5 -** Cəmiyyətdə qadın və kişi sayının tarazlığının pozulması xüsusən də bir çox kişilərin öldüyü müharibələr, təbii fəlakətlər, kütləvi xəstəliklər, inqilablar və s. hallarda baş verir, bu zaman bir çox qadınlar evlənə bilmir və doğum sayı aşağı düşür. Həmçinin, bu vəziyyətdə qadınlara evlilik şəraiti yaratmadıqda o cəmiyyətdə əxlaqsızlığın nisbəti daha da artır. Bu zaman ailədaxili xəyanətlər, kənarda sevgili saxlamaq, cinsi təcavüzlər və qeyri-qanuni atası bilinməyən "vələdzina" uşaqların sayı artır. Görəsən bu zaman qadının şərəfini qoruyaraq normal evlilik etməsi çıxış yolu deyildimi? Əlbəttə elədir![43]

**6 -** Bir çox hallarda kişilər az olan cəmiyyətlərdə qadınlar evliliyə hazır durumda olurlar, lakin, bir çox kişilər bu zaman kasıb olduqları üçün evlilik ehtiyaclarını ödəməyə imkanları çatmır. Lakin, qadınlardan buna gücü çatanlar olsa da, evlənməyə kişi tapa bilmirlər. Belə durumda maddi durumu yaxşı olan qadınların maddi durumu pis olan kişilərlə evlənməsi mümkün olur. Əgər onlar

[42] Təadduduz-Zovcə't fil-Ədyən, 50-52.
[43] Təadduduz-Zovcə't fil-Ədyən, 520.

gözləsələr ki, hər kişi bir qadınla evlənsin, bu zaman bir çox evliliyə imkanı olan qadınlar evlənməkdən məhrum olacaqlar. Bu da yenə cəmiyyətdə qeyd olunan əxlaqsızlıqların artmasına səbəb olacaqdır[44].

**7 -** O kəslər ki, çoxarvadlılığın birinci qadına zülm olduğunu deyirlər, onlar ikinci qadının da qadın olduğunu, onun da evlilik haqqının olduğunu unudurlar. Bu evlilikdən həmin qadının da xeyirinin olduğunu unudurlar. Hətta, bunda birinci qadına müəyyən sıxıntı olsa da, - bu sıxıntı inkar edilmir - lakin, bütün qadın cinsinin bu qərarla faydalanacağı və xüsusən də dul qadınların azalacağını, birinci qadının sıxıntısı ilə dul qadınların və evlənə bilməyən qadınların sıxıntısı müqayisə olunarsa, o zaman bu qərarın daha çox cəmiyyətin xeyirinə olduğu məlum olar. Xülasə, çoxarvadlılığı qadağan etmək onu icazəli etməkdən daha çox cəmiyyətə zərər vermiş olur, bu zərər müqayisə olunmaz dərəcədə böyük olur[45].

**8 -** Çoxarvadlılıq eyni zamanda çoxuşaqlılıq deməkdir. Nəsil davamçılarının çoxluğu, böyük ailə və çalışan insanların çoxluğu isə ümmətin gücü və istehsalatda da artım anlamına gəlir[46].

**9 -** Çoxarvadlılıq nəticəsində evlənən tərəflərin ailələri yaxınlaşır bə ailələr arasında qohumluq bağları yaranır. Bu da cəmiyyətdə ictimai münasibətlərin sıxlaşmasına səbəb olur[47].

**10 -** İslam dini zinakarlığı qadağan etmişdir. Çünki, zinakarlıq əxlaqı, nəsilləri, ailə qanunlarını pozur, ona görə də insanlara

---

[44] Ədvaul-Bəyən, Muhəmməd əl-Əmin əş-Şinqiti. 3/377.
[45] Fiqhul-İsləmi və ədillətuhu, 7/171.
[46] əz-Zəvac lil-Həfnəvi, səh, 224.
[47] əl-Mufassal, 6/240.

çoxarvadlılığı asanlaşdırmaq kişilərdən buna çox meyilli olanları da bu cür fəsadlardan qorumuş olar[48].

**11 -** Boşanmaların qarşısını almaq hikməti də bu hikmətlərdəndir; Çünki, çoxarvadlılıq sözündən də görünür ki, burada qadınların cəm edilməsi var, tərk edilməsi yoxdur. Yalnız zəruri hallar istisnadır ki, bu zəruri hallar hər kəsə demək olar ki, məlumdur. Çoxarvadlılıq qadında sonsuzluq, ciddi xəstəliklər olduğu halda da həmin qadını qoruyur və ərinin yanında qalmasına səbəb olur .

**12 -** Həmçinin, qadın bir ayın dörddə biri qədər müddətdə aylıq halı (menstruasiya) keçirir. Menstruasiya halı qadın üçün ağrılı günlərdir və bu haldan qadın əziyyət çəkir. Ailə münasibətlərində kişinin həmin vaxt qadına yaxınlaşıb cinsi yaxınlıq istəməsi həm tibbi cəhətdən, həm də dini cəhətdən doğru deyil. Qurani Kərimdə də bu hal barədə belə buyurulmuşdur: *"Səndən heyz barəsində soruşurlar. De: "Bu, əziyyətverici bir haldır. Heyz vaxtı qadınlarla yaxınlıq etməkdən uzaq olun və pak olmayınca onlarla yaxınlıq etməyin"*. (əl-Bəqərə. 222)

Ona görə qadının belə vəziyyətdə olduğu günlərdə kişinin digər xanımının yanına getməsi həm həmin xanıma əziyyət verməyin qarşısını alır, həm də ehtiraslı kişini çox vaxt pis durumdan xilas edir. Bizim yaşadığımız cəmiyyətdə də yoldaşı aylıq (menustrasiya) halında olan qeyri-dindarların həmin günlərdə əxlaqsız qadınları ziyarət etmələri xəbərləri məlumdur. Çünki, o qadınlar həmin günlərdə cinsi münasibəti adətən xoşlamırlar və bunu dini cəhətdən

[48] ət-Təhrir vət-Tənvir, ibn Aşur, 4/226.

də etmirlər. Lakin, İslam dinindəki qanunlar bütün insanların fitrətinə uyğundur. Kaş ki, bunu biləydilər. Bundan başqa qadın xəstələnir, doğuşdan sonra isə uzun müddət qadından nifas qanı gəlir ki, bu zaman da qadınla yaxınlıq etmək icazəli deyil. Çoxarvadlılıq bu cür problemlərdən də kişini azad edir .

**13 -** Sonda sizdən bir sual soruşmaq istəyirik; Sizcə bir kişinin həyat yoldaşı var və o qadından övladları var. Bu kişi əgər istəmədən bir subay qadına aşiq olarsa, o nə etməlidir? Sizcə bu qadını heç cürə unuda bilmirsə, bunun həll yolu nədir? Həmin qadınla evlənmək istəsə, o birinci həyat yoldaşını boşamalıdırmı? Yoxsa, gizlində həmin qadınla öz həyat yoldaşına xəyanət etməlidir? Yoxsa, hər iki qadın onun halal həyat yoldaşı olsa, necə olar? Bu mümkün deyilmi? Sizcə nədir bunun həlli yolu? Əgər desəniz ki, birincini boşanmağa haqqı çatır, bəs onda birincinin günahı nədir? Əgər desəniz ki, gizlində görüşsün, bu da xəyanətdir. Son həll yolu hər ikisinin onun həyat yoldaşı statusunda olması deyilmi? Ona görə də Qurani-Kərimdə bu barədə buyurulmuşdur: *"Xoşunuza gələn halal qadınlardan ikisi, üçü və dördü ilə evlənin"* (Nisə, 3). Bu həll yolu təklif olunan yolların içində yeganə doğru həll yoludur. Düşünün, ey ağıl sahibləri .

# İslami cihadın mahiyyətini aşağılayan bəzi şübhələrə cavablar

**Şübhə belədir:** *Yağmalamaq; Kölələr - işçi qullar toplamaq, Cariyələr- cinsəllik və qul üçün qadın kölələr, Cizyə- islamı qəbul etməyənləri xəraca bağlamaq. Beləcə İspaniyadan Hindistana qədər olan torpaqlardan qənimətlər, kölələr, cariyələr, xəraclar toplayaraq heç çalışmağa, əməyə gərək olmadan yaşadılar. Bizə qanla, qorxuyla yeritdikləri cənnəti özləri aşağı endirdilər. Cənnət vədi ərəblər üçün soyğuna təşviq, bizim üçün bu cinayətlərə bəraət idi. Bütün bu cinayətlər: soyqırımlar, kölələşdirmə, qadınları cariyə edib təcavüz etməklərini haqqlı qılan don dini yaymaqdı. Klassik ərəb üçün ərəb yarımadasının islamı tərk etməsi nankorluqdur. İslamla emperyalizm qurub səhradan saraylara keçdilər, cənnət hurilərini millətlərin qadınlarını cariyə edərək gördülər. Kapitalizm dövründəysə Həcc bitməyən gəlir qaynağıdır.*

**Şübhənin cavabı:**

**İlk cümlədə deyilir: "Yaxşılıq etmək zorla, savaşla olarmı?"**

**a)** Bəli, bu mümkündür. Lakin, tək İslamda deyil. Məsələn, bir xalqın öz itirilmiş, işğal edilmiş torpaqlarını qaytarması zorla və savaşla mümkündür. Burda yaxşılıq anlayışı vəziyyətə görə yaranır. Yəni, məzlum olan, torpağı işğal olunmuş xalqın torpağını özünə qaytarmaq və bununla da ədaləti bərpa etmək özü əsil yaxşılıqdır. Söhbət məsələyə hansı aspektdən yanaşmağımıza bağlıdır. Əgər biz İslamın haqq olmasını sizə isbat etsək, deməli, siz razılaşacaqsınız ki, Allahın əmrləri hökmən yerinə yetirilməlidir. Çünki, İslamda

döyüşdən məqsəd qətl etmək, yağmalamaq deyil, əsas məqsəd Allahın yoluna dəvətdir. Bu barədə çoxlu dəlillər və faktlar vardır. Mötəbər rəvayətlər də var ki, döyüş başlayır, iki ordu üz-üzə gəlir. Lakin, peyğəmbər ilk döyüşçülərə əmr edir ki, düşmənlə təkbətək mübarizədə onunla vuruşmadan öncə onu İslam dininə dəvət etsin. Bu da İslami döyüşdəki ali məqsədin nə olduğunu ortaya çıxarır ki, buna aid onlarla misallar çəkmək mümkündür .

**b)** Həmçinin, bu sözləri deyən ateistlər həmişə dünyadakı «şər problemi» üzərindən hərəkət etdikləri halda bu dəfə «xeyir və yaxşılıq probleminə» əl atmağa çalışırlar. Məsələləri qarışdıran ateistlərə İslami döyüş barədə yanlış təsəvvürlərini bir daha nəzərdən keçirmələri üçün «İslamda döyüş məfhumuna yanlış baxışlar» adlı məqaləmizi oxumalarını tövsiyə edirik [(49)].

• ***Sonra isə deyilir ki:* Ərəblər "bu millətləri cənnət əhli edək, getdiyimiz cənnəti hərkəslə paylaşaq" dərdiyləmi ordularla dünyaya savaş açıb qan tökdülər?**

**Birincisi:** Bu absurd bir fikirdir. Ona görə ki, insanlar əsasən inanan və inanmayan kateqoriyaya bölünür. Əgər İslam haqdırsa, biz bunu bir ateistə sübut etsək, o da bir insan kimi tam şəkildə haqqı qəbul edərsə, İslamdakı hər şeyi təsdiqləyəcək, qeyb aləmini də bunun kimi təsdiqləyəcək. Çünki, məntiqi nəticə budur ki, əgər İslam doğrudursa, onun bütün fikirləri doğru olacaq, əgər doğru deyilsə, ən azından yarısı və ya əksəriyyəti doğru olmayacaq. Ateist bu iki seçimin olduğunu bilirsə, doğru olduğu ehtimalda İslamdakı

---

[49] Məqalənin linki : http://tovhid.info/islamda-doyus-mefhumuna-yanlis-baxislar/

döyüşün əsas məqsədinin nə olduğunu anladıqdan sonra başa düşəcək ki, İslamdakı döyüş yer üzündə ədaləti bərqərar etmək üçündür. Bu ədalət isə ilahi ədalət olaraq xalqları zülm etmədən bir bayraq altında idarə etməklə mümkündür. Təkcə Osmanlı xilafəti dönəmində onlarla xalqın necə sülh içində İslam əmirliyində yaşadığının bariz nümunəlıri olmuşdur. Hətta, Osmanlı dövləti dağıldıqdan sonra həmin xalqlar Osmanlı dövlətini arzulayırdılar .

**İkincisi:** Müsəlmanları qəsb etməyə gedən yüzlərlə xarici əsgərlərin İraqa getməsi orada İslam dini ilə maraqlanıb İslamı qəbul etmələri artıq bir faktdır. Bu faktın özü sizin şühbənizi kökündən vurur. Həmçinin, yer üzərində məhz İslama düşmənçilik edən millətlərin nümayəndələrinin, xüsusən də Qərb dünyasında hər il minlərlə insanın İslam dinini qəbul etməsi də sizin şübhənizi kökündən vurur. Çünki, onlar İslamı hərb yoluyla deyil, araşdıraraq, incələyərək öyrənib sonra qəbul edirlər.

*Millətləri cənnət əhli etmək, cənnəti hər kəslə paylaşmaq"* şüarı isə döyüşlərin şüarı olmamışdır. Bu kimlərinsə İslam adına söylədiyi bir sözlərdir. Həqiqətdə isə döyüşlərin əsas qayəsi Allahın tək ilah olmasına dəvət etmək, Allahın adını uca tutmaq, İnsanlara öz yaradıcılarını tanıtmaq, ona ibadət etməyə dəvət və ona şərik qoşmamağa, Allahın buyurduğu şəriəti, qanunlar toplusunu qəbul etməyə çağırmaq, Allahın hökmüylə hökm vermək olmuşdur .

• ***Sonra isə deyilir ki:*** **Məqsəd müqəddəs örtülü Cihadın bu qazanclı qanunları: Qənimət- ölkəni, dövlət malını yağmalamaq; Kölələr- işçi qullar toplamaq, Cariyələr- cinsəllik və qul üçün qadın kölələr, Cizyə- islamı qəbul etməyənləri xəraca bağlamaq. Beləcə İspaniyadan Hindistana qədər olan**

**torpaqlardan qənimətlər, kölələr, cariyələr, xəraclar toplayaraq heç çalışmağa, əməyə gərək olmadan yaşadılar. Bizə qanla, qorxuyla yeritdikləri cənnəti özləri aşağı endirdilər. Cənnət vədi ərəblər üçün soyğuna təşviq, bizim üçün bu cinayətlərə bəraət idi»**

Bu iddiada da yenə "əsas məqsəd" təhrif olunur. İslamdan anlayışı islamafob səviyyəsində olan, İslamı kor-koranə kənardan öyrənməkdən o yana keçməyən, İslam barədə bilikləri səthi olan şəxslərin İslami cihadın məqsədini yanlış yerə yozmaları, guya buradan məqsədin sadəcə "qənimət əldə etmək" olduğunu bildirmələri qərəzli mövqedən başqa bir şey deyildir. Çünki, yuxarıda qeyd etdiyimiz kimi, döyüş başlayan anda peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) səhabəyə təkbətək döyüşdən öncə rəqibi İslama dəvət etməyi tövsiyə edir. Təsəvvür edin ki, bir azdan döyüş şiddətlənəcək, peyğəmbər isə insanlara öz missiyasını xatırladır ki, əsas məsələ öldürmək deyil, əsas məsələ İslamı anlatmaq, İslama dəvət etmək və bununla insanları diriltməkdir. Səhabələr ilk öncə İslama dəvət edirdilər. Ona görə də İslami döyüşlərin əsas məqsədi İslamın təbliği olmuşdur. Peyğəmbər dövründə döyüşün mərhələlərinə baxsaq, birinci özlərini ölümdən qorumaq, müdafiə üçün döyüşmüşlər. Bu barədə ayə belədir: *"Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir"*. (əl-Bəqərə, 190).

Ateistlər İslami cihadın məqsədini heç cür qətliam və s. pis adlarla vəsf edə bilməzlər. Çünki, bu dinin peyğəmbəri hətta, hücum cihadında belə yaşlı, qadın və uşaqlara toxunmamağı,

döyüşməyən insanlara da toxunmamağı əmr etmişdi. Bu İslamın dəyişilməz döyüş qanunlarıdır!

• **Qənimətə gəldikdə isə:** döyüşən, müqavimət göstərən tərəfin məğlub olduğu halda mallarının ələ keçirilməsi tarix boyu bütün xalqların tarixində olmuşdur. Bu həm də qalib tərəfin əldə etdiyi qazanc olurdu. Qənimət İslamdan qabaq da dünyada bilinən bir şey olub. Dünya xalqları tərəfindən tətbiq edilib geniş şəkildə .

• **Əsirlərə gəldikdə isə:** Eləcə də düşmən tərəfdən qalan əsirlər barədə qaydalar başqa xalqlarda vəhşiliklər olduğu halda, İslamda oxuyub yazmağı başqalarına öyrədən əsirlər azad olunurdu, İslamı qəbul edən əsirlər də azad olunurdu. Qəbul etməyənlər isə öldürülmüşdü, onlarla xoş rəftar edilməsi əmr olunurdu. Bu barədə çoxlu hədislər də var.

• Nədənsə tarix boyu bütün böyük ölkələrin və ya döyüşdə qalib gələn ölkələrin etdiyi bir şeyi yalnız müsəlmanların ayağına yazanlar, Fransızların Afrika qətliamlarından danışmır, Amerikalıların zənci qətliamlarından danışmır, İspanların rekonkista siyasətindən və vəhşiliklə müsəlmanlara qarşı etdikləri işkəncələrdən danışmırlar. Rus və ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərdən danışmırlar. Nədənsə ateistlər ateist pol pott'un öz xalqının üç milyon vətəndaşını sərsəm kommunist ideyalarına görə qətl etməsindən danışmırlar.

İslam isə döyüşü normal aparmağı əmr edir, döyüş vaxtı ölülərə işkəncə etməyi, süngülərdən istifadə ilə göz çıxarmağı, əl, qol, burun kəsməyi qadağan edirdi. Yaşlı, qadın və uşaqlara toxunmağı qadağan edirdi. İslam dini vandallığı qadağan edir.

Bu günə kimi dinsiz ölkələr müsəlman ölkələri viran qoyub mallarını talayır, nədənsə ateistlər Suriya və İraq xalqına digər xalqların etdiyi zülmdən danışmır. Nədənsə ateistlər Myanmarda işkəncə ilə öldürülən müsəlmanların, Bormada işkəncə və zülmlərlə qətl edilən, təcavüzə məruz qalan müsəlmanlardan danışmır, onları müdafiə etmirlər. Əgər bu qədər sülh və əmin-amanlıq tərəfdarıdırlar, niyə bu müdafiəni etmirlər. Bütün dünyanın hər yerində ən çox müsəlman xalqlara qarşı böyük ölkələrin etdiyi qətliamları və işkəncələri, zülmləri görmürlərmi?

• **Köləlik, kölələşdirmə və quldarlıq barədə isə:** Ateistlərin yəqin Quran ayələrindən və hədislərdən xəbərləri yoxdur. İslamın tədricən köləliyi aradan qaldırmasından da xəbərləri yoxdur. Bir köləni azad etmək, azadlığa çıxarmağın fəziləti barədə peyğəmbərin hədislərindən də xəbərləri yoxdur. Səhabələrin qul, kölə azad etməkdə bir-birilə yarışa girmələrindən, Amerikadan əvvəl hansı müsəlman ölkəsində qularlığın ləğv edilməsindən də xəbərləri yoxdur, ətraflı məlumat üçün bu məqaləni oxumağı tövsiyə edirəm : İslamda quldarlıq ləğv edilməyibmi[50]?

• **Cariyələrə gəldikdə isə :**

**Birincisi:** Bu düşmən tərəfindən əsir düşmüş, müsəlmanların evləndiyi düşmən qadınları idi. Onların qətl edilməsi qadağan idi. Bunun əksinə olaraq digər xalqların nümayəndələri istər müsəlman, istər də qeyri müsəlman qadınlara qarşı zorakılıq, qətl, işkəncə və artıqlamasını edirdilər. Cariyə qadınlarla müsəlmanlar evlənib birgə

[50] Məqalənin linki: http://senxatirlat.com/islam-dininde-quldarliq-legv-edilmeyib-ateistlere-cavab/

yaşayır, onları yedizdirib geyindirir və məişətlə təmin edirdilər. Hər növ işgəncə haram hesab edilir, onlarla evlənən müsəlmanlar öz həyat yoldaşları kimi onların öhdəliyini daşıyırdılar. Məgər bunu pis əməl kimi qələmə vermək doğrudurmu? Müsəlmanlarla evlənən cariyələr azad qadınlar kimi hesab olunurdular. Məgər bunun nəyi pisdir ki?

**İkincisi**: Siz Quranın əsas kökü olan Allahın mövcudluğu və Allaha ibadət məsələsinin vacibliyini görməməzlikdən gəlirsiniz. İnsanlar Allaha ibadəti onların Yaradıcısı, Ruzi Vərəni və s. olduğuna şükr olaraq edirlər. Hər bir insan ona sonsuz nemətləri verən Allaha ibadət etməyə zəruri olaraq borcludur. Bu ibadəti etmədikdə və müsəlmanlara qarşı hərb etdikdə artıq Allah onların hərb nemətlərini, mal nemətlərini və şəhvət nemətlərini və bu haqlarını onların əllərindən alır və bu nemətləri müsəlmanlara verir. İnsanlara verilən əsas nemətlər yemək, içmək, mal, pul, qadın və bir çox nemətlər var ki, Allah insanlara bu nemətləri verib ki, Allahı tanısınlar, ona şükr etsinlər, ibadət etsinlər, yəni, bu nemətləri buna qarşılıq verib. Sən əgər bizə Allaha ibadət lazım deyil deməyini isbat edə bilsən, o zaman bizə cariyə, qənimət və digər mövzulardan danışa bilərsən. Kafirlər və onların qadınları Allahı inkar etdiklərinə görə, Ona ibadət etmədiklərinə görə və vuruşmağı seçdiklərinə görə İslam döyüşdən qabaq onlara seçimlər verir ki, ya cizyə verin canınızı qurtarın[51] (Yəni: Cizyə verin, bundan sonra dininizi yaşaya bilərsiniz və biz də sizi qoruyacağıq) və ya İslama gəlin. Yox bu şərtlərdən sonra onlar İslama qarşı

[51] Yəni: Cizyə verin, bundan sonra dininizi yaşaya bilərsiniz və biz də sizi qoruyacağıq.

döyüşü seçərlərsə, artıq onlardan mal, şəhvət hüquqları və s. artıq düşmüş olur, çünki, buna layiq olmurlar deyə Allah bu hüququ müsəlmanlara verir. Bu isə o cariyələrin bir növ İslama girmələrinə də vəsilə ola bilir.

"*Müsəlmanların heç çalışmayıb rahat həyat sürdüyünü iddia edənlər*" nədənsə unudurlar ki, onlar əsrlər boyu dünyada yeganə güc olmuş hegemon bir dövlətin heç bir iş görmədən ayaqda durmasını iddia etmək kimi gülünc bir iddianı irəli sürürlər. Buna cavab verməyə isə lüzum görmürük. İşləmək və işləməmək şəxsdən şəxsə görə dəyişən bir şeydir. İşsizlərin sayı da ölkədən ölkəyə dəyişən bir şeydir. Görünür ateistlər danışmağa söz tapmırlar .

• **"Soyğuna təşviqə" gəldikdə isə:** Bu da böhtandır. Hər şey rəsmi şəkildə edilir, ölkələr başqa böyük ölkələrin etdiyi kimi fəth edilir, məğlub ölkə müsəlmanlara müəyyən məbləğ ödəyərək aman içində olurdular. Bunu isə dövrün ölkələri, həmin dövrdən əvvəlkilər, eyni zamanda sonrakı xalqlar da tətbiq etmişlər. Lakin, nədənsə, müsəlmanların hərbi uğurlarının nəticəsində gəlir belə əldə etməsini həzm etməyən ateistlərə ateist ruhlu ölkələrin və o ölkə rəhbərlərinin törətdiyi əməllərdən danışdıqda hər dəfə mövzudan yayınırlar .

**Xülasə:** Əgər İslamda soyğuna, oğurluğa təşviq olsaydı, Quranda oğrunun əlinin kəsilməsi hökmü olmazdı. Əksinə, İslam dini oğurluğa, soyğuna və quldurluğa qarşı kəskin mövqe tutur və belə çirkin əməlləri şiddətlə qınayır.  Sonrakı cümlələrə də cavab verildi .

*Bundan sonra isə birinci bəndin son cümləsində deyilir:*

**«Kapitalizm dövründəysə Həcc bitməyən gəlir qaynağıdır».**

**Birincisi:** Səudiyyə Ərəbistanının gəlirlərinin az bir hissəsi həcdən gəlir. Həcc də Səudiyyə Ərəbistanından qabaq Osmanlının əlində idi. Osmanlı zamanında isə Həcc heç vaxt Osmanlı kimi nəhəng bir dövlətin gəlir mənbəyi olmayıb və ora getmək də pulsuz olub. Bu günkü xərclər də heç çəkilmirdi[52].

O ki, qaldı orada ticarətin olmasına, onsuz da istənilən bir infrastruktur olan yerdə ticarətin olması normaldır və bu dünyanın hər yerində var. Bu Allahın qoyduğu bir nizamdır və insanlar dolanmalıdırlar. Belə olduğu halda bu qədər insanların qarşılanması üçün otellər olmalıdır, infrastruktur olmalıdır. Bu gəlirlər isə bir-birini qarşılayır. Nə indiki Səudiyyə, nə də Osmanlı dönəmində Həcc dövlətin əsas gəlir mənbəyi olmayıb. Bu cüzi bir gəlir hesab olunmuşdur.

**İkincisi:** Həccin gəlir qaynağı olmasının narahat etdiyi şəxslər nədənsə, yay tətilində Antalyaya və başqa kurort yerlərinə xərclədikləri minlərlə manatları heç hesablamırlar, yeni il və Novruz şənliklərində və digər əlamətdar hesab etdikləri günlərdə yüzlərlə manatları xərclədikdə bu pulların dərdini heç çəkmirlər. Bu barədə də ətraflı bu məqalədən oxuya bilərsiniz: (Həccə xərclənən pulların dərdini çəkənlərə cavab[53].

---

[52] . Qeyd: indiki xərclərin haraya sərf olunması və təfsilatı da aşağıda keçidi (linki) verilmiş məqalədə qeyd olunmuşdur.

[53] Məqalənin linki: http://senxatirlat.com/hecce-xerclenen-pullarin-derdini-cekenlere-cavab/

# Allah varsa, nə üçün cənnəti yalnız müsəlmanlara vəd edir?

**Şübhə belədir:** *Cənnət və Cəhənnəm yaxşılar və pislər üçündürmü? İslamda cənnət yalnız müsəlmanlar üçündür, Cəhənnəmsə, sonda yalnız bu dinə inanmayanlar üçün. Yaratdığını yaxşı-pis demədən sadəcə bir dinə inanmadı deyə əbədi işgəncə edən Tanrı ola bilməz. İnsanları dininə görə imtahanın məntiqi olmaz.*

**Şübhənin cavabı:**

**A)** Bu məsələni yaxşı anlamaq üçün birinci yaxşılıq və pislik anlayışını düzgün başa düşmək lazımdır. Təbii ki, dini bilməyən, dindən anlayışı olmayan ateist düşüncəsi Allahın qəsd etdiyi həqiqi yaxşılıq və pisliyi ayırd edə bilməz. Çünki, sən səni bu dünyada insan olaraq yaradanı və bununla sənə yaxşılıq edən Allahı dəyərləndirməyən, ona ibadət etməyən insanın məntiqi nankorluq ilə Allahın qəzəbinə gəlməsinin təbii olmasını inkar edə bilməzsən. Tutaq ki, bu ateist barədə keçərlidir. Bəs başqa dinlər necə? Bu məsələdə də İslamda ziddiyyət yoxdur, Allah Qurani-Kərimdə onun qatında məqbul dinin yalnız İslam olduğunu bildirmişdir (Ali İmran surəsi, 19). Başqa dinlər isə iki qrupdur, ya insanların uydurduğu dinlər ki, bunlar dinlərin əksəriyyətini təşkil edir. Ya da Allah tərəfindən olub sonradan insanlar tərəfindən təhrif olunmuş dinlər kimi; bura da İsa və Musa peyğəmbərin yolundan sapan insanların yəhudi və xristianlıq dinlərini ortaya çıxarmaları və İsa və Musanın şəriətin təhrif etmələri daxildir. (Bu məqamda ateistlə müsəlmanın həmfikir olduğu məqam ortaya çıxır, ateistləri çaşdıran məqam,

həqiqəti görmələrinə maneə olan da bu məsələni tam anlaya bilməmələridir, bu məsələni qarışdırmalarıdır.

**B)** Nəyə görə məhz İslam dinini seçməli olduğumuz barədə isə daha ətraflı oxumaq istəyənlər bu linkə daxil olub məqaləni oxumaları tövsiyə olunur: Nə üçün məhz İslamı seçməliyik [(54)]؟!

Həmçinin, Allah bir dini qəbul etmədi deyə niyə əzab verəcək başqa insanlara? Bu sualın cavabını isə ətraflı şəkildə bu məqalədə oxuya bilərsiniz? (İslam çatmayıb başqa dinlərdə olanların aqibəti necə olacaq[(55)]?

***Qaldı ki, başqa insanların da bir insan kimi yaxşılıqlar etməsinə***: Uca Allah bunu qiymətləndirir və onlara bu yaxşılıqlarının əvəzini bu dünyada ikən verəcəyini, özü də bunun mükafatını artıqlamasıyla verəcəyini vəd etmişdir, bu barədə Müslimin «Səhih» əsərində peyğəmbərimizin verdiyi xəbər vardır .

Hətta, dini təhrif etmədən İsa və Musaya inanan həqiqi iman əhli, həqiqi İsa və Musanın şəriəti ilə gedənlər barədə də Qurani-Kərimdə ədalətli söz deyilmişdir:

«Hamısı eyni cür deyillər. Kitab əhli (yəhudi və xristianların) içərisində haqdan möhkəm yapışan bir camaat vardır ki, onlar gecələri səcdəyə qapanıb Allahın ayələrini oxuyurlar.» (Ali İmran, 113)

---

[54] Məqalənin linki: http://senxatirlat.com/ne-ucun-islam /

[55] Məqalənin linki: http://www.feqih.com/islam-catmayib-basqa-dinde-olanin-aqibeti-ne-olacaq-bir-subhenin-cavabi/

Məşhur İslam alimi ibn Kəsir, onların da həqiqi möminlərdən olan iman əhlindən olduqlarını qeyd etmişdir.

Burada da ateistlərin necə aldadıldığını, dindən xəbərlərinin olmadığı ortaya çıxır. Onların Quran ayələrini oxuyub yanlış mənalar çıxarmalarının bir daha şahidi oluruq. Bir daha İslamın İsa və Musanın həqiqi dininə qarşı olmadığının şahidi oluruq. Əksinə, İslamın təhrif edilmiş dinlərə qarşı olduğunun şahidi oluruq. Əgər ateisti aldatmasaydılar, bu barədə ateist biri dinləri öyrəndikdən sonra İslamın mövqeyinin necə möhkəm və sabit olduğunu anlayardı .

**C) Atalarının üzərində olduğu küfrü təqlid edən və bu küfr yol üzərində ölənlərə gəldikdə isə:** İslam alimlərindən ibnul-Qeyyim bu barədə belə demişdir:

"Haqqı bilməyə və öyrənməyə imkanı çatan, lakin, bunu etməyən kimsə ilə, haqqı bilməyə və öyrənməyə imkanı olmayan təqlidçilərin arasında fərq qoyulmalıdır.

Bu iki qism insanın biri (haqqı öyrənməyə) imkanı çatıb üz döndərən, özünə vacib olana qarşı laqeyd yanaşandır. Öyrənməkdən və bilməkdən aciz qalan kimsəyə gəldikdə isə, hansı ki, öyrənməyə imkanı çatmır, onlar da iki qismdirlər:

**Birincisi;** Doğru yolda olmaq istəyib xeyirdən təsirlənən, xeyiri sevən, lakin, (İslama, bu xeyirə) onu yönləndirən olmadığı üçün buna əli çatmayan, nə də bunu tələb edə bilməyən kimsə ki, belə bir kəsin halı fətrət əhlinin və (İslami) dəvətin çatmadığı kimsənin halı kimidir. (Red. yəni, üzürlüdür, onların da digər üzürlü kimsələrin imtahanından nəsibi vardır).

**İkincisi;** (Haqdan) üz döndərən, (haqqı) istəməyən, özü üçün (küfrdən) başqa yolu doğru görməyən kimsədir. Elə isə, birincisi deyir: Ey Rəbbim, əgər mən öz üzərində olduğum dindən daha xeyirlisini olduğunu bilsəydim həmin dini seçərdim. İkincisi isə öz halından razıdır, ona başqası təsir edə bilmir, nə də özünə küfrdən başqa yol axtarmır, belə birinin acizliyi və ya imkanı çatması arasında bir fərq qoyulmur. Baxmayaraq ki, birinci misaldakı şəxs də, bu da hər ikisi acizdirlər. Birincinin halı isə fətrət dövründə (doğru olan) dini axtarıb tapa bilməyən kəsin halı kimidir ki, o bütün səylərini göstərdikdən sonra acizlik və bilməməzlik halında qalır. İkincinin halı isə haqqı axtarmayab şirk üzərində ölənin halı kimidir»[56].

Elə isə bu məsələnin necə dəqiq olduğunu, Allahın necə Rəhmli və Ədalətli olması barəsində gəlin düşünək. Allah Qiyamət günü öz qullarına zülm etməz, onlara Rəhmli və ədalətli davranar. O həqiqətən də hər şeyə Qadirdir.

*Deməli, nəticə budur ki,* həqiqi yaxşılıq Allaha iman etməkdir, bu ən böyük yaxşılıq hesab olunur, özü də bu insanın özünə etdiyi ən böyük yaxşılıqdır. Ən böyük pis əməl isə özünü yoxdan Var Edən Allahı inkar etməkdir. Ən böyük pislik və nankorluq neməti verəni tanımamaqdır. İnsan özünə çörək verən, iş verən, dolandıran insana təşəkkür edir, onu sevir, lakin, özünü heç nədən, yoxdan yaradan Allahı tanımırsa, bu ən böyük nankorluq və ən böyük pislikdir. "Allah varsa, onu necə tanıyım?" deyənlərə deyirik ki, O Allahdan bizə mübarək kitab gəlib. Hələlik bu dünyada bizə özünü göstərmək istəmir, lakin, O dünyada ən böyük nemət Allahın Pak

[56] İbnul-Qeyyim, Tariqul-Hicrateyn, səh. 678.

üzünə baxmaq olacaqdır. Bu dünyada Ona inanmayanlar isə o dünyada da Allahı görməyəcəklər.

۞ ۞ ۞

## İslam haqdırsa, müasir dünyada niyə hər kəs müsəlman deyil?

**Şübhə belədir:** *İslam təbliğləmi yayıldı? Əgər islam təbliğlə keçmişdə kütləvi yayılmışsa, son yarım əsrdə hər cür rabitə, əlaqə çağında insanların ən az yarısının islama girməsi gərəkməzmi? Allahın təbliğ dini yollayışından 14 əsr keçsə də dünyanın 80% islama inanmır. Bu qədər insanı da bu dinə inanmır deyə əbədi yandırmağı planlayır. İslam əsrlər sürən savaşlar, xərac, basqıyla yayılmış və bu günə şəriət rejimlərin edam qorxusu, təhdid, təqlidlə gəlmişdir.*

**Şübhənin cavabı**: Gəlin şübhənin birinci hissəsini təhlil edək: "Əgər islam təbliğlə keçmişdə kütləvi yayılmışsa son yarım əsrdə hər cür rabitə, əlaqə çağında insanların ən az yarısının islama girməsi gərəkməzmi ?Allahın təbliğ dini yollayışından 14 əsr keçsə də dünyanın 80% islama inanmır".

**Birincisi:** Xeyir gərəkməzdi. Nisbi olan ədədləri nisbi ehtimallarla demək çox çətindir. Ümumiyyətlə, ehtimal özü dəlil deyil. Əksinə, bu ehtimalın özünü etibarsız edən başqa arqumentlər var .

**İkincisi:** Tam əksinə, İslamın keçmişdə kütləvi yayılması daha münasib idi. Çünki, keçmişdə kütləvi informasiya vasitələri ilə insanların əxlaqlarını pozmaq, beyinləri ən zəif inandırma gücü olan inanclara rəğbət yaratmaq imkanları və bu inancları, kiçik sektaları yaymaq imkanları bu günkü kimi əlverişli deyildi. Bu gün isə Qərb dairələri tərəfindən qəsdli şəkildə İslamın həqiqi simasını təmsil etməyən sufi sektaları, radikal şiə təriqətləri dəstəklənir, onlara yardımlar edilir, Qərb dünyasında "həqiqi İslam kimi" təqdim olunurlar. İslamın həqiqi mahiyyətini daşıyan həqiqi Qur'an və hədisə bağlı mötədil İslama qarşı isə müharibə edilir, İslamı təhrif edən təriqətlər gözdən pərdə asmaq üçün İslam kimi təqdim edilir, İslamın özünə qarşı isə bütün Qərb dünyasında islamofobiya (İslamdan qorxutmaq) siyasəti edilir .

Qərb dünyası yalnız Türkiyədəki kimi cümədən cüməyə namaz qılan, bir çox ölkələrdəki kimi düşmənlərinin bayramlarında şənlənən, ümumən namaz qılmayan, oruc tutmayan, zəkat verməyən, dildə özünə "müsəlman" deyib həqiqətdə İslamın əmr və qadağalarına riayət etməyən müsəlmanları görmək istəyir .

**Üçüncüsü:** Əksinə, "Bütün dünyanın İslama girməsi gərəkməzdimi?" Sualını verənlər, özləri yenə inanmadıqları şeyləri danışır, özləri inanmadıqları sözlərə başqalarını inandırmağa çalışırlar. Ona görə ki, həm İslam peyğəmbəri bu barədə xəbər verib, (Xəbər verib ki, insanlarların dinə kütləvi gəldikləri və dindən kütləvi uzaqlaşdıları vaxtlar olacaq) həm də ateistlər belə bir dövrdə insanların dindən uzaqlaşmalarını daha normal və daha təbii hesab edirlər. Bir sözlə, ateist iddiası və "söz oyunu ."

**Dördüncü:** Bu isə İslam dininin ümumi xülasə mövqeyidir ki, peyğəmbərimiz dünyanın sonuna yaxın dinsizliyin artacağı barədə hədislərində xəbər vermiş, həmin dövrdə hətta, insanlar dindən o qədər uzaqlaşacaqlar ki, bu zaman kəlimeyi-şəhadət deməyin belə fayda verəcəyini - bildirmişdir. Üzərində olduğumuz bu əsr şübhələr və şəhvətlər (ehtiraslar) əsridir. Belə bir dövrdə bir insanın ehtiraslara və şübhələrə aldanması daha təbiidir və daha çox gözləniləndir. Ona görə də bu cür iddiaları etmək çox yersiz və məntiqsiz yanaşmadır .

**Beşincisi:** Əksinə, belə bir çətin zamanda dünyanın 20 faizinin müsəlman olması özü insanlara bir ibrətdir. Məsələyə yanaşmada dünyanın az qala hər ölkəsində müsəlmanların mövcudluğu qabardılsa, daha münasib olardı .

**Altıncısı:** Bir çox ölkələrin İslama qarşı müharibə etməsi amili; Məsələn əhalisi milyardı keçən, az qala müsəlmanlarla bərabər olan təkcə Çin dövlətində (dünyanın 20 faizdən çox əhalisi yaşayan ölkə) rəsmi şəkildə İslama qarşı müharibə və mübarizə edilir, İslamın təbliğinin qarşısı ən amansız şəkildə alınır, Uyğur türklərinə qarşı müsəlman olduqları üçün soyqırım edilir. Dünya isə buna susur, hətta, "sülhpərvər" və "humanist" ateistlər də nədənsə susurlar. Xristian ölkələrə gəldikdə isə İslama qarşı elə orta əsirlərin səlib yürüşləri, yerlə yeksan edilən müsəlman şəhərləri də bura bir amil kimi daxil edilməlidir. İndiki dövrdə də bəzi xristian ölkələrindəki İslamafobiya dalğalarını da bura əlavə etsək, dünya mediasında qəsdli şəkildə İslamı qaralamaq kampaniyasının getdiyi bir zamanda İslamın dünyada niyə əksəriyyətin dini olmadığını

iddia etmək sadəcə savadsızlıqdır, dünyadakı proseslərdən bixəbər olmaq deməkdir.

**Yeddincisi:** *"Çoxluq və azlıq"* anlayışı həqiqət meyarı baxımından nə İslam dinində, nə qədim yunan fəlsəfəsində, nə müasir fəlsəfədə, nə də ateizmin özündə hüccət və dəlil hesab edilmir. Belə olduğu halda dünyanın 80 faizinin İslamdan uzaq olması çox normal bir haldır və heç də İslama qarşı dəlil deyil .

Gəlin, indi şübhənin növbəti hissəsini oxuyaq. Sonra isə ateist belə deyir:

"Bu qədər insanı da bu dinə inanmır deyə əbədi yandırmağı planlayır". Artıq ikinci şübhəyə cavab verərkən bu barədə danışmışdıq. Təkrar olmasın deyə bu məqaləni oxumağı tövsiyə edirik : (İslam çatmayıb başqa dində olanın aqibəti necə olacaq? [(57)].

**Sonra isə ateist deyir: "İslam əsrlər sürən savaşlar, xərac, basqıyla yayılmış və bu günə şəriət rejimlərin edam qorxusu, təhdit, təqlidlə gəlmişdir!".**

**Bu şübhənin cavabı:** İslam dininin yayılmasında bir çox amillər olmuşdur. Müsəlmanların dünyada güc sahibi olduğu dönəmləri daim qısqananlar olmuşdur. Nədənsə, bütün dünyaya əsrlərlə hökm edən bir dinin xurafat, cəhalət, elmdən uzaqlıqda vəsf edənlər özləri də nə danışdıqlarının fərqində deyillər. Yalnız güc yoluyla bu kimi şeylər özü də əsrlərlə qorunub saxlanıla bilməz. Çünki, tarixdə güclü dövlətlər çox olmuşdur. Lakin, İslamın yayılma səbəblərini bilənlər bunun yalnız savaşlar yoluyla olduğunu deyə bilməzlər .

[57] Məqalənin linki: http://www.feqih.com/islam-catmayib-basqa-dinde-olanin-aqibeti-ne-olacaq-bir-subhenin-cavabi/

• **İndoneziya** kimi böyük bir ölkədə İslamın müsəlman tacirlər vasitəsiylə, döyüş olmadan yayılmasını yəqin ki, ateistlər özləri də yaxşı bilirlər. Bir də İslamın dünyada hökm sahibi olduğu dönəmlərdə müsəlmanların dinin əmr və qadağalarına bu günkündən daha yaxşı əməl etmələrinin şahidi olarlar. Deməli, müsəlmanların mənəvi gücü İslamın daxilindən gəlir. Bu mənəvi güc isə elm və hikmət olmadan əsrlərdir xalqları bir arada cəm edə bilməzdi .

• **Malaziya**… Görəsən, hansı qılınc gücü ilə Malaziyada İslam yayılıb? Yaxud da hansı ordular oraya gedib? Hamısı Allahın müvəffəqiyyətindən sonra, müsəlmanların gözəl təbliği nəticəsində orada İslam yayılmışdır .

• **Hindistanın** tarixinə də bir nəzər salaq; Müsəlmanlar Hindistana təxminən min il boyunca hökmranlıq etmişlər, dini qəbul etdirmək üçün qılıncdan istifadə etməyiblər. Sən buna görə də dini qınaya bilməzsən.

Bu gün Hindistanın iyirmi faizi müsəlmandırsa, qalan səksən faizi hindus və başqa dinlərə etiqad edənlərdir. Lakin, görürsən ki, müsəlmanlar min il boyunca orada hökmranlıq etsələr də orada güc tətbiq etmədiklərinə, insanları qılıncdan keçirməklə dinə məcbur etmədiklərinə görə bu gün orada müsəlmanların sayı azdır. Əksinə, qlınc gücündən orada yaşayan yerli tayfalar və həmin din sahibləri istifadə edərək öz dinlərini qorumağa çalışmışlar.

• **Afrika**: Afrikanın şərqində, qərbində və bir çox yerlərində İslam təbliğçiləri vasitəsi ilə İslam dini yayılmışdır. Bəzən bir qəbilə başçısının İslamı qəbul etməsi ilə bütün qəbilə İslamı qəbul

etmişdir. Bəzən isə böyük bir dövlətin başçısının İslamı qəbul etməsi ilə o ölkədə İslam yayılmışdır. Bunlar hər biri tarixi faktlardır .

Bu dinin dəlilləri də sübut edir ki, İslamda etiqadı qəbul etdirmək məcburi deyil, könül xoşluğu ilədir. İslam dini insanların qəlbinə xitab edir. Bu səbəblə də bir insana dini zorla qəbul etdirmək yolverilməzdir. Əksinə, dini insanlara sevdirməli və onlara İslam dininin haqq olduğunu hikmətlə, gözəl öyüd-nəsihətlə başa salmalıyıq. İstəyən qəbul etsin, istəyən etməsin. Allahın da buyurduğu kimi: "De: Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın". (əl-Kəhf. 29)

"Biz səni onların üstündə gözətçi qoymamışıq". (əl-Ən`am, 107)

"Onlar iman gətirmədiklərinə görə az qala özünü həlak edəcəksən". (əş-Şüəra. 3)

"Dində məcburiyyət yoxdur". (əl-Bəqərə. 256)

Bu ayələr də bir daha sübut edir ki, etiqadı qəbul etdirmək məcburiyyətlə deyil, könül xoşluğu ilə olmalıdır.

Zorla bir dini qəbul edən bir insan çox asanlıqla da o dini tərk edir. Bir baxın İslami fəthlərin yayıldığı bir dövrdə, dünyanın böyük bir hissəsi İslam ərazilərinə qatıldığı bir zamanda belə müsəlman komandirlər Peyğəmbərimizin tövsiyyələrini yerinə yetirir, insanları öldürmür, onları məcbur etmirdilər ki, İslam dinini qəbul etsinlər.

Bu barədə daha geniş məlumat almaq istəyənlər buyurub bu məqaləni oxuya bilərlər : (Qılınc gücü müsəlmanı nə deməkdir?[58] .

## İslam əxlaqını tənqid etmək üçün gətirilən şübhələr

**Şübhə belədir:** *Əxlaq nəylə bilinər? Deyirlər ki dinsiz əxlaqı təməlləndirin. Bəs dinlər nə qədər əxlaqlıdır necə bilərik? Demək ki, ağıl və vicdan seçicidir. Dində söylənmiş yaxşı sözlərin olması gərəkən bəzəklərdir misalı budur: islam zina etmə deyir, amma, cinsi köləlik cariyəlik var (Nisa 24, 25 / Nur 33), misyar və mutə nigahı var; İnsan haqqı deyir, amma, köləlik var (Nəhl 75-76); Oğurlama deyir, amma, qənimət kimi talan var (Ənfal 1, 41, 69 / Fəth 19, 20); Zülm etmə deyir, amma, cihad- zorla dayatma və cizyə xəracı var (Tövbə 29); Ədalət deyir, amma, ədalətsiz qisas var (Bəqərə 178); Qadına dəyərdən bəhs edir amma döyməyi tövsiyə edir (Nisa 34), tək şahidliyini qəbul etmir (Bəqərə 282), mirasda yarım pay verir (Nisa 11). Bəzəksiz din olmaz, bəzəksiz din yaşamaz.*

### Şübhənin cavabı:

***Şübhənin əvvəlində deyilir:*** *"Deyirlər ki dinsiz əxlaqı təməlləndirin. Bəs dinlər nə qədər əxlaqlıdır necə bilərik? Demək ki, ağıl və vicdan seçicidir"*. Bu cümlədə "demək ki, ağıl və vicdan

[58] Məqalənin linki: http://senxatirlat.com/qilinc-gucu-muselmani-ne-demekdir/

seçicidir" sözü əsaslandırılmadan deyilir. Bu da "dinlər nə qədər əxlaqlıdır?" sualından sonra deyilir .

Desək ki, sonradan misallar verilib (hansı ki, cavabını verəcəyik az sonra) bu çəkilən misallar ya əsir düşmüş qadınla (Cariyə ilə) müsəlmanın evlənməsinin icazəli olmasıyla bağlıdır ki, burada əxlaqsızlıqdan söhbət gedə bilməz, müsəlman kişi əgər onun həyat yoldaşı kimi olursa, onunla həyat yoldaşıyla davrandığı kimi davranırsa, burda hansı əxlaqsızlıqdan danışıla bilər?

Ya cəzanın isbatı zamanı ***"şahid gətirmə"*** məsələsi, ya İslamda olmayan, İslam alimlərin çəkindirdiyi ***"evlilik növləri"*** (siğə və misyar nigahları) misal çəkilir ki, həm bu evliliklərdən müsəlmanların əksəriyyətinin xəbəri yoxdur, həm də ateistlər bunu İslamın üzərinə yazmaq istəyirlər.

- **Siğə nigahını** yalnız şiələr qəbul edir, halbuki, peyğəmbər bunu Xeybər günü açıq aydın qadağan etmişdir. Əhli sünnə mənbələrində bu batil evlilik növünü qadağan edən açıq-aydın mötəbər hədislər vardır.

- ***Misyar nigahına*** gəldikdə isə bu da normal evlilik sayılmır, insanların icad etdiyi evliliklərdəndir. Bunu icazəli edən nə Quran ayəsi, nə də hədislər var. Peyğəmbərin təlimində olmayan bir evlilik növünü də İslama nisbət etmək doğru deyil. Misyar nigahını qadağan edən alimlərin onlarla fətvaları var. Lazım olsa, bunun batil olmasını da dəlilləri ilə isbat etmək də mümkündür.

- Digər gətirdikləri misal isə döyüş vaxtı götürülən **qənimətdir** ki, bu bütün döyüşlərdə bu günə kimi tətbiq edilən bir şeydir. Heç kim düşməndən qalan silah sürsatı aparıb düşmənə vermir ki,

buyurun bu da sizə hədiyyə!)) bu misaldan da ateistlərin nə qədər yüngül şübhələrə əl atmaları görünür. Əxlaqa aid etiraz edib əxlaqa aid olmayan misallar çəkirlər .

• Yaxud da **cizyə vergisindən** danışılır, lakin, unudulur ki, bu canbahası vergisi tarixdə başqa millətlərdə də olub, İslam isə bunu özü ilə gətirməyib, sadəcə bunu inkar etməyib. Çünki, inkar etməməklə olmadan əmr etmək arasında fərq var. Əgər İslam dini bir şeyi təsdiqləyirsə, bunda mütləq ilahi hikmət vardır, ən azından müsəlmanların faydası vardır, hətta, bu kimi şeylərin qeyri-müsəlmanlara da faydası olur. Çünki, o bu vergini verməklə canını təhlükədən xilas edir. İslamı seçməklə isə bütünlüklə həm canını, həm malını xilas edir, həm də axirətini qazanır. Bu İslami mövqedir. İki yol varsa, ən gözəl yol da elə budur. Lakin, ateizmin məsələyə baxışı əslində Cizyə vergisiylə müsəlmanların gəlir əldə etməsinə qarşı paxıllıqdan yaranmışdır. Başqa xalqların da qarşı tərəfə bu cür vergilər tətbiq etməsindən isə nədənsə danışmırlar. "Onu da qeyd edək ki, toplanan qənimətdən qeyri-müsəlmanların zəiflərinə də xüsusi yardımlar edilirdi"[59].

Belə bir uca məqsəd və amalı olan bir dinə, öz etiqadına inanmayanların zəiflərinə xüsusi maddi yardım edən bir din doğurdan da böyük bir örnəkdir !

İngilis filosofu Tomas Karyel demişdir: "Məgər yalançılar iddia edirlər ki, Muhəmmədi dünya sevgisi və tamahkarlıq ayağa qaldırdı? And olsun ki, bu axmaqlıq, düşüklük və xəyaldan başqa

[59] Bax: Peyğəmbərin həyatı tarixindən döyüş əxlaqları, səh 241, qeyd: kitab ərəbcədir.

bir şey deyildir. Bu cür insanın ərəb ölkələrində hansı xeyiri və ya hansı ehtiyacı ola bilərdi? Qeysərin tacı, Kisranın səltənəti və dünyada olan bütün taclar və səltənətlərə nə ehtiyacı var idi? Bir qədər zaman keçdikdən sonra harda qaldı səltənətlər, taxt-taclar və bütün ölkələrin mülkü? Muhəmməd (Allahın Ona salavatı və salamı olsun) bu dünyaya həris deyildi, zahid biri idi, onun qaldığı yer təvazökar, yeməyi, içməyi, geyimi, bütün həyatı və hər bir halı çox sadə idi. Adətən yeməyi çörək idi, ya da xurma və su idi. Öz paltarını öz əli ilə düzəldər və yamayardı. Bunları edən insan heç lovğa və Özüylə fəxr edən biri ola bilərdimi?"[60].

• Amma, **cihad var** deməklə bunu əxlaqa zidd bir şey kimi təqdim etməklə də yenə sanki, başqa xalqlar döyüşmür, sanki, böyük dövlətlər bu günə kimi başqa ölkələrə soxulmur, sanki, ateist sistemli dövlətlər belə güc əldə etdikdən sonra ərazilərini genişləndirmək istəmirlərmiş kimi təsəvvür yaradılır, sanki, güclülərin öz güclərini daim genişləndirmək istəyi olmurmuş kimi məntiqi qanunauyğunluq inkar edilir. Bu cür misallar isə ateizmdə müsəlmanlar tərəfindən tənqid olunan sırf cəmiyyəti və insanları sıradan çıxaran əxlaq və vərdişlərin təsdiqlənməsinə etiraz olaraq qarşımıza qoyulmağa çalışılır .

Bu misallardan digərində isə öldürülməsini qisas və günahdan bu dünyada təmizlənmə olaraq vacib edən hökmə ateistlər tərəfindən etiraz edilir. Halbuki, Azərbaycanda 10 yaşlı qızı öldürüb (Nərmin adlı qız) sonra yandıran qatilə dindar olmayan

[60] Məhəmmədin mesajı, Tomas Karyel, səh səh 22-23.

insanların belə (sosial sorğuda) hər biri nəinki ölüm arzulayır, hətta, onun ən pis şəkildə öldürülməsini istəyirdilər[61].

İslamda cinayətkarları, insan öldürməyin şiddətli cinayət hesab edildiyi üçün onun cəzası da şiddətlidir. Lakin, ateistlərə sual verilsə ki, siz ümumiyyətlə cinayətkara cəza verilməsinin əleyhinəsinizmi? Deyəcəklər ki, yox. Deməli, cinayətkara cəza verilməsində bütün insanlar ittifaq ediblər. Cinayətkarın cəzasız qalması cəmiyyətləri məhv edən amillərdən biridir .

• Qaldı ki, **cinayətkar necə cəzalandırılmalıdır?** – məsələsinə, bunun təcrübəsi isə ölkədən ölkəyə fərqlənir. Bu günə kimi Amerika kimi inkişaf etmiş bir ölkənin bəzi ştatlarında ölüm hökmünün qalması, dünyanın başqa yerlərində müxtəlif cinayətkarların müxtəlif cür cəzalar alması da onu göstərir ki, kimsə cinayətkarın cəzalandırılmasını inkar etmir, ixtilaf olunan cinayətkarın hansı formada cəzalandırılmasıdır. Ateist isə deyə bilməz ki, o bütün dünyada tətbiq olunan ən yaxşı üslubu təklif edir. Biz müsəlmanlara görə isə qatilin ən yaxşı hökmünü Uca Allah vermişdir. İnsanlar isə qatilin hökmündə bəzi ölkələrdə olan məcburi qaydalara tabe olsalar da, həqiqətdə təqdim etdiyimiz sosial sorğudakı kimi dindar olmayan insanların bəzi cinayətkarların nəinki öldürülməsini istəmələri, hətta, ən pis şəkildə öldürülməsini istəmələrinin şahidi oluruq. Görəsən ateistlər bunu da müzakirə etməyi bacarırlarmı? Yoxsa, onlar sadəcə İslamı tənqid etmək üçün bir bəhanəmi axtarırlar?

---

[61] Həmin sorğunu bu keçiddən izləyə bilərsiniz: https://youtu.be/Oac8xA9jrUs

• **Qadını döymək məsələsi** isə burada yumşaq toxunuşdan söhbət gedir. Burada dəridə iz qoymayan, sümük sındırmayan, canı acıtmayan, qürura toxunan alçaldıcı tərzdə edilməyən yüngül vuruş nəzərdə tutulmuşdur. Bu isə bir neçə mərhələnin ən sonuncusudur. Ateistlər bu məqamı gizlədirlər. Hətta, insanlar bilməsinlər ki, yüngülcə kötəkləmək bütün islah yollarından sonra son çıxış yolu kimi təklif edilir .

**Bəs görəsən həmin islah yolları nələrdir?**

**Birincisi**: nəsihət etmək .

**İkincisi:** yataqları ayırmaq, bir yataqda yatmamaq və ya danışdırmamaq[62].

**Üçüncüsü:** bu yollar fayda vermədikdə böyüklərin gəlib nəsihət etməsi .

**Dördüncüsü:** Ən son olaraq çıxış yolu kimi bu metodlar fayda vermədikdə yüngülcə kötəkləmək[63] icazəli olur. Bundan sonra da fayda hasil olmazsa, qadınla boşanmaq son yol olaraq təklif edilir .

***Bütün bunlar qadının şiddətli itaətsizliyi hallarında edilə bilər.*** Hər xırda məsələdə məsələni şişirtmək isə məqsədə uyğun hesab olunmur. Göründüyü kimi ateistlər İslamdakı cəza metodlarının aliliyindən və şərtlərindən xəbərsiz, dindən bixəbərdirlər .

---

[62] yatağı ayırmaq dedikdə isə bir otaqda, lakin, ayrı yatmaq nəzərdə tutulur. Başqa otaqda yatmaq deyil

[63] dörd vəsfdə olmalıdır, dəridə iz qoymayan, sümük zədələməyən, canı acıtmayan, qürura toxunacaq şəkildə alçaldıcı yolla etmədən.

Bu barədə İslamın mövqeyini daha ətraflı oxumaq üçün bu keçiddən daxil ola bilərsiniz: (Qadına şiddət şübhəsinə cavab [64]).

**Tək qadının şahidliyinin qəbul olunması:** Bu məsələyə gəldikdə isə, İslamda deyilmir ki, qadının şahidliyi ümumiyyətlə qəbul deyil. Elə məsələ var ki, qadının şahidliyi kişinin şahidliyindən önə çəkilir, qadının şahidliyinə üstünlük verilir. Elə şahidlik var ki, hər iki tərəfin şahidliyi bərabər olur. Elə şahidlik var ki, iki qadının şahidliyi bir kişinin şahidliyinə bərabər olur. Bu isə yalnız dini məsələlərə aiddir. Məsələn, Ramazan ayının görülməsi və s. kimi mühüm işlərdəki şahidlik.

Lakin, qazi qarşısında şahidliyə, məsələn; **ərlə arvadın lənətləşmə şahidliyinə gəldikdə** isə burada qadınla kişi eynidir. Nur surəsi 6-cı ayədən 10-cu ayəyə kimi bu xüsusi məsələyə dəlildir .

*Elə hallar da var ki, qadının şahidliyi kişinin şahidliyindən üstün sayılır.* Məsələn; uşağı əmizdirmə və uşağın doğulması məsələləri. Bu barədə bir hədis də var ki, uşağın əmizdirilməsi məsələsində Peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) qadının öz lehinə şahidliyini qəbul edir, kişinin şahidliyini isə rədd edir[65].

Əslində bu şübhəni ilk dəfə şərqşünaslar gətirmişlər. Onlar şahidlik və şahid gətirmə məsələsini qarışdırıblar. Məsələn; borc

---

[64] Məqalənin linki: http://senxatirlat.com/ateist-ve-ya-serqsunaslarin-bir-subhesine-cavab-qadina-siddet/

[65] Hədis Buxaridə, Nigah kitabı, uşağı əmizdirənin şahidliyi babındadır, no: 4714.

ayəsi kimi mühüm bir ayədə iki qadının şahid olması birinin unutduğu zaman digərinin xatırlatması üçündür. Lakin, alimlərdən Şeyxulislam ibn Teymiyyə demişdir ki: «Əgər qadın etibarlılığı ilə tanınırsa, bu zaman bir qadının da şahidliyi keçərlidir»[66].

Sonra isə o bunu belə izah edir ki: «Adətən qadınların şahidlik məclisləri barədə təcrübələri olmur. Lakin, hansısa qadın bu məsələdə təcrübəsini, məharətini və bacarığını inkişaf etdirərsə, hətta, müxtəlif haqların və borcların ödənilməsinə edilən şahidliklərdə elə qadının şahidliyi bir kişiyə bərabər olar.» (Eyni mənbə) .

*Eyni zamanda qazinin iki tərəf arasındakı, problemi aradan qaldırması üçün şahidləri danışdırması zamanı qadın və kişi fərqi qoyulmur.* Qeyd olunduğu kimi bəzi xüsusi hallar var ki, bu fərq həmin hallara aid olur. Elə hallar da var ki, qadının şahidliyi daha mötəbər olur, artıq qeyd olundu. Elə hallar da var ki, hər iki tərəfin şahidliyi eyni olur. Bu da çox vaxt şahidlikdən istifadə edən qazilərin şahid danışdırması zamanı baş verir .

• **Mirasa gəldikdə** isə; mirasın bölüşdürülməsi zamanı dörd xüsusi halda qadının kişilərdən çox miras almasından da xəbərsizdirlər. Çünki, ateistlərin İslamdan xəbərləri yoxdur .

Təsəvvür edin, indi ateistlər bu sadaladığımız məsələləri özlərinin cəmiyyətlərin və insanların əxlaqını sarsıdan, ailələri dağıdan, ən çirkin əxlaqları təsdiqləyən, "əxlaq nisbidir" deməklə bütün pis əxlaqlara rəvac verən, mavilik, lesbiyanlıq,

---

[66] Muhəmməd Amməra, Həqaiqul-İslam fi muvacəhəti şubuhəat-əl-mustəşriqin, səh 560.

homoseksuallıq, hətta, ən yaxın qohumların belə evliliyinə, cinsi münasibətinə yetkin yaşda olmaq şərtilə normal baxan ölkəmizdəki bir çox ateistlərin, dünyadakı ateist "alimlərinin" iyrənc əxlaqi fətvalarını unudaraq İslamdakı ya əxlaqla əlaqəsi olmayan, ya mənası təhrif edilmiş hökmləri, ya da ümumiyyətlə İslamda olmayan məsələləri bizə misal çəkmələri doğurdan da qəribədir. Bütün bunların səbəbi onların ya İslamı bilməmələri, ya da bilmədən bilməyənlər tərəfindən öyrənmələridir ki, bu daha dəhşətlidir .Ateizmdəki əxlaq anlayışı ilə tanış olmaq üçün isə bu məqaləni oxumağı tövsiyə edirik: Ateizmdə əxlaq anlayışı [67].

## İslamda zinakar və təcavüzkarın cəzası haqda şübhəyə cavab

**Şübhə belədir**: *İslam iffəti necə qoruyur ? İslamda zina və təcavüz edənə cəza üçün 4 şahid tələb edilir (Nur 4, Nisa 15) Şahidli zina qrupda olar. Təcavüzü isə kim 4 şahid yanında edər? Təcavüzə uğramış qadın şahidi olmadan şəriət məhkəməsinə getsə, iftira təqsirindən dəyənək cəzasın alar. 4 şahid kimi məntiq xarici tələbin niyyəti qadını sosial həyatdan çıxarmaq üçün güvənliyini qaldırmaqdır.*

**Şübhənin cavabı:**

[67] Məqalənin linki: http://tovhid.info/ateizmde-exlaq-anlayisi/

Bu məsələdə də öyrəşdiyimiz kimi ateistin dini bilməməsi, bütün mövzulara qərəzli yanaşmağı özünə peşə seçməsi aydın görünür .

Fikir versəniz qadının zina etdiyinin dörd şahidi olmalıdır ki, bu isbat olunsun. Dörd şahid hər biri öz gözüylə zinaya şahid olmazsa, məsələn; üç nəfər şahid olarsa, bu mötəbər şahidlik sayılmır. Zinanın isbatıın yalnız dörd şahid yolu yoxdur. (Bu məsələ qarşıda izah olunacaq) Ateistlər bu şübhəni heç özləri də başa düşməyiblər. Bu şübhəni gətirməklə əslində özlərini gülünc vəziyyətə salıblar. Sübut nədir?

Sübut odur ki, əslində dörd şahid gətirmək şərti ona görə qoyulub ki, təmiz qadınlara iftira atılmasın. Əksinə, bu qadınları zina iftirasından qorumaq üçün, ittiham isbat olunmadıqda isə qadın üzürlü hesab olunur. Qadın özü etiraf edərsə və ya ərindən qeyrisindən hamilə qaldığı sübut olunarsa, (halbuki, müasir dövrdə bunu bilmək rahat bir şeydir) bu zaman dörd şahidə ehtiyac qalmır. Zinakar kişi də zinasını etiraf edərsə, yenə dörd şahidə ehtiyac qalmır. Qadının zina etdiyini deyən kimsə bunu sübut etmək üçün dörd şahid gətirməlidir .

Qadına təcavüz olunduğu zaman isə bunun əsli zina olsa da quldurluq halı baş verdiyi üçün bu zaman iki şahid də bəs edir və quldurluq edən quldurlara verilən cəza ilə cəzalandırılır. (Əl-Maidə 33). Əgər qadının öz istəyi ilə zina etdiyi iddia edilərsə, bu zaman dörd şahid gətirmək tələb olunur.

**Qadın özünə təcavüz edildiyini isbat etmək üçün məhkəməyə baş vurduğu zaman isə o bunu isbat edə bilməzsə, o məcbur edildiyini iddia etdiyi üçün qadının özünə də bir cəza düşmür.**

**Bu ateistlərin uydurmasıdır və ya bu məsələni yanlış anlamalarıdır. "Qadına dəyənək vurulur" deyənlər qoy dəlil gətirsinlər görək! Onlar heç nə danışdıqlarını və bu sözü haradan götürdüklərini bilirlərmi?** Qoy bizə bu yalanlarına mötəbər deyil, uydurma bir mənbə göstərsinlər, əgər bacarırlarsa, təbii ki …

Lakin, qadın məhkəməyə müraciət etdikdə məsələnin ətraflı şəkildə araşdırılmasını tələb edə bilər. Qadına təcavüz edən əgər doğurdan bunu edibsə, təcavüzkarın etiraf etməsi də kifayət edir, mütləq iki şahidə ehtiyac qalmır. İki şahid məhz təcavüz halında (qeyri təcavüz halında, iki tərəfin razılığı halında isə 4 şahid gərəkir), təcavüzkarın günahını etiraf etmədiyi zaman tələb olunur .

Qaldı ki, zinanın isbatı üçün 4 şahid tələb olunmasına, bunun başqa faydalarından biri də odur ki, bəzən əksinə olur, bir qadın hansısa kişini şərləyib onunla zina etdiyini iddia edir. Əgər zina ittihamı asan bir şey olsa və asan yolla insanları şərləmək mümkün olsa, onda həbsxanalar iftira ilə həbs olunmuş məhkumlar ilə dolardı. İslam dini isə bütün bu ehtimalların qarşısını alaraq zina iftirasının qarşısını alır. Dediyimiz kimi zinaya məcbur edilən qadının haqqını tələb etmək üçün zinaya məcbur edənin etirafı da bəs edir. Şükür Allaha ki, ölkəmizdə kimisə etiraf etdirmək çox asan bir şeydir. Əsas qadının doğru danışdığı məlum olsa, hansısa müsəlman ölkəsində çox vaxt zinaya məcbur edən insanı etiraf etməyə təşviq edirlər və o şəxs zina etdiyini danmır. Bunun yollarını cinayətlər üzrə ekspertlər, mütəxəssislər çox yaxşı bilirlər. Yəni, zinanın isbatı bu günkü gündə çox asan bir şeydir. Zina edənin spermasının nümunəsini və izini tapmaq da çox asan bir

şeydir. Lakin, hər tapılan sperma nümunəsi dərhal dəlil hesab edilmir, müəyyən şərtlərlə bu da məqbul olur. Çünki, bu cür də şərləmə halı ola bilər. Qadın hamilə olduqda, şükür Allaha ki, qeyd olunan yolla da çox asan şəkildə xəyanəti müəyyən etmək olur .

Qədim zamanlarda zinanın isbatı üçün «qafiyə elmindən» də istifadə olunurdu. Bu zaman mütəxəssis şəxs uşağın əl və ayaq uclarından və ya başqa bəzi orqanlarından müqayisəli şəkildə onun əsil atasını müəyyən edirdi. Bu üsulu da qeyd etdik ki, bu məhz müsəlmanlarda olan məşhur metod olmuşdur .

Bəzən insan hətta şəhvətinin qurbanı ola bilər. Yəni, məsələn; qadın və kişi bəzən zina etmək fikrinə düşər, bu səviyyəyə çatarlar, tək qalmaq vəziyyəti və zina etməyə münasib hər bir şərait olduğu halda birdən zina etmək fikrindən daşınıb tövbə etmək istəyə bilərlər. Ola bilsin ki, hər ikisi tövbə etsin və elə bu zamanda kimsə onları görsə, artıq şahidlik etməli olsa, bilmədən onlara böhtan atmış olacaq və onları etmədikləri bir əmələ görə şahidlik edərək onların ölümünə səbəb ola bilər. Halbuki, onlar həmin anda İslama görə tövbə etmiş sayılırlar.

Zatən Uca Allah məsələni dörd şahidə əsasən ona görə qaytarıb ki, insanlar tövbə edə bilsinlər. Yəni, bu işin isbatı çətinləşdikdə insanlar tövbəyə yönəlsinlər.

Onsuz da İslam tarixində heç kimi zina şahidliyi üstündə tutmayıblar. Ancaq rəcm (daşqalaq) edilənlər istisnadır. Onlar isə özləri gəlib günahlarını etiraf edənlər olmuşdur. Allah da ona görə dörd şahid məsələsini əmr edib ki, kimsə kimsəyə böhtan atmasın, həm də günah edənlərə tövbə fürsəti verilsin .

Özləri zina etməyi etiraf edənlərin cəzasına gəldikdə isə bu onlar üçün bu dünyada bir təmizlik olurdu.

Bəzi rəvayətlərdə isə peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) ona zina etirafı etməyə gələnlərin şiddətli zina cəza almaması üçün onları etirafdan yayındırmaq, "bəlkə belə olub? Bəlkə belə olub? Bəlkə sadəcə toxunmusan, bəlkə sadəcə öpmüsən?" buna bənzər sözlər deyərək üzürlər axtarması halı olsa da, insanlar özləri peyğəmbərin yardımını və cəzadan xilas olmağı seçmirdilər. Bu ona dəlildir ki, tövbə ediləsi yerdə, tövbə qapısı açıq, olduğu halda Allah insanları cəzalandırmaq istəmir. Peyğəmbər insanların cəzalanmaması üçün də köməklik edirdi. Bu isə o deməkdir ki, İslamdakı cəzalardan məqsəd insanların islahıdır, insanların təmizlənməsidir. Elə olmasaydı, peyğəmbər cəza istəyən kimsəyə üzürlər axtarmazdı. Elə olmasaydı cəzaların şübhə vasitəsilə, bəzən, kiçik bir şübhə ehtimalı cəzanın tətbiq edilməməsi, cəzanın tətbiqinin aradan götürülməsi qaydaları İslamda olmazdı. Şübhəni gətirmək başqa, onun tətbiqi və cinayətlərin aradan qaldırılmasındakı **fayda və nəticələr** isə Qərb dövlətləri ilə müqayisə olunmaz dərəcədə yüksəkdir.

*Xülasə, ateistlərin İslami dəlilləri necə öz istəklərinə uyğun təhrif etdiklərinin, onların dindən necə bixəbər olduqlarının yenə şahidi olduq .*

## On dörd əsrdir müsəlman olmağın faydası nədir?

**Şübhə belədir:** *Gerçək islam və əsri səadət; Şəriəti tətbiq ilk müsəlmanlar əsri səadət dönəmi yaşamışsa, sonradan şəriəti tətbiq edənlər niyə huzuru, rəfahı yaşamırlar? Əsri səadət iddiası həm belə tutarsız, həm dini qaynaqlarda yazıldığı kimi çaxnaşma, cənnətlə müjdələnmiş əzhabın bir birini kəsməsi, savaşlar və sömürücülük dönəmidir. 1000, 1400 il müsəlman olmağın nəticəsi nədir? Müsəlmanlar harda şəriəti tətbiq edirsə "gerçək şəriət yoxdur" deyib qüsuru xaricə atmaq da boş iş. Xarici qüvvələr nə şəriəti yazmadı, nə cəmiyyətin ağlına girmir .*

*"Gerçək şəriət yoxdur" demək üçün tətbiq edilən dinin başqa din olması gərəkər. Sekulyar ölkədə dini öz vicdanınla anlayıb "gerçək şəriət yoxmuş", "bu ayə başqa mənaya gəlir" demək asandır, amma, təməli cihad-dayatma olan dinin şəriəti praktikası kimidir. Quran xilas ediciysə, dünya dövlətləri hüququ buraxıb ayələri təqlid edərdi. "Dinimiz yaxşılıq gətirdi, şəriət inkişafdır" kimi sözlər var olan gerçəyi dəyişdirməz. Dinin nəzəriyyəsilə praktikası ayrılmaz.*

### Şübhənin cavabı:

**Şübhənin əvvəli belədir:** *"Şəriəti tətbiq ilk müsəlmanlar əsri səadət dönəmi yaşamışsa sonrası şəriəti tətbiq edənlər niyə huzuru, rəfahı yaşamırlar? Əsri səadət iddiası həm belə tutarsız, həm dini qaynaqlarda yazdığı kimi çaxnaşma, cənnətlə müjdələnmiş əzhabın bir birini kəsməsi, savaşlar və sömürücülük dönəmidir".*

**Birincisi:** Hər kəs bilir ki, həyatda xoşbəxtlik nisbidir. Muhəmməd peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) buyurmuşdur ki: *«Dünya möminin zindanı, kafirin cənnətdir»*[68]. Deməli, istər ilk müsəlmanlar, istər də sonrakı müsəlmanlar sufi təriqətlərinin vəsf etdiyi kimi xəyali bir xoşbəxtlik içində olmamışlar. Onlar da çoxlu həyat çətinliklərindən keçmişlər. Səhabə dönəminin ən böyük səadəti isə Muhəmməd peyğəmbəri (Allahın Ona salavatı və salamı olsun) birbaşa görmək və onunla ünsiyyətdə olmaq idi .

**İkincisi:** Əhli Sünnə alimlərinin əsərlərinə baxdıqda "Əsri-Səadət" ifadəsini işlədiklərini görmürük, əksinə, onlar "ən xeyirli əsr" sözlərini işlədiblər. Sual verilsə ki, "əsri-səadət" terminini bütün müsəlmanlar işlətmirlərmi? Cavab odur ki, xeyr. Araşdırma zamanı bu terminin yalnız bəzi sufi təriqətlərində işlədildiyinin şahidi olduq .

Artıq qeyd olundu ki, İslam alimləri "əsri-səadət" ifadəsini deyil, "ən xeyirli əsr" ifadəsini daha geniş işlətmişlər. Ən xeyirli müsəlman nəsil isə xətasız və məsum nəsil deyil, onlar peyğəmbəri görməklə şərəflənmiş və xeyir əməl etməkdə müsəlmanların xeyirə ən həris olanı, canları və malları ilə İslamın təbliğinə özlərini həsr edən, xeyir işlərdə yarışan insanlar olmuşlar. Onlar İslamın yayılması üçün çoxlu əziyyətlərdən, işkəncə və zülümlərdən, müharibələrdən keçmişlər. Müharibələr isə ilk dönəmdə özlərini müdafiə etmək üçün idi. Məkkə şəhəri isə peyğəmbərin vəfatına az qalmış döyüşsüz fəth olundu. Peyğəmbər öz düşmənlərini bağışladı və misli görünməmiş bir böyüklük, müdrikkik etdi .

---

[68] Səhihi Müslim, 4/ 2272.

**Üçüncüsü:** Səhabələr ixtilaf etsələr də Allah Qurani-Kərimdə onları «mömin» adlandırmışdır və onların hətta bir-birilə vuruşmasının mümkün olmasını qeyd etmişdir:

"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini yerinə yetirməyə qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevinir". (Hucurat. 9).

Həmçinin, Allah səhabələri, tabeinləri və başqalarını günahsız, məsum və xətasız adlandırmamışdır ki, kimsə onların ixtilaflarını hüccət hesab etsin. Əgər ixtilaf etmək özü özlüyündə hüccət olsaydı, onda hər kəs başqa tayfanın ixtilafını istədiyi yerə yozardı. Lakin, ixtilafların mahiyyəti bilinmədən ixtilaflara doğru qiymət vermək mümkün deyil. Bizim bu məsələdə bir müsəlman olaraq etiqadımız isə səhabələr arasında olan ixtilaflar haqqında susmaq, artıq sözlər danışmamaqdır. Çünki, artıq Allah onlardan razı idi. Bu Quran ayəsindəki qeyd olunduğu kimi:

"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin, yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Allah onlar üçün ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur". (Tövbə, 100).

**Dördüncüsü: «1000, 1400 il Müsəlman olmağın nəticəsi nədir?»** sualına gəldikdə isə, baxır hansı insan nəyi nəticə kimi qəbul edir, nəyi yox! Əgər "nəticə" dedikdə ictimai və iqtisadi

inkişaf nəzərdə tutulursa, bu inkişaf müsəlman ölkələrində biri-birindən fərqlənir. Kimisində çox, kimisində isə az. Əgər bu inkişaf hərbi sahədə nəzərdə tutulursa, dünyanın bir çox ölkələrini qabaqlayan Türkiyə və Pakistan ordusu vardır. Əgər siyasi cəhətdən nəzərdə tutulursa, bu zaman da siyasi arenada öz sözünü deyən bu və digər güclü müsəlman ölkələrini görə bilərik.

Osmanlılar, Əməvilər, Abbasilər, Eyyubilər və s. bir çox İslam dövlətləri on üç əsr dünyaya sırf Quranla hakim olmuşdular. Məgər bu nəticə deyilmi? Qısa bir müddət ərzində peyğəmbərin vəfatından 30 il keçmiş iki böyük imperiyanı (Bizans və Fars imperiyaları) dizi üstə çökdürmək Quranın, İslamın bir nəticəsi deyilmi? Müsəlmanlar son Osmanlı dövlətinin zadəganlaşmasından, masonlaşmasından, Qurandan uzaqlaşmasından sonra zəiflədilər. Yox əgər siz dediyiniz kimi Qurana tərəf getdikcə zəifləsəydilər, onda deyərdiniz ki, düz deyirik. Lakin, biz tarixə baxanda bunun əksini görürük; **Nə vaxt ki, müsəlmanlar Qurandan, hədislərdən, İslamdan möhkəm yapışıblar, o vaxt dünyanı fəth ediblər. İslamdan uzaqlaşdıqca, Avropaya oxşamağa çalışdıqca isə zəifləmişlər.** Ona görə də bu arqument siz ateistlərin əleyhinədir. Artıq dünyada müşahidə olunan budur ki, müsəlmanlar dinlərinə qayıtmağa çalışdıqları üçün artıq dünya ölkələrində müsəlmanların sayı artır, müsəlmanların nüfuzu, elmi dərəcələri güclənir. Ümumiyyətlə, hər bir qalxışın bir düşüşü də gözlənilən ehtimaldır. Əgər qalxışın səbəbi Qurandırsa, düşüşün səbəbi isə Qurandan uzaqlaşmaqdırsa, bu sizin əleyhinizədir!

Lakin, söhbət sırf son bir əsrdə, Osmanlı xilafətinin dağılmasından sonra müsəlmanların zəifləməsindən gedirsə, bunun səbəbləri və nəticələri ayrı geniş mövzudur .

**Əgər "nəticə" dedikdə mədəniyyət nəzərdə tutulursa**, məncə böyük İslam mədəniyyəti barədə danışmaq üçün sadəcə ensiklopediyalara müraciət edilməsi yaxşı olardı. Bu isə cildlərlə kitabların mövzusudur .

İspaniyadan Çinə qədər dövlətlərin az bir vaxtda müsəlmanların əlində cəmləşməsi, Əməvilərin dövründə müsəlmanların Fransaya qədər gedib çıxmaları, minlərlə kitabxanaların, ilk universitetlərin, elmi araşdırma mərkəzlərinin qurulması İslam aləmində qurulması məgər İslam dövlətləri dövründə baş verməmişdirmi? Məgər bütün bunlar elmə əhəmiyyət verən, əvvəli «Oxu» əmri ilə başlayan Qur'an kitabına sarılan, peyğəmbərin sünnəsinə (yoluna) sarılan bir dinin səmərəsi deyildimi?

Napalyon Fransada şəhər quruculuğunda qanun və hüquqları təşkil edərkən Maliki fiqhindən istifadə etmişdir. Fransada qanunların 70 faizi Maliki fiqhindən götürülmüşdür. Fransa hüquq sahəsində dünyada ən güclü ölkələrdən biri olmasına baxmayaraq, müsəlmanların əsrlər öncə çatdıqları insan haqları və şəhər qanunları, şəhər mədəniyyəti sahəsində əldə etdikləri nailiyyətlərə yalnız bu əsrdə çata bilmişlər. Bu barədə ətraflı oxumaq üçün möhtəşəm bir doktorantura elmi işinə, “Maliki fiqhinin Fransanın şəhər qanunlarına təsiri" adlı əsəri oxuya bilərsiniz. Müəllifi İbn Xaddə Həmzədir. Əsərdə Fransız və Avropa alimlərinin öz dillərindən etiraflar nəql olunur. Bir ikisini qeyd edək:

Məşhur fransız şərqşünas alim Luis Seddilot (1808-1875) öz «Xatirələri»ində demişdir: «Həqiqətən də Fransa höküməti şəhər qanunlarının inkişafında istifadə etmək üçün Maliki məzhəbinin fiqhinin fransız dilinə tərcümə olunmasını əmr etmişdi.» Fransız tarixçi araşdırmaçı David de Santillana (1845-1931) demişdir: «Bizim İslam qanunlarından qazandığımız müsbət şeylərdən biri də bu (fransız) qanunlarıdır».

Bu barədə danışsaq, çox uzanacaq, inşəAllah ayrıca bir məqalə şəklində gələcəkdə bu məsələni vəsf etmək olar .

Lakin, gəlin hey elmdən danışan ateistlərə təkcə təhsil sahəsində Qurandan və sünnədən qaynaqlanan İslam mədəniyyətinin Qərbi necə qabaqlamasına bir universitet misalı verək:

**Dünyanın ilk universiteti** Əməvilər tərəfindən Məğribin Fas məntəqəsində miladi tarixlə **859-cu ildə inşa edilən *Keyruvan* universitetidir.** Ancaq Qərb dünyasında ilk universitet isə müsəlmanlardan 229 il sonra, 1088-ci ildə İtaliyanın ***Bolonya*** şəhərində inşa edilmişdi.

Dünyanın qeyd olunan ilk universitetində indiki kimi hündür oturacaqlardan istifadə olunur və elmi dərəcələr verilirdi.

**İslam dünyasında bundan daha qədim universitet də var** (Tunisdə miladi tarixlə 737-ci ildə inşa edilən Zeytunə universiteti), Lakin, **UNESKO** birinci qeyd etdiyimiz müsəlman universitetini dünyada ən qədim universitet hesab edir. Əgər Zeytunə universiteti dünyada ilk universitet kimi təsdiqlənsə, onda Avropa və müsəlmanların təkcə universitet sahəsində dünyəvi

elmlərə verdikləri əhəmiyyətdən dolayı inşa etdikləri dünyəvi elm ocağı tarixi arasında 350 illik bir fərq təsdiqlənmiş olacaqdır.

Bağdaddakı Nizamiyyə Mədrəsələri isə 1067-ci ildə yenə qərbdəki tədris mərkəzlərindən 11 il öncə fəaliyyətə başlamışdı.

Əgər "nəticə" dedikdə "bəs müasir elm sahəsində müsəlmanlar nə əldə ediblər?!" deyə soruşulsa, aşağıdakı keçiddən (linkdən) müasir müsəlman alim və ixtiraçılardan bəzilərinin elmə xidmətləri ilə tanış ola bilərsiniz: Müsəlman alimlərin nailiyyətləri[69].

**Şübhənin davamı belədir:** *«Müsəlmanlar harda şəriəti tətbiq edirsə "gerçək şəriət yoxdur" deyib qüsuru xaricə atmaq da boş iş. Xarici qüvvələr nə şəriəti yazmadı, nə cəmiyyətin ağlına girmir. Gerçək şəriət yoxdur demək üçün tətbiq edilən dinin başqa din olması gərəkər. Sekulyar ölkədə dini öz vicdanınla anlayıb "gerçək şəriət yoxmuş", "bu ayə başqa mənaya gəlir" demək asandır, amma, təməli cihad-dayatma olan dinin şəriəti praktikası kimidir ».*

**Şübhənin bu hissəsinin cavabı:** "gerçək şəriət yoxdur" demək inanılan deyil ki, əksər müsəlmanların sözü olsun. Biz ad çəkmədən qeyd edirik ki, gerçək şəriətin tətbiq olunduğu müsəlman ölkələri olduqca azdır. Lakin, buna rəğmən "yoxdur" demirik. Qüsur isə İslamda deyil, müsəlmanlarda ola bilər .

Eyni zamanda ateistlərin bu yazısında da, din xofu, müsəlmanlar tərəfindən uzaqlaşdırılan radikalların törətdikləri əməllərin xofu hiss olunur. Halbuki, ateistlər radikallara qarşı əsas mübarizəni elə dindarların özlərinin etdiyini görə bilərlər. Əgər bu

[69] Müsəlman alimlərin nailiyyətləri . keçid linki: https://youtu.be/i8iJhZBYSts

mübarizəni İslam mənsubları edirsə, bəzi radikalların əməlləri İslam adına niyə yozulmalıdır ki?

"*Gerçək şəriət yox imiş"* kimi sözlər işlədənlər isə şəriəti bilməyənlərdir. Çünki, bəzi insanlar gerçək şəriətin yalnız səhabə dövründə yaşandığını deyə bilərlər. Bu isə doğru deyil. Çünki, Muğira ibn Şubədən rəvayət olunur ki, peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) buyurmuşdur ki:

«Ümmətimdən (davamlı şəkildə) Allahın əmrlərini yerinə yetirənlər olacaqdır. Onları yardımsız qoyanların və onlara müxalif olanların onlara bir zərəri olmaz. Allahın əmrini gəlincəyə kimi onlar bu cür insanlar içində (haqq ilə) zahir olacaqlar»[70].

«Bu ayə başqa mənaya gəlir» demək isə, çox vaxt ayənin mənası, ayənin hansı tarixi şəraitdə nazil olmasından xəbərsiz olmaq, ya da mənanı təhrif etmək və s. kimi hallarda olur. Ayələrdə Allahın əsil muradını ateist də, savadsız müsəlman da yanlış anlaya bilər. Quranın çox ayələri anlaşılandır. Söhbət mütəşabeh, yəni, mənası birbaşa anlaşılmayan, təfsirə ehtiyac olan ayələrdən gedir .

Sonra isə yenə qərəzli şəkildə danışan ateistlərin *"cihad-dayatma"* kimi sözlər danışması, İslamdakı döyüş məfhumunu düzgün anlamamaqdan qaynaqlanır. Gəlin bu məqaləni axıra kimi oxuyaq: "İslamdakı döyüş məfhumuna yanlış baxışlar[71]".

**Şübhənin növbəti son hissəsi:** *«Quran xilas ediciysə, dünya dövlətləri hüququ buraxıb ayələri təqlid edərdi. "Dinimiz yaxşılıq*

---

[70] Səhihi Muslim, 1037.

[71] Məqaləyə keçid linki: http://tovhid.info/islamda-doyus-mefhumuna-yanlis-baxislar/

*gətirdi", "şəriət inkişafdır" kimi sözlər var olan gerçəyi dəyişdirməz. Dinin nəzəriyyəsilə praktikası ayrılmaz ».*

**Birincisi:** Quran əsrlərdir müsəlmanları irəli apardı. Onlara doğru yol göstərdi. Onları dünyəvi elmlərdən geri salmadı. Tək axirəti fikirləşməyi deyil, «Dünyadakı nəsibini də unutma» (Qasas, 77) deyə buyurdu. O zaman ki, müsəlmanlar Qurana və peyğəmbərin sünnəsinə (hədislərdə gələn yoluna) sarılmağı, bununla əməl etməyi tərk etdilər, artıq zəifləməyə başladılar. Müsəlmanları zəifլədən ən mühüm amillərdən biri də Osmanlı dövlətinin 5 böyük dövlət tərəfindən təklənərək savaşda məğlub olması idi. Sizcə Osmanlını parçalayan beş güclü ölkə Quranla əməl etmək istəyərdimi?

**İkincisi:** Quran bir dini kitabdır. İslamın müqəddəs kitabıdır. Hüquq sahəsində də, insan haqları barədə də Quranda ayələr var. Bunlardan biri də bu ayədir: «Kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki, bütün insanları öldürmüşdür». (Əl-Maidə, 32) İslamda quldurlara, insan haqlarını pozan təcavüzkarlara ən şiddətli cəzalar vəd edilmişdir. Varlıların öz mallarından kasıblara verməsinin vacibliyi vurğulanmışdır. İslam dini nə ifrat kapitalizmi, nə də ifrat sosializmi dəstəkləyir. Bu Allahın dinidir və o bu sosial cərəyanlardan ən yaxşısını qullarına şəriət olaraq göndərmişdir. Ağılı başında olan hər kəs İslamın nə mütləq şəkildə kapitalizmin, nə də sosializmin yanında olmadığını görə bilər. İslam iqtisadi sahədə orta yol tutmuşdur. Kasıblara xüsusi əhəmiyyət verir. Kasıb və varlı təbəqəsinin balansını gözəl şəkildə tənzimləyir. Ailə haqları, qadın və kişi hüquqlarını qoruyur, qohumluq əlaqələrini möhkəmləndirməyi əmr edir. Yaşlı, qadın və

uşaqlara rəhimli olmağı, daim onları qorumağı əmr edir. Bu barədə çox danışmaq olar .

Quran dini kitab olsa da orada insan haqlarına geniş toxunulmuşdur. Lakin, "Quranda hər şey niyə yazılmayıb deyənlər" sanki, "Azərbaycan konstitusiyasında niyə zürafə və tısbağalar haqqında danışılmayıb?" deyən insana bənzəyir. Cavab odur ki, Azərbaycan konstitusiyası qanun kitabıdır, zoologiya kitabı deyil. Quran da İslam dininin müqəddəs kitabıdır, halal və haram, əmr və qadağalara aid, insanın dünya və axirət səadəti üçün bu kitabda hər şey yazılmışdır .

Bu barədə daha geniş oxumaq üçün bu məqaləni oxumağı tövsiyə edirik: "Quranda hər şey yazılıbmı(72)?".

**Üçüncüsü:** İslamda ölkənin idarəsi, insanların yaxşı yaşaması, ölkənin inkişafı üçün Qurana və sünnəyə müxalif olmayan qanunların qoyulması da qadağan edilmir. Ölkə başçısının olması, ölkəni İslama zidd olmayan, xalqın xeyrinə olan qanunlarla idarə etməsi qəbahət hesab edilmir. İslam bu baxımdan bütün zamanlara və məkanlara uyğunlaşır. Bu baxımdan şəriət xalqın mənafeyinə xidmət edən, şəriətə zidd olmayan qanunları icazəli görməklə inkişafa vəsilə olur. İslam insanlar arasında xeyiri, birliyi, sülhü yayır, xalqlara yaxşılıq gətirir .

«Dinin nəzəriyyəsi ilə praktikası ayrılmaz» deyənlər isə birinci dinin nə dediyini yaxşı bilməlidirlər. Dini doğru məsdərlərdən öyrənməli, islamafoblardan öyrənməli deyillər.

---

[72] Məqalənin linki: http://www.feqih.com/quranda-her-sey-yazilibmi/

## "Nümunəvi müsəlman ölkəsi yoxdur" – cümləsi şübhə kimi belədir: *«İslam ərəb mədəniyyəti olduğu üçün örnək şəriət ölkəsi olmadığı kimi örnək müsəlman cəmiyyəti imkansızdır».*

**Cavab belədir:** Bu cümlədə də yenə İslamı ərəb mədəniyyəti adlandıranlara yuxarıdakı «Ərəbin dini, yoxsa, bütün dünyanın dini?» adlı məqaləni oxumağı tövsiyə edirəm. Sonra isə demək istəyirəm ki, dünyada mütləq örnək ölkə tapmaq sadəcə xəyaldır. Görəsən ateistlər örnək deyəndə nəyi qəsd edir? Çox maraqlıdır? Həqiqətləri təhrif edən, İslama qərəzli yanaşan şəxslərə nə qədər örnəklər göstərsən, necə bir mız qoyacaqlar. Əslində "örnəkdən" danışan ateistlər özləri örnəkləri görmək istəmirlər. Adicə İslamın gözəlliklərindən danışanda və ya hansısa İslam ölkəsindəki örnək hallardan danışanda bunu həzm etməyən şəxslər, bizə "nümunəvi ateist ölkə" göstərə bilmədikləri halda özləri bizdən kamil örnək cəmiyyət təqdim etməyimizi istəyirlər. Kamil və xətasız cəmiyyət tarix boyu olmayıb. Lakin, İslam tarixində (istər indi, istər də keçmişdən misallar çəkmək olar) çoxlu örnək İslam dövlətləri, həmçinin, örnək hadisələr və örnək şəxsiyyətlər olmuşdur ki, bunlar barədə danışmaq üçün bir yazara kiçik bir yazı bəs etməz, cildlərlə kitablara ehtiyac duyular. Səhabələrin deyil, bəzən bircə səhabənin həyatından danışmaq, öyrənmək üçün bir kitab ancaq bəs edir. Görün indi peyğəmbərin zamanından sonra gələn İslam dövlətləri, onların nailiyyətləri, islahatları, Əməvilər, Abbasilər, Məmlukilər, (Eyyubilər), Osmanlılar və s. kimi İslam dövlətlərinin zəngin tarixləri, bəşər tarixinə böyük xidmətləri necə? İndiki dövlətlərin isə 60-70 il əvvəl işığı belə olmayan Səudiyyə Ərəbistanının sürətlə iqtisadi və ictimai ikişaf etməsi, İslam şəriətininin qanun olması, İslami cəzaların qüvvədə olması, sağlam İslam əqidəsinin olması və

s. çoxlu amillər, həmçinin, tamamilə İslam şəriətilə idarə olunan Bruney ölkəsini misal çəkmək olar .

Komor adalarında İslami idarə 1912-ci ildə Fransız işğalçıları tərəfindən aradan qaldırıldı. İyirminci əsrin əvvəllərində Şimali Afrikada olan bir çox İslam şəriəti ilə idarə olunan ərazilər Fransız və başqa qərb orduları tərəfindən sıradan çıxarıldı. Bir sözlə İslam şəriətinin aradan qalxması üçün əsrlərdir qərb ölkələri əllərindən gələni edirlər. Elə Osmanlı imperiyasının 5 ölkə tərəfindən təklənərək dağıdılması da bu planın tərkib hissəsi idi .

Bu gün isə Pakistan, Əfqanıstan, İndoneziya, Misir, Türkiyə, Sudan, Efiopiya və başqa bir çox müsəlman torpaqlarında şəriətin sıradan çıxarılması üçün görülən uzun illərin tədbirləri və fikir müharibəsi öz nəticəsini verməkdədir. Bunlar bu fikir müharibəsini görməyən, hər bir vəchlə İslamla vuruşan, İslam torpaqlarından Suriya, İraq və neçə-neçə əraziləri viran qoyan, torpağını işğaldan işğala salan, xalqını qətl edən, şəriətə düşmən kəsilən böyük güclərin islama qarşı müasir siyasətidir. Bu müasir siyasət bütün müsəlman torpaqlarında münaqişə ocaqları yaradaraq müsəlmanları məşğul etməyə hesablanmışdır. Myanmar, Borma, Uyğur müsəlmanlarının başına gətirilən xarici işgəncə və əzablar, ölüm və təhdidlər, həbslər unudulmamış və unudulmayacaqdır. Liviya, Misir və bir çox müsəlman ölkələrində böyük ölkələrin təxribatı ilə böyük mitinqlər və inqilabların olması, bütün İslam ölkələrində oyunların çıxarılması, Türkiyə kimi iqtisadi və siyasi cəhətdən güclü bir dövləti bir gecədə uğursuz inqilaba qaldıranlar da kimlər olduğu bəllidir. Bütün dünyanın "ədalət, azadlıq, birlik" şüarları qaldıran yalançı demokratları, liberalları, secularistləri,

humanistləri və s. kəsimlərin bu zülmlər önündə susmaqdan başqa əllərindən bir şey gəlmir. Ateistlər isə dünyanın bu halına, müsəlmanların başına gələnlərə sevinərək "humanistliklərini" unudurlar. Sonra isə bütün dinsizlərin və hətta bütün dinlərin oxlarının yönəldiyi müsəlman ölkələrinin niyə kamil şəriətlə idarə olunmamasından danışırlar. Müsəlman ölkələrini dağıtmaq, əxlaqını korlamaq üçün Mason lojalarının ələ aldıqları müsəlman övladları, İslamı dağıtmaq üçün, İslamın zəif yerlərini öyrənmək üçün İslam ölkələrində qurulan, bir əsrdən çox tarixi olan şərqşünaslıq mərkəzlərinin fəaliyyətləri, bu fəaliyyətlərin nəticəsi olaraq böyük güclərin ortaya çıxardıqları "İşid", "əl-Qaidə", Həşdi Şabi"," Hizbullah" və s. terror qruplaşmalarını silah-sürsatla təmin edib İslama və müsəlmanlara ləkə etmələri, dünya mediasının İslamofobiya təbliğatından geniş istifadəsi və s. amillər İslam şəriətinin birdəfəlik aradan qaldırılması üçün nə qədər işlər görülməsinin kiçik bir misaldır.

## Ögey qızla evlənmək şübhəsi və cavabı (Nisə. 23).

**Şübhə belədir:** *«İslam dini ögey qızla evlənməyi icazəli görür, nisə surəsi 23-cü ayəni oxuyarkən elə başa düşürük».*

**Şübhənin cavabı**: Nisə 23-cü ayəyə gəldikdə isə bir çox ateistlər bu ayəni şübhə kimi gətirməkdən çəkinirlər, bunu şəxsi təcrübəmdən deyirəm. Bu yazını yazan ateistin bu qədər cürətlə az

sonra oxuyacağınız şübhəni gətirməsi isə sadəcə şübhənin cazibədar başlıqlı "İslamda ögey qızı ilə evlənməyə icazə verilir" şəklində təqdim edilməsi və məsələni araşdırmayan, hər eşitdiyinə inanan insanların mövcudluğunun nəzərə alınması ilə əlaqəlidir. İndi isə gəlin insafla bu ayədə əslində nədən söhbət getdiyini və söhbətin məcrasını haqsızcasına, savadsızcasına hansı istiqamətə yönləndirilməsinə fikir verək. Deməli, ayədə evlənilməsi haram olan qadınlardan danışılır. Ayənin anlaşılması gərəkən yeri belə başlayır:

« **yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan ögey qızları, (da sizə haram edildi)**». Yəni, ayədə çox gözəl izah verilir. Asan anlaşılsın deyə, deyək ki, əgər dul qadınla evlənsəniz və o qadının keçmiş ərindən olan qızı və ya qızları varsa, siz evləndiyiniz həmin dul qadınla cinsi əlaqədə olsanız, fərq etmir, həmin dul qadını toydan bir neçə gün sonra və ya bir neçə il sonra boşamaq halı baş verərsə, o qadının qızları sizin ögey qızlarınız hökmünə düşmüş sayılır və siz o qadını boşasanız belə aranızda yaxınlıq olduğu üçün siz o qadının qızlarını da ala bilməzsiniz. Bu ayənin mənası asan anlaşılıb deyə mənaca bu cür izah etdik. Ayənin davamı isə belədir və şübhə gətirdikləri yeri də bu yeridir: «Yox əgər o qadınlarla yaxınlıq etməmişsinizsə, onda bu (ögey qızlarınızla evlənməyiniz) sizə günah deyildir".

Gəlin bu ayəni ateistlərə deistlərə və qeyrilərinə izah edək:

**Birincisi:** Məlum olduğu kimi adətən dul qadın ilə evlənən və onunla yaxınlıq etmədən boşanan hallar nadir hallar hesab olunur .

**İkincisi:** Bu hallar nadir hal da olsa, yaxınlıq olmadan olan boşanmalar evlilikdən dərhal sonra olur. Yəni, evlənirlər, gərdəyə girmək halı baş tutmur və dərhal boşanma halı baş verir. Ayənin şübhə gətirilən hissəsində də məhz bundan söhbət gedir. Yəni, həmin qadına toxunulmayıb və boşanma baş tutub. Həmin qadının qızı isə keçmiş ərindən olan qızıdır, öz qızı deyil. Belə bir hal olarsa ki, nə vaxtsa, həmin şəxsin evlənib dərhal yaxınlıq olmadan boşadığı qadının qızıyla evlənmək fikiri olarsa, bunu etmək ona günah olmaz. Lakin, əgər onlar toydan bir gün sonra boşansalar belə, əgər cinsi yaxınlıq baş vermişdirsə, bu zaman həmin kişi boşadığı dul qadının başqa kişidən olan qızı ilə (Yəni, öz ögey qızı ilə) evlənə bilməz .

**Üçüncüsü**: Sual verilə bilər ki, nəyə görə dul qadınla sırf cinsi əlaqənin baş tutması məsələsi qabardılır?

**Cavab:** Burada başqa hikmətlər də ola bilər. Lakin, biz məsələnin tibbi cəhətdən izahını verməyi uyğun görürük: Deməli, müasir tibb elmi artıq sübut etmişdir ki, bir qadın bir kişiylə cinsi münasibətdə olmuşdursa, həmin qadının uşaqlıq yolunda sonuncu dəfə cinsi əlaqədə olduğu kişiyə məxsus əlamətlər qalır. Ona görə ola bilsin ki, ona görə ögey qız hesab olunmaq üçün dul qadınla onunla evlənən kişi arasında cinsi əlaqənin baş tutub tutmaması əhəmiyyət kəsb edir. Daha düzünü isə Allah bilir .

Göründüyü kimi nadir hallarda baş verəsi bir hal - qızları olan dul qadınla evlənirsən, sonra onunla cinsi əlaqədə olmadan onu boşayırsan, sonra da onun qızı ilə evlənmək fikrinə düşürsən. Bu ən nadir halda baş verə biləcək hallardır. Biz demək olar ki, ərəblər

arasında da uzun müddət yaşasaq da heç onların arasında belə bir halın baş verdiyini eşitmədik .

**Dördüncüsü**: Həmin ayənin özündə «ögey qızı» sözü dul qadınla evlənib yaxınlıq edilməsi qeyd olunan cümlənin içində qeyd olunmuşdur. Lakin, dul qadınla evlənib yaxınlıq baş vermədən boşanma halı keçən hissədə "ögey qızı" sözü işlənməmişdir .

Bir də dul qadınla təkcə yaxınlıq olmaması şərt deyil, eyni zamanda boşanma da baş tutmalıdır. Ümumiyyətlə, İslamda ana ilə balanı eyni vaxtda almaq elə eyni ayədə haram hesab edilmişdir .

**Beşincisi**: Bu hal İslam şəriətinə görə izah edildi və nə üçün problem olmadığı aydın şəkildə izah edildi. Lakin, bunun həqiqi mahiyyətini gizlədən və "ögey qızı ilə evlənmək icazəlidir" kimi başlıqlar qoyduqda ateistlər və qeyriləri unudurlar ki, onlar "insest evliliklərin" hətta İslamda haram olan növlərini belə normal və icazəli hesab edirlər. Ona görə yaxşı deyilib ki, "öz evi şüşədən olan kimsə gərək başqasının evinə daş atmasın". Biz bu barədə Qərb ölkələrindən deyil elə ölkəmizdəki ateistlərin lazım gəlsə adlarını çəkərək hansı tarixdə bacı və qardaşın cinsi münasibətinə normal baxmaları barədə xəbər verib facebook'da yazdıqları statusları burada qeyd etməyi də edə bilərik. Lakin, bizim kimisə ifşa etmək və utandırmaq niyyətimiz yoxdur. Allahdan bu səhvi edənlərə hidayət istəyirik!

## Uşaq qızla evlənmək şübhəsinə cavab (Talaq, 4).

**Şübhədə iddia olunur ki**, «guya bu ayə uşaq qızla, yəni yetkinlik yaşına çatmamış qızla evlənməyə dəlildir.» Yenə də bir ateist cəhaləti və təhrifi .

**Gəlin görək ayədə nədən söhbət gedir əslində?**

Ayənin mənaca tərcüməsini tam olaraq bura yerləşdiririk:

«Heyzdən kəsilmiş qadınlarınızın (boşandıqdan sonra) gözləmə müddəti barəsində şübhəniz varsa, onların, eləcə də heyz (aybaşı) olmayanların gözləmə müddəti üç aydır. Hamilə qadınların gözləmə müddəti isə onlar hamiləlikdən azad olana qədərdir ».

**Birincisi:** Burada «heyz (menstruasiya) olmayanlar» ləfzi özündə bir çox mənanı ifadə edir, gəlin əvvəlcə heyzdən (menstruasiya) kəsilmənin səbəbləri ilə tanış olaq, bu səbəblərdən :

1 - Bəzi qadın xəstəlikləri ilə əlaqəli heyzdən kəsilmə .

2 - Südvermə ilə əlaqədar olan səbəblər .

3 - Yumurtalıqların olmaması .

4 - Hipofiz vəzilərinin fəaliyyətindəki və orta beyindəki problemlər .

5 - Aylıq halının kəsilməsi .

6 - Qida pozuntuları və çəki itkisi (köklük, iştahsızlıq, bəzi zərərli xəstəliklərin yan təsirləri) .

7 - Ana südündə olan hormon tərkibinin yüksək olması. (Prolactin hormonunun nisbətinin çox yüksək olması) .

8 - Yumurtalıqdakı bəzi problemlər Androgen səbəbilə yumurtalıqda yaranan şişlər. PCO - 8S .

9 - Ana rəhimindəki yapışqanlıq .

10 - Tiroit vəzlərinin fəaliyyətindəki problemlər .

11 - Qanlı piqment .

12 - Dərmanlardan yanlış istifadə (narkotik maddələr və s) .

13 - Heyzi (menstruasiya) gecikdirən dərmanların istifadəsi. (Bir müddət heyzin (menstruasiya) kəsilməsinə və ya adəti üzrə eyni vaxtda olan heyz vaxtının dəyişməsi, gecikməsi və ümumən heyz pozuntularına səbəb olur) .

14 - Qadının 45 və ya 50 yaşını keçməsi (Bu isə heyzdən birdəfəlik kəsilmənin yaşla əlaqəli əsas səbəbidir) .

**İkincisi: Lüğəvi cəhətdən:** Ayədə «qadınlarınızın» kimi tərcümə etdiyimiz söz ərəbcə» من نسائكم qadınlarınızdan» olaraq da tərcümə oluna bilər. Ayənin əvvəlində heyzdən kəsilmiş qadınlardan, yəni, yaşlı qadınlardan söhbət gedir. Sonra isə ümumi olaraq ərəb dilinin qaydalarına uyğun olaraq «heyz olmayanlar» sözü də qadınlara nisbət edilir. Deməli, aydın olur ki, hər üç misal evli qadınlara aiddir .

**Üçüncüsü:** Artıq heyz olmayanlar sözünün izahından qabaq heyzdən (menstruasiya) kəsilmənin səbəblərindən danışdıq. Lakin, aydın oldu ki, heyz olmayanlar sözü evli qadınlara aiddir .

**Dördüncüsü:** Gəlin, bir ehtimalı araşdıraq: Əgər ayədə konkret olaraq azyaşlı və hələ heyz (menstruasiya) olmamış qızlar qəsd

olunur və başqaları qəsd olunmur demək nə dərəcədə doğrudur? Görəsən, insafla araşdırdıqda ayədə sırf bu mənamı aşkar olur? Yaxud da heyz olmayan hər qadın, hər qız buraya daxil olur? Yəni, istər azyaşlı istər 45 və ya 50 yaşına kimi müxtəlif səbəblərdən heyz olmayan, heyzdən kəsilən qadınların hamısının bura daxil olduğunu demək daha doğru deyilmi? Əgər azyaşlı qızlar xüsusi olaraq qəsd olunmasalar da ümumi olaraq «heyz olmayanlar» ləfzinə aid edilsələr bunu necə anlayaq?

**Cavab**: Quranda qızların evlilik yaşı yetkinlik yaşına çatmaqla bağlıdır. Ayə belədir: «*Yetimlər evlilik yaşına çatdıqda onları imtahana çəkin. Əgər onların yetkinliyə çatdıqlarını görsəniz, mallarını özlərinə qaytarın.*» (Nisə, 6)

Bu ayə yetkinlik yaşının evlilik yaşının başlanğıcı olduğunu açıq aydın ifadə edir. Yetkinlik üçün isə heyz (menstruasiya) olmaq şərt deyil. Çünki, bəzi qızlar yetkinlik yaşına çatdıqları zaman bəzən heyzləri (menstruasiya) gecikir. Buna baxmayaraq, onlar uşaq deyil, yetkin qızlar kimi görünürlər. Artıq qeyd olundu ki, Quranda qızların evlilik yaşı yetkinlik yaşına çatmaqla bağlıdır. Ona görə də alimlər bu yaşdan öncə qızını qohumla, tanışla «nişanlayanlara, sözlü edənlərə» mütləq şəkildə cinsi münasibətin qadağan olmasını, bunu etməyin Qurana müxalif olduğunu bəyan etmişlər. Lakin, mühüm qeyd budur ki, yetkinlik yaşına çatmaq o demək deyil ki, mütləq bu yaşda evlənmək lazımdır. Bu yetkinlik yaşına çatmaq İslamda sadəcə evlənmək (evlənərək gərdəyə girmək üçün) üçün icazəli olan ən aşağı yaş həddidir. Lakin, bu yaşdan aşağı gərdəyə girmək qətiyyən yolverilməzdir. Yetkinlik yaşdan aşağı "sözlü olmaq", "qız filankəsin sözlüsüdür" kimi adətlə edilən əməlləri qız

atasının evində qalmaq şərtilə islam inkar etmir. Ona görə də İslam alimləri bu cür sözlü olan azyaşlı qızların da bu ayənin ümumi mənasına daxil ola biləcəklərini və onların "sözlü olmasını geri qaytarmaq" və ya dilimizdə "nişanını geri qaytarmaq" mənasına gələn anlamda desək icazəli hesab edirlər. Bu boşanmaq sayılmır desələr, deyirik ki, necə ki, bu azyaşlı qızlar da ayənin ümumi mənasına daxil olaraq "heyz olmayan" qadın cinsinə daxildirlər. Eyni zamanda bəzən heyz (menstruasiya) olmadan da bəzi qızlar yetkinlik yaşına çatmış olurlar. Heyz olmaq əlamətlərdən biri olsa da şərt deyil, yetkinliyin başqa əlamətləri də var. Heyz olmasalar da, yetkin yaşına çatana kimi sözlüləri ilə toyları olmadan cinsi yaxınlıq etmələri haram olsa da, sözlüləri və ya nişanlıları onları istəməsələr, onları  o qızları üç ay gözlədikdən sonra (boşanaraq) başqa biriylə ataları tərəfindən sözlü edilə bilirlər. Təbii ki, bütün bunlar da nadir hallarda olan hallar ola bilər .

Onda bir məsələ qalır ki, o da zəruri hallarda atanın öz qızını yetkinlik yaşda və bu yaşdan daha çox sonra evlənmək, toy etmək (red: gərdəyə girməyin bu vaxt olacağı) şərti məlum olmaqla "qızımı filankəsə verəcəyəm" deməsiylə və ya "qızımı filankəsə verdim" deməsiylə bu evlilik sayılır, ya yox? Bu başqa mövzudur .

Lakin, bir çox alimlər bunun ən azından atanın «qızımı filankəsə verdim» deməsiylə bunun evlilik hökmünə girdiyini demişlər. Ona görə də əvvəldə qeyd olunan mənada heyz (aybaşı) olmayan qadınların ümumi mənasına bu cür evlilik də daxil olursa, əgər buna rəsmi olmasa da evlilik adı verilirsə, deməli, boşanma da mümkün olur ki, bu da kişinin öz sözlüsü haqda «boşadım» deməsiylə mümkündür .

Xülasə odur ki, ümumiyyətlə heyz olmayan qadınlar və heyzdən birdəfəlik ümidi üzülmüş bütün qadınlar bu ayəyə daxildir. Lakin, bizim bu sözümüz o demək deyil ki, ateistlər bizim sözümüzü öz xeyirlərinə istifadə edə bilərlər. Ona görə ki, heç bir vəchlə Quranda azyaşlı, yetkinlik yaşına çatmamış qızlarla cinsi əlaqəni icazəli görən açıq-aydın bir ayə yoxdur. Quranla (Nisə, 6) yetkinlik yaşına çatmayan heç bir qız gərdəyə girmək, rəsmi toy edilmək haqqına malik deyil. Cinsi əlaqənin ən aşağı həddi yetkinlik yaşı götürülüb ki, bu da evlənəcək şəxsin buna hazır olmasıyla bağlıdır. Cinsi yaxınlıq isə çox vaxt heyzdən sonra olur. Baxmayaraq ki, yetkinlik yaşına çatdıqda evliliyə icazə verilir. Lakin, bu hallara da, qızın evliliyə yaşı çatsa da zəifliyi və s. kimi hallar da nəzərə alınır, bu və digər səbəblərdən evliliyin təxirə salınması halları da mümkündür .

Qaldı ki, ataların nadir hallarda qızlarını yetkinlik yaşından, yəni, heyzdən əvvəl sözlü etməsi, nişanlamasına, bunu da artıq izah etdik ki, qız atasının evində qalmaqla, yetkin yaşına çatmadan, həmin yaşa çatdıqdan sonra toy etmədən qız öz yoldaşına nisbi məxsus olur. İslamda atanın vəli (yaxın qohum kimi evləndirməyə icazədə söz sahibi olması) olması halı məlum olduğu üçün əgər ehtiyac olarsa, atanın qızını yetkinlik yaşına çatmadan sözlü etməsi icazəlidir. Məsələn; ata ölümcül xərçəng xəstəliyinə tutulubsa, qızının yetkin yaşına kimi sağ qalmayacaqsa, bu zaman ata qızının razılığı ilə münasib gördüyü saleh bir insanla öz qızını nişanlaya bilər ki, o insan qızla toyun gerçəkləşməsi üçün yetkinlik yaşına kimi və ya daha çox gözləsin. Ümid edirik ki, bu məsələ də aydın oldu.

# Üç daşla təmizlənmək barədə şübhəyə cavab

**Şübhə belədir:** *«Üç daşla təharəti məsləhət buyuran dinin dünyaya əxlaq və təmizlik dərsi iddiasında olmasına təəccüb etməməli».*

**Şübhənin cavabı:** Çox maraqlıdır ki, hər dəfə şübhələrin mahiyyəti dəyişdirilmiş, təhrif edilmiş şəkildə insanlara təqdim edildiyini görəndə insan təəccüblənməyə bilmir. İndi isə üç daşla təmizlənməyin necə yanlış qələmə verildiyinin şahidi olun. Yenə İslamdan bixəbərlik, cahillik və qərəzliliyin şahidi oluruq .

Bildiyimiz kimi su olan yerdə daşdan istifadə etmək doğru deyil. Eyni, zamanda kağız təmizləyici olan yerdə də daşdan istifadə olunmur. Bu daşlar zərurət halında nə su, nə kağız nə də başqa bir münasib təharəti vasitəsi olmadıqda istifadə olunması müsəlmanlara məsləhət görülmüşdür. Təsəvvür edin ki, bir müsəlman ucsuz-bucaqsız səhrada və ya adi çöllükdə və ya meşədə və ya başqa bir yerdə nə suya çata bilir, nə də təmizləyici vasitəyə, kağıza və s. çata bilmir. Belə olduğu təqdirdə onun tək saylı daşlarla təharətdə istifadə etməsi icazəlidir .

Lakin, məsələnin bu tərəfini gizlədərək insanları azdırmaq, yanıltmaq ən azından özlərini "yüksək ağıllı" insanlar kimi qələmə verən bir topluma yaraşmır. Çünki, yüksək toplumlar ədaləti, insaflılığı və kübarlılığı ilə seçilməlidir. Nə isə… Bizim ateistlər isə təhrif ardınca təhrifə baş vurmaqdan yorulmurlar.

# İslamda azyaşlı qızların ərə verilməsi şübhəsi

Bəzi insanlar İslam dinində azyaşlı qızların (9-10-11 yaş və s.) evliliyi barədə şübhələr yayır, bu barədə olan bir neçə rəvayəti gətirərək insanlarda çaşqınlıq yaratmaq istəyirlər. Halbuki, 14 əsr bundan öncə evlilik həddi daha aşağı idi və evliliyin ilk həddi yetkinlik yaşı sayılırdı. Bu şübhəni gətirənlər nədənsə, 1885-ci ilə qədər Amerikada rəsmi şəkildə evliliyin 10 yaşdan icazəli olduğundan danışmırlar. Dünyada isə təxminən bir əsr öncəyə kimi (bəzi yerlərdə daha az) demək olar ki, hər yerdə icazəli olan erkən evliliyin tarixi barədə danışmaq istəmirlər. Əvəzində isə 14 əsr bundan öncə hər kəsin normal qəbul etdiyi erkən evliliyi müzakirə edirlər. Bu şübhəyə cavab verməzdən öncə bəzi suallarin verilməsi zərurəti yaranır; məsələn:

Erkən evlilik hal-hazırda müsəlmanlar arasında neçə faiz mövcuddur? Yoxsa, müsəlmanlar da dünyada yüksələn evlilik yaşına tabe olmağa üstünlük verirlər?

Erkən evlilik hansı tarixdən etibarən pis ğhesab olunmağa başlayıb? Erkən evliliyin hansı forması pis hesab olunmalıdır?

Hal-hazırda dünyanın hansı ölkələrində erkən evlilik yetkinlik yaşına çatmadan tətbiq olunur?

Hətta, on dörd əsr öncə erkən evlilik yetkinlik yaşından öncə tətbiq olunurdumu? (Əlbəttə, yox).

Erkən evliliyin dünyada on yaş olaraq təyin edilməsi yaxın bir əsrə kimi Amerikada (1885-ci il) belə mövcud olduğu halda,

görəsən on dörd əsr bundan öncə olmuş evlilik məsələlərini müzakirə etmək ədalətdəndirmi?

**Biz bu şübhəyə bir neçə aspektdən cavab verəcəyik;**

**Birincisi;** Əgər Avropada bu gün də evlilik həddi aşağı olsaydı, görəsən, bu gün LGBT haqlarını müdafiə edənlər, cinsi azadlıqlar tələb edənlər bu fikirlə razılaşacaqdılarmı?

**İkincisi;** Tibbi cəhətdən yetkinlik yaşına çatmış (aylıq halı keçirən) bir qızla evlilikdə bir problem görülmür. Yəni, onun ana olması tibbi cəhətdən mümkündür.

**Üçüncüsü;** Erkən evliliyin hansı şəraitdə baş tutduğunu bilmək olduqca mühümdür;

**Dördüncü;** Qədim dünyada erkən evlilik və müasir dünyada evlilik yaşının artırılması tarixi barədə məlumatlar.

**Beşincisi;** Peyğəmbərin ﷺ zamanında erkən evlilik adi bir şey idi. Səhabələr də erkən evləndirdilər. Cahiliyyə ərəbləriylə yanaşı bütün dünya erkən evlənir və onlardan heç biri bu cür evliliklərə etiraz etmirdilər .

**Altıncısı:** İslam əleyhinə edilən iddiaların reallıqdan uzaq olması və iddia edənlərin iddialarında sadiq olmamaları .

***İndi isə gəlin keçək bu məsələlərin ətraflı izahına:***

**Birincisi:** Əgər Avropada bu gün də evlilik həddi aşağı olsaydı, görəsən, bu gün LGBT haqlarını müdafiə edənlər, cinsi azadlıqlar tələb edənlər bu fikirlə razılaşacaqdılarmı? Doğurdan da

maraqlıdır? Biz ateistlərin cinsi mövzulardakı sapıqlıqlarından danışsaq, mövzumuz uzanacaq, gərək bu barədə başqa bir uzun yazı yazmalı olaq .

Sözümüz bunda deyil. Lakin, bizə təsir edən bəzi müsəlman övladlarının öz dinlərini bilmədən Avropa "mədəniyyətindən" təsirlənmələri, onları mütləq həqiqət kimi qəbul etmələri, sonda isə öz müsəlman kimliklərini itirərək hər cür cinsi sapıqlıqları edən Qərb dünyasının "erkən evlilik" şübhəsinə aldanmalarıdır. Biz onlara sual veririk ki, görəsən bu gün transseksuallara normal baxan, geylərə, lezbianlara normal baxan, LGBT hüquqlarından ağız dolusu danışanlar əgər Avropada erkən evlilik yaşı 10 yaş olsa, bunu qəbul etməyəcəklərmi? Cavab odur ki, bəli, qəbul da edəcəklər, üstəlik normal da baxacaqlar. Bəli, qərb dünyasını qarış-qarış izləyən yeni nəsil onların bütün addımlarını sorğulamadan gözəl hesab etməyə başlayıb. Muhəmməd ﷺ peyğəmbər bu barədə buyurmuşdur: «Siz özünüzdən əvvəlkilərin yolunu qarış-qarış, arşın-arşın izləyəcəksiniz. Hətta, onlar kərtənkələ yuvasına girsələr, siz də onların etdiyini edəcəksiniz. Səhabələr dedilər: Ey Allahın elçisi! Yəhudi və xristianlar? Dedi: Başqa kim ola bilər ki?»[73].

Axı nəyə görə bu gün bəziləri bilə-bilə qərblilərin yanlış və doğrularını araşdırmadan birbaşa qəbul edirlər? Görəsən bu bir məğlubiyyət təfəkküründən qaynaqlanmırmı?! Qarşıda əsil müzakirə olunması gərəkən mövzuları göstərəcəyik ki, bizdən çox yox, bir əsr öncə və daha az müddətdə Qərbdə baş vermiş bu həqiqətlər gizlədilir, əvəzində isə bizə 14 əsr öncə hər kəsin normal qəbul etdiyi, heç kimin etiraz etmədiyi məsələlər gündəmə gətirilir .

[73] Səhihul-Cami. Albani. 3456.

**İkincisi;** Tibbi cəhətdən yetkinlik yaşına çatmış (aylıq halı keçirən) bir qızla evlilikdə bir problem görülmür. Yəni, onun ana olması tibbi cəhətdən mümkündür. Bunu həkimlər təsdiqləyir və müasir elm təsdiqləyir; Lakin, bu o demək ki, hal-hazırda bunu təsdiqləyən bir müsəlman israr edir ki, mütləq bu yaşda hər kəs qızını evləndirsin. Şəkk yoxdur ki, dünyada evlilik yaşının dəyişməsinin (yüksəlməsinin) təsiri amili İslam aləmindən də yan keçməmişdir. Bir məsələni təsdiqləmək ayrı, onun mövcud reallıqda tətbiqi isə ayrı məsələdir. Qarşıda İslam aləmində evlilik yaşının dəyişməsi tarixindən də bəzi örnəklər veriləcəkdir .

Başqa vaxt "elm, elm" deyənlər, bu dəfə elmin təsdiqlədiyi həqiqəti inkar edə bilməsələr də, insanlara şübhə atmaq üçün başqa yola əl atırlar. O da son bir əsrdə dunyada evlilik yaşının yüksəlməsindən istifadə edir, üstəlik, bunu özlərinin qəbul etmədiyi "əxlaqi normalara" zidd olduğunu deyirlər. Bunlar həmin ateistlərdir ki, onların alimləri qızların evlilikdən öncə cinsi təcrübələrinin, sevgilisi deyil, hətta, "sevgililərinin olmasının gərəkdiyini", o sevgililərlə "cinsi təcrübə" toplamağın gərəkdiyini vurğulayırlar. Bu da azmış kimi, bizim bəzi televiziya kanallarında və sosial şəbəkələrdə onlar bu fikirləri səsləndirirlər. Sonra isə özləri əxlaqi normalardan insanlara "dərs keçməyə" çalışırlar .

**Üçüncüsü;** Erkən evliliyin hansı şəraitdə baş tutduğunu bilmək olduqca mühümdür;

a) Erkən evlilik məsələsi daha çox adətlə bağlı olan bir şeydir. İslam dini daim insanların fitrətinə uyğun olan xeyirli adətləri təsdiqləmişdir. İndiki dövrdə isə evlilik yaşının yüksəlməsi ilə

əlaqədar bu cür erkən evliliklər müsəlmanların ümumunun adəti olmaqdan çıxmışdır .

**b)** Erkən evliliklər İslamın ilk çağlarında belə qızlar yetkinlik yaşına çatmadıqları təqdirdə baş tutmurdu; Lakin, sözlü olmaq, “filankəsi filankəslə evləndirəcəm” kimi fikirlər qohumlar arasında az yaşlılara şamil olunsa da, bu evliliklər yetkinlik yaşına çatdıqdan sonra baş tuturdu. İslam alimlərinin icmasına görə yetkinlik yaşına çatmadan evlilik olmur. Lakin, sözlü olmaq, gələcəkdə kimlərinsə evliliyini planlaşdırmaq icazəlidir. Bunda məzhəblərə görə də problem yoxdur .

**c)** Biz diqqətlə məsələni araşdırdıqda görürük ki, erkən evlilikdə evlənən qızın razılığı olmalıdır. Onu məcbur ərə vermək olmaz. Bu, o qızın haqqıdır. Valideynlərin təklif etdiyi namizədlərdən hər hansı birinə qızın razılığı olduğu təqdirdə isə evlilik könül xoşluğu ilə baş tutur. Ümumiyyətlə, isə Muhəmməd ﷺ peyğəmbər qadının öz icazəsi olmadan onun ərə verilməsini qadağan etmişdir .

Tirmizi və ibn Macənin rəvayət etdiyi hədisdə də Peyğəmbərin ﷺ yanına atasının məcbur edərək evləndirdiyi bir qız gəlir və Peyğəmbər ﷺ bunu bildikdə onların evliliyini ləğv edir[74].

Eynilə, Buxari və Müslimin Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə də qızın öz icazəsi olmadan onun ərə verilməsini Peyğəmbər ﷺ qadağan etmişdir.

[74] Albani hədisə səhih deyib.

Bu cür rəvayətlər az deyil. Xülasə onu demək istəyirik ki, bəziləri bu hədisləri bilmədən İslamda qadın haqqı barədə yersiz ittihamlar edirlər .

Üstəlik də, İslam dininin adətlərə münasibəti normaldır. Xüsusən də şəriətə zidd olmayan ictimai adətlərə İslam dini pis baxmamışdır .

**d)** Heç bir şəkk yoxdur ki, İslam dini erkən evliliyə (yetkinlik yaşından sonra) icazə versə də, bunda əsas məqsədlərdən biri də gec evlənməyin və bunun fəsadlarından yaranan əxlaqi pozğunluqların qarşısını almaq idi. Çünki, evlilik yaşının yüksəldiyi cəmiyyətlərdə daim zinakarlıq səviyyəsi yüksək olmuşdur.

**e)** Həmçinin də, İslam dini evlilik üçün erkən yaşda olan qızlarla evlənməyə birbənalı şəkildə təşviq etməyib, yəni, əsas meyar erkən evlilik deyil, əsas meyar tərəflərin qarşılıqlı sevgisi olmuşdur. İslam tarixi boyunca hər kəsin mütləq şəkildə erkən evlilik etməsi məcburiyyəti olmayıb, istəyən tez evlənib, istəyən bir qədər gec evlənib. Yetkinliyə çatmaq yaşı insandan insana dəyişməklə bərabər icazə verilən evliliyin ən aşağı həddi olaraq götürülmüşdür. İslam alimləri təkcə erkən evlilik haqda danışmamış, hətta, yaşlılarla evlilik barədə də kitablar yazmış və bu cür evliliklərə fiqhi, ictimai və digər aspektlərdən yanaşmalar irəli sürmüşlər. İnsan özündən kiçik birini sevə biləcəyi kimi, özündən böyük birini də sevə bilər. Necə ki, İslam peyğəmbərinin ﷺ ilk həyat yoldaşı özündən yaşca böyük (Xədicə-radiyallahu anhə), digər həyat yoldaşı (Aişə-radiyallahu anhə) isə özündən yaşca kiçik idi .

Ona görə də evlilik və nişan barədə hədislərə baxsaq görərik ki, Peyğəmbər ﷺ əsasən evlilik namizədləri arasında sevginin, bəyənmənin hasil olmasına rəğbətləndirir .

Dr. Fridrix Kahn demişdir: "İnsanlar keçmiş zamanlarda erkən evliliyə daxil olurdular ki, bu da cinsi problemlərin həllində doğru seçim idi. Lakin, bu gün evlilik yaşı gecikdirilir. O ölkələr ki, erkən evliliyin asanlaşdıran qanunlar qoymaqda uğur əldə edəcəklər, həmin ölkələr çox təqdirəlayiq bir iş görmüş olacaqlar. Çünki, bununla müasir dünyamızda cinsi problemlərin həllində ən böyük həlli kəşf etmiş olacaqlar"[75].

Biz bu kiçik yazıda gec evlənməyin fəsadlarından da danışmaq istərdik, lakin, uzunçuluq olmasın deyə məqalənin sonunda bəzi zərərləri qeyd edəcəyik .

**Dördüncüsü:** Qədim dünyada erkən evlilik və müasir dünyada evlilik yaşının artırılması tarixi barədə məlumatlar;

Deməli, erkən evliliyə qarşı şiddətlə çıxış edənlərin yəqin ki, dünyada yaxın bir əsrdə evlilik yaşının daha aşağı olduğu barədə məlumatı olduğunu hesab edirik. Buna baxmayaraq, onlar məsələn, "Amerikada 1885-ci ilə kimi evlilik yaşının 10 yaş olmasından xəbərsizdirlər. Bu vəziyyət Amerika ştatlarının yarısından çoxunda belə idi. Hətta, Delaware ştatında evlilik yaşı yeddi yaşdan icazəli idi"[76].

---

[75] Hukmu təqnin təzvic əs-Sağirat va təhdid sinniz-Zəvac, Abdur-Rahmən əl-Bərrak, səh 35; Həyətunə əl-Cinsiyyə, səh 115.

[76] (Bax: http://www.muhaddith.org; until 1885, under common law, the age of consent was ten in over half the states, in Delaware it was seven).

1889-cu ildə isə Konqres evlilik yaşını on yaşdan on altı yaşa qaldırmaq barədə qanun çıxarır[77].

Başqa bir mənbədə deyilir: "1886-cı ildə Amerika birləşmiş ştatlarının iyirmi beş ştatı İngilis qanunlarına tabe idi. Bu qanunlara əsasən evlilik yaşı on yaş hesab olunurdu. Eyni zamanda Amerikanın dörd ştatında evlilik yaşı xristan qanununa tabe idi və bu yaş on iki yaş olaraq təyin olunmuşdu. Xristan qanununa tabe olan Delaware ştatında isə evlilik yaşı yeddiyə çatırdı".

Bu da İngilis dilində orijinalı: "As of 1886, twenty-five of the Amerikan states, following earlier English law, had an age of consent of ten years; four states, following Christian Canon law on marriage, had an age of consent of twelve; Delaware, following Christian canon law on the of discretion, set it's age of consent at seven"[78].

Başqa bir mənbədə isə: Amerikada bu illər ərzində on yaşdan yuxarı baş tutan evliliklərin qanun qarşısında təcavüz və ya cinayət olmaması, həmçinin, sonra isə Amerikada 1889-cu ildə evlilik yaşının on dörd yaşa qaldırılması, sonra isə 1897-ci ildə evlilik yaşının on altı yaşa kimi yüksəldilməsi, 1913-cü ildə isə Kaliforniya ştatında evlilik yaşının on altı yaşdan on səkkiz yaşa kimi yüksəldilməsi qeyd olunur[79].

---

[77] (Bu barədə məlumat isə bu kitabda verilib: The progressive era's healthy reform movement: historical dictionary by ruth clifford engs, p 4).

[78] (Bu sözün mənbəsi: (Homosexuality and Child sexual Abuse: Science, Religion, and the Slippery Slope).

[79] Bax: The Crazy-Quilt of Our Age of Consent Laws, Jonathan Dolhenty. Ph. D.

Yenə bir başqa bir mənbədə deyilir ki: «Evlilik yaşının qanuni həddi müasir dövrümüzdə ən yüksək həddə qaldırılmışdır. Məsələn; on doqquzuncu əsrin ortalarına kimi qərbdə evlilik yaşı on yaşla on üç yaş arası məqbul hesab edilirdisə, iyirminci əsrin sonlarında artıq bu yaş həddi on beş on səkkiz yaş arası məqbul hesab olunurdu »[80].

Yazının uzanmaması üçün bəzi tərcümələrin ingiliscəsini və qədim cəmiyyətlərdə, məsələn; Bizans imperiyasında yeddi yaşdan evliliyə icazə verilməsi, sonradan bu yaşın on, sonra isə on iki yaşa qaldırılması ilə əlaqəli dəlilləri uzun-uzadı yazmırıq .

Bir də qızların erkən yaşda yetkinlik yaşına çatmasının zaman, məkan, mühit və irq fərqləri ilə olduğunu bilməyənlərə bu barədə olan elmi araşdırmaları oxuyub öyrənmələrini məsləhət görürük: (when little girls become women: early onset of puberty in girls).

Qaldı ki, müsəlman ölkələrində evlilik yaşının sonradan yüksəldilməsinə, bəzi müsəlman ölkələrin evlilik yaşını yüksəldilməsi ilə əlaqəli tarixi indi sizlərə təqdim edirik:

Osmanlı xilafətinin son illərində 1917-ci ildə Sultan Muhəmməd Rəşad qərar qəbul edir ki, qızlar on yeddi, oğlanlar isə on səkkiz yaşında evlənə bilərlər[81].

Ərəb ölkələrində evlilik yaşının yüksəldilməsi təklifi ilə Hudə Şaravi 1923-cü ildə çıxış edir, evlilik yaşının on altı yaşa yüksəldilməsi təklif olunur[82].

---

80 Bax: http://Ən.wikipediya.org/wiki/Age of consent# ref-waites.

81 "əl-Mənar" jurnalı, hicri 1342 cümlədə əl-əxir. 25/63; Evlilik yaşının təyin edilməsi. Muhəmməd Əmin əl-Hüseyni.

Eyni ildə Misirdə qızların ən azı on altı, oğlanların isə on səkkiz yaşda evlənməsi qərarı qəbul edilir[83].

Suriyada isə 1953-cü ildə qızların ən azı on yeddi, oğlanların isə on səkkiz yaşında evlənməsini rəsmiləşdirən qərar qəbul edilir.

Tunisdə isə 1956-cı ildə çoxarvadlılıq qadağan edilir, qızların evlilik yaşının isə otuz yaşa yaxın olması gərəkdiyi elan edilir. Daha betəri isə bəziləri bunu böyük bir uğur hesab edir fəxr edirdilər

İordaniyada isə 1976-cı ildə evlilik yaşının təyini ilə əlaqəli hər iki tərəfin on səkkiz yaşında olmasını lazımlı olduğunu bildirən qərar qəbul edilir[84].

Küveytdə isə 1984-cü ildə evlilik yaşının təyini ilə əlaqədar qanun qüvvəyə minərək qızların on beş, oğlanların isə on yeddi yaşından aşağı evliliyi halında rəsmi nigah sənədilə təmin olunmayacaqları qeyd olunur.

Livanda isə yaxın keçmişdə qızların evlilik yaşının on altı, oğlanların evlilik yaşı isə on səkkiz olaraq təyin edilmişdir.

Omanda isə 1995-ci ildə həm oğlanların, həm də qızların on səkkiz yaşında evlənməsini qanuniləşdirən qərar qəbul edilir.

---

82 "Hudə Şəravi" məqaləsi. Abdul-Əziz Huseyn, Dərut-Tarafeyn Taif. 1-ci nəşr. 1427 hicri.

83 "əl-Mənar" jurnalı, 25/68-69; evlilik yaşının təyin edilməsi.

84 Hukmu təqnin təzvic sağiraat, AbdurRahmən Bərrak, səh 15.

Məğribdə isə 1999/3/19 tarixində qızların evlilik yaşının on beşdən on səkkizə yüksəldilməsi və çoxevliliyin qadağan edilməsi qərarı qəbul edilir.

2005-ci ildə də İməratda evlilik yaşı həm qız, həm oğlan tərəfi üçün on səkkiz yaş olaraq qəbul edilir.

Qətərdə isə 2006-ci ildə qəbul edilmiş qərara əsasən evlilik yaşı oğlanlar üçün on səkkiz, qızlar üçün isə on altı olaraq təyin edilir.

Bəhreyndə isə 2007-ci ildə qəbul edilən qərara əsasən evlilik yaşı oğlanlarda ən azı on səkkiz, qızlarda isə ən azı on beş yaş olaraq təyin edilir.

Bu və digər qərarların hər biri böyük ölkələrin təkidi ilə baş verir və müsəlman ölkələrində evlilik yaşı son bir əsrdə ən yüksək həddə gəlib çatır.

BMT-nin 1984-cü ildə Nayrobidə baş tutmuş beynəlxalq konfransında belə deyilirdi: "Hökumətlərə tövsiyə olunur ki, evliliyin ən aşağı həddinin təyin olunması işində dəqiq addımlar atılsın, ehtiyac varsa, evliliyin aşağı həddi lazımi qədər yüksəldilsin"[85].

Evlilik yaşının ən maksimal səviyyədə yüksəldilməsi barədə beynəlxalq təşkilatların qərarlarını burada yazıb uzunçuluq etmək istəmirəm. Lakin, görünən odur ki, böyük dövlətlərin təkidi və təzyiqi ilə dünya ölkələrində evliliyin aşağı həddi ən yüksək hala gətirilir. Bu təşkilatlar yeniyetmələr arasında seks azadlığının təmin

[85] Qadayəl-mər'ati vəl-mutəməraat əd-Duvəliyyə, 4-cü fəsil, b: 4-21, səh 29.

olunması barədə də xüsusi qərarlar qəbul etmişlər. Bu qərarlardan biri də BMT-də 2000-ci ildə qəbul edilmişdir.

Bütün bu qeyd olunanlardan aydın olur ki, dünyada erkən evlilik yaşının xüsusən də son əsrdə bu qədər yüksəldilməsi nəticəsində artıq insanlar qədimdə baş vermiş erkən evliliklərə “dırnaqarası” baxmağa başlamışlar. Onu da qeyd edək ki, bu qərarların qəbul edilməsi dünyada əxlaqsızlığın yayılmasına, evlilik yaşının çoxaldılması ilə evdə qalan qızların sayının artmasına, insanların evlilikdən yayınaraq başqa yollarla cinsi ehtiyaclarını ödəməsinə və s. bir çox mənfi hallara gətirib çıxarmışdır .

**Beşincisi;** Peyğəmbərin zamanında erkən evlilik adi bir şey idi. Səhabələr də erkən evləndirdilər .

Cahiliyyə ərəbləriylə yanaşı bütün dünya erkən evlənir və onlardan heç biri bu cür evliliklərə etiraz etmirdilər .

Peyğəmbərin ﷺ Aişə ilə, Ömərin Ümmü Gülsüm (Allah hamısından razı olsun) ilə erkən evliliyinə heç bir səhabə etiraz etməmişdi. Çünki, həmin dövrdə digər səhabələrin də erkən evləndiyini və bu cür evliliyə normal baxmaları barədə başqa faktlar da vardır;

İmam Şafii (Allah ona rəhmət etsin) demişdir: "Peyğəmbərin ﷺ səhabələrindən bəziləri qızlarını erkən (yetkinlik) yaşında ərə vermişdilər"[86].

İbn Ömər (Allah ondan razı olsun) də öz yeni yetkinliyə çatmış qızını Urva ibniz-Zubeyr ilə evləndirmişdi. Urva ibn Zubeyr də öz

[86] Kitab əl-Umm, 9/118; hicri 1422-ci il nəşri.

qardaşı qızını bacısının qızı ilə yenicə yetkin yaşa çatdıqları halda evləndirmişdi. Bir kişi də Abdullah ibn Həsən ilə öz yenicə yetkinliyə çatmış qızını evləndirmişdi. Əli ibn Əbu Talib (Allah ondan razı olsun) özü bu evliliyə razılıq vermişdi. İbn Məsudun (Allah ondan razı olsun) həyat yoldaşı öz yenicə yetkinlik yaşına çatmış qızını Müseyib ibn Nuxbənin oğlu ilə evləndirmişdi ki, Abdullah ibn Məsud da buna icazə vermişdi.

Göründüyü kimi səhabələr də bu cür erkən evlilikləri normal hesab edirdilər.

**Altıncısı**: <u>*İslam əleyhinə edilən iddiaların reallıqdan uzaq olması və iddia edənlərin iddialarında sadiq olmamaları;*</u>

2000-ci ildə BMT-nin qadınlar üçün Nyuyorkda baş tutan "21-ci əsrdə bərabərlik, inkişaf və sülh" adlı konfransında çağırış edilmişdi: "Yeniyetmə qız və oğlanların seks və cinsi azadlığına çağırış etmək və bu yaşı erkən yaşlardan icazəli etməklə yanaşı evlilik yaşını gecikdirmək"[87].

2019-cu il, 14 avqust tarixində sosial şəbəkələrdə məşhur Facebook səhifələri bir azərbaycanlı qızın bu yazısını paylaşırdılar:

"Bir qız on yeddi yaşına çatdıqdan sonra istədiyi şəxs ilə istədiyi kimi seks həyatı yaşaya bilər".

Bundan bir il əvvəl isə başqa bir azərbaycanlı ateist qız isə facebook'da təlatümə səbəb olan fikirlər səsləndirərək:

---

[87] "Bəyan" jurnalı, 170-ci sayı, 2002-ci il, yanvar ayı, «Qadın və ailənin ictimai qloballaşması» adlı məqalə, Fuad Abdul-Kərim, ərəbcə.

"Qardaşla bacının yetkin yaşa çatdıqdan sonra cinsi münasibətdə olmalarına normal baxdığını" qeyd edirdi. Şəkk yoxdur ki, bu misallar çirkin misallardır. Bu misalları artırmaq da olar. Sadəcə bununla demək istəyirik ki, evlilik mövzusunda İslamı tənqid və təhqir edənlərin əsas məqsədi İslamı gözdən salmaqdır. Yoxsa, onlar özləri və alimləri də əslində yetkin yaşda olan qız və oğlanın evlilik olmadan belə cinsi həyatına normal baxırlar. Bu barədə məşhur ateist alimlərinin istər heyvanlarla, istər yaxın qohumlarla cinsi münasibət qurmaq, istər də əxlaq barədə sözlərini və etiraflarını yazıb uzunçuluğa yol vermək və oxucuların ürəyini bulandırmaq istəmirik .

Bütün bunlar ona dəlalət edir ki, istər ateistlər, istər də qeyriləri İslamdakı erkən evlilik icazəsini sanki, "hər müsəlmana mütləq həmin yaşda evliliyin əmr edildiyi" kimi fikir yaradır, lakin, özləri evliliyin gecikməsinin fəsadları, bu cür ağır "seks azadlığı" problemlərinin gənclərin diliylə etiraf edilməsindən danışmırlar.

Üstəlik də, onlar nədənsə, 14 əsr öncə bütün dünyanın normal qəbul etdiyi və tətbiq etdiyi erkən evliliyin "dərdini çəkir", lakin, Azərbaycan cəmiyyətində olan öz oğlan övladlarının və qohumlarında və ümumilikdə cəmiyyətdəki oğlanlanların 17 yaşına kimi əksəriyyətinin gizli "zina ocaqlarını" ziyarət etmələrinin dərdini çəkmirlər. Hələ mənim indiyə kimi xatirimdədir ki, mən orta məktəbdə oxuyanda namaz qılırdım. 18 yaşında məktəbi bitirdim və sinif yoldaşlarımdan bəziləri ilə görüşüb söhbət edəsi oldum. Onlar mənim 18 yaşına kimi" zina etmədiyimi" öyrəndikdə əlləri ağızlarında qaldı, çox təəccübləndilər və özlərinin artıq neçə il öncə zina etdiklərini etiraf etdilər və vaxtilə bizimlə bir sinifdə

oxuyan oğlanlardan hər birinin 18 yaşdan öncə zina etdiyini, bəzilərinin 14 və 15 yaşlarında ikən zina etdiklərini etiraf etdilər. Bu hadisə 2006-cı ildə baş verib, indi təsəvvür edin 14 il öncə vəziyyət bu idisə, görün indi vəziyyət necə acınacaqlıdır? Bu zina edənlərin heç biri dindar deyildilər. Ola bilsin aralarında sonradan tövbə edib dindar olanlar da olsun. Lakin, cəmiyyətimizdə erkən evlilik dönəmində əksər oğlanlar el arasında deyildiyi kimi əgər "bazlığa gedirlərsə", görəsən nəyə görə ateistlər bu problemin dərdini çəkmirlər? Görəsən bu azyaşlı oğlanların zina etdiklərinin əksəriyyəti əxlaqsız qadınlardırmı? Nəyə görə hər vəchlə İslamı ittiham edən şəxslər cəmiyyətimizdə on üç, on dörd və on beş yaşlarında qızlığını və həyasını itirmiş insanların taleyindən bu qədər narahat olmurlar? Görəsən, öz şəhvətinə hakim olmayan və zinakarlıq yoluna düşən insanları valideynləri nəzarət edib vaxtında evləndirsəydilər, bu gün cəmiyyətimizdə bu qədər zinakarlıq baş alıb gedərdimi? Maraqlısı budur ki, Azərbaycan cəmiyyətində erkən evlilik deyildikdə çox vaxt 16-18 yaş arası evliliklər nəzərdə tutulur ki, bu da dindar kütlə arasında heç 2 faiz-ə də çatmır. Lakin, Azərbaycanda oğlan uşaqlarının 16-18 yaş arası zinakar qadınlara müraciət etmələri artıq katastrofik hala gəlib çatıb ki, heç bundan danışan yoxdur. Hələ 14 və 16 yaşlı yeniyetmə oğlanlardan zinakar qadınlara müraciət edənlərin sayı da az deyil. Universitet imtahanlarında bəzi illərdə gənclərimizin 100 ballıq nəticəni kütləvi şəkildə keçə bilməmələri də bir daha gənclərimizin beyninin elmin nuru ilə deyil, şəhvət və ehtirasların dumanı ilə çirkləndiyinə dəlalət edir. Sonra da həmin gənclərdən bəziləri etdikləri əməllərə bəraət qazandırmaq üçün və evlilik müddətini

gecikdirmək üçün zina etməyə davam edir və Allahın halal etdiyi evliliyi haram etdiyi zinaya dəyişirlər .

Allahın yetkinlik yaşa çatmış şəxslərin evlənməyə icazə verməsi evlilik yaşının bu vaxtda vacib deyil, icazəli olmasını, bəzi hallarda isə bəyənilən olmasına, evlilik hökmünün şəxsdən şəxsə dəyişməsinə dəlalət edir. Unutmaq lazım deyil ki, yetkinlik yaşına çatmış zinakar oğlan və qızların sayı  ildən-ilə artır və bu da dünyada LGBT (lesbian, gey, biseksual, transseksual və s.) üzvlərinin çoxalmasına səbəb olur. Halbuki, bu yola düşənlərin vaxtında evləndirilməsi ilə bu cinsi sapıqlıqlara düşməsinin qarşısını almaq mümkün idi. İslamdakı evlilik həddinə qarşı müharibə və mübarizə aparanların başında duranlar bunu insan haqqından çox əslində seks azadlığı və normal evlilikdən öncə yeniyetmələrin rahat şəkildə bir neçə şəxslə azad seks ilə məşğul olmalarını təmin etmək üçün edirlər. Ölkəmizdə femenistlərin bu yaxınlarda qaldırdıqları biabırçı şüarlar da bir daha bunu göstərir. Həmin şüarları bura yazmağa sadəcə insan həya edir. Həmçinin, ölkəmizdəki məşhur ateistlərin yeniyetmə qızların nigahdan kənar azad sekslə məşğul olub "cinsi təcrübə" topladıqları zaman ata və qardaşlarının onlara maneə olmasının o qızların "azadlıqlarının pozulması kimi" qələmə verən ateistlərin TV-lərdəki biabırçı bəyanatları da yadımızdan çıxmayıb .

Allah cəmiyyətimizi islah etsin və zinadan qorusun! Əsl fəxr olunası iş evlənənə kimi zina etməmək, evləndikdən sonra da həyat yoldaşına xəyanət etməməkdir. Allahdan istəyirik ki, bizim cəmiyyətimizdə zina etdiyi üçün fəxr edənləri deyil, zinadan uzaq olduğu üçün fəxr olunası insanların sayını çox etsin !

# Peyğəmbərlər yalnız Yaxın Şərqə gəlib?

**Şübhə**: *Ateistlər və deistlər deyirlər ki, peyğəmbərlər yalnız Yaxın Şərq bölgəsinə göndərilmişdir. Bəs dünyanın başqa yerlərinə, məsələn, Yaponiyaya, Çinə peyğəmbərlər göndərilməyibmi? Bu ədalətli hesab oluna bilərmi?*

**Cavab:** Fikir versək, bu şübhəni yönəldənlər İslam dininin daxilində bu məsələni həll etməməkdə, bilgizsizlikdə ittiham edirlər. Gəlin görək doğurdan da elədirmi?

**Dini təsəvvürə gəldikdə:**

**A)** İslamda məlum olduğu kimi Allah insanlara hüccət qaldıraraq peyğəmbərlər və kitablar göndərmişdir. Bu göndərişlər bir qövmü nəzərə alıb, digərini tərk edərək olmamışdır. Allah bütün xalqlara yer və zaman fərqi qoymadan peyğəmbərlər göndərmişdir .

Uca Allah peyğəmbərlərin bütün qövmlərə göndərilməsi barədə Qurani-Kərimdə buyurmuşdur :

*"Elə bir ümmət yoxdur ki, ona xəbərdar edən bir peyğəmbər gəlmiş olmasın"*. (Fatir, 24).

Elə bir ümmət, xalq olmayıb ki, onlara peyğəmbər göndərilməsin və həmin peyğəmbər onlara şirkin pis aqibətini bəyan etməsin və onları təkAllalığa dəvət edərək iman edənləri bu yola tabe olanların gözəl sonluğu barədə müjdələməsin !

Başqa bir ayədə Uca Allah belə buyurmuşdur: *"Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”– deyə, elçi göndərdik"*. (Nəhl, 36).

Bu ayələrdən peyğəmbərlərin göndərilmə məqsədləri, xüsusən də onların "hər ümmətə" göndərilmələri qeyd olunmuşdur. Həmçinin, Uca Allah heç bir ümmətə peyğəmbər göndərib xəbərdar etmədən əzab göndərmədiyini də bildirmişdir: *"Biz elçi göndərməmiş heç kəsə əzab vermirdik"*. (əl-İsra, 15). Bu məqamda ayənin əvvəlindən sonuna kimi oxumaqda fayda var: *"Kim doğru yolla getsə, xeyri onun özünə olar, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Heç bir günahkar başqasının günahını daşımaz. Biz elçi göndərməmiş heç kəsə əzab vermirdik"*. (əl-İsra, 15).

**B)** Allah Qurani-Kərimdə göndərilmiş peyğəmbərlərdən iyirmi beşinin adını bildirmiş, onlardan bəziləri haqda ətraflı, bəziləri haqda az bilgi vermiş, bəzilərinin isə sadəcə adlarını bildirmiş, bəziləri haqda isə ümumiyyətlə məlumat verməmişdir. Bizə hədislərdən məlum olana görə bəşər tarixində 124000 peyğəmbər göndərilmişdir. Bu məlumat ümmət arasında məşhur olsa da, hədis elminə görə zəifdir. Daha doğrusu isə odur ki, bu peyğəmbərlərin dəqiq sayını Allah bilir.

Bu hökmü verən alimlərdən; Əhməd ibn Hənbəl, Muhəmməd ibn Nasr əl-Mərvəzi, İbn Atiyyə, əl-Heysəmi, şeyxülislam İbn Teymiyyə, İbnul-Covzi, İbn Kəsir, İbn Cibrin, Əbdüləziz İbn Bəzz və başqalarını qeyd etmək olar. Həqiqətdə alimlər Quranda adı keçən peyğəmbərlərdən başqa peyğəmbərlərin olduğunda ittifaq etsələr də, onların dəqiq sayı barədə ixtilaf etmişlər. Bizə düşən isə sadəcə onların sayının Qurandakı saydan çox olduğuna inanmaqdır ki, bu, bizim üzərimizə vacibdir. Bu vaciblik bu ayəyə görədir:

*"Daha öncə bir qisim elçilər barəsində sənə söylədik, digər elçilər barəsində isə sənə heç nə söyləmədik"*. (ən-Nisa, 164).

Buna inanmaq vacib olduğu kimi, peyğəmbərlər arasında ayrı-seçkilik etmək və ya hansınsa inkar etmək də doğru deyil. Bu, yəhudilərin dediyi sözdür, necə ki, ayədə deyilmişdir: *"Biz o elçilərin bəzisinə inanır, bəzilərinə isə inanmırıq!"*. (ən-Nisa, 150). Biz isə Allahın göndərdiyi bütün peyğəmbərlərə və bütün elçilərə inanırıq! İnanırıq ki, Allah hər zaman bütün xalqlara peyğəmbər göndərmişdir .

Qurani-Kərimdə onlardan çox az bir qismi barəsində ətraflı məlumat verilmişdir. Qurani-Kərimdə bu qədər çox sayda peyğəmbər haqda məlumat verilməsini istəyən ateist sanki, Qurani-Kərimin özündən əlavə ən on cildlik bir kitabın da olmasını istəyir. Bu isə gülməli bir iddia olardı .

Qurani-Kərimdə nəyin haqqında bilgi verilib nəyin tərk edilməsi özü böyük ilahi hikmətlərlə əlaqədardır. Qurani-Kərimin bəşəriyyətə vermək istədiyi mesajı bilməyən insanların onun məqsəd və qayəsini bilmədən Qurani-Kərimi gah kimya kitabı, gah fizika kitabı, gah zoologiya kitabı və s. kimi təsəvvür etmələri, az qala Mendeleyev cədvəlindəki maddələrin də Quranda niyə olmadığını soruşmaları sizcə qəribə deyilmi? Bütün bu sorğuları məntiqi şəkildə cəm etdikdə isə sonuncu sual yaranır: Allah niyə bütün elmləri bizə hədiyyə edən kitabxana göndərməyib? Gülməli görsənir, eləmi? Lakin, ateistlərin sosial şəbəkələrdəki suallarını cəm etdikdə hər şeyi Quranda axtarmalarını nəzərə aldıqda insan bu sonuncu sual barədə düşünməli olur. Doğurdan da onlar Quranın dini hökmlər haqda kitab olduğunu başa düşmək istəmirlər. Əgər

Allah peyğəmbərlərin göndərilmə qayəsini bildirdikdə onları hər ümmətə tək Allaha ibadət etməyə və Allaha şərik qoşmaqdan çəkindirməyə görə göndərdiyini başa düşsələr, peyğəmbərlərin dini məqsədlə gəldiyini, kimya dərsi keçməyə gəlmədiyini anlayarlar. Dinin dünyəvi elmləri dəstəkləməsi isə başqa geniş mövzudur ki, biz öz mövzumuza davam edək .

Deməli, aydın olur ki, bu şübhəyə İslami təsəvvür içərisində yer yoxdur !

**Keçək məsələnin tarixi və ictimai tərəflərinə:**

**1 -** Onu bilmək lazımdır ki, Orta Şərq bölgəsi bəşər övladının mühüm mərkəzlərindən biri olmuşdur; Bu ərazi, İran körfəzindən aralıq dənizi sahillərinə kimi uzanan böyük bir ərazini (Şam, İraq, Suriya, Misir, Ərəbistan yarımadası, Fələstin, indiki İsrail və s. əraziləri) əhatə edirdi. Başqa yerlərdə yaşayışın olması məsələsinə gəldikdə isə bu barədə artıq qeyd olundu ki, "Qurani-Kərim hər bir xalqa peyğəmbər göndərildiyini" xəbər verir. Yaxın Şərq məntəqəsi təxminən yer üzünün ortası, Məkkə isə mərkəzi hesab edilir .

"Məkkənin yer üzünün mərkəzi olması barədə Misir mütəxəssisi, Qahirə Universitetinin coğrafiya professoru doktor Hüseyn Kəmaləddin 1977-ci ildə həm bu məsələ, həm də Məkkənin tarixi və qədimliyi barədə elmi araşdırmalarını dünya elminə təqdim etmişdir"[88]. İslam alimlərindən bəziləri peyğəmbərlərin Yaxın Şərq ərazisindən yayılmasının hikmətini dinə dəvət üçün yolun yaxınlığı, bir asanlıq kimi izah etmiş, dünyanın ortasından və

[88] Mənbə: Məqalə: "Kəbə yer kürəsinin mərkəzidir". Bildirçin.az saytı.

ya insan sivilizasiyasının mərkəzindən kənarlara doğru getməyin daha asan olduğunu qeyd etmişlər .

**2 -** Qurani-Kərimdə deyilir: «Beləcə, onlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki, onun barəsində: “Sehrbazdır, ya da dəlidir!”– deməsinlər». (ət-Tur, 52). Əgər bu göndərilmiş peyğəmbərlərə belə deyirdilərsə, görəsən məntiqidirmi və ya təsəvvür oluna bilərmi ki, o xalqlar bu peyğəmbərlərə həm "dəli, sehirbaz" deyib onlara əhəmiyyət verməsinlər, sonra da onların adlarını tarixə qeyd etsinlər? Əlbəttə ki, əhəmiyyətsiz gördükləri adamları tarixi qeydlərə salmaları heç də inandırıcı görünmür .

**3 -** Ola bilsin ki, etiraz edən şəxs desin: Bəs nə üçün İsrail övladlarının xəbəri Qurani-Kərimdə qalıb? Cavab: çünki, onlar da bu məntəqədə (Orta Şərqdə) yaşayıblar. Bu əslində bir çox səbəblər dolayı baş vermişdir :

*a - Yəhudilərdən olan peyğəmbərlərin çoxluğu,*

*b - Peyğəmbərlərin bir-birinin ardınca gəlməsi,*

*c - Onlardan bəzilərinin - Davud, Süleyman və s. - dövlət rəhbəri olan peyğəmbərlər olması,*

*d - Onlara müqəddəs kitabların gəlməsi,*

*e - Mömin nəsillərin davamlı şəkildə bir-birinin ardınca gəlməsi və bu elçilər haqda şifahi mədəniyyətin qorunması; Bu şərtlər aradan qalxdıqda Avstraliya, Cənubi Amerika və s. kimi yerlərdə bu amillər olmadığı üçün o yerlərdə peyğəmbərlik xəbərinin qalması üzürlü hesab olunur. Çünki, peyğəmbərlik xəbərlərinin bir çox nəsillərə ötürülməsinin real səbəbləri var. Bu səbəblər aradan*

*qalxarsa, həmin ölkələrdə peyğəmbərlik xəbərlərinin qalması mümkün deyil .*

**4 -** Bizim söhbətimizin mövzusu İsa ﷺ peyğəmbərin dövründən əvvələ aiddir. Müsəlman deyir ki, İsa peyğəmbərdən sonra yalnız Muhəmməd peyğəmbərin ﷺ peyğəmbərlik dövrü olmuşdur. Məlum olduğu kimi İsa ﷺ peyğəmbərdən əvvəlki əsrlərdə yazılarda tarixi isnada fikir vermək, yazıların qorunması və s. kimi məsələlər olduqca zəif idi. Həmin dövrlərdə olan məlumatların demək olar ki, çoxusu daşüstü, qayaüstü yazılarda həkk olunurdu. Bu yazılar isə tarixi təfsilatları vermək həddində deyildi. Hətta, yunanların tarixinə baxsaq, onların da İsa ﷺ peyğəmbərin əsrinə yaxın əsrlərdə yaşadıqlarını görərik ki, onlar da miladdan əvvəlki həmin dövrlərdə tarixi isnadları verməkdə zəif olmuşlar. İsa peyğəmbərdən əvvəl gələn peyğəmbərlər isə ondan uzun əsrlər öncə mövcud olmuşdular .

**5 -** Tarixi sübutlar göstərir ki, İsa ﷺ peyğəmbərin zamanından əvvəl (Miladi təqvimdən əvvəl) islahatkar insanların xəbərlərinə çatmaq olduqca çətindir. Ona görə də onların xəbərləri ya örtülü qalır və rəvayət olunmayaraq tarix səlnaməsindən itir, ya da rəvayət olunduğu zaman bir çox təhriflərə uğrayaraq əsatir və miflərə çevrilirdi. Buna misallardan biri də Zərdüştün xəbərdir. Hansı ki, bəziləri onu "farsların peyğəmbəri" adlandırırdılar. Zərdüştün yaşadığı dövr haqqında tarixçilər arasında böyük ixtilaflar var;

*a) Bəzi tarixçilər Zərdüştün İsa Məsihdən 6000 il əvvəl yaşamasını iddia edirlər .*

*b) Bəzi tarixçilər isə onun miladdan 600 il əvvəl yaşadığını iddia edirlər.*

*c) Bəziləri isə onun miladdan əvvəl 1500-2000-ci illərdə yaşamasını iddia edirlər .*

Bu ixtilafların olduğu şəraitdə islahatçıların tarixi xəbərlərinin itməsi təsəvvür edilən və gözlənilən olduğu kimi, həmin dövrdə və ondan əvvəlki dövrlərdə yaşayan peyğəmbərlərin xəbərlərinin itməsi də gözlənilən və təsəvvür olunandır. Yəhudilərə çoxlu peyğəmbərlər gəlsə də, onlardan əsasən yalnız Quranda adı çəkilənlərin məlum olduğu bilinir. Qurani-Kərim başqa kitablardakı xətaları göstərməsi ilə də diqqətləri özünə çəkir .

**6 -** Yuxarıda qeyd olunan məsələyə (3-cü tarixi məsələ) oxşar şəkildə sual verilə bilər ki, nəyə görə Qurani-Kərim İsrail övladlarına gələn peyğəmbərləri də qeyd edib? Hansı ki, onlar da Orta Şərqdə yaşamışlar. Bunun cavabı belədir:

**A)** Qur'an hicaz bölgəsində nazil olmuşdur. Bu əraziyə yaxın yerlərdə yəhudi və xristianlar məskunlaşmışdılar. Təsəvvür olan və məntiqi olan odur ki, bu kitab onların peyğəmbərlərinin xəbərləri ilə əlaqədar olaraq həmin əraziyə yaxın bölgələrdəki xalqların dindarlarına da xitab etməli idi. Necə ki, Qurani-Kərim onların kitablarının (Tövrat və İncil) Allah tərəfindən nazil edilməsini təsdiqləmişdi, eləcə də o kitabların sonradan təhriflərə məruz qaldığını da bəyan etmişdi. Bu, onlara İslam hüccətinin çatdırılması və başlarına gələn hadisələrdən ibrət almaları baxımından çox mühüm idi .

**B)** Amma, ümumən xalq fərqi qoyulmadan yalnız Yaxın Şərqdəki peyğəmbərlərin adlarının Qurani-Kərimdə çəkilməsinə gəldikdə isə bu peyğəmbərlərin həyat hekayələrində olan ibrət və

moizələr digər peyğəmbərlərin hekayələrindən daha böyük idi; bu barədə təfsir alimi İbn Aşur demişdir: «Allah öz peyğəmbərinə bir çox peyğəmbərlərin hekayələrini nəql etməyi adları qeyd olunan peyğəmbərlərlə kifayətlənmək üçün tərk etmişdir; çünki, adları qeyd olunan elçi və peyğəmbərlərin hekayələri böyük ibrət və faydaları ehtiva edir»[89].

**7 -** Tədqiqatçı alimlər bəzi xalqların tarixində hikmətli şəxs, dahi kimi tanınmış, həmin xalqların müdrik kəlamlarını söyləmiş bəzi şəxsiyyətlərin peyğəmbər ola biləcəyini, sadəcə zaman keçdikdə o şəxslərin "filosof" və ya "müdrik" kimi tarixə düşmələrini qeyd edirlər. Bunu dəqiq bilmək isə böyük zaman fərqi olduğu üçün ehtimal olaraq qalır. Araşdırmaçılar bu ehtimalların mümkünsüz olmadığını bildirirlər. Ona görə ki, Qurani-Kərimdə də bəzi peyğəmbərlər barədə bilgi verilmədiyinə işarə edilmişdir (Bax: ən-Nisa, 164). Heç bir tarixi və dini dəlil yoxdur ki, tarixdəki islahatkar şəxslər Orta Şərqdən başqa yerlərdə olmamışdır. Məsələn; götürək elə Konfuçini… O, Çinin dünyaca məşhur "müdrik" və "bilgə" adamı olmuşdur. Kimsə mütləq şəkildə deyə bilərmi ki, o peyğəmbər olmayıb?! Çünki, bizim həmin şəxsin dəvətinin əsas vəsfi barədə heç bir məlumatımız yoxdur. Necə ki, İsa ﷺ peyğəmbər xristianların ilahiləşdirib özünə ibadət etdiyi bir şəxs olduğu halda, biz müsəlmanlar üçün o yalnız bir peyğəmbərdir. Bunun kimi Konfuçi və Hinduslarındın bəzi ilahları var ki, onlar vaxtilə hansısa peyğəmbər olmuş şəxslərin heykəlləri ola bilərlər. Çünki, İslami mənbələrdən bizə məlum olduğuna görə bütpərəstlik ilk dəfə saleh insanları xatırlamaq üçün onların

[89] ət-Təhrir vət-Tənvir, 6/35.

tərəfdarları tərəfindən şəkillərinin çəkilməsi, sonra isə növbəti nəsillərin onların heykəllərini düzəlməsi, sonradan gələn nəsillərin isə o şəxslərin kimliyini unudaraq onları ilahiləşdirmələri ilə ortaya çıxmışdır. Bu həqiqətə əsasən hindistanlı bəzi İslam alimləri də orada olan bəzi bütlərin adlarının əslində peyğəmbərlərin adları olduğunu demişlər. Deməli, biz bu ehtimalı nə inkar edə bilər, nə də təsdiqləyə bilərik! Bu məsələ açıq olaraq qalır .

**8 -** Tarixdən bəzi əlamətlər də vardır ki, ola bilsin ki, bu da, Orta Şərqdən başqa peyğəmbərlərin olmasına dəlillərdən biri olsun; Antropologiya elminin alimləri tərəfindən - Androlayn və Vilyam Smit və sair - isbat olunmuşdur ki, Avstraliya, Afrika, Cənubi Amerika və sair kimi yerlərdə yaşayan ilk insanların əvvəllər və elə indi də ibadət etdikləri Uca ilah var ki, onlar bu Uca ilahın göylərdə və yerdə olan bütün ilahlardan güclü və qüdrətli olduğuna inanırdılar. Bəlkə də bu, daim təkAllahlığa çağıran fitrətin izi, əlamətidir ki, orada vaxtilə yaşamış peyğəmbərlərin varlığına dəlalət edən mühüm dəlillərdəndir .

## Qütblərdə namaz və oruc vaxtları haqda şübhəyə cavab

**Şübhə belədir:** *Ateist deyir: Qütblərdə gecə-gündüz fərqi var. Məsələn; Norveç, Allah qütbləri nəzərə almayıb?*

**Cavab:**

**Birincisi** - Əgər istisnalar insanların həyatlarında və qanunlarında varsa, nəyə görə təbiətdəki istisnalardan danışılır? Bu istisnalar möhtəşəm bir dünyanın təbii qanunlarında da mövcuddur. Hər bir ölkənin qanununda qanunun şamil olunduğu əksəriyyət və o əksəriyyətdən istisna olan şəxslər var. Birinci qütblərin faydası nədir? Heç bir faydası yoxdurmu? Ümumiyyətlə, elə bilirsiniz ki, şimal və cənub qütblərini Allah əbəs yerə yaradıb? Əvvəlcə qütblərin faydasına baxmaq lazımdır. Əgər Qütblərin faydası yoxdursa, siz yalnız o zaman deyə bilərsiniz ki, Allah qütbləri elə-belə yaradıb və ya nəyisə nəzərə almayıb. Gəlin baxaq;

Araşdırmaçılar hesab edirlər ki, yer üzünə meteorid daşlarının düşməsi və bəşəriyyət üçün təhlükəsiz sovuşması üçün ən uyğun yer qütblərdir. Xüsusən də cənub qütbü .

Yer üzünün 90 faiz şirin su hövzəsinin hamısı Şimal və Cənub qütblərindəki buzlaqlarda cəmləşmişdir. Bəşəriyyətin su şirin su ehtiyatı qurtardıqda bu qütblərin əhəmiyyəti artacaqdır. Bu faydaları artırmaq olar. Şəkk yoxdur ki, Allah heç bir şeyi əbəs yerə yaratmamışdır .

Təkcə Antarktidada olan məşhur minerallar bunlardır: neft, kömür, dəmir filizi, slyuda, mika, mis, uran, qurğuşun, sink, qrafit və s. 1988-ci ildə Antarktidadakı faydalı maddi minerallara

toxunulmaması haqda qanun imzalanıb. İndi Antarktidada hər hansı bir mədənin istifadəsi 2048-ci ilə qədər qadağandır. Bəşər övladı Qütblərdəki faydalı qazıntıların istifadəsini gələcəyə saxlamışdır. Bu qədər faydalı mədənlər və mineralları ola-ola ateist durub deyir ki, "Allah bu yerləri nəzərə almayıb". Xatırladaq ki, bu yerlərdə böyük elmi araşdırmalar davam edir və 11 ölkənin burada müxtəlif stansiyaları mövcuddur .

Şübhəni deyən Norveçin özünü misal çəkir, lakin, Norveç haqqında müsbət statistikaları qeyd etmir. Anlamaq olmur ki, Norveçin bir gecə-gündüzünü problem edib, lakin, onun yüzlərlə faydalı mineral mədənlərini, zəngin enerji qaynaqlarını, lütf edən Allah görəsən nəyi nəzərə anlamyıb? Ateist Norveçi misal çəkir, sonra ziddiyyətli məqalələri müşahidə edir, "yer kürəsinin ən xoşbəxt ölkəsi" başlıqlarını görürük. Görəsən, Allah Norveçi nəzərə almayıbsa, onda onlar necə "dünyanın ən xoşbəxt ölkəsi" olublar? Xatırladaq ki, bu statistikaları da müsəlmanlar hazırlamayıblar !

**İkincisi - Nemətlərin fərqliliyi**: Onu deyək ki, guya yer üzündəki bəzi təbiət fərqliliklərini misal gətirənlər bununla dində ziddiyət olduğunu göstərmək istəyir, yaxud da Allahın həmin yerin xalqına diqqət göstərmədiyini demək istəyirlər. Bu qətiyyən elə deyil. Çünki, Allahın bizə verdiyi nemətlər o qədər çoxdur ki, o nemətlərdən birinin az və ya birinin çox olması heç nəyi dəyişdirmir. Uca Allah buyurur:

*"Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz"*. (Nəhl. 18). Təkcə insanın bədən üzvləri və daxili orqanlarından danışsaq, xarici aləmdə insana verilən nemətlərdən, hər bir orqanın xüsusiyyətləri və vəzifələrindən danışsaq, xeyli

vaxtımız gedər. Kiminin gözü yaxşı, dəqiq görür, kiminin qavraması yaxşıdır, kiminin yaxşı məharətləri var, kimisi qüvvətlidir, kimisi gözəldir, kimisi gözəl olmasa da çox adamdan ağıllıdır və s. Bir nemət yoxdursa, başqası olur və ya onu əvəz edən başqa nemət olur. İnsanlar bu barədə az düşünürlər, ya da heç düşünmürlər. Bunlar hamısı nemətlərdir. Hələ biz təkcə insanın özündə olan nemətlərdən bir neçəsindən danışdıq. İnsanlar adi aldığı nəfəsin şükrünü verə bilmirlər, durub dünya əhalisinin heç bir faizinin yaşamadığı ərazilərdə gecənin və ya gündüzün uzun və ya qısa olmasının dərdini çəkir, bunu ziddiyyət kimi göstərmək istəyirlər. Doğurdan da qəribədir .

**Üçüncüsü** - Bu şübhəni gətirənlərə peyğəmbərin hədisində cavab və işarə var. O mənada ki, Peyğəmbərimiz ﷺ ümmətinə bütün xeyirləri və bütün şərləri göstərmişdir. Bu göstərmə ya birbaşa, ya da dolayısı yolla olur. Xüsusən də ibadətlərlə bağlı elə məsələ yoxdur ki, İslamda onun əsli olmasın. Bu da İslamın tam və kamil din olmasının dəlillərindəndir. Gəlin qeyd olunan hədisə baxaq;

Novvas İbn Səmməndən (Allah ondan razı olsun) rəvayət olunur ki, *Allah Elçisi ﷺ öz əshabına yalançı Dəccalın gəlişi haqda danışarkən səhabələr dedilər: O yer üzündə nə qədər qalacaq? Dedi: Qırx gün. Bir gün bir il kimi olacaq. Bir gün bir ay kimi olacaq. Bir gün bir cümə kimi olacaq və başqa günləri sizin başqa günləriniz kimi olacaq. Sonra deyildi: Ey Allahın Elçisi! Bir ilə*

*bərabər olan gündə bir günün namazı qılınmalıdır? Dedi: Xeyir, onu təxmini şəkildə təyin etməlisiniz"*[90].

Peyğəmbərin ﷺ səhabələri əgər Ondan soruşmasaydılar, bu fayda hasil olmayacaqdı .

Qadi İyad demişdir (اقدروا له قدرة) : Yəni, sübhdən bir qədər vaxt keçdikdən sonra zöhrün vaxtı girəcək, həmin vaxtı zöhrü qılın, zöhrdən bir qədər keçdikdən sonra əsrin vaxtı girəcək, həmin vaxtı əsri qılın…"[91]. Yəni, beləcə günün namazlarını qılın. Bu hədis ona işarə edir ki, elə bir zaman gələcək ki, namaz vaxtlarını bilməyəcəksiniz, həmin zaman gələndə bu cür edin. Bu hədis bizə qütblərdə necə namaz qılmağımız barədə peyğəmbər ﷺ sünnəsindən, yəni hədislərindən bir işarədir.

**Dördüncüsü -** Bu yerlərdə də insanlar təbii həyatlarını nizama salmaq üçün gecə-gündüz qaydasına mütləq şəkildə tabe deyillər; Gecə-gündüz fərqlərinin böyük olduğu yerlərdə və ya altı ay gecə, altı ay gündüz olan yerlərdə insanlar digər təbii ehtiyaclarını, fitrətdən olan ehtiyaclarını qarşıladıqları kimi namazlarını da qılırlar. Gecələri olmayan, altı ay gündüz olan yerlərdə məgər insanlar səkkiz saat yatmırlarmı? Yoxsa yatmaq üçün onlar gecənin gəlməsini gözləyirlər? Xeyir, gözləmirlər, yuxusu gələn insan istədiyi zaman yatır. Eləcə də namaz qılmaq istəyən belə ölkələrdə namazını qılır. Necə qılır? Bunu qarşıda izah edəcəyik. Eləcə də altı ay gündüz olan yerlərdə insanlar axşam yeməyini yemək üçün gecənimi gözləyirlər? Yox, təxmini bizim gündəlik rejimimiz kimi

---

[90] Səhihi Muslim. Kitəbul-Fitən. 2937.
[91] Hikəyətun ravahə Həbib. səh 100.

onların da rejimi var. Gecə-gündüz fərqləri zatən - dünyanın bir çox yerində işığın gecələr boyunca davamlı istifadəsi nəticəsində bir çox insanlar üçün aradan qalxmışdır - desək heç də yanılmarıq. Bu, günümüzün reallığıdır .

**Beşincisi -** Qütblərdə gecə və gündüzün fərqli olması elə məhz yer üzündəki həyatın düzgün tənzimlənməsi açısından elmi bir nəticədir. Gecə və gündüzün əmələ gəlməsi özü yer planeti ilə günəşin hərəkətindən yaranan bir prosesdir. Digər yazılarımızda da qeyd etdiyimiz kimi, əgər günəşlə yer arasındakı məsafə və hərəkətdə kiçik bir fərqlilik olsa, nə yer üzündəki həyatın ərsəyə gəlməsi üçün ən uyğun temperatur, nə də də şərait olardı. Danışmaq istəyənlər ilk öncə kainatdakı dəqiq yaradılış nizamlarına baxıb bu barədə düşünməlidirlər. Dünyanın çox az bir hissəsində azsaylı insanlar üçün (bir neçə milyon) görünən bu hal bütün dünyada keçərli olan gecə və gündüz anlayışını ortadan qaldırmır. Nə də bu Allahın Elminə, Hikmətinə, Qüdrətinə və s. zidd deyildir. Azsaylı insanların məskunlaşdığı bu kimi yerləri və onların durumunun bütün yer əhalisinin durumu ilə müqayisə olunmaz şəkildə olduğunu bildikləri halda bunu şəriət hökmlərinə qarşı şəkk-şübhə kimi gətirmək istəyənlər tamamilə yanılırlar .

**Altıncısı -** Məlum olduğu kimi, bu gün də qütb əraziləri müsəlmanların əlində deyil. Müsəlmanlar kütləvi surətdə həmin ərazilərdə yaşamırlar; Onlar nə vaxt həmin ərazilərin əsas sakinləri olarlarsa, bu məsələni o zaman gündəmə gətirmək daha doğru olardı. Lakin, İslam alimləri bu kimi yerlərdə namaz və oruc hökmləri barədə danışmışlar. Bu məqamda qütblərdə namazın

qılmaq və oruc tutmaq barədə İslam alimlərinin fətvalarının ixtisarı olan bilgini vermək yerinə düşərdi;

**A)** Əgər qütb və qütblərə yaxın yerlərdən gecə və gündüzü bəlli olan ərazilərdə namaz və oruc barədə soruşularsa, bu cür ölkələrdə gecə və gündüz bəlli olduğuna görə - digər ölkələrdən vaxt fərqi mövcud olmasına baxmayaraq - namaz vaxtları həmin ölkələrdə günəşin hərəkətinə görə tənzimlənir. Həmin ölkələrdə gün nisbətən uzun olsa belə, namazlar həmin yerin təqviminə, günəşin hərəkətinə görə tənzimlənir. Bu, gecə ilə gündüzün bir-birindən seçildiyi üçündür. Çünki, bu yerlərdə günəşin çıxması və batması müşahidə edilir. Çünki, Uca Allah Qurani-Kərimdə buyurmuşdur :

"Gün batmağa meyl edəndən gecənin qaranlığınadək bəlli vaxtlarda namaz qıl" (İsra. 78) .

"Namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir". (ən-Nisə. 103).

Bu barədə olan çoxsaylı hədislərin zahiri də bu mənaya dəlalət edir. Mövzunu uzatmamaq üçün növbəti məsələni izah edək. Bu, gecəsi ilə gündüzü bir-birindən fərqlənən, günəşin çıxıb batdığı bilinən qütb ölkələrində namazın qılınması ilə əlaqədar məsələ idi .

Amma, bu cür ölkələrdə oruc tutmağa gəldikdə isə, günəşin çıxması və batması məlum olduğu bu yerlərdə orucun başlama və bitmə vaxtı həmin ölkənin səhur və iftar vaxtlarına görə tənzimlənir .

Uca Allah Qurani-Kərimdə buyurmuşdur:

*"Dan yeri söküləndə ağ sap (şəfəq) qara sapdan (gecənin qaranlığından) seçilənə qədər yeyin-için. Sonra gecəyədək orucunuzu tamamlayın"*. (əl-Bəqərə, 187).

"Ləcnətud-dəimə" (böyük alimlər şurası) bunu da əlavə etmişlər: "Hər kimin ki, günün uzun olmasından dolayı oruc tutmağa gücü çatmazsa, yaxud da əlamətlərdən və ya təcrübədən və ya mötəbər, etibarlı həkimin məsləhətindən dolayı, yaxud da güclü bir zənn ilə oruc tutmaq onu həlak edəcək və ya şiddətli xəstələndirəcəkdirsə, yaxud da xəstəliyini artıracaq və ya hansısa xəstəlikdən sağalma prossesini gecikdirəcəksə, o zaman orucunu açaraq həmin vaxtı tutmur, sonra gücü çatdığı başqa günlərdə qəzasını tutur. Çünki, Uca Allah buyurmuşdur:

«Sizlərdən bu aya çatan şəxslər həmin ayı oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda oruc tutmalıdırlar». (əl-Bəqərə, 185).

Həmçinin, Uca Allah Qurani-Kərimdə buyurmuşdur:

«Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər». (əl-Bəqərə, 286).

Həmçinin, buyurmuşdur:

"(Allah) dində də sizin üçün heç bir çətinlik yaratmadı". (əl-Həcc. 78).

**B)** Amma, o kəslər ki, yayda günəşin batmadığı, qışda isə günəşin çıxmadığı və ya altı ay səhər, altı ay gecə olan ölkələrdə yaşayırlar, onlara da 24 saat ərzində beş vaxt namaz qılmaq vacibdir. Onlar namaz vaxtlarını özlərinə ən yaxın olan ölkəyə görə

təyin etməli, namazlarına arasındakı fasilə həmin yaxın ölkənin vaxtlarına görə təyin olunmalıdır. Bu təyin etmə həm yuxarıda qeyd olunan Novvas İbn Səmmən hədisindəki peyğəmbərin bu sözünə: "onu təxmini şəkildə təyin etməlisiniz"[92]. və Məlik ibn Sa'sa'adan gələn hədisdəki: "Mənə beş vaxt namaz qılmaq əmr olunmuşdur"[93] - sözünə görədir .

Bu məsələdə oruc da namaz kimidir. Şəri vaxtlar əlamətlərə görə təyin olunur. Bu da ən yaxın bir ölkənin namaz vaxtlarını götürməklə mümkündür[94].

## "Cariyələr" barədə ateist şübhəsinə cavab.

**Şübhə belədir:** Əxlaq normaları kişilərə sərf edəcək formada təqdim edilmişdir. Bu dində qadınlar nəzərə alınmayıb. Məsələ; müsəlmanlar kafirlərlə döyüşürsə, onlar döyüşdüyü əsgərləri öldürür və onların həyat yoldaşlarını və ya qızlarını və ya gəlinlərini özlərinə cariyə edirlər və onlarla istədikləri kimi rəftar edirlər. Din bunda heç bir sərhəd qoymayıb, sadəcə kişilərin əxlaq normalarını təyin edib .

**Cavab:** *Bu şübhəyə cavab bir neçə aspektdən veriləcəkdir:*

---

92 Səhihi Müslim. 2937.
93 Səhih əl-Buxari, 3674.
94 Ləcnətud-Dəimə lil-Buhus əl-İlmiyyə vəl-İftə; Fətva, no: 2769; ixtisarla.

**Birincisi:** Bir ateistin əxlaq normalarından danışıb müsəlmana ağıl verməyə "mənəvi" haqları çatmır :

Ona görə ki, bir ateistin əxlaqi dəyərləri qoruyan ən yüksək bir dini bu cür cəsarətlə tənqid etdiyini düşünməsi absurd fikirdir. Ən azından ona görə ki;

Ümumiyyətlə, ateizmdə əxlaqi dəyərlər nisbidir. Praktiki bir misal istənilərsə, Azərbaycanda ateistlərin yaşayışına baxdıqda 10 ateisti və 10 dindarı yanbayan qoysaq, onların gündəlik əxlaqi dəyərlərini müqayisə etsək, məsələ aydın olacaqdır .

Fərz etsək ki, ateistin dediyi doğrudur - onu başa salmaq üçün - onda biz dünya xalqlarının yalnız döyüş vaxtını sülh vaxtı ilə müqayisə etsək - dünya tarixinin heç bir faizinin tarixinin belə ömrünün döyüşlə keçmədiyini görəcəyik. Əgər bu məlum oldusa, ateist cariyə götürməyi öz aləmində əxlaqsızlıq kimi qəbul edirsə, ona deyirik ki :

**a)** Müsəlman bunu düşmənin əsir qadınlarına qarşı edir, özü də pis şəkildə yox, evlənib özünə arvad etmək şərtilə. Ateist isə öz xalqının qızları ilə hər ay, hər həftə zina edə bilir .

**b)** İndiki müsəlmanlar heç cariyə üzü görmürlər, ateistlər isə nəinki düşmən qızları ilə deyil, döyüş vaxtı deyil, elə sülh vaxtı öz xalqının qızları ilə zina edirlər.

**c)** Ateist oğlanlar bir yana qalsın, hələ ateist qızların çoxusunun da hansı həyat tərzi sürdükləri göz önündədir .

Belə olduğu halda ateistlər zina etməyi haram edən bir dinə və onun nümayəndələrinə əxlaq dərsi keçməyi özlərinə saxlasınlar.

Qoy onlar namus və "qeyrətin boş şey olduğunu" deyən, "öz qızını yadlardan qorumayan, qısqanmayan" , "porno film çəkmək istəyən", "öz doğma qardaşı ilə yetkin yaşa çatmaq şərtilə cinsi yaxınlığa normal baxan ateist qız" və başqa ateistlərin dərdini çəksinlər. Biz bu misalları elə-belə demirik, siyahını uzada və adlar çəkə bilərik, bu qədər dəqiqliklə danışa bilərik. Əlqərəz, öz evi şüşədən olan başqasının evinə gərək daş atmasın. Ateistlərin əxlaqdan danışıb kiməsə ağıl vermək haqları yoxdur. Birinci onlar özlərini düzəltməlidirlər .

**İkincisi: Cariyələrə gəldikdə isə:**

**A)** "Cariyələr" döyüş vaxtı düşmən tərəfindən müsəlman tərəfə əsir düşmüş, müsəlmanların sonradan evləndiyi düşmən qadınları idi. - Qeyd: müsəlmanlar o qadınlarla onları köləlikdən azad edib evlənə bilir və beləliklə onları qanuni həyat yoldaşı hökmünə daxil edə bilirdilər. Bu cür əsir düşmüş qadınların qətl edilməsi qətiyyətlə qadağan idi. Bunun əksinə olaraq, digər xalqların nümayəndələri istər müsəlman, istər də qeyri-müsəlman qadınlara qarşı zorakılıq, qətl, işkəncə və digər şeylər edirdilər. Müsəlmanlar cariyə qadınlarla evlənib birgə yaşayır, onları yedizdirib geyindirir və məişətlə təmin edirdilər. O qadınlara qarşı hər növ işgəncə haram hesab edilir, onlarla evlənən müsəlmanlar öz həyat yoldaşları kimi onların öhdəliyini daşıyırdılar. Məgər bunu pis əməl kimi qələmə vermək doğrudurmu? Müsəlmanlarla evlənən cariyələr azad qadınlar kimi hesab olunurdular. Məgər bunun nəyi pisdir ki? Onu da xüsusilə vurğulayaq ki, istənilən xalqlar arasında müharibə zamanı düşmən tərəfin qadın və qızları əsir düşdükdə zorlanma halları olmuşdur. Bu isə zorlanma halı deyil. Evlilik prosesi kimi

prosses olur və bu zaman qadın alçaldılmır, əksinə, onlara qarşı qeyri-insani rəftar qətiyyətlə qadağan edilir. İslamın adil din olması hətta bu məsələdə də görünür. "İŞİD terror təşkilatı"nı bizə misal çəkmək istəyənlər Amerikanın dəstəyilə güc qazanan qruplaşmanın törətdiklərini nümunə götürə bilməz. Lakin, İslamdan başqa cəmiyyətlərə baxsaq, elə yaxın tarixdə Sovet hökuməti almanlar üzərində qələbə çaldığı zaman rəvayətlərə görə Berlin şəhərində Sovet qoşunu tərəfindən təcavüz edilməyən və alçaldılmayan qadın tapmaq çətin idi. Bütün müharibələrdə bu hallar olduğu təqdirdə bunu dinlə əlaqələndirmək və bunu İslama bağlamaq doğru deyil. Sadəcə İslam dini döyüş vaxtı düşmən tərərfindən əsir düşmüş qadınlarla rəftar qaydalarını tənzimlədiyi kimi, onlarla evlənməyə də icazə vermişdir. Təcavüz halları isə digər xalqların döyüşlərdə qalib tərəf olduqları halda bu məsələdə tənzimləyici qanunlarının olmaması səbəbindən ortaya çıxa bilir. İslam dini isə düşmən qadınları ilə adil davranaraq, onları alçaltmadan onlarla evlənməyə icazə vermişdir. Bu zaman yaranan əlaqələr isə ər-arvad əlaqələrindən demək olar ki, fərqlənmir .

**B)** İslamda əxlaq normaları yalnız kişilərə sərf edəcək formada deyil; Bu yalandır və təfsilata ehtiyacı olan sözdür. Hər kəs qadınla kişinin fizioloji fərqlərini bilir. Mövzumuz cariyələrə rəftarla bağlı olduğu üçün qısa olaraq ümumi qadınlara münasibət barədə, qadınların haqları barədə xatırlatma etsək, İslamın qadınlara necə böyük dəyər verdiyi, qadınlara necə böyük hüquqlar verdiyi, bəzi hallarda qadınların kişilərdən üstün hüquqlar əldə etməsi İslami hökmlərin təfsilatlarını bilməyənə ateistlərə aydın olar. Amma, mövzu cariyələrdən olduğundan yenə yanlış izaha düzgün izah verək; Məlumdur ki, döyüşlərdə kişilər döyüşürlər və qadınlar

döyüşmürlər. Onlar döyüşdə canlarını fəda edirlər. Cariyə hər döyüşdə olmur. Əgər olarsa da, əvvəla onlarla pis rəftar etmək qadağandır. Sonra isə qeyd olunduğu kimi münasibətlər tamamilə ərlə arvadın münasibəti kimi könüllü olmalıdır. Düşmən qadını olsa belə onunla insani davranılır. Bir kişinin öz həyat yoldaşına davrandığı kimi gözəl davranmaq tələb olunur. Məsələn; Allah Elçisinin ﷺ yəhudilərin müsəlmanlara xəyanət etdikdən sonra onlarla döyüşməsi və döyüşdən müsəlmanlara əsir düşən cariyə qadınla onun könül xoşluğu ilə evlənməsi, o qadının razılığı olmadan uzun müddət onu gözləməsi və ona toxunmaması, o qızın İslamı könüllü olaraq qəbul etdikdən sonra onunla evlənməsi də buna bariz nümunədir. Hətta, peyğəmbər onun İslamı qəbul etmədiyi, yəhudilik dinini seçdiyi təqdirdə öz qövmünə geri göndərəcəyini də vəd etmişdi. Təsəvvür edin ki, peyğəmbər həmin qadına necə böyük seçim azadlığı vermişdi. Həmin qadına istəsə İslamı seçib əbədi səadəti qazanmağı, istəsə də öz dinində qalıb ata evinə dönməsini təklif etmişdi. Həmin qadın isə İslamı seçmişdi. Həmin qadının adı Safiyyə binti Huyey idi. Xatırladaq ki, həmin qadın yəhudi dininə mənsub olan namuslu, şərəfli və ağıllı bir qadın idi. Peyğəmbər ona zorla sahib çıxa biləcəyi halda bunu etməmiş və müsəlmanlara da düşmən qadınlarına qarşı zorakılığı təbliğ etməmiş, əsil peyğəmbəranə davranış nümunəsi sərgiləmişdi .

**Üçüncüsü:** Siz Quranın əsas məsələsi olan Allahın mövcudluğu və Allaha ibadət məsələsinin vacibliyini görməməzlikdən gəlirsiniz. İnsanlar Allaha ibadəti onların Yaradıcısı, Ruzi Verəni və s. olduğuna şükür olaraq edirlər. Hər bir insan ona sonsuz nemətləri verən Allaha ibadət etməyə zəruri olaraq borcludur. Allahın bu ibadətə deyil, insanın bu ibadətə ehtiyacı var. Düşmən tərəfə İslamı

qəbul edərək doğru yolu seçmək ərz olunduqdan sonra onların bu ibadəti etmədikləri və müsəlmanlara qarşı hərb etmələri halında artıq Allah onların hərbi sürsatlarını (hərb nemətlərini), mal nemətlərini və şəhvət nemətlərini (qadınlarını) və s. haqlarını onların əllərindən alır və bu nemətləri müsəlmanlara verir. İnsanlara verilən əsas nemətlər yemək, içmək, mal, pul, qadın və bir çox nemətlər var ki, Allah insanlara bu nemətləri verib ki, Allahı tanısınlar, ona şükr etsinlər, ibadət etsinlər, yəni, bu nemətləri buna qarşılıq verib. Qurani-Kərimdəki ayətlər də buna işarə edir. Allaha asilik edən qövmlər bu nemətlərə layiq olmurlar. Digər Qur'an ayələri isə bəyan edir ki, Allah Öz ruzisini və nemətlərini bu dünyada möminə də, kafirə də verir. Axirət günü isə nemətlərini yalnız möminlərə verəcəkdir. Bizim mövzumuzdakı kafirlərin nemətlərdən məhrum olunması döyüş meydanında məğlub olmaları zamanı müsadirə olunan mal-mülkləri və əsirləri barəsindədir .

Sən əgər bizə "Allaha ibadət etmək lazım deyil" deməyini isbat edə bilsən, o zaman bizə cariyə, qənimət və digər mövzulardan danışa bilərsən. Kafirlər və onların qadınları Allahı inkar etdiklərinə görə, Ona ibadət etmədiklərinə görə və vuruşmağı seçdiklərinə görə İslam döyüşdən qabaq onlara seçimlər verir ki, ya cizyə verin canınızı qurtarın[95] və ya İslama gəlin. Yox bu şərtlərdən sonra onlar İslama qarşı döyüşü seçərlərsə, artıq onlardan mal, şəhvət hüquqları və s. artıq düşmüş olur, çünki, buna layiq olmurlar

[95] Yəni: Cizyə verin, bundan sonra dininizi yaşaya bilərsiniz və biz də sizə toxunmayacağıq.

deyə Allah bu hüququ müsəlmanlara verir. Bu isə o cariyələrin bir növ İslama girmələrinə də vəsilə ola bilir .

**Dördüncüsü:** İslamda döyüşdən məqsəd cariyə əldə etmək deyildir. Ateistlərin gülünc təsəvvürlərindən biri də İslami döyüşləri qadın ovuna çıxmaq kimi eybəcər şəkildə qələmə verməleridir. Müsəlmanların döyüşmələri ya müdafiə məqsədilə olur ki, bu zaman döyüş öz torpaqlarını düşməndən müdafiə etmək məqsədilə həyata keçirilir. Belə durumda düşmənin kişiləri ilə döyüş baş tutur. Cariyədən ümumiyyətlə söhbət gedə bilməz. Yalnız müsəlmanların hansısa qeyri-müsəlmanlara qarşı hərbi əməliyyatları olarsa, o zaman cariyə mövzusundan danışmaq olar. Lakin, mühüm məsələ odur ki, qeyd olunduğu kimi müsəlmanların bütün döyüşdə qalib gələn və düşmən qadınlarını əsir götürən tərəflərdən fərqi odur ki, İslam dini düşmənin əsirləri ilə rəftar qaydalarını əsrlər öncə tənzimləmiş, nəinki cariyələrə, hətta, digər fərdlərlə də insani davranmağı əmr etmişdir .

**Beşincisi;** Cariyə məsələsi İslamdan əvvəlki ümmətlərdə də olmuşdur; Bu günkü gündə ad fərqliliyi olsa da düşmən tərəfindən əsir götürülmüş əsir qadınlar qeyri-islami ölkələrdə də hələ də mövcuddur və hər dəfə müasir dünyada döyüşlər baş verdikcə əsir qadınlar olur. Həmin qadınlar əsir olsalar da müxtəlif fiziki və mənəvi işgəncələrə məruz qalırlar. Nədənsə bütün dünya müharibələrində qadınların başına gətirilən vəhşilikləri bir yana qoyub, İslamda vəhşiliyin qadağan edilməsinə baxmayaraq, cariyələri müzakirə edənləri, dünyada hər il döyüşlərdə əsir düşən qadınların taleyini müzakirə edən görmürük. Sanki, bu insanlar olduqca yüksək insani hislərin daşıyıcılarıdırlar. Bu ateistlər

yuxarıda qeyd etdiyimiz kimi Sovet dinsiz qoşunları tərəfindən Berlin şəhərinin az qala bütün qadınlarının cinsi təcavüzə məruz qalmasından, nə qədər qadın və uşaqların ateist təfəkkürü ilə qətl edilməsindən də danışmırlar. Belə misallar dünya tarixində çox baş vermişdir. O qadınlardan danışdıqda qalib tərəf olmaq və məğlub tərəf olmaq amilini də nəzərə almaq lazımdır. İslam isə əsir qadınlara qarşı bu cür qətl, işkəncə hallarını qadağan edir. Onlara əsir qadınları ya öz mülklərinə çevirməklə hər cür ehtiyaclarını ödəməyi, ya azad edərək sərbəst buraxmağı, ya da azad etdikdən sonra şərəfli qadınlarla evləndikləri kimi həmin qadınlarla evlənmək və öz rəsmi xanımı etmək ixtiyarını verir. Əsir qadınlara qarşı bu seçimləri verən bir din ilə qadınların şərəfini alçaldan dünya döyüşlərini müqayisə etmək yaxud bərabərləşdirmək, heç bir insani qanunları gözləmədən qadınlara qarşı vəhşiliklər sərgiləyən müasir dünyada qətiyyən ədalətli mövqe ola bilməz .

## Mənim Allahım "vicdanımdır" deyənlərə cavab

Ateist və deistlər arasında "Mənim Allahım vicdanımdır" şüarı geniş yayılmışdır. Bu iddiaya münasibət bildirmək istərdim. Ateistlərin və deistlərin "vicdan" anlayışını qəbul etmələri yaxşı bir haldır. Bəlkə bununla onlara nəyisə başa sala bildik. Ateistlərin "Allah mənim vicdanımdır" sözünü son dəfə eşitdikdən sonra Allahın bu ayələri yadıma düşdü:

"Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah onu elm üzərində azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız? Onlar dedilər: *"Həyat ancaq bizim dünya həyatımızdır. Kimimiz ölür, kimimiz də doğulur. Bizi öldürən ancaq zamandır"*. Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar". (Casiyə, 23-24).

Doğurdan da bunu deyən dinsizlər nəfslərinin istəklərini ilahiləşdirmişlər. Onlar öz vicdanlarını deyil, nəfslərinin istəklərini ilahiləşdirmişlər. Çünki, çoxu "vicdan" sözünün mənasını bilmir. Bilənlər üçün isə vicdana "Allah" demələri absurd bir fikirdir. Onların tələblərinə və mübarizələrinə baxanda nəyə ibadət etdikləri daha aydın bir şəkildə ortaya çıxır. Hətta, nəfsinin istəklərindən elə şeyləri ilahiləşdirən dinsizlər vardır ki, adam o şeyləri dilinə gətirməyə də utanır. Əl-qərəz… Keçək mövzuya .

**Birincisi:** Gəlin ilk öncə vicdan sözünün mənasına baxaq; Xatırladaq ki, vicdan sözü də ərəb sözü olan «vəcədə» felinin məsdəridir. Əgər sizin Allahınız "vicdanınızdırsa", onu da ərəb sözü ilə deyirsinizsə, daha nə deyək sizə?! Axı dinin də ərəb dini olduğunu deyirsiniz?! Gərək bu ziddiyyətdən çıxasınız. Sizə təklif edirik ki, vicdan sözünün ingiliscə və ya başqa əcnəbi dildə olan qarşılığını tapıb işlədəsiniz. "İnşəAllah", "Allah rəhmət etsin" və başqa dini sözləri işlətmədiyiniz kimi, bu sözü də gərək işlətməyəsiniz .

• ***Vicdanın mənası haqqında bir neçə yorumlar verilmişdir:***

Ərəbcədə: "İnsanın özü və daxili gücləri, ona təsir edən daxili ləzzət və ağrı"[96].

Bəziləri: "Vicdan insanın daxilindəki yaxşı və pisi ayırd edən insani bir hissdir - demişlər".

Bəziləri isə demişlər: "Vicdan, ağılın müdaxiləsi xaricində insanın daxili hisslərinin insanın əməllərinə etdiyi mühakiməsidir".

Bəziləri də bir qədər buna bənzər şəkildə: "Vicdan hər bir insana gözəl davranışı və düşüncəni deyən, sağlam mühakimə yürütməyinə kömək edən, səhvlə düzü bir-birindən ayıran mənəvi xüsusiyyətdir" - demişlər[97].

Vicdana işarət edən hədislərdən birində Vabisa ibn Məabəd adlı səhabənin peyğəmbərin ﷺ yanına gəlib ondan "yaxşılıq və pisliyin nə olması" haqqında soruşması təsvir edilir. Peyğəmbər ﷺ ona deyir: *"Ey Vabisa, qəlbindən fətva al; yaxşılıq nəfsinin və qəlbinin yönəlib rahatlıq tapdığı şeydir. Günah isə insanlar sənə "fitnəyə düşmüş" desələr də sənin qəlbinə narahatçılıq verən, köksündə sıxıntı yaradan şeydir"* [98].

Bu hədisdən aydın olur ki, insan öz daxilində nəyin yaxşı, nəyin pis olduğunu, yaşadığı cəmiyyətdə də pis və yaxşı əməlləri ümumən tanıyır. Bu, sağlam fitrəti, mənəviyyatı salamat insanlara aiddir. Mənəviyyatı çirkin əməlləri pis görməyən insan isə vicdanını deyil, nəfsinin istəklərini, şəhvət və ehtiraslarını özünə

[96] "Mucəm əl-Məani" ərəbcə lüğət, vicdan sözünün mənası.
[97] Milli.az. 2017.16 may tarixli "Vicdan nə deməkdir?" adlı məqalə.
[98] İmam Əhmədin "Müsnəd" əsəri. 17545.

ilah etmişdir. Əvvəldə qeyd olunan Quran ayəsində deyildiyi kimi: *"Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü?"*. (Casiyə. 23).

Bu o demək deyil ki, insan hər dəfə vicdanı ilə hərəkət etsə, onun ağıllı düşünməyə ehtiyacı qalmır. İnsanın vicdanı onu xeyirə yönəltsə də, "iki xeyirdən nəyin daha xeyirli olduğunu bilmək üçün" isə furqan lazımdır. "Furqan" haqla batili ayırd etmək bacarığıdır. Bu ayədə deyildiyi kimi:

*"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir"*. (əl-Ənfal, 29).

Bütün bu deyilənlərdən aydın olur ki, "vicdan" insanın daxilində özünü sorğulayıb yaxşı və pisi ayırd edən mənəvi bir hisdir. Bu ayədə vəsf olunan bacarıq "furqan"dır. Yəni: haqla batili ayırd etmək. İnsana təkcə yaxşı ilə pisi ayırd etmək bəs etmir. İnsan haqla batili də ayırd edə bilmədikcə kamil insan ola bilməz .

<u>Bir çox araşdırmaçılar ağılla vicdanı fərqləndirmişlər</u> .

Ona görə də əgər "insanın içində onu mühakimə edən, sorğulayan vicdanın emosional duyğularla bağlı olduğu" mənanı qəbul etsək, ağıl kənarda olmaqla, ağılın müdaxiləsi olmadan vicdan hissinin mühakiməsi baş verirsə, bu aspektdən ateist öz emosional hislərinə "Allah" deməklə bizim dediyimizi yüzəyüz təsdiqləmiş olur, o, ağlını kənara qoyaraq ziddiyyətə düşür. Çünki, emosional duyğular bəzən insanı yanılda da bilir. Buna əsasən ağıl müdaxiləsi olmadan ateist emosional qərarlar vermiş olur ki, hər şeydə təcrübəni və maddi aləmi əsas götürən ateizm yenə vicdanının düz və ya səhv qərar verdiyini tam bilmir. Üstəlik nəzərə

alsaq ki, ateist və bir çox deistlər əxlaqa nisbi yanaşır, bu zaman onların "vicdanı" cəmiyyətdə baş verən bir çox əxlaqi problemlərə qarşı sızlamayacaq və narahat olmayacaq! Bu müqayisəni uzatmaqla ateistin və ya deistin "Mənim Allahım vicdanımdır" deməklə yalan danışdığını və çürük bir iddia etdiyini başqa misallarla da göstərmək olar .

İnsanı daxilində sorğulayan nəfsə gəldikdə isə Qurani-Kərimdə də buna işarə edilmişdir:

*"And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır"*. (Şəms, 7-9).

İslamda nəfsin növlərindən yaxşılığı əmr edən nəfs və pisliyi əmr edən nəfs və s. nəfsin növlərindən bəhs edilmişdir ki, bütün bu proseslər insanın daxilində gedir .

Deməli aydın olur ki, insanın içində yaxşılığı və pisliyi əmr edən nəfs olmasıyla bərabər insan səhv etdikdə ona "səhv etdin" deyə hayqıran, bəzən isə yanlış əməllərinə "bu doğru deyil" mesajı verən, insanın içində sızlayan hislər vicdanın əsas mənasını ortaya qoyur .

**İkincisi:** Vicdanı bəhanə edənlər; Bir məsələ də vardır ki, insan günahlarını çoxaltdıqca onun "pisliyi əmr edən nəfsi" ona qalib gəlir. Yaxşılığı çoxaltdıqca isə "yaxşılığı əmr edən nəfsi" üstünlük qazanır. İnsanın vicdanı onun əməllərindən çox təsirlənir .

Peyğəmbər ﷺ buyurmuşdur: *"Qul bir günah etdiyi zaman qəlbinə qara bir nöqtə düşər. O, günahdan çəkinib tövbə edər və*

*bağışlanma diləyərsə, o, nöqtə silinər və qəlbi yenə də parlayar. Lakin, günahını təkrar etdiyi zaman o qara nöqtə artar. Nəhayət bütün qəlbini bu qaralıq qaplayar. Allahın ayəsində olan: «Xeyr, əslində onların qəlblərini qazandıqları günahlar qaplamışdır». (əl-Mutaffifin 14) budur"* [99].

Ateist şəxs Allahın sevmədiyi əməlləri etməklə bir növ vicdanını da zədələyir. Bundan sonra onun vicdanına "Allah" deməyinin bir mənası qalmır. Qarabağ döyüşü başlasa ön cəbhədə dindarlar olacaq, ən azı Allahını tanıyanlar olacaq. Ateistlərdən isə milli qəhrəmana "qatil" deyəcək qədər vicdanını itirənlər hər gün çoxalmaqdadır. Belələrinin Allahı istər "vicdan" olsun, istər olmasın. Bunun heç bir mənası yoxdur .

"Ağalar Qut" adlı azərbaycanlı ateist təbliğatçılardan biri öz yazılarından birində hətta vicdanı "növlərə ayıraraq" özündən hər birinə adlar qoymuş, "kəlpətin" adlı vicdan kateqoriyasını da özündən "kəşf" etmişdir. Buna da "əhsən" düşür. Heç olmasa vicdanı "kəlpətinə" oxşada bilmişlər .

Bizim "söz oyunu" üzrə ixtisaslaşmış milli ateistlərimiz "vicdanı" əyri-düz qəbul edirlər deyə, onların sözlərindən artıq sitatlar qeyd etmək fikrimiz yoxdur .

**Üçüncüsü:** İnsanın vicdanı, fitrəti Allahı tanımağı əmr edir; Əslində vicdan insana öz Rəbbini tanımağı əmr edir. Elm təsdiqləyir ki, əgər insana heç bir xarici təsir olmazsa, insan Onun Yaradan birinin olduğunu təsdiqləməyə meyillənir. İnsan kainatı Yaradan Qüdrətli Allaha ibadət etmək istəyir və buna meyilli olur .

[99] Mənbə: İbn Macəh. 4344; əl-Albani "Səhih Sünnən Tirmizi". (3/127).

Bu barədə elmi araşdırmalar da vardır; Bu araşdırmalardan "Oxford" universitetinin professoru Jonathan A. Lanmanın araşdırmalarını qeyd etmək olar. Yenə "Oxford" universitetinin psixologiya sahəsində araşdırmaçısı Olivera Petrovich'in araşdırmaları da bunu təsdiqləyir. Dean Hamer isə ilahi genləri aşkarlamış və «The God Gene: How Faith Is Hardwired into Our Genes» kitabında bu barədə ətraflı danışmış, insanların xarici təsir olmadan ateizmə deyil, dinə meyl etdiklərini isbatlamışdır. 2008-ci ilin noyabrında Britaniyanın "Telegraf" qəzetində Justin Barrett'in "Children are born believers in God" (yəni: Uşaqlar anadangəlmə olaraq Allaha inanırlar) adlı akademik araşdırması dərc olunmuşdur .

Həmçinin, 2011-ci ildə "CNN" kanalının yaydığı məlumata əsasən prof. Roger Triggin rəhbərliyi ilə bir çox qərbli araşdırmaçıların (57 araşdırmaçı) iştirakı ilə iyirmidən çox ölkə vətəndaşları üzərində üç il davam edən araşdırma, təcrübə və təhlillərin sonunda gəldikləri nəticəyə əsasən; insanlar Allaha, ölümdən sonrakı həyata inanmağa meyillidirlər. Bu araşdırmaya 1,9 milyon funt sterlinq pul xərclənmişdi. Belə misallar çoxdur, bununla kifayətlənirik .

İnsanın fitrəti haqqında Qurani-Kərimdə deyilir:

*"Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur"*. (ər-Rum, 30).

Başqa bir ayədə isə insanların normalda Allahı təsdiqləmələrindən bəhs edilir:

*"Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, onlar hökmən: "Allah!"– deyəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların çoxu bunu bilmir"*. (Loğman, 25).

**Dördüncüsü: Vicdan ölərsə, o necə sənin "Allahın" ola bilər?**

Bu başlıqla kimisə təhqir etmək, nə də kiməsə sənin "vicdanın ölüb" deyə ittiham etmir, nə də atmaca atmırıq. Ədalətli olmaq istəyirik. Gəlin düşünək sadəcə… Məqsəd ağlımızı işlədib qərar verməkdir; deyirik ki :

• *Vicdan öldüyü zaman* hər şey icazəli olur - böhtan, xəyanət, əxlaqsızlıq, pozğunluq, namus və qeyrəti inkar etmək .

• *Vicdan öldüyü zaman* Qan dadı portağal şirəsi kimi dadlı olur kimlərəsə… Vətənə xəyanət, xalqın namusuna toxunmaq, tarixi saxtalaşdırmaq adi bir şey olur .

• *Vicdan öldüyü zaman*; Başlarına bomba yağan məsum insanlar, uşaq və qocalar üçün narahatlıq keçirmir, üstəlik, "yaxşı olub" deyirlər. Amma, Corcun bir uşağının ayağı burxulanda "vicdanlar" tərpənir. Belə "vicdanın" kiminsə Allahı olması bizə təəccüblü deyil .

• Vicdan öldüyü zaman; Ağ göyərçinlər tərk olunur, səmada yalnız gecə-gündüz səs çıxardan qarğalar qalır .

Vicdan öldüyü zaman; İnsan vəhşiləşir və vəhşi heyvanlar kimi öz ovunu gözləyir. Şəhərlər yalnızlıq dəhşəti saçan meşələr kimi görünür .

• *Vicdan öldüyü zaman*; Qərb insanı nə qədər inkişaf etsə də vətənində başına bomba yağmasından qorxub torpağına gələn insanların sahilə dirənmiş qayığını ya batırmağa çalışır, ya saatlarla geri dönməyini tələb edib acından öldürür, ya da quru sərhəddini keçən qaçqınlara badalaq gəlib yerə yıxır, ya da dəyənəklə başlarına vurur. Belə "vicdana" Allah deyənlərə təəccüblənmirik zatən. Belələrinin "vicdanının" ölməsini görməyən sapı özümüzdən olan baltaların öz vicdanlı dədə-babalarına dırnaqarası baxması da qəribə deyil. İnkişaf etmək vicdanlı olmaq deyil, kaş biləydilər. Qərb insanı ayılıb vicdanı şərqdə axtarır, şərq insanı isə inkişafı qərbdə axtararkən vicdanını itirməklə üzləşə bilirsə, burda bir əmma var. O əmmanı özünüz düşünün!

• *Vicdan öldüyü zaman;* İnsanlar bir-birinin ətini yeyir; gecə-gündüz araq içib, sərxoş olub axşamlar insan əti yeyənlər peyda olur. Onu ittiham edənlər, onu ortaya çıxaran vicdansız mühiti ittiham etmirlər. O insan əti yeyənləri din yetişdirmir. Dinsizlik yetişdirir .

• *Vicdan öldüyü zaman;* Vətənin yeməyini yeyib suyunu içənlər öz milli qəhrəmanına "qatil" deyəcək qədər vicdanını itirir .

Sizcə belə olduğu halda hansı vicdan insanın Allahı ola bilər?! İnsanın tək Allahı var, o da unutduğu Allahıdır. Qurani-Kərimdə o unudulan Allahdan danışılır:

"Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik”. O deyəcək: “Ey Rəbbim! Mən dünyada görürdümsə, indi nə üçün məni kor olaraq gətirdin?” Allah deyəcək: “Elədir!

Çünki sənə ayələrimiz gəldi, sən isə onları unutdun. Bu gün də sən beləcə unudulacaqsan!” Biz həddi aşanı və Rəbbinin ayələrinə inanmayanı belə cəzalandırırıq. Axirət əzabı isə, daha şiddətli və daha sürəklidir". (Ta ha. 124-127).

## Pandemiya dinə qarşı nə qədər ziyan verdi?

**Ateistlərdən biri yazıb ki:** *bəs "pandemiyadan sonra din xadimləri ziyarətgahları bağlayıb, keçiblər arxa cəbhəyə. Ön cəbhədə isə guya dünyəvi alimlər qalıb".*

**Gəlin öncə buna cavab verək:** «Artıq bu barədə dəfələrlə danışılıb ki, dünya bir virusun əlində qaldığı halda, bu qədər sahələr ola-ola nəyə görə din adamları və dinin özü acizlikdə suçlanılır? Dünyada bu virusa yoluxanların sayı bir milyon yarımdan çoxdur artıq, bəlkə bunun dərmanını tapmaqda gecikən müasir tibbi qınayasınız? Hardadır o qürrələndiyiniz inkişafınız? Hardadır o qürrələndiyiniz elmimiz? Niyə sizə kömək olmur? Məgər robotlar dövründə dünya tibbi, dünya elmi bir virusun əlində qalacaq qədər aciz olmalı idi? Dünyaya qan gətirən dinsizlərin törətdikləri terror hadisələrinin də dayandığını görmürsünüzmü? Yoxsa, ön cəbhədə, meydanda qalan alimləriniz daha bir neçə milyon insanın bu virusa yoluxmağını gözləyirlər?

Bu virusdan təkcə italiyada bir neçə günə 50 həkim dünyasını dəyişdi. İllərlə tibb elmi oxuyub özlərini adi bir virusdan da qoruya bilməyən həkimlərləmi fəxr edirsiniz?! Onların elmi nəinki dərman tapmağa, heç özlərini qorumağa da çatmadı. Niyə özünü virusdan qorumağı bacarmayan yüzlərlə savadlı həkimləri acizlikdə ittiham etmirsiniz?

Müxtəlif peşə sahiblərindən mühəndislərin, fiziklərin, kimyaçıların, texnoloqların, iqtisadçıların və s. daha kimlərin də bu virusa çarə qıla bilmədiyini niyə qeyd etmirsiniz?

Peyğəmbər (sallallahu aleyhi və səlləm) epidemiyalar və xəstəliklər zamanı tədbirlər görməyi əmr edib, bu da dinin ağıla uyğun gələn hissəsidir sizin üçün. Bəs bunu niyə inkar edirsiniz?

Haradadır elmi inkişaf səviyyəniz? Avropada, Amerikada yüzlərlə, minlərlə insanın dinə qayıtması da bir daha göstərir ki, elm məhduddur. Bir mikrobu kəşf edə bilməyən elmlə Allahı kəşf etmək istəyirsiniz.

Kəşflə isbatın arasında fərq qoymaq istəyirik. Bu gün mikrobu gözüylə görməyən, amma, onun əlamətlərinə baxaraq onun olmasını isbat edən insanlar insan kimi möhtəşəm bir məxluqun və kainatın yaradıcısının olmasını isbat deyil, inkar edir. Bu da sizin öz əleyhinizədir.

**Nə isə, sonra da deyir ki:** "Türkiyədə guya yığışıb dua ediblər sıxlıq şəklində, ertəsi gün virus şiddətlə yayılıb".

Bu savadsız ateist bilmir ki, virusun ertəsi gün yayıldığı bilinmir. Bu, orta hesabla yalnız 14 gün sonra bilinir".

**Bir başqa ateist də:** "Allahın evi bağlandı. İndi görək dindarlar nə edəcəklər falan" kimi safsatı sözlər yazıb.

**Bu şübhəyə isə cavab belədir:**

**Birincisi:** Ateistlərin dini savadı qıt olduğundan onlar Kəbəni bütpərəstlərin bütü kimi təsəvvür edirlər. Bilmirlər ki, Kəbə də dünyadakı minlərlə məscidlərdən yalnız biridir, üstünlüyü isə onun qiblə olmasında və namazda hər kəsin yönəldiyi istiqamət olmasıdır. Lakin, ateistlər elə bilirlər ki, bütpərəstlərin ibadət etdikləri bütlər kimi müsəlmanların Allahı da Kəbədə olur. Onlar hardan bilsinlər ki, Uca Allah Qurani-Kərimdə: *"Qoy onlar bu evin Rəbbinə ibadət etsinlər"* (Qureyş, 3) deyə buyurmuşdur? Ayədə deyilmir ki, Kəbənin özünə ibadət edin! Ayədə deyilir ki, bu evin Rəbbinə ibadət edin! O evin Rəbbi ki, Kəbə inşa edilməmişdən öncə də var idi və Onun Kəbəyə və aləmlərə ehtiyacı yoxdur. İslam dini bütpərəstliyə qarşı həqiqi mübarizə aparan yeganə dindir!

**İkincisi:** Müsəlmanlar üçün bütün yer üzü səcdəgah edilmişdir. İslam dinində evlərdə də namaz qılmağa rəğbətləndirilmiş, evlərdə namaz qılmamaq evləri qəbirstanlığa çevirməklə müqayisə olunmuşdur. Kəbədə ibadətin dayanması Allahın olmaması anlamına gəlmir. Zatən Kəbə İbrahim peyğəmbərin zamanında inşa edilib. Hətta, Peyğəmbərimiz xəbər verib ki, vaxt gələcək bir Həbəşi Kəbəni dağıdacaq. Məgər Kəbə dağılandan sonra Allah

olmayacaq? Bu hansı məntiqdir? Bu məsələnin Allahla nə əlaqəsi var?

**Üçüncüsü:** Bir çox insanların fikir vermədiyi məsələ isə Kəbənin "Məscidul-Həram" (Həram Məscidi) adlandırılmasıdır. Bəli Kəbə və onun namaz üçün ayrılmış digər ətraf yerləri bütünlüklə məscid hökmündədir. Məsələnin həqiqəti budur. Məscidlərə Allahın evi deyilməsi yalnız simvolik məna daşımışdır. O yerlərə hörmət olaraq, orada ancaq Allahı xatırlamaq, ibadət etmək gərəkdiyi üçün məscidlərə Allah evi deyilmişdir. Kəbənin isə sadəcə qiblə olmaq və orada namaz qılmağın daha çox savab gətirməsi özəlliyi var.

**Dördüncüsü:** Müsəlmanların Kəbədə və başqa məscidlərdə namazları müvəqqəti dayandırmaları əslində təqdir olunmalıdır, tənqid olunmalı deyil. Bunun nəticəsidir ki, bu gün ən az yoluxma hallarından biri də Ərəbistanda müşayiət edilir. Böyük yoluxma statistikalarında Ərəbistanın adı yoxdur. Ən çox yoluxma halları məscidləri olmayan ölkələrdədir. Məscidlər açıq qalsaydı deyəcəkdilər ki, yoluxmaya məscidlər səbəb oldu. Yaxşı ki, dünyanın bir çox üzləri bu yoluxma ilə açıldı. Ateistlərin təriflədikləri elmin, dünya tibbinin həqiqi üzü də hamıya bəlli oldu.

**Beşincisi:** İslam dini beş şeyi qoruyur: insanın dinini, malını, canını, namusunu, nəslini (əsil-nəcabətini). İslam dininin əzəmətli əsaslarından biri də insanın canını qorunmasıdır. İslam kitablarında əsrlər öncə fəlakətlər və epidemiyalar vaxtı namaz qılmağın qaydaları və əhkamları qeyd olunmuş, ən birinci qayda isə Qurani-

Kərimdə bütün təhlükələrə qarşı qayda olaraq verilmiş*: "Özünüz öz əllərinizlə özünüzü təhlükəyə atmayın"*. (əl-Bəqərə, 195).

Şəkk yoxdur ki, Allah Öz bəndələrinin epidemiya vaxtı bir araya toplaşaraq özlərini təhlükəyə atmalarını istəməz. Çünki, O Quranda bizi özümüzü təhlükəyə atmağı qadağan etmiş, başqa bir ayədə isə özümüzü öldürməyi qadağan etmişdir. (Bax: ən-Nisə, 29).

İslam dini bütün zaman və dövrlərdə insanların çətinliklərini, sıxıntılarını nəzərə almışdır, istər pandemiyalar, epidemiyalar zamanı, istər də digər çətinliklər olsun. Bu, İslam dininin rəhmət olmasındandır. Səfər çətinliyinin asanlaşdırılması üçün namazların beş dəfə yox, üç dəfə qılınması, dəsnamaz almağa su tapa bilməyənlərin su tapana kimi torpaqla təyəmmüm etmələrinə icazə verilməsi, xəstələrin ağırlıq vəziyyətinə görə oturaq, hətta, uzanıqlı halda namaz qılmalarına icazə verilməsi və s. onlarla misal çəkmək olar İslamın rahatlıq dini olmasına. Bəli, bu din əmr edir ki, özünüzü təhlükəyə atmayın! Quranda Allah buyurur: *"Allah sizin üçün asanlıq istəyir. Allah sizin üçün çətinlik istəməz"* (əl-Bəqərə. 185) Bizim üçün asanlıq istəyən Allah təhlükə zamanı bizdən məscidlərə toplaşmağımızı da, istəmir.

Bizim üçün dünyanın hər yeri qibləgahdır! Siz xristianları tənqid edə bilərsiniz ki, onlar kilsədə şam yandıra bilməyəcəklər! Ey ateistlər! Siz məgər yolun qırağında, parklarda ibadət edən xristian görmüsünüzmü? Xeyir görə bilməzsiniz! Lakin, müsəlmanları bundan əvvəl də çox yerlərdə namaz qılan görmüsünüz. Bütün yer üzü bizim üçün səcdəgahdır. Müsəlmanın ibadəti məscidlərə məhdudlaşsaydı, sizinlə razılaşmaq olardı.

Bir də Tirmizinin rəvayət etdiyi hədisdə səhabə Abdullah ibn Ömər Kəbənin qarşısında duraraq deyir:

*«Ey Kəbə, sən necə əzəmətlisən, sənin hörmətin də necə əzəmətlidir! Mömin isə Allah qatında səndən daha hörmətlidir»*[100].

Başqa rəvayətlərə baxdıqda İbn Ömər'in bunu peyğəmbərdən öyrəndiyini görürük. Hədisdə "*hörmət*" dedikdə isə: Müsəlmanın malının canının qorunması nəzərdə tutulur. Hansı ki, bu bizim şəriətin əmr etdiyi mühüm məsələlərdəndir. Bizim şəriət Kəbəyə ibadət deyil, Allaha ibadət üzərində qurulub.

**Altıncısı:** Məscidlərdə namaz qılmağın əsas hikmətlərindən biri də müsəlmanların qəlblərinin bir araya gələrək camaat və birlik içində olmalarıdır. Əgər onların camaat olmağını təhlükəyə salan müvəqqəti bir durum varsa, bu halda müvəqqəti olaraq məscidlərdə namaz dayandırılır. Çünki, İslamın əzəmətli qaydalarından biri də məsləhət və məfsədə qaydasıdır. Bu qaydaya əsasən əgər zərər xeyiri üstələyəcək bir durum hasil olarsa, xeyir təxirə salınır və zərərin qarşısının alınmasına çalışılır. Bu halda isə müsəlmanlar namazdan məhrum olmayıblar, məscidlərdə namaz qılmaqdan məhrum olublar. Deməli, əsil məhrum olan müsəlmanlar deyil. Əgər nəzərə alsaq ki, ateistlər və inanmayanlar bir çox keflərindən məhrum olublar; Məsələn; kafe və barlar fəaliyyətini dayandırıb, gey paradlar təxirə salınıb, eyş işrət səfərləri dayandırılıb, ürəyi partlayanların kim olduğunu bilmək heç də çətin olmur!

[100] Sunən ət-Tirmizi, 2032, səhihdir. Mahmud Şakirin təhqiqi ilə.

# Xızırın oğlan uşağını öldürməsi haqsızlıq deyildimi?

**Şübhə belədir:**

**1 -** *Qurani-Kərimdə Xızırın bir gənc oğlan uşağını öldürməsinə nə ehtiyac var idi ki? Deyirsiniz ki, Allah onun gələcəkdə necə insan olacağını bilirdi. Allahın bir insanı etmədiyi əmələ görə cazalandırıması icazəlidirmi? Onun həyatı yaşayıb günahı etdikdən sonra Allah bu günahı bilməli deyildimi?*

**2 -** *Xızır, günahsız şəxsi etmədiyi bir günaha görə necə öldürə bildi axı?*

**Cavab belədir:**

Sizin həmin oğlan uşağının necə kafir olmasını təsəvvür etməyiniz üçün ilk öncə İslami təsəvvürünüz olmalıdır. Siz ateist düşüncəsiylə yanaşsanız, əlbəttə bunu başa düşməyəcəksiniz. Əgər ateist şəxs "elm" iddia edirsə, bu elm dinləmə və anlama mədəniyyətində də ortaya çıxmalıdır. Başqa mövzularda olduğu kimi bu məsələdə də hadisəni başa düşməyin iki yolu var. Ya ateist kimi başa düşmək ki, bu zaman məsələnin həqiqi mahiyyəti həmin şəxsə gizli qalacaq. Ya da Quranda verilən ilahi mesajı anlayan müsəlman kimi başa düşmək ki, yalnız bu zaman Allahın bu ayədə bizə nə mesaj vermək istədiyini başa düşəcəyik. O zaman bizə aydın olacaq ki, yalnız Allaha məxsus elm var və bu elmi anlamaq üçün insanda qəzavü-qədər anlayışı düzgün olmalı, bir də insan Allahı düzgün tanımalıdır. Allahın ad və sifətlərini, Onun nəyə qadir olduğunu bilmək, vəhy yolu ilə istədiyi peyğəmbərə və ya saleh şəxsə ilham yolu ilə gələcəkdən bilgi verməyə Qadir olduğunu bilmək, üstəlik də Allahın feillərinin insanların feillərilə

eyniləşdirilməsinin tamamilə yanlış olduğunu anlamaqda bu məsələni başa düşməyin sirri dayanır. Yəni, biri var məsələyə Allah kimi qeyri-emosional yanaşmaq, hadisələrdən təsirlənməmək, biri də var insan emosionallığı ilə yanaşmaq. Bir misalla fikrimizi izah edək; Tutalım ki, iyirmi insanı amansızcasına qətl edən bir cinayətkarın edam olunması videosuna baxırıq. Lakin, onun edam olunması səbəbini bilmirik. Biz bu zaman həmin videoda yalnız cinayətkarın edam olunmasını gördüyümüz üçün ona ürəyimiz yanır, yazığımız gəlir. Lakin, bu videodan əvvəl onun iyirmi şəxsi necə amansızcasına qətl etməsini hansısa yolla müşahidə edə bilsək, ola bilsin ki, onun özünə məhz baxdığımız cinayətkarın edam videosundakı cəzanı, hətta, ondan da betərini arzulayardıq. Lakin, Allah heç bir zaman insan kimi emosional duruma düşmür və ya insanın emosional durumunu mütləq mənada Allahla müqayisə etmək doğru deyil. Biz bu misalı məsələyə bəşəri emosionallıqla yanaşmayaq deyə çəkdik.

Bu sualı çözmək üçün gəlin Qurandakı hadisəni olduğu kimi təsəvvür edək və məsələyə düzgün yanaşmağa çalışaq; Çünki, baş verən hekayə düzgün təsəvvür edilməzsə, hekayədə verilən ilahi mesajlar qulaqardına alınaraq oradan kiçik bir hissə ittiham və qərəzli məqsədlə ələ alınarsa, rəvayətdəki fayda hasil olmaz. Uca Allah Qurani-Kərimdə buyurmuşdur: *"Oğlan uşağına gəldikdə isə, onun ata-anası mömin idilər. Biz oğlanın valideynlərini azğınlığa və küfrə sürükləyəcəyini (bilərək bunu) xoş qarşılamadıq. Biz istədik ki, onların Rəbbi onun əvəzində onlara ondan daha təmiz və daha mərhəmətli olan başqa bir övlad versin"*. (əl-Kəhf, 80-81).

Bu ayələrdən əvvəl isə nə baş verdiyini, Musa ilə Xızır arasında görüş və onlar arasındakı söhbətin məğzini bilmək lazımdır. Musa

peyğəmbər həmin zaman elə bilirdi ki, yer üzündə insanların ən elmlisidir. Lakin, Allah Xızırı onunla qarşılaşdırmaqla Musaya özündən daha elmli birinin olduğunu göstərdi. Bu barədə Allah belə buyurmuşdur:

*"Onlar orada Öz tərəfimizdən mərhəmət bəxş etdiyimiz və elm öyrətdiyimiz qullarımızdan birinə rast gəldilər"*. (əl-Kəhf. 65). Hədislər də buna dəlalət edir.

Ubey ibn Kəb'dən (Allah ondan razı olsun) rəvayət olunur ki, o peyğəmbərin belə dediyini eşitdi: *"Musa İsrail övladları arasında moizə edirdi. Ona sual verildi: Hansı insan (dünyada) daha biliklidir? Musa dedi: Mən. O hər kəsdən elmli olmadığı üçün, bu sözünə görə Allah onu qınadı və ona vəhy etdi ki, iki dənizin qovuşduğu yerdə səndən daha bilikli bir qulumuz var"* [101].

Beləcə, Musa həmin elmli, bilgə və saleh şəxs olan Xızırla görüşməli olur. Onlar bərabər yola çıxmalı olurlar və bu səfər zamanı Xızırın etdiyi qəribə hərəkətlərin hər birinin bir hikməti və səbəbi var idi. Allah Musaya bəzi bilmədikləri şeyləri həmin şəxs vasitəsilə öyrədəcəkdi. Buna görə də Xızır əvvəldə ona demişdi ki: *"... Doğrusu, sən mənim yanımda səbr edə bilməzsən. Axı sən səbəbini bilmədiyin şeyə necə səbr edə bilərsən?"* (əl-Kəhf, 67-68).

Xızırla Musanın (aleyhiməssalam) birgə səfəri zamanı üç qəribə hadisə baş verir. Ondan biri də bu sualda verilən oğlan uşağının öldürülməsi məsələsidir[102].

Bu hekayəni tam oxuyaraq bu hadisələr barədə bilgini və bu hadisələr vasitəsilə *verilən mesajları daha yaxşı anlamaq üçün əl-Kəhf surəsinin 60-cı ayəsindən 82-ci ayəsinə kimi Xızırla Musa*

---

[101] Səhih əl-Buxari, 4727.

[102] Qeyd: oğlan uşağı yetkin yaşa yaxın bir yaşda idi.

*(aleyhiməssalam) qarşılaşması hekayəsini tam oxumaq məsləhətdir.* Hekayənin sonunda Xızır Musaya ilk öncə hikmətini anlamadığı məsələlərin hikmətini izah etdikdən sonra deyir: **“Mən bunları öz ixtiyarımla etmirdim. Sənin səbir edə bilmədiyin şeylərin yozumu budur!”** (əl-Kəhf, 82).
Bu ayələri əvvəldən axıra kimi oxuyan bir müsəlman, iman əhli şəxs heç bir şəkk-şübhə etmədən Allahın burada Musaya necə mühüm mesajlar verdiyini, nələri öyrətdiyinin şahidi olur. Ən sonuncu ayədən də aydın olur ki, həmin görüşdə baş verən hadisələrdə Allah Xızır vasitəsilə əslində Musaya qeybdən bəzi məlumatları öyrədir. Ona peyğəmbər olsa da dünyada özündən daha bilikli bir şəxsin mövcud ola biləcəyini göstərir. Bu görüşdən məqsəd elə bu idi. Biz bir müsəlman olaraq Kəhf surəsini 60-cı ayədən 82-ci ayəyə qədər oxuyub verilən mesajları bu ayə ilə tam başa düşürük: "**Sənin səbir edə bilmədiyin şeylərin yozumu budur!**" (əl-Kəhf. 82). Biz bir müsəlman kimi Allahın kəlamını oxuyub alimlərin izahı ilə başa düşürük, ateistlər isə hekayənin mənasını bilmədilər və ondakı hikmətə səbr etmədilər deyə başa düşmədilər; Gəlin, onlara başa düşməkdə yardım edək:

**Ateistin birinci sualı belə idi:**

***1*** *- Qurani-Kərimdə Xızırın bir gənc oğlan uşağını öldürməsinə nə ehtiyac var idi ki? Deyirsiniz ki, Allah onun gələcəkdə necə insan olacağını bilirdi. Allahın bir insanı etmədiyi əmələ görə cazalandırıması icazəlidirmi? Onun həyatı yaşayıb günahı etdikdən sonra Allah bu günahı bilməli deyildimi?*

Sualda deyilən “Allahın oğlan uşağını gələcəkdə edəcəyi günahı bildiyi üçün onu cəzalandırması” iddiasına imam İbn Qeyyim

(Allah ona rəhmət etsin) cavab verərək demişdir: "Lakin, belə deyilməlidir: Qanun və cəza qaydasına görə - Uca Allah öz bəndələrini onların gələcəkdə edəcəklərini bildiyi şeylərə görə cəzalandırmaz, əksinə O, bəndələrini yalnız Allahın həmin əməli qadağan etdiyini, buna görə əzab vəd etdiyini bildikdən sonra etdikləri şeylərə görə onları cəzalandırar. Xızırın hekayəsində isə Allahdan başqa heç kimin bilmədiyi qeybi təfsilatlar haqda məlumat verilmir"[103].

Sonra isə həmin kitabın 402-ci səhifəsində deyir: "Bunun kimi də həmin oğlan uşağının küfrünü ola bilsin ki, insanlar, hətta valideynləri də bilirdilər. Lakin, valideynlərinin öz övladlarını sevmələri onlara bunu inkar etmələrinə mane idi, o da onların sözünü qəbul etməmişdi. Məsələ belə olduğu halda, ayədə dəlil (hüccət) yoxdur ki, Xızır onu küfr etməsi ehtimalı ilə öldürmüşdür" Buradan da onun küfr ehtimalı ilə deyil, sırf kafir olduğu üçün öldürülməsindən söhbət gedir.

Dahi İslam alimi, böyük təfsirçi və tarixçi İbn Cərir ət-Təbəri (Allah ona erəhmət etsin) demişdir: "Zikri Uca olan Allah bildirir ki, oğlan uşağına gəldikdə isə o kafir idi. Onun ata-anası isə mömin idilər. Beləcə, Biz bildik ki, onları (küfrə və asiliyə) sürükləyəcəkdir. Deyir: Onları tüğyana (həddi aşmağa) sürükləyəcək. Bu isə Allaha qarşı küfr və təkəbbürlülükdür. Təfsir alimlərinin belə dediklərini qeyd etmişdik"[104].

Məşhur təfsirçi İbn Kəsir (Allah ona rəhmət etsin) bu ayənin təfsirində demişdir: "Ata anasının ona olan sevgisi sonradan onları da küfrə salacaqdı. Qatadə demişdir: O dünyaya gəldikdə

[103] İbn Qeyyim, “Əhkəmu Əhliz-Zimməh” kitabı, səh 401; Qahirə, “Darul-Hədis” nəşr evi.
[104] Təfsiru İbn Cərir, əl-Kəhf, 80-ci ayə.

validebaşqaynləri sevinmişdilər. O öldükdə isə kədərləndilər. Əgər sağ qalsaydı, valideynlərinin həlakına səbəb olacaqdı"[105].

Bu məqamda ateist deyə bilər ki, dediyinizi anladım. Lakin, küfr etmək, Allahı inkar etməyə görə onu öldürmək nə dərəcədə doğrudur?

**Cavab**:

**Birincisi:** Fikir verin, Allah Qurani-Kərimdə buyurur ki:

*"Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır!"*. (Ali İmran. 19) Başqa ayədə isə belə Uca Allah buyurur: *"İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar"*. (Ali İmran, 85). Bu ayələrdə Allah bizə yol göstərir və mesaj verir: bu yolla gedin ki, yolunuzu azmayasınız. Hələ xəbərdarlıq da edir ki, onun yolundan başqa yolla gedən insan ziyana uğrayanlardan olacaqdır! O, bizə Rəhm edir. Bizə xəbərdarlıq etmədən cəza vermir. Necə ki, biz bir insanın özünü doqquzuncu mərtəbədən atmaq istədiyini görsək, ona kömək etməyə çalışarıq. Onun özünü atmasını gözləmərik! Allah da bizə yol göstərir, bizə Rəhm edir, bizə şəfqət göstərərək əvvəlcədən doğru yolu bəyan edir və bizdən bu yola gəlməyimizi tələb edir. Hətta, insanın özünü öldürməsini belə qadağan edir. *"Özünüz-özünüzü öldürməyin. Həqiqətən, Allah sizə qarşı Rəhmlidir"*. (Nisa, 29).

İslam dini günahsız insanları öldürməyi də qadağan edir, hətta, bir günahsız insanı öldürməyi bütün bəşəriyyəti öldürmək adlandıraraq buyurur: *"...Kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları*

[105] Təfsirul-Quranil-Azim, əl-Kəhf, 80-ci ayənin təfsiri.

*öldürmüşdür. Kim də onu ölümdən xilas edərsə, sanki bütün insanları xilas etmiş hesab olunar"*. (əl-Maidə, 32)

Deməli, bizə Allahı inkar etməyin və ya ona şərik qoşmağın ən böyük günah olmasını bilmək qalır. Bu əməlin ən böyük günah olduğunu insan dərk edərsə, məsələ çözülər.

**İkincisi:** Hər bir dövlətin qanunları olduğu kimi, o ölkələrdə qanunları pozanların cəzalandığı, bəzi qanunları pozanların edam olunduğu kimi, bu edam qanunlarının bu günə kimi mövcud olduğu bizə məlum olduğu halda bilməliyik ki, edam cəzasının ən böyük səbəblərindən biri də İslam dövlətində Allahı inkar etmək və buna çağırmaqdır. Siz ateistlər Allahın varlığından yəqin olsanız, bu sizə görə həqiqət olsa, o zaman sizə görə Onu inkar etmək ən böyük günah olacaqdır. Xüsusən də o cəmiyyət ki, orada hər kəs Allaha inanır. Belə bir mütləq müsəlman cəmiyyətinini təsəvvür etsək, o cəmiyyətdə insanların hissiyyatını nəzərə almadan dinin müqəddəs dəyərlərilə istehza edən və Allahı inkar edən şəxs həmin cəmiyyətdəki insanların böyük qəzəbinə tuş gələcəkdir. Bu şəkildə Allahı inkar etmək və bunu açıq-aydın etməyin cəzası şəkk yoxdur ki, həmin cəmiyyətdə ən böyük cəza olacaqdır.

O şəxsə verilən cəza isə İslama görə xaos şəklində özbaşına deyil, yalnız rəsmi şəkildə İslam dövlətində həmin dövlətin rəhbəri və ya onu əvəz edən şəxs tərəfindən təyin edilə bilər. Sıravi insanların özbaşına kiməsə "cəza verməsi" İslam şəriətində icazəli deyil. Müsəlmanların çoxluq təşkil etdiyi dünyəvi ölkələrdə zatən ateistləri "qorxudan" bu cəzanın tətbiqi yoxdur, ona görə də ateistlərin iddialarına bir əsas qalmır. Çünki, bu cəza İslam dövlətində hətta aşkar dinsizlik etməkdən çəkinən, dinsizliyini gizlədən şəxslərə də tətbiq edilmir. Yalnız cəmiyyəti açıq-aydın bu fikirlərə dəvət edən dinsizlərə rəsmi şəkildə verilən bir cəza olur.

Bir daha qeyd edirik ki, sıravi şəxslərin kiməsə cəza vermək səlahiyyəti yoxdur. Bu işlər İslam dövlətində rəsmi şəkildə edilən işlərdir. Elə bir dövlətdə həmin şəxsə bu cəza verilmədən öncə o tövbəyə dəvət edilir. Əgər tövbə edərsə, bu təqdirdə həmin cəza həyata keçirilmir və həmin şəxsə islah olması üçün möhlət verilir.

**2 -** Sualın ikinci hissəsində isə deyilir: **Xızır, günahsız şəxsi etmədiyi bir günaha görə necə öldürə bildi axı?**

İbn Qeyyimin (Allah ona rəhmət etsin) cavabı: «Xızırın qətl etdiyi bu oğlan ehtimal olunur ki, tam şəkildə yetkinlik yaşına çatmışdı. "Ğuləm" adlandırılması onun yetkinlik dövrü ərəfəsində olduğu üçün idi ki, buna əsasən bunda bir problem olmur. Ehtimallardan biri də odur ki, o oğlan yetkin yaşı tam olmasa da ayırd etməyi bacaran, ağıl sahibi biri idi. Əgər yetkinlik yaşına tam çatmamış olsa, buna bu hədis dəlalət edir: *"Əgər valideynlərinə çatsaydı, onları azğınlığa və kafirliyə salacaqdı"*[106]. Buna əsasən, onların şəriətinə görə (o zamankı şəriət) o oğlanın şəriətə tabe olmaqda mükəlləf olmasına mane olan bir şey olmur. Mükəlləf olmaq üçün yetkinlik yaşının şərt qoyulması yalnız bizim şəriətə görədir. Belə bir vəsfdə yetkin, ağılı ayırd etməyi bacaran oğlanın mükəlləf olmasına bir mane yoxdur. Ona görə ki, alimlərdən olan bir toplum "ağlı kəsən yeniyetmələrin ehtilam olmadan öncə (tam yetkin yaşa çatmadan) iman etməklə mükəlləf olduqlarını" demişlər. Necə ki, bunu imam Əbu Hənifənin və imam Əhmədin camaatından bir bir tayfa demişdir. Bu rəy, Əbul-Xəttabın seçimidir və kəlam əhlindən bir qismi də bu rəy üzərindədir.

[106] Səhihi Muslim, 2380; ravi: Ubey ibn Kəb.

Buna əsasən də bu oğlanın tam yetkin yaşa çatmadan - şəriətin təfsilatı ilə mükəlləf olmasa da - imanla mükəlləf olması mümkündür. Ona görə də əksər alimlərə görə ağlı kəsən (yetkinlik yaşına çatmağa az qalmış) oğlanın kafir olması mötəbər hesab olunur. Ona da başqa mürtədlərə verilən hökm verilir. Küfrü isbat oluncaya kimi öldürülməzsə belə. Həmçinin, alimlər ittifaq ediblər ki, onun küfrünə görə vurulması və ədəbləndirilməsi namazı tərk edənin ədəbləndirilməsindən daha əzəmətlidir.

Ona görə də; Xızırın öldürdüyü oğlan əgər tam yetkin yaşına çatmışdısa, o zaman problem ortadan qalxır. Əgər yetkinlik yaşına çatmasına az qalmış yeniyetmə idisə, bu zaman da onun (küfrünə görə) öldürülməsi onların şəriətinə görə icazəli olur (bu zaman da problem yoxdur). Çünki, Xızır, Allahın əmri ilə o oğlanı qətl etmişdi. Belə olduqda Xızır onu yalnız (belə bir ilahi əmrlə oğlanın kafir olduğu məlum olduğu halda) valideynlərinə hücum edəcəyi üçün öldürmüşdü! Necə ki, Quranda buyurulur: *“Biz oğlanın valideynlərini azğınlığa və küfrə sürükləyəcəyini (bilərək bunu) xoş qarşılamadıq”.* (əl-Kəhf, 80). Oğlan uşağı hətta müsəlmanın bədəninə və ya malına hücum edərsə, onun hücumunun təhlükəsi yalnız onu qətl etmək yoluyla dəf edilərsə, bu zaman onun qətli (yetkin cinayətkarın qətli kimi) icazəli olur. Hətta, əgər oğlan uşağı müsəlmanlara qarşı döyüşdə iştirak edəcək qədər (ağılı kəsərsə) cürətli olarsa, onun da öldürülməsi icazəli olar”[107].

Beləcə, məlum olur ki, rəvayətdə bəzi təfsilatların verilməməsi heç də oğlanın təcavüzkar və ya günahkar olmadığına dəlil deyil,

[107] İbn Qeyyim, “Əhkəmu Əhliz-Zimməh” kitabı, səh 401; Qahirə, “Darul-Hədis” nəşr evi.

əksinə, ayədə oğlanın valideynlərinin açıq-aydın mömin olmasının qeyd olunması, oğlanın isə küfrə nisbət olunması aydın görünür. Belə olmasaydı, oğlanın valideynlərini kafirliyə salacağına işarə edilməzdi. Ayədən oğlanın valideynlərinə həmin vaxtdan əvvəl də zülm edib etmədiyinə toxunulmaması da onun "günahsız olmasına" dəlalət etmir. Ümumiyyətlə, həmin ayəyə əsasən alimlər qeyd ediblər ki, oğlan valideynlərinə əziyyət edirdi. Qeyd olunur ki, bu qətl küfrdən əlavə onun valideynlərinə zülm etməsinin cəzası idi. Musa (aleyhissalam) isə bəşər olduğu və bu təfərrüatları bilmədiyi üçün əvvəldə izah etdiyimiz emosional təsirə düşsə də, sonda həqiqət ona aydın olur.

Oğlanın qətlindəki iki faydadan birincisi onun valideynlərinə fiziki və mənəvi əziyyətin qarşısının alınması, ikincisi isə: Allahın vəhyi ilə valideynlərin küfrə düşməsinin qarşısının alınması idi. Allah oğlanın qətli ilə onun valideynlərinə yardım etməklə kifayətlənmir. Rəvayətlərdə həmin mömin valideynlərə onun qətlindən sonra daha yaxşı övladın verildiyi də varid olmuşdur. Ona görə Quranda Allah bildirmişdir ki: *"Biz istədik ki, onların Rəbbi onun əvəzində onlara ondan daha təmiz və daha mərhəmətli olan başqa bir övlad versin"*. (əl-Kəhf, 81). Bu valideynlər üçün də bu sevmədikləri hadisə onların xeyrinə idi. İnsan, nəyin onun üçün xeyirli olub-olmadığını bilmir. Ona görə də Uca Allah buyurmuşdur: *"Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bunu bilmirsiniz"*. (əl-Bəqərə, 216).

Ona görə də Quranın tərcümanı olan səhabə ibn Abbasa (Allah ondan razı olsun) bu hekayədəki kimi yaşı olan oğlanın qətli barədə sual verildiyi zaman: (yetkin) Oğlan uşaqlarını öldürmək olarmı? - deyə soruşulduğu zaman o belə demişdi: "Əgər onlar haqqında

Xızırın bilgisi səndə olsa, bunu edə bilərsən" - deməklə işarət etmişdi ki, "sən bunu edə bilməzsən". Çünki, Xızır bunu ilahi vəhylə etmişdi, həm də İslam şəriətində yetkinlik yaşına çatmamış şəxsi yazıda qeyd olunan nadir istisnalar xaric öldürmək icazəli deyil. Bu onların şəriətində mükəlləf olmaq yaşının fərqliliyi ilə də icazəli ola bilərdi.

Bu yerdə bir misal da deyək ki, hətta müasir dövrdə belə bütün dövlətlərdə cinayətkarın cinayət törətmək əlamətləri bəlli olduqdan sonra həmin cinayəti törətmədən öncə öldürülməsi və zərərsizləşdirilməsi halları mövcuddur. Bu hallar o qədər çoxdur ki, siz özünüz də buna misallar verə bilərsiniz. Beləcə, ateistlərin iddiasının bir əsasının olmadığı aydın olur.

## *İstifadə edilmiş ədəbiyyat :*

*1 - Qurani-Kərim.*
*2 - Səhih-əl-Buxari.*
*3 - Səhihi Muslim.*
*4 - İbn Cəririn təfsiri.*
*5 - İbn Kəsirin təfsiri.*
*6 - Əhkəmu Əhliz-Zimmə, ibn Qeyyim.*
*7 - Şərhu Aqidətut-Tahaviyyə.*
*8 - əl-İmən bil-Qadai val-Qadər, dr. Muhəmməd İbrahim əl-Həmd.*
*9 - Səbiğat, Əhməd Seyyid.*
*10 - Movsuatu Məhəsinil-İsləm.*

# "Ateistə xitab" şeiri

Yayacaqdır nurunu Uca Allah!
Etsə də dinsizliyə çoxu iştah!
Rəzillər qalar dünyanın sonuna,
İslamın vədidir, anlarsan hərgah!

Bir Allaha qul ol, Allahçün əyil,
Qəlblər Ona sarı eyləyər meyil,
Bir yolun çoxluğu demək deyil ki,
Getdiyin yolun sonu mövcud deyil!

Səbəbsiz bir şey yaranmır heç zaman,
Səbəb varsa, nəticə də var, inan,
Çönüb arxasına səni axtarar,
Uşaq belə əgər ona toxunsan!

Uşaq belə səbəbkarı axtarır,
Çünki, bir saf insan fitrəti vardır!
Qəlbi günahlarla qaralmış kimsə,
Görməzsən bunu düşünür, daşınır!

"Əşyaları düzəldən yoxdur" desən,
Sənə gülən insanları görərsən,
Bu ehtişamda kainat yaranıb,
Sən "səbəbsiz yaranıbdır" deyirsən!

Əvvəl olmayıb sonradan yaranan,
Sənə dəlildir ki, vardır Yaradan!
Yaranmayan bir şey isə xəyaldır,
Olmayan şey, indi də var olmayan.

Dünyada görsəydin sən Yaradanı,
Olmazdı onda dünya imtahanı,
Görmədən inanan sadiq bilinməz,
Tapmazdın həyatdan əsil mənanı!

İki yöndən azır insan yolunu,
Şəhvət ilə şübhə bükər qolunu,
Şəhvətlə azanlar qayıda bilər[108],
Şübhəçi tapa bilməz formulunu.

---

[108] Bu sözdən məqsəd şəhvət yolu ilə azmağın, şəhvətə dalmağın təhlükəsini kiçiltmək deyil, sadəcə şəhvətin insanın nəfsinin zəifliyindən qaynaqlanmasına diqqətləri yönəltmək, şübhələrin şəhvətlərdən daha təhlükəli olduğunu qeyd etməkdir. Lakin, heç bir şəkk yoxdur ki, hər ikisi də (şübhə də, şəhvət də) qəlbin xəstəliyindən hesab olunur və müalicə edilməlidir.

Darvin yəhudidir, həm əqrəbası,
Meymuna çevrilmiş ulu babası,
Bəzi meymunlar insandan törəyib,
Xəbər vermiş Quran açıqlaması!

Sən isə düşündün bunun əksini,
İttiham etdin sən İslam dinini,
Darvinin babası meymun olubsa,
Xahiş edirəm ora qatma məni!

Mən əzəldən Adəm oğlu insanam,
İbadətlə insanlıq olar tamam!
Özünə zülm etmə xəyallar ilə,
Mənasız həyatın eyləməz davam!

Maddiyyatçı insana boşdur həyat,
Maddədir ona həm də mənəviyyat,
Gözlə görmədiyinə o inanmaz,
Onunçün mövcud deyil bir hissiyyat!

Həyatda çox şeyi gözlə görmürük!
Havanı da bu göz ilə görmürük,
Gözlə Görünməzi inkar eyləmə!
Gözlə sənin beynini də görmürük!

Gəl baxaq hər kəsin axır yoluna,
Fərz edək iki seçimin buluna;
Sən deyən olsa, heç nə itirmirəm,
Mən deyən olsa, vay sənin halına[109]!

Hər şeyin əksi var bu dünyada, bil,
Təsadüfən yaranan bunlar deyil,
Sevgi-nifrət, mənfi-müsbət, bir də ki,
Gecə-gündüz, gözəl-çirkin bu qəbil!

Ağ-qara, sağlam-xəstə, yaşlı-cavan,
Yaş-quru, isti-soyuq, mələk-şeytan,
Dost-düşmən, varlı-kasıb, alçaq-uca,
Pis-yaxşı, tənbəl-qoçaq, küfr və iman!

Yüzlərlə saymaq olar bu misaldan,
Saymadığım neçəsin sən sayarsan,
Görən hardandır bu möhtəşəm nizam?
Diqqətlə düşünsən haqqı duyarsan!

[109] Bu məşhur söz bəzi mənbələrdə Əli ibn Əbi Talibə (Allah ondan razı olsun) nisbət olunur. Lakin, ondan qeyrilərinə də nisbət olunmuşdur. Müəllifin oxuduğu rəvayətə görə Əli ibn Əbu Talib bu sözü axirəti inkar edən birinə söyləmiş, o isə bu sözdən təsirlənərək dərhal tövbə etmişdi. (Bu rəvayətin əslinin tapılmadığı üçün o mənaca və qısa şəkildə qeyd edilmişdir).

Böyük ulduzlar nə gözəl parlayır,
Kiçik dünyada milyonlar yaşayır,
Sən bir zərrəsən aləmdə, ey insan,
Nədir bu təkəbbür sənlə oynayır?!

Gecənin arxasıyca gündüz gəlir,
Günəşlə ayın işi də düz gəlir,
Günəş bir azca yerə yaxın olsa,
Fəlakəti görərdin sözsüz gəlir.

Günəş yerdən azca olsaydı uzaq,
Yer kürəsi tamam olardı buzlaq,
Düşünməyə ağıl daşıyan insan,
Necə də danışır o nahaq-nahaq!

Su içində Yaşadır balıqları,
Havada da yaşadır varlıqları,
Torpaq altında da həyat var edir,
Hədər getmir maddənin artıqları[110].

Elm «necə» sualına düz gəlir,
Çünki, o maddi aləmi öyrənir,
Termometr pis əxlaqı tanımaz,
O əxlaq ki, ondan hər kəs iyrənir.

---

110 Burada: Alimlərin «maddə bir formadan başqa formaya keçir, kainatda maddə itmir, sadəcə şəkildən şəkilə keçir» sözləri qəsd olunur.

Pis əxlaqı bilmək olmur cihazla,
Pis ruhdan qorunulmur əleyhqazla,
Əxlaqları maddi elm öyrənməz,
Spidometr ölçməz riyakarı fazla.

«Nə üçün» sualı, varlıq hikməti,
Deyildir sən deyən elmin predmeti,
Elmin öz sahəsi, çərçivəsi var,
Dinin də özünə məxsus söhbəti.

Ən böyük xurafat ki, var həyatda,
Ateistə məxsusdur bu sitatda[111];
O kəs ki, yaşayır boş və qayəsiz,
Onu yoxdur Yaradan kainatda?!

Əsil xurafatçı və mövhumatçı,
Odur, bax, odur həmin maddiyyatçı,
Bax, odur ən böyük xurafat yayan,
Təkərləri qırılmış samakatçı.

---

[111] Müəllif ateistləri bəzi əməllərə görə xurafatçı hesab edir: Məsələn; dindarları əfsanələrə inanmaqda ittiham edən ateistlər, özləri insanın meymundan yaranması əfsanəsinə inanırlar. Onlardan bəziləri isə dünyanı yadplanetlilərin yarada biləcəyi əfsanəsinə inanırlar. Bəzi ateistlər isə elmi cəhətdən isbat olunmamış nəzəriyyələrə, elm aləmində xurafat hesab olunan bir çox "nəzəriyyələrə" inanırlar. «Çoxlu kainatlar» nəzəriyyəsi (The Multiverse theory) kimi… Bu misalları çoxaltmaq olar.

Yatır gecələri xəyal içində,
Hər gecəsi şübhə, sual içində,
Nə üçün, niyə? hardan gəlmişik biz?
Kimik biz? gedirik nə hal içində?

Əgər, niyə, bəlkə, yoxsa, görəsən?!
Qarışdırmış sualları görərsən,
Çaşqın halda yaşadığın dünyanı,
Bu suallarla bir gün itirərsən!

Birdən müsəlman deyən çıxsa, gerçək?
Birdən düz olsa inkarlarım tək-tək?
Bu minvalla yorğanını dişləyir,
Şəkdə qalan aqnostik yatanadək!

Özünü hər kəsdən ağıllı sayır,
Bizlə "kosmos" adlı oyun oynayır,
Etdiyi kəşfləri görmürük niyə?
Amma, hey "elm" deyir, sayıqlayır!

Qarşında görünür böyük bir aləm,
Ahəngi sənət, nizamı möhtəşəm,
Rənglər, gözəlliklər, həyat coşqusu,
Bir-birinə bağlı ahəng var möhkəm!

Ağılın qeybə vardır ehtiyacı,
Qeybi inkar etmək vermir əlacı,
İnsan bilmədiyi şeyə düşməndir,
Bu məntiqdir ateistin sayğacı!

Sənin ağlın ayətlərin yanında,
Nədir görən, bir uşaq timsalında,
O uşaq ki, qarışıq rənglər çəkir,
Sonra deyir "şəkil çəkdim" anında.

Hər qarışıq rəng deyil sənət işi,
Dərk etmirsən dövranı, bu gərdişi,
Heyvanlarda neçə-neçə ibrət var,
Diqqət etsən, anlarsan bildirişi!

Qolun bəlli ölçüdə yük qaldırar,
Ayağın bəlli yol gedər, yorular,
Gözün görməyi məhduddur, bilirsən!
Ağıl da məhduddur, o da dayanar[112]!

[112] Yəni: İnsanın bütün əzaları məhduddur, insan orqanlarının fəaliyyət dairəsi müəyyən çərçivə ilə əhatələnmişdir. Məsələn; insan yüz kiloqramı başına qaldıra bilir. İki yüz, üç yüz kiloqramı isə xüsusi təlim keçmiş adamlar qaldıra bilir, ondan o yana isə insan qolları və bədəni tab gətirmir. İnsan ayaqları da bunun kimi dayanmadan günlərlə yol gedə bilmir. Ayaqlar müəyyən təzyiqdən sonra yorulur. Göz də müəyyən məsafədən uzağı görə bilmir. Bu misalları dərk etdikdən sonra bilmək lazımdır ki, insanın beyni də hər şeyi dərk edə bilmir.

"Elm" dedikcə cəhalətin göründü,
O kəs ki, elm libasına büründü,
O libas ki, sahibi təkəbbürlü,
Təvazökar olmağa hey ərindi.

Ləzzətin də sonu gəlir, bilirsən,
Şəhvətin də sonu gəlir, bilirsən,
Sonsuzluğun yox, fəqət istəyirsən[113],
Ölürsən və yenidən dirilirsən!

Hər insanın vardır iki amalı,
«Əbədilik və səadət xəyalı»,
Allah verər bunları cənnətində,
Kim olarsa Allah ilə vəfalı!

Allahsız yaşayan bunu axtarır,
Anlamır ki, nə üçün vaxt aparır,

---

İnsanın kainatda bilmədiyi şeylər olduqca çoxdur. Maraqlısı budur ki, bəzi insanlar kainatda bilmədiyi, dərk etmədiyi şeylərdən danışmağa cürət etmədiyi halda, Allah barədə əsassız iddialar irəli sürə bilir. Halbuki, onlar idrakın və qavramağın da əl, ayaq, göz və başqa orqanlar kimi məhdud funksiyaya sahib olduğunu bilsəydilər, onda Allah haqqında yersiz şübhələr gıtirməzdilər.

[113] Ateist ölümdən sonrakı həyatı inkar etsə də, o sonsuz bir həyatı arzulayır. Əslində bu bütün insanların arzusudur. Xülasə, Allah insana bu əbədi həyatı vəd edərkən, həyatı bu qədər ucuz tutan ateist özünü aldadaraq tələm-tələsik ləzzətləri bu dünyada axtarır. Halbuki, onu ləzzətlərin dünyada tükənməsi də narahat edir.

Əbədilik və səadət dünyada,
Kim axtarır, o ünvanı səhv salır.

Əbədilik yox, beş günlük dünyada,
İki arzudan biri getdi bada,
Səadəti də qısadır dünyanın,
Vaxtın çatsa, gələn olmaz imdada!

Aya, kosmosa uçmaqdır amalın,
Sən kimi çox edən olub xəyalın,
"Kosmosa uçmuruq" deyə qınayan,
Bir iş görmür, danışır arzuların!..

Deyirsən ki, inanmıram qeybə mən,
Amma, həqiqətdə inanırsan sən,
Yadplanetlilərə iman etmisən,
"Onlar yaratmışdır bizi" deyirsən[114].

Yadplanetli yaratsa, mümkün olur,
Allah yaradanda bu mümkün olmur?
Nə qədər ziddiyyətdə olasan ki,
Allahı inkar edəsən bir ömür!?

[114] Bu isə bəzi ateistlərin sözüdür.

Həyatda şərləri insanlar edir,
Sonra da Allahı ittiham edir,
Olmazsa xeyir ilə şər həyatda[115],
Olmaz mənası, həyat belə gedir!

Bəlalar səni azdırmaqçün deyil,
Öz seçimidir yolu azsan və bil;
Sınaqçündür xoş gün də, pis günün də,
Yalnız Allaha qul ol, Allahçün əyil!

"Elm, elm deyən" niyə soyunur?
Məgər elm soyunmaq ilə olur?
Niyə ateistin "elm" şüarı,
Onun əxlaqında elmi doğrultmur?!

Atomu kəşf edən olsa əxlaqsız,
Bir gün bu dünyanı edər dayaqsız,
O elm dağıdar bütün dünyanı,
Ya da qoyar səni əlsiz, ayaqsız!

[115] Xeyir ilə şərin dünyada mövcudluğu əslində Allahın varlığına bir dəlildir. Dünyada xalis şər yoxdur. Hər bir şərin xeyir görünən tərəfi vardır. Soyuq hava kimisini üşütsə də, yerdə mikrobların ölməsinə səbəb olur. Pis olmasa yaxşının qədri bilinməz. Dəli olmasa, ağıllının qədri bilinməz. Lakin, ateistlər dəli gördükdə ağıl nemətinə görə şükür etmək yerinə, dəlinin dərdini çəkirlər ki, qoy o da ağıllı olsun. Halbuki, anlamadıqları hikmətləri naqis ağılları ilə qurdaladıqları üçün özlərini yersiz şübhələrlə azdırmış olurlar.

Elmi pisləməkçün deyil bu sözlər,
Elmə həris olaq gərək ki, bizlər,
Elmi bəşərə xidmət etdirək biz,
Fəsada alət etdirməyin sizlər!

Yaxşılıq etdi səni yaratmaqla,
Nankorluq etdin inkarçı olmaqla,
Sən özün inkarçılığı seçərkən,
Cəhənnəm istəmirsən hansı haqla?

Övladını böyüdürsən zülümlə,
Sonra nankor olsa sənə hər cümlə,
Kaş olmazdı belə övlad deyərdin,
İndi özün ayırd et bu çözümlə.

Aləmlərin Rəbbinə nankor çıxıb,
Dedin "məni bir Allah yaratmayıb",
Səni Yaradana etmədin şükür,
Özgəyə təşəkkürü unutmayıb!

Hər günaha dərhal cəza verilsə,
Deyərdiniz: möhlət verilmir nəsə,
İstədiyin işi rahat görürsən,
Sonra deyirsən: Mənəm məcbur kimsə.

İslam verir cinayətkara cəza,
Hərə istəyir bunu bir cür yoza,
İndi bir məsəl çəkim, anlayarsan
Qatili salırsınız aranıza?

Cinayətkar cəza almalı mütləq[116],
İttifaq etdik ki, bu bir həqiqət,
İxtilafımız cəzanın növündə,
Bununçünmüdür bu oyunlu söhbət?

Bir misal da deyim, diqqət eylə sən,
Soyunmağa mədəniyyət deyirsən!
Mədəniyyət dediyin soyunmaqsa,
Onu atda, pişikdə də görərsən!

Müsəlman qadın azaddır həyatda,
Həya libası vardır kainatda,
Qiymətli şey görünməsin gərəkdir,
İnci sədəf içrə gözəldir hətta!

[116] Yəni: Ateistlər İslamdakı cəzaları qəbul etməyib "bu ağıla ziddir" deyirlər. Biz müsəlmanlar isə deyirik: Siz də bizim kimi cinayətkarlara cəza verilməsinin lazımlı olduğunu qəbul edirsiniz. Çox gözəl, deməli, cəzanın verilməsində ittifaq etdik, cəzanın növündə ixtilaf etdik. Onda cəzanın başqa növləri olan başqa ölkələrə də etiraz edin. Çünki, cəza növləri ölkədən ölkəyə dəyişir. Tarix boyu da dəyişik olmuşdur. Lakin, Allahın şəriətində cəzalar dəyişmir. Hələ biz bu cəzaların cəmiyyətlərdə cinayətlərin azalmasında verdiyi töhfələrdən danışmırıq. Unutmayaq ki, dünyada ən çox həbsxana məhbusları Amerikada, sonra isə Rusiyadadır.

Qadının hicabı onun şərəfi,
Allah razılığı onun hədəfi,
Milçək qonar üstü açıq şeylərə,
Gərək ki, görünməsin hər tərəfi!

Bir əsrdir zəifləyib müsəlman,
On üç əsr dünyaya hakim olan,
Bircə əsr zəifləyibdir deyə,
Düşmənlər İslama vermirlər aman!

On üç əsr mədəniyyət çırağı,
İslam olmuş məzlumların dayağı,
İslama yönəlib bütün hücumlar,
İstəyirlər hey büdrəsin ayağı!

Deyirsən ki, dinlərin çoxdur sayı,
Amma çoxluq hüccət deyil, ay dayı!
Sən minlərlə ehtimaldan birisən[117],
Yaranmağa bir namizəd adayı,

Hər bir ölkənin bir hakimi olur,
Minlərlə müxalifətçi bulunur,

---

[117] Burda qəsd olunan: insanın ana bətnində yaranması üçün yola çıxan minlərlə spermatozoiddən yalnız birinin qalib gəlməsidir ki, bir insan hazırkı halında həmin qalib gələn spermatozoiddən yaradılmışdır. Burada ümumi mənada bütün çoxluqların batil əhəmiyyət kəsb etmədiyinə eyham vurulur. Müəllif demək istəyir ki, ateist dinlərin çox olduğu üçün heç birinin haqq olmayacağını müdafiə edir, lakin, unudur ki, özü minlərlə spermatozoiddən yalnız biridir. Uca Allah Quranda insana nədən yarandığını xatırlatmışdır: "Məgər insan onu nütfədən yaratdığımızı görmür? Budur, o indi açıq-aşkar mübahisə edir. O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu". (Yasin, 78)

Çox müxalifətçi demək deyil ki,
O ölkənin bircə hakimi olmur!

Dinlər də istəyir olsun minlərlə,
Nə işin var axı sənin dinlərlə?
Sən İslamı öyrən, İslama yönəl,
Haqq din İslamdır bunu bil, əzbərlə!

Kitabı qorunmuş yeganə dindir,
Sənə mane olan səndəki kindir,
Açıb oxu bu kitabı, fikirləş,
Qəlbini haqq kəlamıyla sevindir!

Şəkk-şübhə ilə oxusan hər şeyi,
İstənilən elmi və ya hər nəyi,
Hətta, həyatın da şəkk-şübhə ilə,
Davam etsə dadmazsan xoşbəxtliyi!

Sənə şübhə adlı xəstəlik dəyib,
O "iti ağlın" bunu hiss etməyib,
Yunan şübhə mədrəsəsindən gələn
O şübhə çox kəsi bədbəxt eyləyib!

Cəza versə, Allah zalim quluna,
Rəhmət düşər ateistin yadına,

Möhlət versə, Allah zalim quluna,
Cəza düşər ateistin yadına!

Dörd qadınla evlilik olmaz deyir,
Amma, özü qırxıyla zina edir.
Beləcə, haramı qatır halala,
Ömrü günahların içində keçir.

Desən ki, Quran çox asan dildədir,
"Bəşər sözü" deyib səs cingildədir,
Desən ki, "Quran qəlizdir" ona sən,
Deyər: anlaşılmaz kəlam əldədir!

"Dindarlar ixtilaf edir" söyləyir,
Özü hər gün ixtilaflar eyləyir,
Tənqiddə insaflı olmadı bir gün,
Belələri ədaləti neyləyir?!

Həcc gələndə ərəbin pulun sayır,
Öz pulunu Antalyaya yollayır,
Bu din ərəbin deyil, hər kəsindir,
Allah bizi imtahanla yoxlayır!

Tamamlandı: 08.12.2019. Mədinə şəhəri.
Yazdı: Sahib Əsədov. Bəndlərin sayı: 70

# Dünya öküzün və ya balinanın üzərində dayanıb?

**Sual:** *Ateistlər deyirlər ki, siz nağıllara inanırsınız. Dünyanın bir öküzün və ya balinanın üzərində dayandığını deyən rəvayətləriniz var. Buna cavabımız necə olmalıdır?*

**Cavab:** bu haqda nə bir Quran ayəsi, nə də Peyğəmbərimizdən (salləllahu aleyhi va səlləm) heç bir səhih rəvayət yoxdur. Bu xəbərlər yəhudilərdən gələn qəribə xəbərlərdəndir. İslam dini yəhudilərdən gələn xəbərləri doğru olduğu halda təsdiqləməyi, doğru olmadığı halda inkar etməyi öyrədir. Əbu Davud (3644) və Əhmədin (16774) rəvayət etdiyi hədisdə Peyğəmbər (salləllahu aleyi va səlləm) buyurmuşdur: *"(Yəhudilərdən gələn xəbərlər) əgər batil olarsa, təsdiqləməyin. Əgər doğru olarsa, inkar etməyin"*[118]. Əgər hansısa təfsirçi yəhudilərdən gələn bir qəribə xəbəri nəql edərsə, bunu Peyğəmbərin sözü və ya Quran ayəsi kimi götürmək doğru deyil. Dünyanın balinanın beli üzərində olması haqda söz İbn Abbasdan rəvayət olunub və bu ona məxsus söz kimi qeyd olunub, peyğəmbərlə bir əlaqəsi olmayan sözdür. İbn Abbas isə bu cür xəbərləri ya Kəb əl-Əhbardan, ya da Bəni İsrailin kitablarından götürüb. Təfsirçi Bəğavinin yəhudilərdən rəvayət etdiyi başqa bir uzun rəvayətdə də dünyanın ərşin altından Allahın göndərdiyi bir mələkin yerin yeddi qatını öz çiyinləri üzərinə qoyması, eyni rəvayətdə öküzün beli üzərinə böyük məxluqlardan birinin qoyulması, öküzün buynuzunun yerin ərazisindən kənara çıxması qeyd olunub, bir başqa rəvayət də yenə Kəb əl-Əhbara məxsus olan

[118] İmam Albani "əs-Sahiha" əsərində "səhih" hesab edib.

söz olub yerin Balinanın üzərində dayanması haqdadır[119]. Bu rəvayətə bənzər söz Qurtubidə də var[120], Kəb əl-Əhbarın sözünü isə Əbu Nueym "Hilyətul-Əvliyə" (8/6) əsərində rəvayət edib. Qurtubinin təfsirini təhqiq edən tədqiqatçılardan Dr. Abdullah ibn Abdul-Muhsin ət-Turki və Muhəmməd Ridvan demişlər: "Bu heç bir əsası olmayan İsrailiyyat (yəhudilərdən gələn) xəbərlərdir. Kitabın müəllifi gərək belə əsası olmayan rəvayətlərdən uzaq durardı. Böyük İslam alimi İbn Kəsir (Allah ona rəhmət etsin) özünün" əl-Bidayə vən-Nihayə" (1/15) əsərində bu cür qəribə rəvayətlərdən bəzilərini qeyd etdikdən sonra bu rəvayətlərin israiliyyatlardan (yəhudi xəbərlərindən) olduğunu bildirərək demişdir:" bu isnadı gətirən Süddinin rəvayətində çoxlu qəribə, əcaib şeylər qeyd olunub. Sanki o bunların çoxusunu israiliyyatdan (yəhudi xəbərlərindən) götürüb".

İbn Ömərdən rəvayət olunan uydurma hədis isə peyğəmbərə nisbət olunub, həmin rəvayətdə isə "Yerin su üzərində olması, suyun bir qaya üzərində olması, qayanın isə bir balinanın üzərində olması..." vəsf edilmişdir ki, bu rəvayətin isnadının uydurma olmasını alimlər bəyan etmişlər[121].

Deməli, bu cür rəvayətlərdən heç biri nə Quranda yoxdur, nə səhih sünnədə varid olmayıb və araşdırma nəticəsində yəhudilərdən gəlmə uydurma xəbərlərdən olması anlaşılır. Yəhudilərdən gələn

---

[119] Kəb əl-Əhbər yəmənli yəhudilərdən olub, Peyğəmbərin vəfatından bir neçə il sonra İslamı qəbul edib Mədinəyə gəlmişdi. Məalimut-Tənzil. 8/186.
[120] Bax: Təfsirul-Qurtubi. (29/442).
[121] Şeyx Albani "Silsilətud-Daifə. no: 294" əsərində bu rəvayətin "uydurma" olduğunu bəyan etmişdir.

xəbərlər haqda isə Allah Elçisinin (Səllallahu aleyi və səlləm) bu hədisini hər birimiz yəqin ki, bilirik: "(Yəhudilərdən gələn xəbərlər) əgər batil olarsa, təsdiqləməyin. Əgər doğru olarsa, inkar etməyin"[122].

## Ateistlərin "Allah məni yedizdirin" deyir - şübhəsinə cavab.

**1 -** "Zəriyət surəsinin 57-ci ayəsi Azərbaycan dilinə belə tərcümə edilib:

"Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm".

Diqqət etsəniz, ateistlərin hiyləsində guya Allah "Məni yedizdirin" deyir, halbuki, hətta, tərcümədə belə Allah bunun əksini deyir. Məşhur təfsir alimi ibn Cərir ət-Təbəri həm də ilk təfsirçilərdən sayılır, o bu ayənin təfsirində belə deyir: مَآ أُرِيدُ مِنۡهُم مِّن رِّزۡقٍ "Mən onlardan ruzi istəmirəm". Yəni: "Mənim yaratdıqlarıma ruzi vermələrini istəmirəm".

---

122 Əbu Davud. 3644; Əhməd. 16774; Şeyx Albani "əs-Sahiha" əsərində bu hədisi "səhih" hesab edib.

وَمَآ أُرِيدُ أَن يُطۡعِمُونِ yəni: Yedirmələrini istəmirəm. Yəni: Mənim yaratdıqlarımı yedirmələrini istəmirəm.

Bu rəy əksər elm əhlinin rəyidir.

Onlar bu hədisi dəlil gətiriblər, hansı ki, bir ilahi hədisdə Uca Allah bir quluna deyir: "Mən yemək istədim, mənə yemək vermədin. O dedi: Sən aləmlərin Rəbbi olduğun halda sənə necə yemək verə bilərdim? Allah deyir: "Mənim filan qulum ac idi, əgər sən ona yemək versəydin, bunun savabını mənim dərgahımda tapa bilərdin"[123].

Bu hədisi gətirən bütün təfsir alimləri deyiblər ki, burada Allah qullarını yedizdirməkdən danışır. Onlar demişlər: Allah burada "Mənim yaratdıqlarımı yedizdirmənizi istəmirəm" ona görə də dərhal növbəti ayədə belə demişdir: *"Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir"*. (əz-Zəriyət, 58). Deməli, ateistlərin 57-ci ayə haqda iddiası necə düz ola bilər ki, Allah növbəti ayədə "Allah ruzi verəndir" deyir, elə öncəki ayə də Allahın ruzi verməsinin kifayət etdiyini, kimdənsə qullarını yedizdirmələrini istəmir, o mənada ki, Allah buna möhtac deyil və hədisdə deyildiyi kimi kim bunu edərsə, Allahın qullarını yedizdirərsə, "bunun savabını Allahın dərgahında tapar".

Ayədən öncəki ayə Qurani-Kərimdə ən əzəmətli ayələrindən biridir: Allahın vəhdaniyyətinə, təkliyinə, Tək Allaha ibadətə çağıran əzəmətli bir ayədir. Həmin ayə və çəkilən misallar

---
[123] Səhihi Müslim .Kitəbul-Birr. bəbu Fadl iyədətul-Mərid. no: 2569.

bərabərində "mən sizi yalnız mənə ibadət etmək üçün yaratdım, sizdən filan-filan şeyləri istəmirəm, yalnız mənə ibadət etməyinizi istəyirəm" şəklində məna verir.

**2 -** Bu ayənin təfsiri haqda məşhur təfsir alimlərinin on bir təfsirinə baxdıq. Bu təfsirlərin heç birində Allah demir ki, "məni yedizdirin". Əksinə, izah edilir ki, məna budur: "Mənim qulumu və ya başqasını yedizdirməyinizi istəmirəm". Hətta ayənin zahiri belə bu mənaya dəlalət etmir, əksinə bu mənanı inkar edir.

Gəlin bəzi təfsirçilərin sözlərini qeyd edək:

Artıq təfsirçilərin böyüyü ibn Cərir ət-Tabərinin sözü qeyd olundu. O təxminən 12 əsr bundan öncə yaşayıb. Qədim təfsirçilərdən Muqatil ibn Süleyman demişdir: لم أسألهم أن يرزقوا أحدا - Yəni: Onlardan kimisə yedirmələrini istəmirəm. Digər təfsirçi əs-Səmərqəndi "Bəhrul-Ulum" kitabında eyni ayənin "Onlardan ruzi istəmirəm" hissəsinin təfsirində deyir: ما خلقتهم لأن يرزقوا أنفسهم Onları özlərinin ruziləndirmələri üçün yaratmadım (yəni, ruzilərini mən verirəm), Ayənin ikinci hissəsindəki "yedirtmək" məsələsi haqda isə deyir: لا أكلفهم أن يطعموا أحدا من خلقي "Mən onları yaratdıqlarımdan kimisə yedirtməklə mükəlləf etməmişəm".

Başqa bir təfsir alimi əl-Vahidi özünün "əl-Vasit" adlı təfsirində demişdir:

أن يرزقوا أحدا من خلقي ولا أن يرزقوا أنفسهم

Qullarımdan kiməsə, nə də özlərinə ruzi verməniz istəmirəm, ayənin digər hissəsini isə belə təfsir edir: "أن يطعموا أحدا، فقد أطعمه *"Kimisə yedizdirmənizi istəmirəm. Onu mən yedizdirirəm"*. Məşhur təfsirçi əl-Bəğavi öz təfsirində bu ayə haqda deyir: أن يرزقوا أحدا من

خلقي ولا أن يرزقوا أنفسهم yəni, qullarımdan kiməsə, nə də özlərinə ruzi vermələrini istəmirəm. Sonra sözünə davam edərək deyir: " ولا أريد أن يطعمون، أي: أن يطعموا أحدا من خلقي" Onlardan yedirmələrini istəmirəm, yəni: Qullarımdan kimisə yedirmələrini istəmirəm. Sonra deyir: O, yedizdirməyi yalnız öz nəfsinə nisbət etmişdir. Çünki, Çünki, Allahın yaratdıqları Allahın əyalıdır. Kim başqasının əyalını yedizdirmiş sayılarsa, o artıq onun özünü yedizdirmişdir" Xülasə, buna görə Allah qullarını yedizdirməyi belə istəməmişdir. Başqa təfsir alimlərindən İbn Atiyyə, Beydavi, əl-İzz ibn Abdis-Sələm, İbnul-Covzi "Zədul-Məsir"də, ən-Nəsəfi "Mədərikut-Tənzil" əsərində, Əbül-Həyyan "Bəhrul-Muhit" əsərində və s. bir çox təfsirçilər nədənsə Quranı anlamayan ateistlərdən fərqli olaraq bu ayəni eyni şəkildə başa düşmüşlər və mənasında ixtilaf etməmişlər. Daha çox təfsirə baxmaq imkanımız var idi, on bir təfsirdə eyni məna ilə qarşılaşdıqdan sonra bununla kifayətləndik.

**3 -** Əslində ateistlər bu ayənin onların əleyhinə dəlil olduğunu bilib susmalı idilər. Çünki, məlum olduğu kimi Qurani-Kərimin bəlağəti də ecazkardır. Geniş mənaları əhatə edir. Bildiyimiz kimi bəzi bütpərəstlər öz bütlərinin qarşısına yemək və s. ruzi sayılan şeyləri gətirib qoyurdular. Allah isə özünün əzəmətli olmasını, onların düşündükləri bütlərdən deyil, yeməyə və maddəyə ehtiyacı

olan deyil, ibadətə layiq olan tək Allah olmasını xatırladır, bu misalları çəkib heç bir şeyi deyil, yalnız Özünə ibadət olunmasını istədiyini deyir. Ateistlər birdən desələr ki, kim deyir ki, bütlərə yemək gətirirdilər, cavab bu ayədədir: *"O, (İbrahim) xəlvətcə onların məbudlarının yanına gəlib istehza ilə dedi: "Siz bu təamları yemirsiniz?"* (Saffət, 91) Tarix boyu bütpərəstlərin bu adəti olmuşdur. Bu gün də Hindistanda və s. yerlərdə mövcuddur. Allah isə özünün elə saxta, yemək yeyən tanrı olmadığına işarət edir, əvvəlki və sonrakı ayədə yalnız Özünə ibadət olunmasını istəyir, başqa bütlər kimi yeməyə ehtiyacı yoxdur, əksinə, O ruzi verən olduğunu xatırladır.

**4 -** Həmçinin, uca Allah özü yemək yeyən birinin ilah ola bilməyəcəyini digər bir Quran ayəsində ifadə etmişdir: "Məryəm oğlu Məsih ancaq bir elçidir, ondan əvvəl də elçilər gəlib getmişlər. Onun anası isə Allaha sidq ürəkdən inanan bir qadın idi. Hər ikisi də yemək yeyirdi. Bax gör ayələrimizi onlara necə bəyan edirik, sonra da gör onlar haqdan necə döndərilirlər". (əl-Maidə, 75). Əgər Allah yemək yeyənin ilah ola bilməyəcəyini İsanın ilahiləşdirilməsinin düzgün olmadığına dəlil gətirirsə, necə ola bilər ki, özü ateistlərin iddia etdiyi kimi kimdənsə yemək istəsin? Bu son iki ayəni oxuyan ateistlər özlərinə Quran ayələri ilə cavab verildikdən sonra görəsən yenə söz oyunu oynamaq istəyəcəklərmi?

# Quran Allah kəlamıdırsa, niyə onu başa düşmək çətindir?

**Sual:** *Əgər Quran Allahın kəlamıdırsa, niyə onu başa düşmək bu qədər çətindir? Niyə təfsirlərə ehtiyac var? Məgər o Allah kəlamı olsaydı, onu hər kəs rahat başa düşməli deyildimi? Tərcümələr də düz gəlmir deyirlər.*

**Cavab:**

**Birincisi:** Quranın nə üçün nazil olduğunu başa düşməliyik. Qurani-Kərim İslam dininin dünya və axirət səadətini əldə etmək üçün Allahın əmr və qadağalarını çatdıran, dinin qayda və hökmlərini bəyan edən bir kitabdır. Quran bir qanun kitabıdır. Müsəlmanların konstitisiyasıdır. Konstitusiya kitabını fizika, kimya, riyaziyyat kitabı ilə müqayisə edənlər əlbəttə ki, Quranın mənasını başa düşməyəcək və Onun ilahi məqsədindən başqa istiqamətdə yozacaqlar.

**İkincisi:** Quran ayələri muhkəm və mutəşabih ayələrə bölünür. Əksər ayələr başa düşüləndir. Uca Allah buyurur: "Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: “Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir”. Bunu isə ancaq ağıl sahibləri dərk edərlər". (Ali

İmran, 7). Bu ayədən də göründüyü kimi Quran ayələrinin bir qismi mənası aydın ayələrdir.

Özü də bu qism, yəni mənası aydın ayələr Kitabın anası adlandırılmışdır.

Başqa bir ayədə uca Allah buyurur:

*"Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Amma heç bir yada salan varmı?"* (əl-Qəmər. 17)

Doğurdan da qəlblərində mərəz olanlar Quran ayələrini Allahın qəsd etdiyi mənadan başqa mənaya yozurlar. Ateistlər də Quranın həqiqətini başa düşmədən bu kitabı konstitusiya kitabından daha çox fizika, kimya, astonomoya kitabı kimi görməyə çalışır, görə bilmədikdə isə "bu Allahın kəlamı deyil" deyirlər.

**Üçüncüsü:** 14 əsr əvvəlki ərəbləri heyran qoyduğu kimi, bu günün müasir insanlarını da öz bəlağəti, ecazkarlığı ilə heyran qoyur. Ərəb şairləri özlərinin ən gözəl şeirlərini Kəbənin üzərindən asırdılar. Lakin Qurani-Kərim nazil olduqda ərəb şairləri bunun insan sözü olmadığını təsdiqlədilər. Onlar şeiri və onun dərinliklərini yaxşı bilirdilər. Oxumaq və yazmaq bilməyən bir peyğəmbərin birdən-birə ən güclü yazıçıları heyran qoyan ilahi bir kəlamın ayələrini oxuması onları heyrətə gətirmişdi. Hətta bəziləri Qurani-Kərimi dinləmək üçün gizlincə gedib səhabələrin və peyğəmbərin Quran oxumasını izləyirdilər. Sonra inanmayanlar öz dostlarının da özləri kimi gizlincə Quran dinləməyə gəldiklərini görürdülər.

## Dördüncüsü: Təfsirlərə nə üçün ehtiyac var?

Təfsirlər Qurani-Kərimin mənalarının Peyğəmbərin və səhabələrinin başa düşdüyü kimi düzgün başa düşülməsi, ən əsası isə Allahın Quran ayələrindəki muradının insanlara düzgün çatdırılması üçün yazılmışdır. Təfsirlərin özü də ayələrin nazil olma səbəbləri elmi ilə başlamışdır. Yəni insanların uydurduğu bir elm deyil, Quranı ilk dəfə elə peyğəmbər özü izah etmişdir. Ondan da səhabələr bu elmi götürmüşlər. Təfsir elmində "əsbəbun-nuzul" (Quran ayələrinin nazil olma səbəbləri) elmi haqda əsərlər çox mühüm yer tutur. Bu kitablar peyğəmbərin Quran ayələrini izah edən hədislərinə əsasən, həmçimin, ayələrin hansı şəraitdə, hansı hadisədən sonra və ya kimin haqqında nazil olmasını izah edir. Bu kitablardan; Əli ibn Əhməd əl-Vahidinin "Əsbəbun-Nuzul" əsəri, İbn Həcər əl-Asqalaninin "əl-Ucəb fi bəyənil-Əsbəb" əsəri, Cəlaləddin əs-Süyutinin "Lubəbun-Nuqul fi Əsbəbin-Nuzul" əsəri, Muqbil ibn Hədi əl-Vadinin "əs-Sahih əl-Musnəd li-Əsbəbin-Nuzul" əsəri və s. əsərləri misal çəkmək olar. İslam alimi İbn Dəqiq əl-İyd demişdir: "Quran ayələrinin nazil olma səbəblərini bilmək, Quranın mənalarını başa düşmək üçün çox qüvvətli bir yoldur"[124].

Quranı ən gözəl başa düşənlər, Quranın təfsirini ən yaxşı bilənlər elə peyğəmbərin səhabələri idilər. Onlar Peyğəmbərin quranı necə təfsir etməsinin şahidi olmuşdular. Bu elmi peyğəmbərin səhabələrindən ən gözəl bilənlərdən bəzi tanınmışları: Abdullah ibn Abbas, Abdullah ibn Məsud, Əli ibn Əbu Talib, Zeyd ibn Sabit, Ubey ibn Kəb, Əbu Hüreyrə, Abdullah ibniz-Zubeyr, Əbi

---

[124] əl-İtqan fi ulumil-Quran. Süyuti. 1/108.

Musə əl-Əşari (Allah onlardan razı olsun) və başqaları idilər. Abdullah ibn Abbasa da onlardan idi. Peyğəmbərimiz ona dua etmişdi ki, Allah ona Quranın mənalarını öyrənməyə müvəffəq etsin! Deməli, təfsir elmini ilk dəfə Muhəmməd (Sallallahu aleyhi və səlləm) peyğəmbər özü öyrətmişdir.

Təfsirlər Quranın mənalarının başa düşülməsini asanlaşdırır, eyni zamanda təfsir kitablarında ilk müsəlmanların Quranı necə Allahın muradına uyğun başa düşmələri qeyd olunmuşdur. Həmçinin, təfsirin faydalarından biri də odur ki, insanların Quranın mənalarını təhrif etmək istəyənlər peyda olduqca təfsir kitabları təhrifçilərin işini çətinləşdirir. Onları Allahın Qurandan muradı olmayan mənaları özbaşına çıxarmalarına maneə olur. Həmçinin, təfsir kitabları kateqoriyalara bölünür; onlardan bəziləri ümumi şəriət əhkamların, İslam fiqhinin izahına üstünlük vermiş, bəziləri Quran ayətlərindəki ərəb dilinin incəliklərini izah etmiş, bəziləri Quranın bəlağətini izah etmiş, bəziləri Qurandakı hekayələrin təfsirinə və tarixi məsələlərin izahına üstünlük vermiş, bəziləri nəsix və mənsux məsələlərini (hökmü qalan və hökmü silinən ayələr haqda elm) araşdırmış, bəziləri Məkkə və Mədinə ayələrini fərqləndirməyə çalışmış, bəziləri muhkəm və mütəşabihi (mənası bəlli olan və bəlli olmayan ayələr) izah etmiş, bəziləri Qurani-Kərimin bir neçə ləhcədə oxunuşu haqda qaydaları izah etmiş, bəziləri Quranın "təcvid (oxunuş) elmi" haqda izahlar etmişlər və s. Bütün bunlar onu göstərir ki, İslam alimləri Qurani-Kərimdəki müxtəlif İslam elmlərinə xidmət etmək istəmişlər, müsəlmanların Qurandan daha çox faydalanmasına çalışmışlar. Yoxsa, bəzi ateistlərin düşündüyü kimi Quran təfsirləri heç də mənaları

müsəlmanların istədikləri kimi yozmaq cəhdləri olmamışdır. Buna mane olan səbəblərdən ən əsası da Quranın təfsir qaydaları və təfsir elminə daxil olmaq üçün qoyulan ağır şərtlərdir. Bu şərtlər bir çox İslami elmləri dərindən bilməklə əlaqəlidir. Hətta, hal-hazırda Mədinə Beynəlxalq İslam universitetinin "Quran fakultəsində" təhsil almaq üçün ilk şərt tələbənin Qurani-Kərimi əzbərdən bilməsidir. Hələ sonrakı elmi mərhələlərdən danışmırıq. Quranın təfsir növlərinə baxsaq, yenə bəzi məsələlər aydın olacaq;

1 - Quranın Quranla təfsiri. 2- Quranın hədislərlə və rəvayətlərlə təfsiri. 3 - Quranın rəylə təfsiri. 4 - Quranın feyz, rəmz və işarələrlə təfsiri… Birinci və ikinci növ təfsirlər icazəlidir. Üçüncü növ təfsir bəzi şərtlərlə icazəlidir. Çünki, rəylə təfsirdə həm haqq həm də batil mənalar ola bilər deyə alimlər müəyyən şərtlərlə bu cür təfsiri qəbul etmişlər. Dördüncü növ təfsir isə icazəli deyildir. Çünki, bu xurafatçıların, işbazların Qurandan öz, ağılllarına görə "gizli xurafi mənalar" çıxarmalarına səbəb ola bilər deyə alimlər bu növ təfsiri qadağan etmişlər.

**Beşincisi:** Hədislər Quranı təfsir edir. Dedik ki, Quranın əksər hissəsi asan bir dildədir. Qurani-Kərim asan bir dildədir. Məsələn, Qurani-Kərimdə Allah buyurur ki, "Namaz qılın", amma namazın necə qıllnmasını hədislər izah edir. Allah buyurur ki: "Oruc tutun" orucun necə tutulma qaydasını isə bizə hədislər izah edir. Yəni, Qurani-Kərimdə bir çox təfsilatların olmaması o demək deyil ki, Qurani-Kərim çətindir. Məgər "Namaz qılın" sözünü başa düşmək çətindirmi? Xeyir. Amma, namazın neçə rükət olmasını biz hədislərdən öyrənirik. Deməli, hədislərlə Qurani-Kərim bir-birini tamamlayır.

**Altıncısı:** Əgər Quran ayələrinin hamısı asan və bəsit olsaydı, ərəblər deyəcəkdilər ki, görürsünüzmü, bu insan sözü, bəşər kəlamıdır, çox asan yazılıb, çünki, onu insan yazıb. Lakin, Uca Allah buyurmuşdur:

"Həqiqətən Biz sənə ağır bir Söz (Quran) vəhy edəcəyik". (Muzzəmmil. 5).

Göründüyü kimi Qurani-Kərim hər tərəfdən qorunmuşdur. O həm lazımlı, mühüm məsələləri çox asan dildə izah edən kitabdır, həm də öz ilahiliyini qoruyan ağır bir kəlamdır.

## Heyvanları, bitkiləri məhv etmək ədalətsizlik deyil?

**Birincisi:** İslam etiqadına görə heyvanların canı insanın canı ilə əvəzlənə biləcək bir funksiyada deyil. Həm də heyvanların yaranmasında hikmət ya birbaşa insanın xidmətinə verilmək (istər ətindən yemək, südündən və yunundan faydalanmaq olsun) ya da dolayısı yolla insanların xidmətində (istər də ümumi təbiət müvazinətinin qorunması üçün) olmaqdır.

Bütün heyvanlar insan üçün (insana xidmət və insanın onlardan faydalanması üçün) yaranmışdır. Allah buyurmuşdur: *"Yer üzündə olanların hamısını sizə görə xəlq etmişdir"*. (əl-Bəqərə, 29).

Həmçinin, buyurmuşdur: *"Atları, qatırları və uzunqulaqları sizə həm minik, həm də zinət olsun deyə Allah yaratdı. O, sizin hələ bilmədiyiniz bir çox şeyləri də yaradır"*. (ən-Nəhl, 8)

Başqa bir ayədə isə: *"Bəzilərini minəsiniz, bəzilərindən də yeyəsiniz deyə, heyvanları sizin üçün yaradan Allahdır"*. (əl-Ğafir, 79)

Həmçinin: *"Həqiqətən, ev heyvanlarında da sizin üçün ibrət var. Biz onların bətnində olandan sizlərə içirdirik. Sizin üçün onlarda başqa faydalar da var. Üstəlik onlardan yeyirsiniz də. Siz həm o heyvanlarla, həm də gəmilərlə daşınırsınız"*. (əl-Muminun, 21-22).

**İkincisi:** Bizim heyvanların psixikasını bilməyimiz olduqca məhduddur. Bu da heyvanların idrakına yanaşmanın zahiri dəyərləndirmə ilə edildiyi üçündür. Bu və digər səbəblərə görə insan hissiyyatının qeyri-bəşəri varlıqlarla müqayisəsi zamanı açıq-aydın səhv müqayisələrə yol verilir.

**Üçüncüsü:** İslam mükəmməl bir dindir və yüksəlişi məsuliyyəti yerinə yetirməklə nəsib edir. Buna "ət-təklif" deyilir. İnsan ağlı olduğu üçün mükəlləfdir. Heyvanlar isə mükəlləf deyillər, bitkilər də bunun kimi. Allahın onları yoxdan var etməsi, onlara həyat verməsi özü-özlüyündə bir lütfdür. Uca Allah buyurur: *"Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik. Onlar onu daşımaqdan qorxub imtina etdilər. Lakin insan onu boynuna götürdü. Doğrudan da, o, zalım və cahildir"*. (Əhzab, 72).

**Dördüncüsü:** Allah öz yaratması ilə lütf etdiyi kimi, öz mülkündə istədiyini etməkdə də sorğu sual olunmur. Necə ki, sən öz mülkünü istədiyin kimi xərcləyirsən və kimsə "niyə bu qədər xərcləyirsən?" desə, deyəcəksən ki, öz mülkümdür, özüm bilərəm. Allah da yoxdan yaradıb, istəsə əbədi həyat verər, necə ki, insana əbədi həyat vəd edib. İstəsə də heyvanlar və bitkiləri əbədi həyatdan məhrum edər.

**Beşincisi:** İnsanın ədalət anlayışı dar çərçivədədir. Bəzən də ədalət anlayışı insandan insana dəyişir. İnsan Allahın heyvan və bitkiləri nə üçün yaratdığını başa düşməsə, o özü bu məsələdə ədaləti tapa bilməz. Heyvandan ibadət tələb edilmir, insandan isə ibadət tələb edilir. Allah insanı heyvan və bitkilərdən ağıl, elm ilə üstün etmişdir. Əgər heyvanlar, bitkilər və insanlar ağılda, elmdə bir olsaydılar, onda Allahın ədalətini sorğulayanlar istəklərinə çatardılar. Lakin, belə bir şey yoxdur. Öhdəlik, məsuliyyət artdıqca, öhdəliyi yerinə yetirmək insanı daha da ucaldır. Uca Allah buyurur: *"Biz Adəm oğullarını hörmətli etdik, onları quruda və dənizdə minik üstündə daşıdıq, onlara pak ruzilər verdik və onları yaratdıqlarımızın çoxundan xeyli üstün elədik"*. (əl-İsra, 70).

Allah qatında öhdəliyi yerinə yetirənlər ucalar, Allahın vacib etdiyi öhdəliyə və onun əmrinə müxalif olanlar, onu inkar edənlər isə heyvanlardan da aşağı səviyyəyə düşərlər. Allah buyurmuşdur: *"Yoxsa elə hesab edirsən ki, onların əksəriyyəti eşidəcək və ya anlayacaq? Onlar heyvan kimidirlər, hətta, haqq yoldan daha çox uzaqlaşmışlar"*. (əl-Furqan, 44).

## Mən insan olmaq istəmirdim, Allah məni niyə insan olaraq yaratdı? – sualına cavab

**Sual:** Bəzi ateistlər deyirlər: Mən insan olmaq istəmirdim, Allah məni niyə insan olaraq yaratdı?

**Cavab:** Bu suala bir neçə aspektdən cavab veriləcəkdir:

**Birincisi:** Bunu soruşan demək istəyir ki, həyatımda azad olduğum kimi hər şey mənim ixtiyarımla olmalıdır. Mən bu dünyaya gələndə məndən gərək soruşaydılar ki, bu dünyaya gəlmək istəyirsən? Bu sual doğru deyil. Yalnız belə deyə bilərsən. O da nə vaxt deyə bilərsən? Rəbbim mənə ixtiyar vermədi deməyin haqq olsa, de ki mənə zülm etdi. Lakin, sənə ixtiyar verib. Sənə ixtiyar, seçim haqqı verib deyə deyə bilməzsən ki, sənə zülm edib. Allah sənə ixtiyar verib, istəsən yemək yeyərsən, istəsən uzanarsan, istəsən yatarsan, istəsən gəzməyə gedərsən.

**İkincisi:** Yenə sual doğru deyil. Çünki, sən əgər mövcud deyilsənsə, səndən necə soruşulsun ki, ay "Ələmdar", istiyirsənmi dünyaya gəlmək?! Axı sən yoxsan! Səndən bu suallar necə soruşulsun?

Əvvəla, bilməlisən ki, sən atanın əmələ gəlməmişdən milyonlarla spermatozoiddən biri idin. O milyonların içində yalnız bir spermatozoid ana bətninə keçib sonda insan kimi əmələ gələcəkdi. Deməli, o biri milyonlarla spermatozoidin hamısı ölüb, bir sənə yaşamaq fürsəti verilib. O biri spermatozoidlər hamısı ölüb ki sən yaşayasan. Sən də yaşamaq istəmirsən. Qəribədir!

Əgər sən yaşamaq istəmirdinsə, onda niyə başqa spermatozoidlərlə yarışa girib qalib çıxdın? Niyə özünü bu qədər yordun ki? İndi də deyirsən ki, mənim xəbərim yoxdur. "Elm, elm" deyə bağırırsan. İndi də elmi danış. Əgər yaranmağının sirrini tənqid etmək istəyirsənsə, onda birinci özünü danla, sonra valideynlərini... Çünki, onlar sənin yaranmağına səbəb olublar.

Əgər Darvinin "Növlərin Mənşəyi" kitabına baxsan, görəcəksən ki, belə yazılıb: "Həyatda qalmaq uğrunda mübarizə. Həyatda qalan isə daha qüvvətli olandır. Yəni daha uyğun və daha münasib olandır". Hal-hazırda həyatda olmağı dəyərləndirib düzgün yola gəlməyə və öz halına şükür etməyə sənin fürsətin var!

**Üçüncüsü:** Bu bilirsinizmi nəyə oxşayır? Sənə Allah göz verib! Şükür etmək əvəzinə deyirsən ki, Allah mənə niyə göz verib? Sənə dil verib. Şükür etmək yerinə deyirsən ki, mənə niyə dil verib? Sənə ağıl verib, deyirsən ki, mənə niyə ağıl verib. Əslində bu şeyləri sənə verməklə o sənə yaxşılıq edib. Sən isə o sanki sənə pislik edibmiş kimi məsələni qələmə verirsən. Bu sualı verən insanların çoxusu yalan danışırlar. Dünyanı hamıdan çox sevirlər. Əslində insan

olduqları üçün sevinirlər. Nemətlərdən ləzzət aldıqları üçün sevinirlər. Amma, bir gün şükür etmirlər ki, Allah onları insan olaraq yaradıb, məsələn, at, buzov, qarışqa və ya uzunqulaq da ola bilərdilər və s.

**Dördüncüsü:** Dünya yalnız həyatın mərhələlərindən biridir. *Ruhlar aləmi. Ana bətni. Dünya həyatı. Qəbir həyatı. Axirət.* Sən yalnız dünyada olduğunu düşünürsən. İnsanın keçdiyi bu beş mərhələ barədə düşünmürsən.

**Beşincisi:** Yaradılışın məqsədini bil. Boşuna yaranmamısan. Sınaq dünyasındasan.

*"Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır".* (əl-Mülk. 2).

Həyata bəla, problem gözü ilə baxma. Həyata nemət gözü ilə bax. Həyatı gözəl yaşa. Məgər nemətlərdən zövq almırsanmı? Gününü faydalı keçir, insanlara faydalı ol. Hər gün yeni nə isə öyrən.

*"Kim Mənim doğru yoluma tabe olarsa, nə yolunu azar, nə də bədbəxt olar".* (Ta ha, 123).

Bədbəxtçilik ağılın, fikrin və qəlbin bədbəxtçiliyidir.

## Dinsizlərin daha bir yalanının ifşası, 5000, yoxsa 22 din var?

Çoxunuz dinsizlərin yer üzündə 4000, bəzən isə 5000 din olduğunu iddia etmələri ilə tanışsınız! Əslində isə yer üzündə araşdırmalara görə 22 böyük din var. Bu dinlərin tərəfdarları 150.000-dən çox olanlardır. Qalanları isə ya böyük dinlərin firqələri, ya o dinlərdən əmələ gələn tayfalar, ya da fəlsəfələrdir. Hər fəlsəfə, fikir və ya ideologiya din sayılmır. Mənbədə qeyd olunub ki, yer kürəsinin 6 milyard 400 milyon əhalisi 22 dinə inanır. 1-ci yerdə xristianlıq, 2-ci yerdə İslam, 3-cü yerdə hinduizmdir. Hər fəlsəfə və fikir din sayılmır. Qeyd etdiyimiz məlumat "Dünyanın dinlər və tanrılar" xəritəsində qeyd olunub. Həmçinin, *"Beynəlxalq xristian ensiklopediya*sı"nda da bu məlumat tam dəqiqliyi ilə öz əksini tapıb. 4200 din kimi qələmə verilən məlumat əslində yer üzündə olan bütün ideologiyaların eyni fikirdə olsa belə kiçik fərqliliyi olan fikirlər, fəlsəfələr, məzhəblər, tayfalar və s. hər şeyi bu siyahıya daxil ediblər. Təkcə xristianlıqdan yüzlərlə məzhəb qeydə alınıb. İslama da bu cür yanaşılıb. Baxmayaraq ki, sonuc etibarilə hamısı xristian və ya müsəlman sayılır.

Əgər bu cür bölgünü düzgün hesab etsək, onda gərək ateistləri də bir neçə kateqoriyaya bölüb sonra onların "ixtilaf etdikləri üçün" düzgün fikirdə olmadıqlarını özlərinə deyək. Qeyd etdiyimiz kimi dünyanın əksər dinə inanan təbəqəsinin 6.4 milyardı 22 dinə inanır. Bunlar böyük ensiklopediyalarda təsdiqlənmiş məlumatlardır. İnsanların hətta ateizm üzrə bir fikirdə olmadığı, ateizm fəlsəfələrinə düşdükləri bir dünyada dinlərin yalnız bir olması qətiyyən mümkün deyil. Bu isə insanların müxtəlifliyi ilə əlaqədardır.

Uca Allah buyurur: *"Əgər Rəbbin istəsəydi, insanları vahid bir ümmət edərdi. Amma onlar elə hey ixtilafdadırlar".* (Hud, 118).

Allah qatında haqq din isə yalnız İslamdır.

Həmçinin, buyurmuşdur: *"Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, bilsin ki, Allah tez haqq-hesab çəkəndir"*. (Ali İmran. 19).

Başqa bir ayədə isə: *"Dinlərini parçalayıb firqə-firqə olanlarla sənin heç bir əlaqən yoxdur. Onların işi Allaha aiddir. Sonra Allah onlara etdikləri əməllər barədə xəbər verəcəkdir"*. (əl-Ənam, 159). deyə buyurmuşdur.

## Quranın tərcümələri düz gəlmir?

**Şübhə:** *Müsəlmanlara Quran haqqında bir söz deyən kimi ya "sən düz başa düşməmisən, ya da Quranı səhv tərcümə ediblər" deyirlər. Axı bu kitab daha aydın və hər kəsin anlayacağı dildə olmalı deyildimi?*

**Cavab:** Sualdakı son cümləyə yaxın günlərdə yazdığım "Quran Allah kəlamıdırsa, niyə onu başa düşmək çətindir?" adlı suala cavab verdiyimiz məqalədə ətraflı şəkildə cavab vermişəm. Quran tərcümələrinə gəldikdə isə, bütün iddialara qarşı "Quran səhv tərcümə olunub" deyilmir, bu sadəcə ateistlərin dillərinin öyrəşdiyi bir iddiadır. Müsəlman daha çox" siz düzgün başa düşməmisiniz" deyə bilər. Təbii ki, tərcüməçilərin tərcümə səhvləri də var. Əlavə izah etmək istədiyim məsələlər bunlardır;

**1 -** Quranın dəqiq tərcüməsi yoxdur; Bunu başa düşmək çox mühümdür. Bir çox dinsizlər Quranın ərəb dilində və onun öz saf xüsusiyyətləri üzərində nazil olduğunu qəbul etmək istəmirlər . *"Həqiqətən, Biz onu ərəbcə Quran olaraq nazil etdik ki, başa düşə biləsiniz"*. (Yusuf. 2). Bu ayəni eşitdikdə onun yalnız ərəblərə gəldiyini başa düşən dinsizlər ayənin mənasını təhrif etmək istəyirlər. Heç kəsə gizli deyil ki, ərəb dilində 12 milyon söz var və bu söz ehtiyatı ilə o dünyanın ən güclü dili hesab edilir. Allahın kəlamı da məhz ən incə ifadələri işlədə bilən, bu qüdrətə malik olan bir dildə gəlmişdir. Bu qədər qüvvətli bir dilin yalnız mənaca tərcüməsi mümkündür. Dəqiq tərcüməsi isə qeyri-mümkündür. Ona görə də bu məsələni başa düşməyən və ya başa düşmək istəməyən dinsizlər daim Quranın tərcüməsi haqda deyilən bu məsələyə bilərəkdən, ya da bilməyərəkdən etiraz edirlər. Həqiqəti isə qəbul

etmək lazımdır. Quran ərəbcə gəlsə də bütün bəşəriyyətə xitab edir, bu da dəlil: "Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən bir peyğəmbər kimi göndərdik. Lakin, insanların çoxu bunu bilmir". (Səba, 28)

**2 -** Tərcüməçilərin üslub fərqləri də var. Kimisi öndən arxaya tərcümə edir, kimisi arxadan önə. Kimisi də hərfi tərcümə edir. Xüsusilə də İslam haqqında geniş araşdırmalar edən, dünyaya İslam haqqında çoxlu şübhələr yaymış şərqşünasların ərəb dili və onun incəliklərinə bələd olmamaları bir yana, həmçinin hərfi tərcümələrə yol vermələri, Quran, təfsir, bəlağət, fiqh, hədis elmi və s. İslami elmlərdən xəbərləri olmadan tərcümələr etmələri, özlərindən Qurana mənalar vermələri, bir çox yersiz ittihamlara səbəb olmuşdur. Azərbaycan dilində Quranı şeir kimi tərcümə edən ən bərbad nümunələrdən birində tərcüməçi Allahı "hiyləgər" adlandırmaqdan çəkinməmişdi[125]. Lakin, həmin tərcümə insanlar arasında heç bir "dəyər" görmədi, baxmayaraq ki, müəllif Quranı ərəbcə orjinalındakı kimi tərcümə etmək, qafiyələndirmək istəmişdi. Bu qəbildən də çoxlu xətalara yol vermişdi. Lakin, o Quranın dəqiq tərcüməsinin mümkün olmadığını bilsəydi, Quran tərcüməsinə girişib nə vaxtını israf edər, nə də yüzlərlə ciddi xətalara yol verməzdi. Təsəvvür edin ki, ateistlərdən kimsə N.Qasımoğlunun tərcüməsini oxuyub müsəlmanlara ordan sitatlar gətirir .

[125] Əslində isə "Ali İmran" surəsinin 54-cü ayəsinin sonu "Allah hiyləgərlərə qarşı ən yaxşı tədbir görəndir" kimi tərcümə olunmalıydı. Çünki, haşa, Allahın "hiyləgər" sifəti yoxdur.

Arxadan tərcümə etdikdə bəzən bir neçə cümlə birləşir, öndən tərcümə etdikdə isə bəzən məna tam verilmir, ya da istənilən məna alınmır. Baxmayaraq ki, Quranın dəqiq tərcüməsi yoxdur. Lakin, bu o demək deyil ki, onun mənaca tərcüməsi də mümkün deyil. Elə söz var ki, o yalnız ərəbcə orjinalında oxunduqda öz təsirini qoruyur. Quranın ecazkarlığı onun məhz ərəbcəsində ifadə olunur, başqa dilə çevrildikdə onun insanlara təsiri də ərəbcəsindəki kimi olmur .

Hərfi tərcümə bəzən mənanı itirir, hətta təhrifə yol açır. Ona görə Quran öz orjinal dilində daha yaxşıdır. Başqa dillərə tərcümədə təfsirlərə baxılması tərcümənin səhvlərini azalda və onu daha mükəmməl edə bilər. Allahın adlarının bir çoxlarının dilimizdə dəqiq tərvüməsi yoxdur, ona görə də bəzən təxmini məna ifadə edən sözlərlə Allahın bəzi adları verilir.

**3 -** Tərcüməçilər təfsirlərdən istifadə etdikdə təfsirlərin üslubunu və xüsusiyyətlərini bilməlidirlər. Ən mötəbər təfsirləri tanımalıdırlar. Təbərinin, İbn Kəsirin, Bəğavinin və s. təfsirləri ola-ola son dövr müəllifi bilinməyən, tanınmayan şəxslərin təfsirlərinə də baxmalı deyillər. Üslub fərqinə gəldikdə isə əl-Qurtubinin təfsirində bilmək lazımdır ki, həmin kitab fiqhi məsələləri daha çox izah etməyə üstünlük verib. Bəzən bir ayənin tərcüməsində otuza yaxın fiqhi məsələdən danışıb. Şəkk yoxdur ki, bunlar hamısı elmi üslublardır. Məsələn, Zəməxşərinin təfsiri daha çox rəmzlər, batini mənalara, hətta mötəzilə məzhəbinə uyğun izahlarla da doludur. Bunu firqələri bilən araşdırmaçı şəxs də asanlıqla hiss edə bilər. Həmin təfsir ərəb dili və bəlağət baxımından yaxşı hesab olunsa da bəzi İslam etiqadı cəhətdən problemli "batini izahlara" getdiyi üçün

bu təfsir kitabı İslam alimləri arasında geniş istifadə olunmamış, məsləhətli kitablardan hesab edilməmişdir. Lakin, qeyd olunduğu kimi ərəb dili və bəlağəti mövzularında faydalı hesab edilmişdir. Tərcümədə dil məsələsi qabardığı üçün fiqhi təfsir olan Qurtubinin, ya da mötəzilə mədrəsəsinə meyl edən Zəməxşərinin deyil, digər lüğəvi mənalara üstünlük verən təfsirlərə baxıla bilər. Lakin bilmək lazımdır ki, tərcümədə təkcə dil deyil, ən əsas məsələ Allahın muradı, məqsədi, ayənin düzgün mənasını başa düşməkdir .

**4 -** Güclü dildən zəif dilə tərcümə mənanı o qədər kasadlaşdıra bilər ki, bu kasadlıq mənanı təhrif həddinə çata bilər. Artıq bu barədə söhbət əsnasında məlumat verdik. Bəzi tərcüməçilər mötərizələrdən istifadə edirlər ki, kimlərsə bunu tənqid edə, kimlərsə haqlı hesab edə bilər. Çünki, tərcümədə bəzən elə zəruri qeydlər ola bilər ki, bunu normal tərcümələrdə belə mötərizədə vermək olur. Lakin, Allahın kitabının tərcüməsində bu mötərizələrdəki mənalar həmişə birmənalı qarşılanmır. Xülasə, tərcümə özü bir elmdir, lakin çox vaxt bu elmlə onu mükəmməl bilənlər deyil, sadəcə mənanı başa düşdüyü kimi çatdırmaq istəyənlər məşğul olurlar. Şəkk yoxdur ki, yaxşı tərcümələr də mövcuddur. Lakin, onlar da xətadan xali deyillər.

**5 -** Ateistlərin "yenə tərcümədə səhv var deyəcəklər" sözləri hər birimizə məlumdur. Xeyr. Müsəlmanların ayənin düzgün mənası haqda edilən iradlara cavabı həmin anda bilməməsi yol vermir ki, hər şübhəyə "tərcümədə səhv var" deyib keçsin. Sadəcə "ola bilsin ki, mən bunun cavabını bilmirəm" deyib keçməsi və sual verib öyrənmədən qərar verməyə tələsməməsi lazımdır. Çünki, uca Allah buyurmuşdur: *"Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun".* (ən-

Nəhl. 43). Bir də hər müsəlman bilməlidir ki, dinsizlərin hansısa ayəni şübhə olaraq gətirmələri, orada ya "ziddiyyət", ya "yalan" axtarışına çıxmaları, hər zaman tərcümə səhvindən olmur, bəzən sadəcə ayələrin mənasını "təhrif" edirlər, ya da zahiri mənaya özlərindən "başqa məna" verirlər . Xüsusən də elementar dini bilikləri olmayan bir çox ateistlər ayələri öz fundamental bilgiləri ilə "anlamağa" çalışanda əsas fəlakət və "yanlış məna çıxarmalar" daha çox o zaman baş verir. Bu zaman heç tərcümələrin düzgün olub-olmamasından danışmağa elə də ehtiyac qalmır. Çünki, müsəlman əksər tərcümələrin təxmini məna çatdırmaq xarakterli olduğunu bilir, ateist isə bunu bilmədiyindən, Quranın hərfi tərcüməsi olmadığını, bunun mümkünsüz olduğunu başa düşmədiyindən, tərcümələri orjinal Quranla eyni tutub oradakı bəzi sözlərdən qəsdli şəkildə tutunur, dini tənqid etmək üçün istifadə edir. Dindarlar isə ateistə tərcümənin xırdalıqlarını izah edib onlara bu qafil qaldıqları mənanı izah etdikdə "səhv tərcümə deyib bizi aldadırsınız, vəziyyətdən çıxmaq üçün bəhanə edirsiniz" kimi batil iddialar irəli sürürlər. Lakin, onlar tərcümələrin mahiyyətini başa düşsəydilər, belə iddialar irəli sürməzdilər.

# Ateistlərin məşhur "dinlər arasındakı oxşarlıq elementləri" bir həqiqi din anlayışına ziddirmi?

**Sual:** *Bir çoxlarımız tez-tez ateist səhifələrində dinlər arasındakı oxşarlıq elementlərinə aid şəkillər, çox vaxt heykəllər, bütlər, bəzən isə oxşar ayinlərin şəkillərinə dəlalət edən yazıların gündəmə gətirilməsinin şahidi oluruq. Görəsən bu şəkillərdəki bəzi oxşarlıqlar və ya oxşarlıq olduğu iddia edilən məlumatlar Allah qatında həqiqi bir dinin olması anlayışına zidd ola bilərmi? Qeyd edək ki, ateistlər bu şübhə ilə dinlərin hamısının bir mənşədən olduğunu ifadə etmək, sonra isə dini insanların uydurduğunu demək istəyirlər. Onlara cavabımız necə olmalıdır?*

**Cavab :**

**Birincisi:** Dinlər birdən çox olduğu üçün bunlar arasında oxşarlıq mümkündür; Ələxsus da təhrif olunmuş dinlər arasında oxşarlıq var və biz bunu inkar etmirik. Bir çox dinlərdə müxtəlif inanclar bənzəyə bilər. Elə oxşarlıqlar var ki, bu, İslamdan başqa bütün batil dinlərdə var. Məsələn; "reinkarnasiya" inancı İslamda yoxdur. Ərəbcə buna"تناسخ الأرواح" tənəsuxul-ərvah" deyilir. Mənası: İnsan öldükdə cisminin fani olması, onun ruhunun isə başqa bir canlının bədəninə keçməsi hadisəsidir. Bu onun ilk həyatında etdiyi əməllər nisbətində (yaxşı və pis) baş verir. Beləcə onun ruhu yeni bir mərhələyə başlayır[126].

Bu inanc bütpərəstlikdən gəlmədir. Hansı ki, çox dinlərə də sirayət etmişdir. İslam etiqadının saflığı və bu etiqadın sərhədlərinin sağlamlığı reinkarnasiya inancını İslamdan

[126] Dinlər haqqında "Müyəssəra" ensiklopediyası. 2/722.

uzaqlaşdırmağa kifayət etmişdir. Baxmayaraq ki, bu inanca İslamdan anlayışı olmayan zəif əqidəli kimsənin inanması da uzaq ehtimal deyil. Qaldı ki, bəzi dinlərdəki ayinlərin İslama aid edilən bəzi firqələrə nisbət edilməsinə, əksər müsəlmanların isə o inancdan uzaq olması, bu cür şeylər əksər müsəlmanların icmasıyla dinə sonradan artırılan şeylərdir. İslam peyğəmbəri ﷺ dinə sonradan artırılan şeylərə qarşı öz ümmətini xəbərdar etmiş, onları dində yeniliklər çıxarmaqdan uzaq olmağa çağırmışdır. Bu əmri ilə İslam peyğəmbəri ﷺ dinin saflığını qorumağa çağırmaqla bərabər, dinə qarşı gələcəkdə edilə biləcək bütün təhrif, dəyişiklik, dinin mahiyyətini dəyişdirmə cəhdlərinə qarşı müsəlmanların ayıq olmalarını təmin etmişdir. O buyurmuşdur*: "Kim bizim bu (dində) əməlimizə uyğun olmayan yenilik gətirərsə, bu əməl ondan rədd olunar"*[127]. "Yenilik" dedikdə dünyəvi işlər deyil, dinin daxilinə, təməl əsaslarına, özəyinə, mahiyyətinə yenilik gətirmək qəsd olunur .

Yenə İslam dininin daxilinə fikir versək, Qurani-Kərim də dinin tamamlandığına işarə etmişdir. Din tamamlanıbsa, kimlərinsə onu təhrif edib başqa dinlərdən nələrisə İslama daxil etməsi mümkünsüzdür. Uca Allah buyurur: *"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim". (əl-Maidə. 3).*

**İkincisi:** Təhrif olunmuş "dinlərdəki oxşarlıqlar" barədə bəzi misallar çəkək, elə misallar ki, ateistlər öz səhifələrində bu haqda şəkillər paylaşırlar; məsələn sosial şəbəkələrdə paylaşılan şəkillərdən birində sağda İsanın uşaqlığı, solda krişnanın uşaqlığı

[127] Səhih əl-Buxari. 2697; Səhihi Müslim. 1718.

və hər iki şəkildə onların başına yığışan insanları və "üç münəccim" təsvir edilib. Təbii ki, İslam dinində şəkil çəkmək qadağandır. Yenə İslam dininin mühafizəkarlığı bu cür təhriflərdən İslamı qoruyur və bu cür şəkillərin çoxusunda ateistlər İslama aid bir şey tapa bilmir, başqa dinlərdən misallar gətirmək zorunda qalırlar, necə ki, bu şəkildə də xristianlıq və bütpərəstlik müqayisə edilir. Əslində isə xristianlığı təhrif edən əsas fikirlərin bütpərəstlikdən gəldiyi çoxumuza məlumdur və bir çox bütpərəstlik elementlərinin xristianlığa məhz bu yolla gəldiyini adi müsəlmanlar da bilirlər; "Ata, oğul və müqəddəs ruh" anlayışı, təslis (üçlük) inancı da bütpərəstlikdən xristianlığa keçmişdir.

İndi sizə ateistlərin ziddiyyətinə bir misal gətirəcəyik; səmavi dinlər arasında bəzi oxşarlıqların mümkünlüyünü qəbul etməyən ateistlər novruzun Azərbaycanın da bayramı olduğunu, farslara xas bayram olmadığını isbat etmək üçün qədim misirlilərin də buğda cücərtmələrini göstərən şəkilləri məşhur ateist səhifələrindən birində paylaşmışdılar. Qəribədir elə deyilmi? Bir ayini özününküləşdirmək üçün farsların buğda cücərdən şəkillərinə qarşılıq olaraq misirlilərin buğda cücərtmə şəkillərini tapıb paylaşırlar. Belə hallar da olur. Deməli, ateistlər iki xalqın buğda cücərtmə ayinini misal gətirib "bənzərlik" anlayışına sərf edəndə "daha geniş" və daha "adil" yanaşmağa çalışırlar. Dinlərə gəldikdə isə dinlər arasındakı bənzərliklər mütləq mənada bir Allahdan gələn yeganə, tək dinə yozulmur, əksinə mütləq mənada dinlərin "uydurma" olmasına yozulur. Özü də bu arqumenti qeyri-səmavi dinlərdən çox, səmavi dinlərə qarşı istifadə edirlər .

**Üçüncüsü:** Qurani-Kərimdə bir çox dinlərdəki təhriflərə diqqət çəkilmişdir; Xristianlığın təhrifi, bu dinə bütpərəstlik, politeizm və ya şirkin daxil olunması Quranda xüsusi çəkisi olan mövzulardandır. Yəhudilik dininin təhrifi haqda da Qurani-Kərimdə bəhs edilir. Tövrat və incilin təhrif edilməsi haqda olan ayələrdən biri belədir: *"Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: "Bu, Allah tərəfindəndir!"– deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına!"* (əl-Bəqərə, 79). Deməli, dinin daxilində təhrif pislənilir .

**Dördüncüsü:** Səmavi dinlərin əsli eynidir; peyğəmbərlik ağacı eynidirsə, tövrat, incil və quranda eyni peyğəmbərlərdən danışılması da normaldır. Yəni bu üç din arasındakı oxşarlığı yalnız mənfi qiymətləndirənlər əslində hansı dinin təhrif olunduğuna, hansının təhrif olunmadığına baxmalı idilər. İslam dini peyğəmbərləri təsdiqləyir, səmavi dinlər də təsdiqləyir. Ümumiyyətlə oxşarlıq, bənzərlik olan müxtəliflik daima bir şeyin uydurma olmasına dəlalət etmir. Əksinə, bəzən oxşarlıq, bənzərlik bir şeyin mahiyyətini daha da qüvvətləndirən amildir. Məsələn; yüzlərlə, minlərlə quş növlərinin olması heç də bu canlıları quş sinfindən kənara çıxarmır. Əksinə quşların canlı faunasının nə qədər zəngin olmasına dəlalət edir. Dinlərin müxtəlifliyi də bir dinin doğru olması ehtimalını aradan götürmür. Dinlərin müxtəlifliyinə kiminsə yalnız bir prizmadan yanaşması, başqa amillərə fikir vermədən analiz etməsi doğru deyil. "Dinşünaslıq" elminə görə dinlər iki kateqoriyaya bölünür; Səmavi dinlər və qeyri-səmavi (və ya bəşəri) dinlər. Bu elmdə də dinlərin vahid

mənşəyinin olması geniş tədqiqat predmetlərindən biri sayılır. Qeyri səmavi (bəşəri) dinlərin insanlar tərəfindən çıxarıldığı məlumdur. Ateistlər bunu sübut etməyə çalışarkən, biz müsəlmanlar dinimizin bunu sübut etdiyi üçün bu məsələdə heç ateistlər kimi canfəşanlıq etmədən bu həqiqəti bilirik. Qaldı ki, səmavi dinlər (yəhudilik, xristianlıq və İslam), məhz bu dinlər arasındakı oxşarlıqlar və fərqliliklər dəqiq analiz edildikdən sonra hansısa bir nəticəyə gəlmək olar. Ədalətli yanaşma isə bu dinlərdən ikisinin (yəhudilik və xristianlığın) təhrif olunmasını, İslamın isə təhrifdən qorunduğunu göstərir. Əslində səmavi dinlərin bir kökdən gəlməsi və əsas etibarilə eyni kökə söykənməsi, onların "müxtəliflik" görünən tərəfi və "oxşarlıq" görünən tərəflərini düzgün anlamağımıza yardım etmiş olur. Bir misal deyək; bir ağacın çoxlu budaqları olduğu kimi, onun kökü və başqa hissələri də olur. Budaqlar varsa, avtomatik olaraq onun kökü də var deməkdir. Köksüz ağacı təsəvvür etmək mümkün olmadığı kimi, budaqların çoxluğunu görüb bu ağacın kökü yoxdur demək də axmaqlıqdır. Budaqlar bir-birinə oxşaya bilər. Lakin bir kökün olmasını inkar etmək problemdir. Eləcə də dinlər çox ola bilər. Lakin, çoxlu dinlər içindən bir dinin doğru olması ehtimalı da bunun kimi məntiqi, ağlı yerində olan bir ateistin inkar edə bilməyəcəyi məsələdir .

# Nə üçün daha peyğəmbər göndərilmir?

**Sual:** *İslama görə yer üzünə bir daha peyğəmbər göndərilməyəcək. Artıq on dörd əsrdir ki, peyğəmbərlər göndərilmir. Yeni peyğəmbərlərin göndərilməsi daha ədalətli olmazdımı? Peyğəmbərlərin gəlməsi bəşər övladı üçün bu qədər böyük əhəmiyyət kəsb edirsə, onda niyə daha peyğəmbər göndərilmir?*

**Birinci məsələ:** ibrət nə peyğəmbərlərin göndərildiyi vaxtda, nə də peyğəmbərliyi daşıyan şəxslərin kimliyində deyil; ibrət, peyğəmbərliyi təsdiqləməkdə və onun sadiqliyinə, doğruluğuna dair dəlillərdədir. Peyğəmbərliyin sadiqliyini və doğruluğunu yəqinliklə vəsf edən dəlil mövcud olarsa, bu zaman nə dövrdən, nə məkandan, nə də peyğəmbərliyi daşıyan şəxsin kimliyindən asılı olmayaraq həmin məlumatı təsdiqləmək lazımdır. Çünki əqli dəlillər zamana və məkana görə dəyişmir, daim sabit olaraq qalır. Əqli dəlillərin işlək və qeyri-işlək olduğu zamanlar, dəlil olduğu və olmadığı məkanlar olmur. Bir sözlə əqli dəlillər hər zaman və hər məkan üçün keçərli olan sabit qaydalardır.

**Əgər soruşulsa ki:** "Nə üçün birinci peyğəmbərlə kifayətlənilməyib? Niyə peyğəmbərlərin göndərilməsi davamlı olub? Məgər hüccətin qalxması üçün ilk peyğəmbərin dəlilləri insanlara kifayət deyildirmi?".

**Cavab verərik ki:** Qeyd olunan məsələləri səbəb gətirərək etiraz bildirmək doğru deyil. Çünki insanların azğınlıqları növbənövdür. Odur ki, insanlıq təfsilat tələb edən və birtərəfli səciyyə daşımayan qanunlar toplusuna ehtiyac duyub. Məhz bu

səbəbdən peyğəmbərlərin gətirdiyi qanunlar müxtəlif olmuş, əmr edilən ibadət növləri isə forma etibarilə bir-birindən fərqlənmişdir.

Həmçinin insanların hissləri, emosiyaları da fərqlidir. İnsanlar əxlaqlarından yaxşı mənada təsirlənəcəkləri kəslərlə bir cəmiyyətdə yaşamağa ehtiyac duyurlar. Cəmiyyətlər isə müxtəlifdir. Odur ki, tam əksinə, bircə peyğəmbərlə kifayətlənmək ədalətli olmazdı.

Risalətin niyə məhz Muhəmməd ﷺ peyğəmbərlə sona çatması və onun peyğəmbərlərin möhürü, sonuncu Elçi olmasına gəldikdə isə cavab veririk ki, Muhammməd peyğəmbərin digər peyğəmbərlərə xas olmayan fərqli cəhətləri olmuşdur. Kitabın irəliki səhifələrində bu barədə daha ətraflı məlumat veriləcəkdir inşəAllah.

**İkinci məsələ:** Allah Elçisinin ﷺ peyğəmbərliyinə dair dəlillər xüsusi bir zamanla məhdudlaşmır, keçərliliyi baş verdiyi dövr keçdikdən sonra zəifləmir və ya sona çatmır. Peyğəmbərlik dəlilləri bütün zamanlara şamil olunmaq və bütün məkanlarda keçərli olmaq kimi xüsusiyyətlərə malikdir. Bəşər övladı mövcud olduğu müddətcə bu dəlillər keçərli olaraq qalacaqdır. Bəşəriyyətə göndərilmiş sonuncu Peyğəmbərin ﷺ ən böyük möcüzəsi isə Qurani-Kərimdir. Bu kitab insan və cin tayfasının qüdrətinin fövqündə olan möcüzəli bir kəlamdır.

Peyğəmbər ﷺ özü öz peyğəmbərliyinə dəlalət edən mühüm metodiki məsələ barədə xəbər verərək buyurmuşdur: "Elə bir peyğəmbər olmamışdır ki, ona bəşər övladının iman gətirdiyinin bənzəri verilməsin. Mənə verilən isə yaınız Allahın mənə vəhy etdiyidir. Ümid edirəm ki, Qiyamət günü onların ən çox tərəfdarı

olanı mən olum[128]. Peyğəmbərimizin peyğəmbərlik dəlilləri qalıcıdır və bu dəlillərin qalıcı olması onun peyğəmbərliyinin qalıcı olmasını zəruri şəkildə gərəkli edir.

**Üçüncü məsələ:** Zaman və məkandan asılı olmayaraq peyğəmbərin ﷺ peyğəmbərlik dəlillərinin xüsusiyyətlərinin qalıcı olmasından əlavə Uca Allah Öz Elçisinə ﷺ göndərdiyi vəhyi müxtəlif yollarla qorumuşdur. O, Qurani-Kərimi zay olmaqdan, təhrifdən, dəyişdirilməkdən, mətnlərinin artırılması və azaldılmasından qorumuşdur. Bununla yanaşı Quranın ləfzi bu ümmətə şəkk-şübhə qəbul etməyən qəti, mütəvatir[129] yolla nəql edilmişdir.

Peyğəmbərin ﷺ həyatının xəbərləri (sirası) qorunmuşdur. Beləcə onun əxlaqı, felləri, ümumi həyatı barədə bilgilər sanki O bizim aramızda yaşayırmış və bizim yollarımızda yeriyirmiş kimi bizə nəql edilmişdir. Həmçinin, İslam dininin qanunları qorunmuşdur. İslamın dəlillərinin qorunması və məsələlərinin araşdırılması üçün

---

[128] "Səhih əl-Buxari", 4981; "Səhihi Muslim", 239.

[129] Mütəvatir: Bu, hədis elminə xas terminlərdən biridir. "Yalan üzərində ittifaq edilməsi mümkün olmayan (etibarlı) camaatın (çoxlu şəxslərin) hissi yollarla rəvayət etdikləri xəbərdir". "Mustalah əl-Hədis", İbn Useymin, səh. 6. Yəni rəvayətin isnadını hər təbəqədən çoxlu rəvayətçi rəvayət etmişdir. Əqli cəhətdən mümkün deyil ki, hər təbəqədən çoxlu sayda hədis rəvayətçisi özündən tamamilə eyni hədisi rəvayət etsin. Belə bir şey mümkün olsa, o, mütəvatir sayıla bilməz. "Hissi yollarla rəvayət etdikləri" isə o deməkdir ki, hədis "eşitdik", "gördük", "toxunduq", "danışdıq" və s. sözlərlə nəql olunmalıdır.

dahi alimlər xidmət göstərmişdir. Onlar bu məsələləri cəmləmiş, tərtib və korrektə etmiş, dəlil və hüccətlərə nəzər yetirmişlər[130].

Bütün bu və digər qoruma yolları peyğəmbərin hədislərinin, nişanələrinin, dəlillərinin dəyişilməz şəkildə bu günümüzə qədər gəlib çatmasına səbəb olmuşdur. Peyğəmbərin əxlaqı, həyat hekayəsi, təbliği və doğruluğunun dəlillərindən ibarət olan bu elmi irs hələ uzun dövrlər boyunca qalmaqda davam edəcəkdir inşəAllah. Odur ki, "peyğəmbərliyin 14 əsr əvvəl sona çatması onun sabitliyinə və kamilliyinə xələl gətirir" kimi əsassız iddialar irəli sürmək doğru elmi əsaslandırma metodikasına və sağlam düşüncəyə ziddir[131]. Çünki, bir iddianın doğruluğu onun deyildiyi zamana görə deyil, deyilənin həqiqət olub-olmadığı məlum olduğu zaman baş verə bilər!

[130] Söhbət İslami əhkamlarla əlaqədar məsələlərdən gedir ki, alimlər bu məsələləri fiqh kitablarında və digər elmi kitablarda xüsusi mövzu başlıqlarına, bab və fəsillərə ayıraraq təqdim etmiş, müxtəlif ictimai mövzulara əsasən Quran və hədislərdən ibarət dəlilləri bir arada cəm etmiş, Quran ayələrinin nazil olma səbəbləri, mənaları açıqlanmış, anlaşılmayan sözlərə izahlar vermiş, hədisləri şərh edən xüsusi qələmə alınmışdır. Hətta hədisləri rəvayət edən şəxslərin etibarlı və ya etibarsız olması barədə cildlərlə kitablar yazılmışdır. Bütün bunlar İslami mənbələrin mötəbərliyinin qorunmasına xidmət etmişdir.

[131] “Müasir Qərb düşüncəsində dinin tənqidi məsələsi”, dr. Sultan əl-Umeyri. səh. 339 (ərəbcə).

# Oruc tutmaq insanı zəiflədir?

**Şübhə belədir:**

*"Oruc süstlük yaradır, zərərlidir və insanı öz ictimai görəvlərini yerinə yetirməkdən aciz qoyur".*

**Şübhənin cavabı:**

**1** - Oruc zərərlidir? Yoxsa, xeyirlidir? Bu sualın cavabına nəzər yetirdikdə həqiqəti görmək mümkün ikən nədənsə yenə ateistlərin qərəzli mövqelərinin şahidi oluruq. Daim elmin əhəmiyətindən danışan ateistlər, nədənsə oruca gəldikdə orucun tibbi faydalarını deyil, başqa məsələləri müzakirə etməyə çalışırlar. Orucun zərərli olması şübhəsi sovet dönəmində yayılırdı və ateistlər hətta emosional məqamlardan belə istifadə etməyə çalışırdılar.

Oruc bir ibadət olmaqla yanaşı ən yaxşı dərmanlardan və bədəni qüvvətləndirməyin ən yaxşı yollarından biri sayılır. Müsəlman həkimlər bir yana qalsın, qeyri-müsəlman həkimlərin də təsdiqi ilə bu gerçəklikdir. Bu gerçəkliyi, bu reallığı bilməməyə, etiraf etməməyə nə ad vermək olar görəsən?

Oruc, bir çox psixoloji problemlərin müalicəsində, oruc tutanın iradəsinin gücləndirilməsində, hiss və duyğularının incəlməsində, xeyiri sevməkdə, mübahisə, düşmənçilik və kin-küdurətdən uzaqlaşmaqda, ruhun və düşüncənin yüksəlməsini hiss etməkdə çox aktiv təsir göstərir. Bununla yanaşı oruc insanın şəxsiyətini gücləndirməkdə, insana dayaq olmaqda, daha çox problem və sıxıntılara qatlanıb dözümlü olmaqda yardımçı olur. Şəkk yoxdur ki, bütün bunlar insanın sağlamlığına yaxşı təsir edir.

Bu bir tərəfdən, digər tərəfdən isə oruc insan bədəninin bir çox xəstəliklərdən müalicə olunmasında rol oynayır; məsələn; həzm sistemindəki xəstəliklər, kəskin mədə iltihabı, qalın bağırsağın qıcıqlanması, ciyər xəstəlikləri, pis həzm, köklüyün müalicəsi, damar sərtləşməsi, qan təzyiqinin yüksəlməsi, sinənin daralması, sternal astma və s. kimi xəstəliklərin müalicəsini göstərmək olar.

Artıq elm dünyasının da araşdırmalarla ortaya qoyduğu kimi oruc tutmağın diabetdən, xərçəng və infarktlara qədər bir çox xəstəliyin qarşısını alması anlaşılmışdır. Qərbdə "intermittent fasting" İslamda isə oruç deyə tanınır. İsveçli həkim Barsilyus yazmışdı ki: "Acqalmanın müalicədə verdiyi fayda olan bilsin ki, dərmanlardan istifadədən dəfələrcə çox olsun"[132]. Dr. Help də öz xəstələrini bir neçə günlüyünə yemək yeməyi qadağan edərdi[133]. Dr. Engin Türkmən demişdir: "Bir il boyunca heç dayanmadan çalışan əzələlərin, həzm sisteminin və qaraçiyərin tətilə ehtiyacı var. Oruc da vücudun ehtiyacı olan tətil üçün yaxşı bir fürsətdir[134].

Dr. Haluk Saçaklı orucun sağlamlığa faydalarını belə izah etmişdir:

"İnsan vücudu aç kaldığı zaman xəstə hüceyrələrin içindeki gereksiz hissəcikləri yox etmə programı kəşf edilmişdir. Üç günlük orucdan sonra vücudun ümmun sistemi leykositlərin təşəkkülünə təkan verir. Vücudumuz ümmun sistemimizin hamısını yeniləyir.

---

[132] Məqalə: شيوعي ملحد يدعي أن الصيام مضرّ !! islamqa.info saytı. "Kommunist ateist iddia edir ki, oruc zərərlidir" adlı ərəbcə məqalə. 4-cü abzas.

[133] Eyni mənbə. 4- cü abzas.

[134] Məqalə: Haber Türk saytı. "Orucun faydaları nelerdir?" adlı məqalə. Məqaləyə keçid: http://m.xn--habertrk-c6a.com/

Oruc tamamilə bir yenilənmə proqramı olarak qarşımıza çıxır. Bədən stres halında ikən, oruc tutarken, ya da aclık zamanında daha çox otofaji (hüceyrələrin özünü yeməsi halı) baş verir. Hüceyrə, enerji istehsalını öz daxili imkanlarını istifadə edərək etməyə çalışır. İlk olarak tullantısını ve patojen bakteriyaları həzm edərək təmizliyə başlayır. Beləcə erkən yaşlanmanın da qarşısı alınmış olur"[135].

*Həkim fitoterapevt* Fizuli Hüseynov deyir ki: "Oruc tutmaqla biz həm də xərçəng olmaqdan qorunuruq. Xəstə hüceyrələr insanın tez yaşlanmasına səbəb olduğundan orucla daha cavan qalmağımız mümkündür. Çünki, xəstə hüceyrələrin yerini kök hüceyrələrdən əmələ gəlmiş yeni, cavan və sağlam hüceyrələr tuturlar"[136].

Orucun faydalarından çox danışmaq olar. Burada yazılanlar bu faydaların çox cüzi bir hissəsidir. Bu haqda kitablar, yüzlərlə məqalələr yazılmış, geniş araşdırmalar edilmişdir .

**2** - Orucluq ayı müsəlmanları süstlüyə və zəifliyə çağırmır, əksinə aktiv olmağa, çalışmağa və daha çox səmərə əldə etməyə çağırır. Ramazan ayı boyu müsəlmanların başına gələn hadisələr də bunu sübut edir. Onlar orucqarına dünyanın neçə böyük şəhərlərini fəth etmiş və ya hücuma keçən düşmənləri məğlub etmişdilər.

---

[135] Məqalə: "Oruç tutmanın sağlığa faydaları". türkcə. 5-ci abzas. gelisim.edu.tr saytı.

[136] Məqalə: "İslam və təbabət" telegram kanalı. 5-ci abzas. Müəllif: Fizuli Hüseynov.

Əgər oruc onlarda zəiflik yaratmışdısa, onlar necə yemək yeyib doymuş insanlara özü də oruclu ola-ola qalib gəlirdilər?[137]

**3** - Bəzi oruc tutanların süstlüyə və yorğunluğa düçar olmalarının səbəbi özü-özlüyündə oruca qayıtmır, əksinə bu Allahın Elçisinin orucuna müxalif olmalarının nəticəsidir[138]. Oruc tutmaqda peyğəmbərin yoluna tabe olmaq insanı yorğunluq və halsızlıqdan qoruyur. İlk müsəlmanlar orucun məqsəd və sirlərini başa düşmüşdülər. Onlar Peyğəmbərin orucdakı metodologiyasını qoruyaraq qüvvətli və dayanıqlı olmuş, yorğunluq və zəifliyə qapılmadan öz aktivliklərini və işlərini davam etdirmişlər. Gecələri ziyarətləşmə, ibadət və quran oxumaqla keçərdi. Onların Ramazan ayı bütünlüklə ibadət, çalışqanlıq və elm öyrənməklə keçirdi .

Peyğəmbər orucu açanda (iftar edərkən) bir neçə xurma ilə orucunu açar, sonra namazını qılardı, bəziləri kimi yeyib mədəsini doldurmazdı. Bu insanda ağlrlıq və tənbəllik yaradır. Uzun müddət ac qaldıqdan sonra birdən-birə çox yemək tənbəllik yaradır. Peyğəmbərin iftarı barədə bir hədisdə deyilir: *"Peyğəmbər namaz qılmadan öncə bir neçə yaş xurma ilə orucunu açardı. Əgər yaş xurma tapmazdısa, kiçik (adi) xurmalarla orucunu açardı, əgər onu da tapmazdısa, bir neçə qurtum su içərdi"*[139]. Bu hədis iftar açarkən

[137] Daha ətraflı oxumaq üçün bu keçiddəki məqaləmizi oxumaq mümkündür: Ramazan ayında müsəlmanların tarixi fəthləri:
http://senxatirlat.com/ramazan-ayinda-muselmanlarin-tarixi-fethleri/
[138] Məqalə: "Bəyan əl-İslam" ensiklopediyasının rəsmi saytından: www.bayanelislam.net – "Müsəlman orucu məhsuldarlığı azldır və tənbəllik yaradır" iddiası (bu iddiaya cavab). İkinci abzas. ادعاء أن الصوم عند المسلمين يقلل الإنتاج ويبعث على التكاسل.
[139] Əbu Davud. 2356; Tirmizi. 696. Əhməd. 12676.

düzgün qidalanmağa yol göstərir, birdən-birə mədəni doldurmaqdan çəkindirir, hansı ki, bu da insanda halsızlıq və tənbəllik yaradır .

Orucluqda peyğəmbərin metodologiyasından biri də orucun başlamasına az qalmışa kimi yeməyi gecikdirməkdir. Yeməyə vaxt var ikən gecədən yeyib yatmamaq, yaxud gecə yeməklə kifayətlənməmək, orucun başlamasına az qalmış nə isə yeməkdir. Bu gün bəzi insanlar səhər yemək yemədən oruc tutur, bu isə aclığa və zəifliyə səbəb olur, halbuki, peyğəmbər qətiyyətlə səhər az da olsa bir şey yeməyi tövsiyə etmişdir. Bu oruca davamlı olmaq üçün peyğəmbərin tövsiyəsidir. O buyurmuşdur: *"Səhur edin. Çünki, səhur etməkdə bərəkət vardır"*[140]. Bu tövsiyəyə əməl etməyənlər də az deyil. Onlar gecələrini yeyib-içib mədələrini doldurmaq və gecəni yuxusuz keçirməklə məşğul olub sonra da səhərləri yatmaqla keçirirlər. Nə orucdan, nə də gecələri ibadət etməkdən faydalanmırlar. Gecələri normal yatmırlar deyə səhərləri onları tənbəl və yuxusuz görərsən. Həqiqi oruc insanı daha aktiv edir, insanın vaxtı daha bərəkətli olur, insan bu ayda az vaxtda daha çox iş görür, nəinki tənbəlliyə düçar olur,bu tənbəllikdən daha da uzaq olur .

**4 -** Orucun bəzi tibbi faydalarından danışsaq da, orucun faydaları yalnız bununla bitmir. Orucun başqa ictimai, psixoloji və tərbiyəvi faydaları da vardır. Burada orucun tibbi faydalara əlavələr edib, başqa faydalarına da toxunacağıq; Bu ayda insanın özünü islah etməsi, özündəki bir çox qüsurlarla mübarizə aparıb iradəsini möhkəmləndirməsi mümkündür. Bu yolla cəmiyyətin də islahı baş

[140] Əhmədin Müsnədi. 12698. Əbu Davud. 2358.

verir. Fərdlər islah olduqca cəmiyyət də islah olur. Sağlamlıq barədə qeyd etmədiyimiz faydalardan ən böyüyü isə il boyu çox yeməkdən yorulan bədənin istirahəti ilə yanaşı bədənin qüvbətlınməsidir. Çünki, mədəni doldurmaq bir çox xəstəliklərin səbəbidir. İnsanlar xeyirli və zərərli olmasına fikir vermədən nə gəldi yeyirlər. Bir hədisdə deyilir: *"Adəm övladı mədəsindən daha şərli bir qabı doldurmamışdır. Adəm övladına qamətini dik tutması üçün az yemək bəs edər. Əgər mütləq yeməli olarsa, onda mədəsimin üçdə birini yeməyə, üçdə birini suya, üçdə birini nəfəs almaq üçün ayırsın"*[141]*. Mədəni doldurmaq xəstəliklərin başı olduğu kimi, yeməyi tərk etmək də müalicənin başıdır. Oruc isə bu müalicə üçün ən gözəl fürsətlərdən birincisidir. Oruc vasitəsilə bədən bir çox zərərli tullantılardan qorunmuş olur. Qəzetlərdən birində dərc edilən məlumata görə oruc tutmaq vasitəsilə 300 nəfər sidik şəkərindən müalicə olunaraq sağalmışdır*[142]. Quranda deyilir: *"Biləsiniz ki, sizə oruc tutmaq daha xeyirlidir"*. (əl-Bəqərə. 184).

Oruc tutmaq insanı israfçılıq, nankorluq və naşükürlükdən qoruyur, aza qane olmağa öyrədir. Cəmiyyətlərin çətinlik və asanlıq günlərini idrak etməyə sövq edir, insanı bütün il boyu nemət içərisində olduqdan sonra "elə hər şey belə də olmalıdır" düşüncəsindən xilas edir, arxayınlıqdan tənbəlliyə aparmır, nemətləri xatırladır, nemətləri qorumağa rəğbətləndirir, insanlara, cəmiyyətə faydalı olmağa yönəldir. Ramazan ayı insanları bir-birinə yardım etmək üzərində tərbiyələndirir, cəmiyyəti bir-birinə daha sıx bağlayır, insanlar arasında sevgi və mehribanlığın

[141] Səhih əl-Buxari. Bərəkətus-Səhur. 1823.
[142] "əl-İbədətu fil-İsləm". Səh. 294.

artmasına vəsilə olur. Cəmiyyətin ən kasıb təbəqəsi bu ayın sonunda fitrə-zəkatı ilə sevindirilir ki, onlar da bayramda gözəl təamlar bişirə bilsinlər. Bir sözlə toxun acdan xəbəri olur. Ramazan ayı "qonşusu ac ikən tox yatanları" tərbiyələndirir, ictimai bir məsuliyyət şüuru yaradır. Bir-birindən ayrı düşüb bir-birini yad etməyən tənbəl cəmiyyət əvəzinə bir-birilə soraqlaşan aktiv bir cəmiyyətin ərsəyə gəlməsinə xidmət edir .

## Nə üçün Allah Quranda and içir?

• **Birinci şübhə:** *Ərəblər öz aralarında danışanda çox and içirlər. Qarşısındakı insanı inandırmaq üçün and içirlər. Quranda and içmələrə səbəb budu. Ərəbin tanrısı ərəb kimidi. Tez-tez and içir. Tanrı var olsa, belə and içməz .*

**Cavab:** Bu şübhəyə cavab bir neçə aspektdən veriləcəkdir:

**Birincisi:** Bu şübhəni gətirənlər Quranı ya tam oxumayıblar, ya da Qurandakı and içmə üslubundan xəbərsizdirlər. Qurani-Kərimdə andların çoxusu Məkkə surələrində, xüsusən də qısa surələrdədir, bu Qurani-Kərimdə bir üslub kimi istifadə olunmuşdur. Əgər şübhəçilərin dediyi kimi olsaydı, Quranın böyük surələrində də andlara çox rast gəlinərdi. Mədinə surələrində, xüsusən də böyük surələrdə demək olar ki, andlara rast gəlinmir. Olsa da bu nadir hallarda olur .

**İkincisi:** Allah özü Quranda çox and içən yalançılar haqqında peyğəmbərinə buyurur: *"İtaət etmə hər tez-tez and içənə, alçağa"* (Qaləm. 10). Peyğəmbər - Sallallahu aleyhi və səlləm - də hədislərində çox and içməyin, andları pozmağın münafiqlərin, yəni ikiüzlü insanların xislətlərindən olduğunu bildirir. Lakin, and içmək ümumilikdə iki cürdür. Bəzi xalqlar görüşəndə, kef-əhval tutanda tez-tez "vallah belədir, vallah yaxşılıqdır, vallah elədir" kimi sözlər işlədirlər ki, bu məzəmmət olunan and içməkdən deyil, dil öyrəşməsinə daxildir. Lakin, tərk olunması daha yaxşıdır. Məzəmmət olunan andlardan ticarət zamanı malını satmaq üçün yalan danışmaq, insanları başqa məqsədlə aldatmaq üçün yalan danışmağa daxil olan bir çox halları misal göstərmək olar. Uca Allah Qurani-Kərimdə buyurmuşdur: *"Allah sizi qəsdiniz olmadan içdiyiniz andlara görə (onları pozmağa görə) cəzalandırmaz, lakin O, sizi qəsdlə içdiyiniz andlara görə cəzalandıracaqdır".* (əl-Maidə, 89). Eyni ayədə: *"andlarınızı qoruyun"* deyilir .

**Üçüncüsü:** Qurani-Kərim bəşər övladına xitab edir, o üzdən də bəşər övladının anlayacağı xitab növlərindən istifadə edilmişdir. Quran başqa, qeyri-bəşəri xitablarla yazılsaydı, o zaman dinsizlər yenə bir bəhanə tapıb deyəcəkdilər ki, "Quran niyə qəliz üslublarla xitab edir? Məgər insanlara məlum olan xitab və danışıq üslublarından istifadə edilsə bu daha doğru olmazdımı?" Həqiqətən də əgər Quran başqa üslubda olsaydı, dinsizlərin belə deməlori labüd olacaqdı. "Bəyan əl-İslam" ensiklopediyasında deyilir :

"Qurani-Kərimdə andların əsas məqsədləri: mənaların təkidlə vurğulanması və bəşər övladının psixoloji fərqliliyinin nəzərə alınmasıdır"[143].

---

143 "Bəyan əl-İslam" ensiklopediyası. Qurandakı andları yanlış anlamaq mövzusu. birinci mövzu. ikinci abzas. ərəbcə.

• **İkinci şübhə:** *Nə üçün Allah Quranda məxluqlara and içir. And içmək insana məxsus deyilmi?*

**Cavab :**

**Birincisi:** Allah təkid və xitab (danışıq) üslubu olaraq Quranda and içmişdir. Allah özündən üstün bir varlıq olmadığı üçün öz yaratdıqlarından bəzi dəyərli məxluqlara and içmişdir. İnsan isə ən uca olan Allaha and içməlidir. Allah Quranda vaxta da and içmişdir. Bu vaxtın qiymətli olmasındandır. Bunun kimi bəzi məxluqlara da and içmişdir. Günəşə, aya, gecəyə, gündüzə, səmaya, yerə, ulduzlara və s. and içmək insanın anladığı təkid üsullarından biridir. Allahın öz qullarına xitab etdiyi zaman bəzi xüsusi məxluqlara (yaradılmışlara) and içməsi də normaldır. Çünki, O Özü ən ucadır. Ondan qeyriləri isə onun mülkü daxilindədir. Özündən uca bir şey olmadığı üçün də məxluquna and içməsi Onun ucalığındandır və Ona yaraşandır .

**İkincisi:** Allahın and içdiyi məxluqlar onun qüdrət nişanələrindən, təkliyinin (tövhidinin) və qüdrətinin dəlillərindən, Rəbb olmasının tamlığındandır və bəndələrinə öz hüccətini təkidlə çatdırmasındandır. Bu andlar ona inanmayanlar üçün də bir hüccətdir .

**Üçüncüsü:** Allah Quranda Özünə də and içmişdir. Bu isə ona görədir ki, Özündən daha uca varlıq yoxdur. O az hallarda Özünə and içmiş, çox hallarda isə Öz qüdrət əlaməti, əzəmətinin ayətləri olan məxluqlara, varlıqlara and içmişdir. *"And olsun kişini və qadını yaradana"* (əl-Leyl. 3) həmçinin: *"Kafir olanlar heç vaxt*

*dirildilməyəcəklərini iddia edirlər. De: “Xeyr, Rəbbimə and olsun ki, siz mütləq dirildiləcəksiniz.*

*Sonra isə etdiyiniz əməllər sizə xəbər veriləcəkdir. Bu, Allah üçün çox asandır!”* (ət-Təğabun. 7).

Həmçinin buyurmuşdur: *"Rəbbinə and olsun ki, Biz onları şeytanlarla birlikdə bir yerə toplayacaq, sonra da onları diz üstə çökmüş halda Cəhənnəmin ətrafına yerləşdirəcəyik"*. (Məryəm. 68). Bu və digər ayələri buna misal çəkmək olar.

## "Kəbəni təvaf etmək bütpərəstlikdir" deyənlərə cavab.

**Birincisi:** Həcc ayini İslam dininin beş ərkanından, dayağından biridir, hansı ki, bütpərəstliyi yıxmaq, insanlar arasında elmi, xeyiri və tək Allaha ibadəti yaymaq üçün gəlmişdir. Elə Kəbədə ikən Rəbbi Muhəmməd peyğəmbərə (Sallallahu aleyhi və səlləm) Kəbə evinin rəbbini unutmamaq, bütpərəstlik ittihamı edənlərə yaxşı xatırlatma və dərs olacaq bu ayədə deyirdi: *"Qoy onlar bu Evin Rəbbinə ibadət etsinlər"*. (Qureyş. 3). Allah xatırladırdı ki, ibadət edilən Kəbə deyil, Kəbənin rəbbi olan aləmlərin Rəbbi Allahdır!

**İkincisi:** Muhəmməd peyğəmbər (Sallallahu aleyhi və səlləm) Məkkəni fəth etdikdə Kəbəyə daxil oldu, ilk işi bütləri qırmaq oldu. Kəbəni bütlərdən təmizləmək oldu. Bütlərə qarşı müharibə edən bir din, bir peyğəmbər necə Kəbədə bütpərəstlik ayini saxlaya bilərdi?

**Üçüncüsü:** Kəbənin başına fırlanmaq Allahı zikr etmək mahiyyətindədir. Bunu Peyğəmbərimiz (Sallallahu aleyhi və səlləm) də hədisi-şərifində bəyan etmiş, demişdir: "Kəbəni təvaf etmək, səfa və mərvədə yürümək, şeytana daş atmaq, bunlar Allahı zikr etmək üçündür"[144].

Kəbəni təvaf edən kimsə qəlbi ilə Allahı təzim etmiş, əzəmətləndirmiş olur, Allahı zikr edərək bu təvafı edir, o yeridikcə, qara daşı öpdükcə və ya buna imkan olmadıqda salam verməklə, bu da alınmadıqda uzaqdan işarə etməklə kifayətləndikcə, yəmən küncünə toxunduqca, müəyyən sözlər demiş olur ki, bunlar da Allaha ibadətdən sayılır. Bütün ibadətlər də ümumi mənada Allahın zikri sayılır. Həmçinin, ziyarətçinin dili ilə dediyi təkbir (Allahu Əkbər), zikir, dua, bunların hamısı Allahın zikrindən sayılır .

**Dördüncüsü:** Qara daşı öpməyə gəldikdə isə bu da Peyğəmbərin öyrətdiyi bir ibadətdir ki, bunun da yalnız Allahı əzəmətli tutmaq (təzim etmək) və peyğəmbərə tabe olmaq, məqsədilə edilir. Necə ki, Ömər ibnil-Xəttab (Allah ondan razı olsun) qara daşı öpdüyü zaman daşa tərəf belə demişdi: *"Mən bilirəm ki, sən (adi) bir daşsan, nə bir zərər, nə də bir xeyir verə bilməzsən. Əgər mən peyğəmbərin səni öpdüyünü görməsəydim, səni öpməzdim"*[145].

Amma bəzi cahil insanların qara daşı öpməkdən məqsədin o daşın bərəkətinə nail olmaq olduğunu düşünmələrinin dində bir əsası yoxdur, bu batil bir iddiadır .

---

[144] Əbu Davud. 1888. Tirmizi. 902. Əhməd. 6/64 (24396).
[145] Səhih Müslim. 1270.

Eynilə də bəzi xurafatçıların qəbirlərin başına Kəbəni fırlanırmış kimi fırlanmaları, qəbirpərəst ayinlər keçirmələrinin İslam dininin təməl prinsipləri ilə heç bir əlaqəsi yoxdur, bunlar dinə sonradan edilmiş əlavə hesab oluna bilər. Məhz bu əməli, qəbirlərin başına fırlanmağı, qəbirlərin ətrafında dinə zidd əməllər etmək bütpərəstlik adlandırıla bilər. Həqiqi İslamla heç bir əlaqəsi yoxdur.

**Beşincisi:** Alimlər deyirlər ki, Kəbənin divarlarından Qara daş olan küncdən başqa heç bir yeri öpmək olmaz. Hətta Yəmən küncünə belə əllə toxunmaq varid olub, öpmək deyil. Həmçinin, Kəbənin qara örtüyünü öpmək də doğru deyil, nə də qara örtüyə əl sürtüb bərəkət ummaq da doğru deyil. Bəzi insanların bilməməzlikdən bu cür işlər görməsi bu işlərin doğru olması anlamına gəlmir. Hətta Kəbənin Qara daşını öpməyə gəldikdə peyğəmbərin metodikasına, sünnəsinə görə Qara daşı öpmək üçün şərait yoxdursa, izdiham yaranacaqsa və başqalarına əziyyət veriləcəksə, o zaman əllə toxunmaq kifayətdir. Buna da imkan olmasa uzaqdan əl ilə həmin tərəfə işarət etmək kifayətdir. Lakin, bəzi insanlar bu peyğəmbər sünnəsinə əməl etmək əvəzinə izdihamı artırırlar ki, onlar bununla da dinsizlərin videoçəkilişdən izdiham vaxtı çəkilmiş videoları götürüb yayaraq dini mərasimin mahiyyətini təhrif edərək, insanlara başqa cür təqdim etmələrinə şərait yaradırlar. Artıq əvvəldə izah edildi ki, bu əməlin həqiqi mahiyyəti nədən ibarətdir .

# Möcüzələr və qeyb aləmi haqda ateistlərə cavab.

Ateistlərin, dinsizlərin inkar etdikləri məsələlərdən biri də möcüzələr və qeyb aləmidir. Möcüzələr mövzusu bizim üçün qeyb aləminə aid olduğu üçün ilk öncə qeybə inanmaq mövzusu müzakirə edilməlidir. Qurani-Kərim möminləri qeybə inanan olaraq vəsf edir: *"O kəslər ki, qeybə iman gətirir"*. (əl-Bəqərə. 3). Həmçinin buyurmuşdur: *"Bunlar qeyb xəbərlərindəndir ki, onu sənə vəhy edirik"*. (Ali İmran. 43). Həmçinin buyurmuşdur: *"Allah sizə qeybi bildirən deyildir. Lakin, Allah Öz elçilərindən istədiyini seçər"*. (Ali İmran. 179) .

Artıq hər bir ağıl, məntiq sahibi qəbul edir ki, insan bir şeyi görmürsə, bu o demək deyil ki, həmin şey mövcud deyil. Havanı gözümüzlə görmürük, lakin hava mövcuddur. Maddi elm bunu sübut etməsə də havanın mövcud olmasına insanlar inanırdılar və bunu bilirdilər. Çox kiçik mikropları əsrlərdir insanlar gözləri ilə görməsələr də mikroskop ilə görünmədən öncə İslam dini mikropların zərərindən qorunmaq üçün təmizliyi, yemək əsnasında əlləri yumağı əmr etmişdir. Xülasə, əgər bir şeyi görmürsənsə, o demək deyil ki, həmin şey mövcud deyil. Yaxud da başqa bir ibarə ilə desək, əgər bir şeyi sən bilmirsənsə, o demək deyil ki, həmin elm mövcud deyil, yaxud həmin elm elm sayılmır. Sadəcə bunu sən bilmirsən .

Dilimizdə işlədilən "qeyb" sözü ərəbcə "غيب ğeyb" (gizli, görünməyən) sözündəndir. Nə isə gizlilikdə qalırsa, mövcudluğu gizlidirsə, aşkarda görünmədikdə "bu varlıq və ya nəsnə mövcud deyil" cümləsi belə başa düşülməlidir; Bu varlıq və ya nəsnə burda yoxdur, lakin burada yoxdur deyə başqa yerdə mövcudluğu inkar

edilə bilməz. Xülasə, "peyğəmbəri görməmişəm ki, inanım", "mələyi görməmişəm ki, onun varlığına inanım" demək də doğru deyil. Çünki, sənin hal-hazırda görüb görməməyin həqiqət meyarı deyil. Sən bundan öncə də tarixdə baş vermiş minlərlə hadisələri görməmisən. Məsələn; bir ateist tarix fənnini oxuyur və bir çox tarixi məlumatları gerçəklik hesab edib əzbərləyir, yazılan tarixin düz və ya səhv olmasını bilmədən buna inanır. Hətta ateistlərin kitablarında "bir neçə milyon il əvvəl kainatda vəziyyət belə idi" deyə yazıları elmi həqiqət kimi qəbul edib sorğulamadığı halda, 14 əsr öncə, yaxud bir neçə min il əvvəl həmin tarixdən daha az müddətləri sorğulayır. Haqqında heç bir yazı olmayan məlumatları, zənn və təxmin üzərində qurulmuş bilgiləri "elmi həqiqət" hesab edir, halbuki bir neçə milyon il əvvəl nələrin baş verməsi haqda danışmaq nağıl danışmaqla daha çox müqayisə edilməyə layiqlidir. İslam isə yazının yayıldığı bir vaxtda öz məlumatlarını Quran və sünnə kimi yazılı mənbələri ilə təsdiqləyir və bu mənbələr qorunur. Xülasə bir neçə milyon il əvvəlki məlumatları qəbul edən ateistlər, min dörd yüz və ya iki min, üç min il əvvəl baş vermiş hadisələri qəbul etmirlər. Əgər 1400 il əvvəlki hadisələrə xurafat gözüylə baxılacaqsa, onda bir neçə milyon il əvvəl baş vermiş hadisələr ən böyük xurafat olmalı idi. Nədənsə ateistlər öz nağıllarını isbat etmək üçün milyonlarla illər öncəyə gedir və bu məlumatları təsdiqləyirlər. Bu məlumatlar onlar üçün qeyb olsa da, üstəlik onlar bir çox hallarda ateist olmayan dünyəvi alimlərin "300 min il əvvəl belə olub, iki milyon il əvvəl belə olub" kimi sözlərini rahatlıqla qəbul edir, bilmirlər ki, bəzən iki milyon il əvvəl dedikləri 200 min il əvvəl də baş verə bilər, yaxud 8000 il əvvəl də baş verə bilər. Bu illərə inanmaq ən böyük yalan əfsanələrə inanmaq kimi bir şeydir.

Elm adından deyilən fərziyələrə mütləq elmi həqiqət kimi inanan, hətta bu bilgiləri əzbərləyən ateistlər nədənsə kainatın yaranması, insanın dünyaya nə üçün gəlməsi və haraya gedəcəyi haqda, ölümdən sonrakı həyat haqda ən qaneedici cavabları verən İslam dini haqqında rahatlıqla "əfsanə" axtarışına çıxır. Dini daxildən öyrənmədən, xaricdən müdaxilə edir. Bu problem bir çox ateistlərin problemidir.

"Qeyb" sözünün mənasını yuxarıda izah etdik. Bəs görəsən "möcüzə" nə deməkdir? Möcüzə ərəb dilində أعجزَ felindən törəyən sözdür və istilahi mənası: "Allahın peyğəmbər seçdiyi şəxsin əliylə həyata keçirdiyi qeyri-adi bir hadisədir ki, Allah bunu o şəxsin peyğəmbərliyinin doğru-düzgün olmasına bir dəlil edir"[146].

Əslində ateistlərin bu mövzudakı ən böyük problemi imanın ilkin mərhələsində yaşadıqları problemdir. O da Uca Allaha inanmamaq, iman gətirməmək problemidir. Bəli, problem burdan başlayır. Ona inanmadıqları üçün ona nisbət edilən hər şeyi, möcüzələri, peyğəmbərləri, qeyb aləmini və s. inkar etməyə başlayırlar. Bu inkar təkcə bununla kifayətlənmir. Eyni zamanda kainatın qanunları, təbiətdəki nizam-intizam ki, ilahi bir qüdrət olmadan bu möhtəşəm kainat ərsəyə gələ bilməzdi...

İlk öncə deyirik ki, ateistlər kainatın yaranması möcüzəsini təbiət hadisəsi kimi qələmə verməklə kifayətləndilər. Bu yaradılışla Onun yaradan arasındakı əlaqəni inkar etdilər .

---

[146] Əqidə, dinlər, firqələr və müasir məzhəblər ensiklopediyası. Ərəbcə. 5-ci cild. səh. 2741.

Əslində ateistlərin möcüzələri inkar etmələrini əqli və elmi cəhətdən cavablandırmaq kifayət edir; hətta onların möcüzələri varlıq tarixində baş vermiş adi bir hadisə kimi vəsf etmələri xətasını bəyan edək .

Kainatda müşahidə etdiyimiz bütün hadisə və prosseslərə dəqiqliklə baxsaq və onlardan təkrar baxış pərdəsini qaldırsaq, bu, ağıllı insanların anlayışına görə möcüzələrdən və əcaibliklərdən hesab edilərdi. Lakin, bizim bu mövcudatı təkrar-təkrar görməyimiz bunu bizim üçün adi bir hala çevirmişdir ki, bu da bizim anlayışımızda təbiət qanunları və qəribə görünməyən nizamlar olaraq özünə yer etmişdir. Bu ona görədir ki, təbiət hadisələrinin və vaqeələrinin əksəriyyətinin səbəbləri və qanunları arasında əqli rabitələr yoxdur. Biz bu hadisələri yalnız reallıq baxımından öyrənirik, ağılda da bu rabitələrin ola bilməsini gərəkli edən səbəbi tapa bilmirik, halbuki, varlığın qanunu bu üslubda hərəkət etmişdir. Əqli cəhətdən mümkündür ki, mövcudatın qanunları sonsuz ehtimallar pilləkəni daxilində başqa üslubda hərəkət etsin. Kainatın üzərində olduğu qanunun yalnız bir cür olduğunu deyib xüsusiləşdirmək və başqa cür ola bilməyəcəyini demək ağılın gərəkdirdiyi bir məsələ deyil .

Əgər dünyadakı təbiət qanununda qayalar müəyyən aylarda və müəyyən yollarla təkrar şəkildə adətən formalaşdıqdan qayaların növündən asılı olaraq dəvələrə, inəklərə, zürafələrə və qoyunlara çevrilsəydi, bu hadisə bizim nəzərimizdə sabit bir qayda olardı. Bunun əksinin baş verməsi isə möcüzə olardı .

Əgər dünyadakı qanunda davamlı adət şəklidə su öz-özünə vadinin altından axıb - toxunduğu bir cığırın divarları olmadan və

yaxud onu yüksəyə qaldıran bir səbəb olmadan - dağın üstünə (yuxarıya) doğru hərəkət etsəydi, bu, bizim nəzərimizdə sabit su qanunu olardı. Bu hadisənin əksi isə şəkk edilən və dəlillə isbat olunmasına ehtiyac duyulan bir möcüzə hesab olunardı[147].

Bu təsəvvürün mümkünlüyü bizə göstərir ki, hazırda dünyada olan təbiət qanunları əqli təsəvvürün gərəkdirdiyi bir qanunlar və fikri bağlantılar deyil. Lakin, bunu seçilmiş iradəyə malik olan güclər ortaya çıxarmışdır. Məsələ nə yerdə olursa olsun, əqli mümkünlük dünyada başqa qanunun olmasının münkünlüyündə bir maneə görmür, baxmayaraq ki, o qanun təbiətdə hakim olan bir qanun da ola bilər. Bunun özü də kifayət edən bir dəlildir ki, təbiət qanunları və aşkar olan vaqeələri arasında bir-birini lazımlı edən əqli rabitələr yoxdur, o rabitələr ki, bir-birinə müxalif olmağa icazə vermir. Elə isə dəyişiklik ehtimalını  qəbul etməyi yalnız özündə dəyişiklik baş verən hadisənin (dəyişmədən) sabit qalması ilə dayandırmaq olar. Əks təqdirdə isə bu, heç bir əqli dayağa söykənmədən əqli mümkünlüyü inkar etmək sayılar.

Əgər dəniz canlılarının məntiqini götürsək, bizim bu həyatımıza nisbətdəki sistemlərdən tam fərqli sistem olduğu üçün bu sistem möcüzələrdən bir möcüzə sayılardı. Əgər yerdəki öyrəşilmiş həyat sistemini götürsək, bu həyatın bilinən qida sistemindən başqa bir qida sistemi ilə qida təminatının ödənilməsi məsələsi möcüzə hesab olunardı. Baxmayaraq ki, bunlardan heç birinin əqlə yönəlmiş əqli bir əlaqəsi yoxdur. Lakin bu, dünyanın üzərində hərəkət etdiyi bir sistemdir. Əgər dünyanın üslubu bundan başqa bir sistem üzərində

[147] O baxımdan ki, möcüzə sabit qanunların əksi olduğu üçün qeyri-adi hadisələr hesab edilir.

hərəkət etsəydi, ağıl buna bir maneə olacaq məsələ tapmazdı. O vaxt ki, bunun istənilən elmi, məntiqi, riyazi əsasa zidd gəldiyi aşkarlandı, bu dəlil bizə göstərdi ki, möcüzələrin təbiət qanunlarının və təbiət vaqeələrinin reallığına əsaslanaraq inkar edilməsi elmi və əqli cəhətdən fasid bir inkarçılıqdır, bunun söykənəcəyi dayağı yoxdur .

Bir məsələ qalır; o da möcüzələrin elmi və əqli cəhətdən mümkünlük ehtimalının əqli mümkünlüyüdür. Lakin bu, yalnız elmin və ağlın qəbul etdiyi dəlillərlə əlaqələndirildiyi zaman real olaraq qəbul edilə bilər.

Bu mövzudakı isbat kimi qəbul edilən dəlillər isə hissi və xəbəri dəlilləri ehtiva edir.

Hissi dəlillərə gəldikdə, peyğəmbərlərin dövründə yaşayanların peyğəmbərlərin möcüzələrini hissi müşahidə etmələri haqda çoxsaylı dəlillər var. Bu, onlara nisbətdə hissi dəlillər idi. Başqalarına nisbətdə isə bütün səmavi dinlərin millətləri üçün möcüzələri təsdiqləməkdə əsas dönüş yeri mütəvatir (çoxsaylı insanlar tərəfindən nəql edilmiş) insanlar tərəfindən xəbər verilmiş dəlil hesab olunurdu. Bu xəbərlər mütləq şəkildə Allahın öz elçilərinin əliylə həyata keçirdiyi möcüzə və ya nişanələr (ayətlər) kimi qeyri-adi hadisələrin baş verdiyini xəbər verir; bunlardan İbrahimin, Musanın, İsanın, Muhəmmədin və başqa peyğəmbərlərin (Allahın onlara salavatı və salamı olsun) etdikləri möcüzələri misal çəkmək olar. Əqli cəhətdən mümkün olduğu və haqlı əqli səbəbi olduğu halda, doğru, mütəvatir (bir çox yollarla nəql edilmiş) xəbərləri inkar etmək elə bir inadkarlıq misalıdır ki, onu hadisələri

öyrənib izah etməyə çalışan araşdırmaçı alim olan bir kimsə edə bilməz .

Rəbbani möcüzələrin elmi izahı dinin izah etdiyinə görə aşkardır, o baxımdan ki, bu möcüzələr vasitəsilə Allah elçilərinin özü haqda təbliğ etdikləri xəbərləri təsdiq edir .

Qəribə olanı budur ki, maddəçi ateistlər Darvin tərfindən irəli sürülən tafira möcüzəsini qəbul edirlər. Halbuki, bunun xəyal və fərziyədən başqa söykənəcəyi yeri yoxdur. Beləcə elçilərin əliylə həyata keçirilmiş rəbbani möcüzələri inkar edirlər. Bu möcüzələr tarixi cəhətdən sabit olan, qəti şəkildə bilinən mütəvatir (çoxsaylı yollarla nəql edilmiş) xəbərlərdir. Əlavə olaraq bunu dəstəkləyən əqli və əsəri (rəvayətlə yoluyla olan) nümunələr də mövcuddur .

## Qurban bayramı haqda ateistlərin bir şübhəsinə cavab.

*Qurban bayramı heyvan qətliamı imiş" ateist üçün !*

**Şübhə:** *"Ateistlər Qurban bayramının heyvan qətliamı olduğunu" deyirlər. Buna necə cavab verə bilərsiniz?"*

**Cavab :** Bu şübhəyə cavab bir neçə aspektdən veriləcəkdir:

**Birincisi:** Ateist ən birinci nəyə əsasən özü ət yediyi halda qoyun, inək kəsiminə qarşı çıxa bilir, o maraqlıdır! Çünki, ateist heyvanın kəsilməsinə qarşıdırsa, onda ət də yeməli deyil. Çünki, onun üçün gündəlik insanların tələbatı olan qədər heyvan kəsildi,

yaxud ikiqat çox heyvan kəsildi, bunun bir fərqi olmayacaq. Əgər desə ki, mən ət yeyirəm, lakin gündəlik insanların ehtiyacı miqdarında qoyun kəsilməsinə razıyam, ikiqat sayda qoyun kəsilməsi isə "qətliam" sayılır, onda onun ziddiyətini hər kəs görəcək. Yox əgər desə ki, mən ümumiyyətlə heyvan əti yemirəm və heyvan kəsməyi "qətliam" hesab edirəm, artıq mövzumuz ateizm deyil, vegeterianlıq olacaqdır. Çünki, ateistlərin özləri dünyadan maksimum ləzzət almağa çalışan insanlardır, ət yeməyi tərk etməyin nə olduğunu onlar yaxşı bilirlər. Necə ki, ölkəmizdə və dünyadakı ateistlərin ət yeməyə qarşı olmadıqlarını görürük. Vegeterianlar isə tamam başqa səbıblərdən ət yeməyə qarşı çıxırlar. Xülasə, Qurban kəsilməsindən olan əsas məqsəd, bu ətlərin kasıblara paylanması, insanlara yardım edilməsi kimi xeyirli məqsədilər arxa plana keçirilir, nəticədə müsəlmanlar kimi insanlara əl tutmaqdan məhrum olurlar, onlara qalan isə qərəzli, məkrli tənqidləri olur .

**İkincisi:** Həmçinin, ateistlər hər il Avropada öldürülən yüzlərlə göy balinalardan, İspaniyada hər il festivalda öldürülüən 300.000 öküzdən danışmırlar. Yaxud da Nepaldakı hinduslarının beş ildən bir təşkil etdikləri "Qadmihay" festivalında dünyada rekord sayda heyvan kəsilməsindən danışmırlar. Bu festivalda *"Gadmihai"* adlı büt uğrunda, bu "bütü" razı salmaq üçün yüz minlərlə su camışı, donuz, keçi, toyuq, siçan və göyərçinlər qurban edilir. Müsəlmanlara gəldikdə isə onlara görə danışmaq olar nədənsə. Dünyada kəsilən milyonlarla toyuqlardan isə danışmadan ateistlər özləri ən birinci bu ətləri yeyənlərdir. Dünyada əti yeyilən, hər il müxtəlif festivallarda israf olunan heyvan və bitkilər haqda ayrıca bir məqalə yazmaq olar. Ateistlər öz ateist qardaşları olan Çinin

*"Yulin"* vilayətində hər ilin yaz aylarında öldürülən it və pişiklərin taleyi barədə də bir az narahat olmalıdırlar. Nədənsə ateistlər Qurban bayramında axıdılan qan barədə düşünürlər, lakin, nədənsə evdə yedikləri ətlərin hardan gəldiyi, geyindikləri dəri geyimləri hansı heyvanlardan hazırlandığı haqda düşünmürlər !

**Üçüncüsü:** Allah insanı dünyada ağıl ilə üstün etmiş və dünya nemətlərini insana ram etmişdir. Kəsilən və əti yeyilən heyvanlar da Allahın insanlara əta etdiyi, insanlara ram edilmiş, insanların istifadəsinə verilmiş nemətlərdəndir. Uca Allah buyurmuşdur: "Göylərdə və yerdə olanların hamısını O, sizin xidmətinizə vermişdir. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır". (Casiyə. 13). İbn Cərir ət-Təbəri bu ayənin təfsirində deyir: " "Göylərdə olanlar" günəş, ay və ulduzlardır. "yerdə olanlar" isə dördayaqlı heyvanlar, ağaclar, dağlar, ruhsuz əşyalar, gəmilər və s. sizin mənfəətiniz və xeyriniz üçündür. Bu qeyd olunanların hamısı Allahın sizə olan nemətidir. Bu Allahın bir fəzilətidir ki, onu sənə nəsib etmişdir. Elə isə başqasına deyil, ona şükür et"[148].

**Dördüncüsü:** İslamda Qurbanın kəsilməsi metoduna, heyvanı incitmədən, hətta qorxutmadan tez müddətdə kəsilməsi metoduna baxdıqda, qərblilərin isə heyvanları incidərək, qorxudaraq öldürmələri, silahla vurmaları, bəzilərinin sərt alətlərlə heyvanı vuraraq, incidərək öldürmələri, hətta toka verərək qanı bədənində donmuş, ətinin rəngi göyərmiş, qanı tam axmamış şəkildə öldürmələrini və s. müqayisə etsək, İslamın bu mövzuda da üstünlüyü, heyvanlara daha rəhimli olması ortaya çıxar. İslam Peyğəmbəri hədisi-şərifində buyurmuşdur: *"Öldürdüyünüz zaman*

---

[148] Bax: İbn Cərir ət-Təbərinin təfsiri. Casiyə 13-cü ayə.

*gözəl şəkildə öldürün, kəsdiyiniz zaman gözəl şəkildə kəsin. Sizdən biri öz bıçağını itiləsin, qurbanını rahat (əzab vermədən tez) kəssin*"[149].

İslam dini qurbanlıq heyvana əziyyət verməyi, heyvanı qulağından tutub sürüməyi, heyvanı qorxutmağı, bir heyvanı digərinin qarşısında kəsməməyi, heyvanı kəsərkən bıçağı ona göstərməməyi, küt bıçaqdan istifadə etməməyi, heyvanın canı çıxmadan onu hissələrə ayırmamağı qadağan edir. Lakin, başqa dinlərdə və dinsizlərdə bu məsələlərin elə də əhəmiyyəti yoxdur. Əksinə, biz xristian və dinsizlərin qərb dünyasında heyvan kəsmə mərkəzlərində heyvanları diri-diri, canı çıxmamış, yüksək texnologiyalı mişarla hissələrə ayırdıqlarını görürük. Bundan danışan isə yoxdur. Bu videolar heç paylaşılmır da...Nədənsə qəsdli şəkildə müsəlmanlar hədəfə alınmaqdadır!

## İslam dini ərəblərin folklorunu, adət-ənənəsini və məişətini əks etdirir?

***İddia:*** *"Ateistlərin, dinsizlərin məşhur şübhələrindən biri də budur ki, guya "İslam dini ərəblərin tarixini, ərəb folklorunu, məişətini, adət-ənənəsini və mədəniyyətini əks etdirir".*

*Bu iddiaya cavab bir neçə aspektdən veriləcəkdir:*

149 Səhih ibn Macəh. 3170.

**Birincisi:** İlk öncə İslam dini yalnız ərəblərin dini olsaydı, qız uşağını diri-diri basdıran ərəblərə, qadına mirasdan pay düşməyən ərəblərə, cəhalətin, zillətin ən dərin uçurumlarına yuvarlanan, atalarının dini bütpərəstlik olan ərəbləri islah edən din gəldikdə onlar buna qarşı çıxmazdılar. Bu dinin peyğəmbəri ilə vuruşmazdılar. Atalarının dini İslam olsaydı, onu dərhal qəbul edər, özlərindən bir ərəb olan bu peyğəmbəri təhqir etməz, onunla istehza etməz, üstəlik də ona qarşı sui-qəsdə cəhd etməz, atalarının dini bütpərəstliyi müdafiə etməzdilər. İslam dini ərəblərin azğınlıq içində davam edən həyatına yeni həyat gətirdi, onların həyatındakı haramları aradan qaldırdı və onları əvvəllər heç olmadıqları yeni həyat tərzinə və yeni məişət üslubuna keçirdi. Onlara faizi, sələmçiliyi, içkini, qumarı, əxlaqsızlığı, ziharı[150] və bir çox fahiş işləri qadağan etdi .

**İkincisi:** Ərəblərin məişətini, yaşantısını, adət-ənənəsini, İslamdan əvvəlki durumunu və sonrakı əsrlərdəki və bu günkü durumunu bilməyənlər yalnız belə bir iddiaya inana bilərlər; ərəblər ata-babalarının yolunu getmək üçün Muhəmməd peyğəmbərə qarşı vuruşdular, onu inkar etdilər. Qurani-Kərim bu həqiqəti belə izah edir: *"Onlara: “Allahın nazil etdiyinə tabe olun!”– deyildikdə, onlar: “Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!”– deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə?"*

[150] **Zihar:** kiminsə öz həyat yoldaşına "artıq sən mənə haramsan" deyib onu öz evlənməsi əbədi olaraq qadağan olan yaxın qadın qohumlarından biri kimi hesab etməsi, öz həyat yoldaşına "sən artıq mənə anam, bacım və ya qızım kimi haramsan və s" deməsidir. Bu çirkin bir yalandır. (mənbə: 500 جواب في أحكام المرأة لجمع من العلماء - الإعداد: أحمد بن عبد الله الشافعي)

(əl-Bəqərə. 170). Digər ayədə belə deyilir: *"Onlar dedilər: “Yanımıza gəlmisən ki, atalarımızın ibadət etdiklərini buraxıb tək Allaha ibadət edək? Əgər doğru danışanlardansansa, bizə vəd etdiyin əzabı gətir"*. (əl-Əraf. 70).

**a)** Əgər bu iddianı edənlər "İslam Ərəbin məişətini, yaşayış tərzini əks etdirir, ona görə də bu ərəbin dinidir" deyirlərsə, deməli, onlar ərəblərin İslamdan əvvəlki dinlərini və batil adətlərini bilmirlər. Artıq bu haqda qısa danışdıq. Bəzi qeydlər də edək. Məsələn; Batil evlilik növlərini İslam qadağan etmişdi. *Bu növlərdən نكاح الشغار şiğar evliliyi (1) نكاح الاستبضاع istibda evliliyi (2) البغاء qeyri-rəsmi evlilik (3) və s .*

*İslam dini ərəblərin batil ticarət növlərini də qadağan etmişdi بيع الجهول Məchul ticarət (4) البيع ما لا يملكه الإنسان əldə olmayan malı satmaq (5) بيع المحرمات بعينه özü haram olan şeylərin satışı (6) بيع العينةaynə ticarəti (7) بيع النجش nəcş ticarəti (8) بيع المصرَّاة əl-musarrat ticarəti (9) və s .*

İslam dini hətta ərəblərin qeyd etdiyi iki bayramı da iki İslami bayramla dəyişdirir. O vaxt ki, Muhəmməd peyğəmbər Mədinəyə gəlir. Hədis belədir: *"Ənəs (Allah ondan razı olsun) dedi: Allah Elçisi (Allahın Ona salavatı və salamı olsun) Mədinəyə gəldikdə onların şənləndikləri iki gün var idi. O dedi: "Bu iki gün nədir belə?" Dedilər: "Cahiliyyə dövründə bu iki gündə şənlənirdik". Allah Elçisi buyurdu: "Həqiqətən də Allah sizin üçün bu iki günü daha xeyirli iki gün olan Qurban və Ramazan bayramı ilə əvəz etmişdir"*[151]. Hədis şərhçiləri həmin Ramazan və Qurban bayramı

[151] Əbu Davud, 1134; Əhməd, 3/103.

ilə əvəz edilən iki günün  Novruz və Mehrican günləri olduğunu qeyd etmişlər. Bu iki İslami bayramı ərəblər heç vaxt qeyd etməmişdilər .

**b)** Yox əgər bu iddianı edənlər ərəblərin sonrakı əsrlərdəki, yaxud da orta əsrlərdəki folklorunu, məişətini, adət-ənənəsini və yaxud yaşayış tərzini qəsd edirlərsə, o zaman deyirik ki, bunu deyənlərin İslamdan xəbərləri yoxdur. Çünki, ərəblərin kökü tarix boyu bir olsa da, bilinməlidir ki, ərəblər müxtəlif tayfa və qəbilələrə bölünmüş, həm də onların dinlə əlaqəsi olmayan məşiət və adət-ənənələri daim olmuşdur. Onların dini və dünyəvi məişəti daim fərqli olmuşdur. Hər tayfa və qəbilənin İslamla əlaqəsi olmayan xeyli adət-ənənələri, məşiət göstəriciləri və tam fərqli yaşamları olmuşdur. Orta əsr ərəb folkloruna gəldikdə isə bu sahədə İslama zidd elementlərdən cildlərlə kitablar yazıla bilər.

İslam 14 əsrdir ki, ərəblərin hələ də qalan, mövcud olan batil inanclarına, adət-ənənələrinə qarşı mübarizə aparır. Bəli, yanılmadınız. İslam dini adət və ənənələrə qarşı mövqedə İslama zidd olmayanları deyil, İslama zidd olanları qadağan edir. Ərəblərin də İslama zidd olan dini və qeyri-dini adətləri bu qadağadan yan keçməmişdi .

İslam dini ərəblərin atalar sözlərində, şeirlərində belə etiqada zidd olan küfr, şirk sözləri bəyan etmiş və qəbul etməmişdir. Hətta onların oyunlarında belə İslama zidd olanları qadağan etmişdir. Bu qadağalar isə təkcə ərəblərə deyil, bütün bəşər övladına şamil edilirdi. Çünki, İslam ərəbin deyil, bütün bəşərin necə yaşamasını təyin edən, həyat tərzi olan bir dindir .

• **Ərəb geyimi, uzun paltar:** Orta əsr bədəvi ərəbinin yaxud şəhər ərəbinin yaşayış tərzinə baxdıqda İslam dininin bizi nə onların zahiri geyimi ilə geyinməyə məcbur etmədiyini, nə də onların mədəni həyatına çağırış etdiyini görmürük. Görünən yalnız xalis dini rituallar, dini əməllərdir ki, bunları səmavi dinlərdə də görmək mümkündür. Ərəblər kişilərin  geyimi olan cələbiyyə (uzun, bütöv paltar) əcəmilərə vacib edilmir .

• **Sarıq, əmmamə:** Yaxud da Peyğəmbərin cəmiyyətində başına bağlanan sarıq, əmmamə digər dindarlara sünnət olaraq vacib edilmir. Çünki, İslam alimləri bunu peyğəmbərin öz qəbiləsinin etdiyi üçün onlardan fərqlənməmək üçün etdiyini deyirlər. Bu gün bəzi insanlar başa sarıq bağlamağın sünnət olduğunu iddia edə bilərlər. Lakin, heç bir hədisdə buna təşviq edən bir əmr və ya rəğbətləndirmə tapa bilməzsiniz. Bəzi təriqətlər bunu peyğəmbərə sevgidən edirlər. Lakin, bunun (başa sarıq, əmmamə bağlamağın) sünnət olduğunu Quran və hədislərdən isbat edə bilmir, buna çağıran bircə əmr tapa bilmirlər. Peyğəmbər bu baş geyimini yalnız öz qövmündən fərqlənməmək üçün geyinmişdir. Yəni, bu ərəblərin öz adətləri olmuşdur deyə peyğəmbər bu baş geyimini başqa dindarlara əmr etməmişdir. Ona görə də "ərəbin dini" iddiası təməlindən yanlışdır .

• **Əllə yemək:** İstər orta əsrlərdə olsun, istər də bu günümüzdə olsun, ərəblərdə əlin beş barmağı ilə yemək yemək adəti var. Peyğəmbərin sünnəti isə üç barmaqla yeməkdir. İslamda beş barmaq, ovuc qarışıq yemək bir çox alimlər tərəfindən tənqid olunmuşdur. Qaşıqla yemək də problem deyil. Bir çox bu cür məsələlər insanların rahatlığına qayıdır .

• **Ərəb musiqisi və rəqsləri:** Bu gün ərəblərin özünəməxsus musiqisi olsa da, İslam dininin musiqiyə münasibəti hər kəsə məlumdur. Rəqslər də həmçinin qadınlar arasında məhdud rəqslər açıq-saçıqlığa yol vermədən müəyyən şərtlərlə icazəli olduğu halda kişilərin rəqs etməsi İslamda icazəli deyil. Ərəblər isə bir çox hallarda bu İslami qaydalara riayət etmirlər. Hansı İslam və hansı ərəb məişəti eyniliyindən söhbət gedə bilər?

• **İdman növləri:** İslamda bəyənilən idman növlərindən atıcılıq, üzgüçülük, qaçış və güləş növləri olsa da, ərəblərin bu sahələrdə inkişaf etmədiyini görürük. Əgər Peyğəmbərin sevdiyi və təşviq etdiyi bu idman növləri ərəb məişətində özünə yer tapsaydı, bu gün onlar bu sahələrdə öncüllərdən olardılar. Bir çox məşiət sahələrində biz İslamı bir vadidə, ərəbləri başqa vadidə görürük və ateistlərin iddiası doğrulanmır .

Biz bu qeydlərdən sonra görürük ki, İslam dini bütünlüklə ərəblərin adət-ənənələrindən bir çox batilləri dəyişdirir, onları yeni İslami adətlər və ayinlərlə əvəz edirdi. Hətta, buna görə bu gün qatı ərəb millətçilərindən İslamı ərəbin düşməni hesab edənlər az deyil. Çünki, reallıqda da İslam heç də ərəblərin batil adət-ənənələrinə səssiz qalmamışdır .

**c)** Yox əgər onlar bu iddia ilə müasir ərəbləri qəsd edirlərsə, artıq müasir ərəblərin əksəriyyəti heç də dinə ciddi əməl etmirlər, hətta milyonlarla xristian və başqa dinlərdə olan ərəblərin olduğunu da unutmalı deyilik. Məsələn; Misirdəki o qədim ərəb

xristianlarını[152] ki, sayları 17 milyondan çoxdur. Həmin ərəblər isə xristianlığı ərəblərin əsil qədim dinləri kimi qəbul edirlər. Onu da qeyd edim ki, bu gün bütün ərəblərin gündəlik həyat tərzində İslam dini elə də təsirli görünmür. Hələ ərəb dinsizləri, ateist, deist və aqnostiklərindən danışmıram.

Maraqlısı budur ki, bu gün ərəb dinsizləri ərəbin əsil dininin İslamdan qabaqkı bütpərəstlik olduğunu etiraf etsələr də, nədənsə bizim dinsizlərə bu həqiqəti başa salmaq olmur. Ən azından ərəb dinsizləri ərəbləri bizim dinsizlərdən daha yaxşı tanıyırlar. Həyatda ən çətin müzakirə də məhz cahil olsa da özünü "bilən" göstərən insanlarla edilən müzakirədir .

Bu məsələyə aid olan, ərəblər arasında İslama qarşı olan ən məşhur mövzulardan biri də bir çox haramları özündə ehtiva edən qərbdən təsirlənmiş "yeni ərəb mədəniyyətidir". Ərəblərdən az sayda olmayan bir toplum "bu mədəniyyət" daxilindəki İslama zidd məsələlərə fikir vermirlər. Onlar "Ərəbin dini" iddiasını edənlərin bu iddiasından xəbərsiz şəkildə İslamı öz dinləri və milli qazancları da hesab etmirlər .

**Üçüncüsü:** Bu mövzudan danışan açıq-aydın bir sual qoymalıdır: *"İslam dinində hansı əməllər ərəbin məişətini əks etdirir?"* Əgər bacarırsa, buna dair misallar çəkməlidir. Əgər cürət edib misal çəkərsə, bu misalların əsil-kökünün haradan qaynaqlandığı, xüsusən də dindəki bəzi rituallar, ibadətlər, zahiri görünüş və ya ayinlərdən misallar gətirilərsə, xüsusilə də ateistlərin

---

[152] **Qibti ərəblər:** Misirdə yaşayan xristianlıq dininə mənsub xalq. Onlar Misirin yerli və qədim əhalisi hesab edilirlər.

qafil qaldığı vahid din anlayışı, bütün peyğəmbərlərin müştərək sünnətlərinin olması məsələsi izah edilməlidir. Çünki, bir çox dinsizlər tövhid inancı, bütün peyğəmbərlərin yəhudi, ərəb və digər xalqlardan olmasına baxmayaraq bəzi oxşar, müştərək inancları haqqında bilgiləri yoxdur. Ona görə də dinsizlər istər bu aspekdən olan ümumbəşəri dini ayinləri, istər də İslama məxsus dini ayinləri özləri də bilmədən ərəblərə məxsus şəkildə qələmə verməyə çalışırlar. Bəzən isə bilərəkdən qərəzli mövqe tutub vahid monoteist din məfhumunu, səavi dinlərdəki oxşar zahiri görünüş, oxşar dini ayinlər, oxşar başqa elementləri sadəcə İslamın təqlid etməsi kimi qələmə verirlər ki, bu ateistlərin əleyhinə bir arqumentdir. Yəni, fikir versəniz, ya İslamı *"ərəbin dini"* edirlər, ya da İslamı bütünlüklə köhnə dinlərdən götürülmüş bir din kimi təqdim edirlər. Orta, mötədil bir yol tutduqlarını görməzsən. Orta, mötədil yol isə İslamın vahid din, tövhid (təkAllahlıq) dini olaraq monoteist dinlərdən təhrif olmadan günümüzə gəlib çatmasını etiraf etməkdir. Bu qeyd olunan ayələr bizə bütün səmavi dinlərin bir qaynaqdan gəldiyini, o dinlərdən tək İslamın təhrif olunmadan öz missiyasını yerinə yetirməkdə olduğunu göstərir: *"Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib getmişlər"*. (Ali İmran. 144) Həmçinin: *"Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib getmişlər"*. (Ali İmran. 19). Həmçinin: *"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək"*. (Ənbiya. 25). *Həmçinin: "(Nuh dedi) Mənə müsəlmanlardan olmaq əmr edilmişdir".* (Yunus. 72). Həmçinin: *"Musa dedi: "Ey qövmüm! Əgər Allaha iman gətirmişsinizsə və müsəlman olmuşsunuzsa, Ona təvəkkül edin!"* (Yunus. 84). Həmçinin: *"Bir zaman Mən həvarilərə: "Mənə*

*və elçimə iman gətirin!”– deyə vəhy etmişdim. Onlar da: “İman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq!”– demişdilər"*. (əl-Maidə. 111) .

Həmçinin bu haqda daha mühüm bir ayə belədir :

*"Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi..."*.(Şura.13). Xülasə, bütün peyğəmbərlərin dini təkallahlıq olub, sadəcə onların şəriətləri fərqli olub. Buna dəlil isə Quranın bu ayəsidir: *"Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik"*. (əl-Maidə. 48). Deməli, peyğəmbərlərin şəriətləri müxtəlif, yolları isə Allaha aparan bir yol olmuşdur. Bu qeyd olunan ayələr digər peyğəmbərlərin də İslam üzərində olduğuna dəlildir .

**Dördüncüsü:** Bu məsələ ilə əlaqədar iki şübhəyə cavab vermək istəyirəm. Ərəb məişəti, ərəbin dini mövzusunda ən mühüm şübhələrdən ikisi bunlardır :

*a) "Nə üçün dini ayinlər ərəb dilində deyilməlidir?"*

*b) "Nə üçün Kəbə İslamdan əvvəl də ərəb bütpərəstləri tərəfindən bütxana şəklində ziyarətgah idi?" - şübhələridir.*

- <u>İndi isə bu şübhələrə ətraflı cavab verək:</u>

**a) "Nə üçün dini ayinlər ərəb dilində deyilməlidir?"**

**1 -** Dini ayinlər, xüsusi vaxtlarda deyilən dualar və zikirlər ərəbcə olsa da, insanın bu hallardan kənarda əllərini açıb öz dilində dua etməsi qadağan deyildir. Yəni, Allah insanı Azərbaycan dilində dua etdiyi zaman da eşidir. Həmçinin, məscidlərdə imam və

axundların öz dillərində xütbə və moizə etmələri də dinə zidd deyildir.

**2 -** İbadətlər İslam şəriətinə görə tövqifidir (dəlil olmadıqca dayanmalı, yenilikdən uzaq durulmalıdır). Yəni, ibadətlər dəlillərə əsasən, peyğəmbərin etdiyi kimi edilir. O baxımdan ki, insan özündən ibadət kəşf edə bilməz, dinin müəllimi nə cür edibsə, ibadət o cür də edilir. Çünki, bu haqda Peyğəmbər əmr edərək demişdir: "Məni necə namaz qılan görürsünüzsə, o cür də siz qılın"[153].

**3 -** Dinin müəyyən bir hissəsinə aid mövzular ərəb diliylə yerinə yetirilir. O da əsasən ibadətlərlə bağlıdır. Lakin, dinin insanın öz dilində tədris etməsi problem deyil. İbadətlərin Muhəmməd (sallallahu aleyhi və səlləm) peyğəmbərin etdiyi kimi ərəbcə etmək dinin və dini mənbələrin daha yaxşı öyrənilməsi və qorunması baxımından böyük əhəmiyyət kəsb edir. Çünki, hər kəs ibadətləri öz dilində edərsə, o zaman ərəb dilindəki orjinal mənbələrə bir o qədər də diqqət yetirilməyə bilər və ərəbcə mənbələr öz əhəmiyyətini itirər.

**4 -** Sırf ibadət və zikirlərin ərəb dilində olması, heç də o dinin ərəbin dini olması anlamına gəlmir. Çünki, Allah bütün bəşəriyyət üçün vahid danışıq dili etməmiş, insanları xalqlara və qəbilələrə bölmüşdür: *"Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq".* (Hucurat. 13). Deməli, vahid bir dil yoxdur deyə mütləq olaraq ilahi risalət (mesaj) yer üzündəki dillərdən birində gəlməli idi və bunda qəribə bir şey yoxdur.

[153] Səhih əl-Buxari. 631.

**5 -** Dua, zikir və ibadətlərin ərəbcədən kənar dildə edilməsi bir çox dindarların etirafı ilə dindarlara eyni ruhaniyəti, eyni hisləri yaşatmır. Şəkk yoxdur ki, orjinal mətnlər insana daha cazibədar və təsirli gəlir. Artıq qeyd eydik ki, yalnız ibadətlə bağlı zikir və dualar ərəbcə yerinə yetirilir.

**b) Digər şübhə belədir: "Kəbə İslamdan əvvəl də ərəb bütpərəstləri tərəfindən bütxana şəklində ziyarətgah olmuşdur".**

**Cavab:** Bunda heç bir ziddiyyət yoxdur. Yəni, dindən anlayışı olmayan ateist elə bilir ki, iki dini inancın (monoteizm və politeizm) tarixən bir mərkəzdə cəmləşə bilməz. Dərhal düşünür ki, bu onların ata-babalarının eyni ziyarətgahı olub, deməli iki dinin - tam fərqli və bir-birinə düşmən olsa da - hər ikisi bir məbədi uca tutublar, deməli, bu mümkün deyil. Lakin, onlar Kəbənin tarixini, orada ən birinci təkallahlıq inancının olması, sonradan orada tövhid (təkAllahlıq) inancının yox olub politeizm (çoxtanrılıq və ya bütpərəstliyin) meydana çıxdığını bilmirlər. Kəbəni ilk bina edən şəxsin kimliyi haqda bəzi İslam alimləri onun Adəm peyğəmbər olduğunu demişlər. Qurani-Kərimdə İbrahim peyğəmbərin Kəbəni oğlu İsmayıl ilə birgə inşa etməsinin hekayəsi qeyd olunmuşdur: *"O zaman İbrahim və İsmail evin (Kəbənin) bünövrəsini qaldırarkən belə dua etdilər: “Ey Rəbbimiz! Bunu bizdən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən!"* (əl-Bəqərə. 127). İbrahimin dini bir müddətdən sonra unudulmağa başladı və insanlar elə onun dövründə olan bütpərəstliyə döndülər. Məkkədə tövhid (təkAllahlıq) evi olaraq bir peyğəmbər tərəfindən inşa edilən Kəbə yenə bütpərəstlərin əlinə keçir. Ona görə də Kəbədə ilk öncə

bütpərəstlik dini deyil, təkAllahlıq dini olmuşdur. Bütpərəstlər sonradan Kəbəyə öz bütlərini daxil etmişdilər. Sonra 7-ci əsrdə Allahın müvəffəqiyyəti ilə Kəbə sonuncu peyğəmbər Muhəmməd (salləllahu aleyhi va səlləm) tərəfindən bütlərdən təmizlənir. Kəbə yenidən əvvəlki halına qayıdaraq İbrahimin (əleyhissalam) zamanındakı kimi tövhid (monoteizm) mərkəzi olur. Əbəs yerə deyildi ki, Qurani-Kərim insanlara Kəbənin özünə deyil, Kəbənin Rəbbinə ibadət etməyi öyrətmiş, hər vəchlə müsəlmanları bütpərəstlik şüurundan uzaqlaşdırmışdır. Həmin ayə belədir: *"Qoy onlar bu Evin Rəbbinə ibadət etsinlər"*. (Qureyş. 3).

**Mövzuda keçən bəzi termin və sözlərin izahları:**

**(1) Şiğar nigahı:** *Bir kişinin öz yaxın qız qohumunu digər kişinin yaxın qız qohumu ilə evlənmək şərtilə edilən nigaha deyilir. Bu nigahı İslam dini haram etmişdir. Məsələn, cahiliyyə dönəmində bir kişi başqa bir kişinin qızı ilə evlənmək üçün öz bacısını və ya qızını o kişi ilə evləndirəcəyini şərt qoyub evlənirdi. İbn Ömərdən rəvayət olunan hədisdə gəlib ki: Peyğəmbər şiğar nigahını qadağan etdi. Mənbə: www.al-eman.com . ومن صور الزواج المقترن بشرط غير صحيح: زواج الشغار. (ərəbcə).*

**(2) İstibda nigahı : نكاح الاستبضاع** bu da çirkin bir evlilik növüdür. *İzahı belə verilir: kişinin həyat yoldaşı menustrasiyadan təmizləndikdən sonra əri öz arvadına: "filankəsdən hamilə qal" deyərmiş, o da gedib qövmün yüksək rütbəli zadəganlarından biri ilə yaxınlıq edərmiş, sonra qayıdıb ərinin yanına gələrmiş, o da arvadının hamiləliyi bilinənə kimi arvadına yaxın getməzmiş, onların bu adəti guya uşaqların daha yaxşı, daha gözəl olması üçünmüş. (Mənbə: Durar əs-Səniyyə. www.dorar.net).*

***(3) Qeyri-rəsmi evlilik** : **البغاء** Bu da günümüzdə geniş yayılmış gizli saxlanılan qeyri-rəsmi evliliklər kimidir .*

***(4) Məchul satış البيع المجهول** satılan malın qiymətinin alıcıya məchul olması, bilinməməsi, yaxud yaxud ödəniləcək məbləğ qalıbsa, son ödəniş tarixinin bilinməməsi. Yaxud da, bu qəbildən hansısa aldatmalara yol verilməsi) .mənbə: [www.islamqa.info](www.islamqa.info) لا يصح البيع بثمن مجهول ، ولا إلى أجل مجهول .)*

***(5) Əldə olmayan malı satmaq البيع ما لا يملكه الإنسان** Peyğəmbərin bu haqda xüsusi hədisi var: "Səndə olmayan (malik olmadığın) bir şeyi satma. Buna aid bir misal. Məsələn; Şəhərdə küçənin ortasından asılmış böyük saatı insanlardan birinə göstərib demək ki, bunu sənə satdım. İnsan öz mülkünə aid olmayan bir şeyi sahininin ticari icazəsi olmadan sata bilməz .*

***(6) Özü haram olan şeylərin satışı - بيع المحرمات بعينه** Bu məsələyə İslamda haram olan şeylərin satışı daxildir. Özü haram olan şeylərin satışı da haramdır .*

***(7) Aynə satışı : بيع العينة** Aynə ticarəti sələmdir. Bir malı hansısa insana nisyə qiymətlə (nağd olmadan) satırsan, sonra həmin razılaşdığınız qiymətə olan malı daha ucuz qiymətlə o adamın özündən nağd qiymətə alırsan. Məsələn; Bir adama 60.000-lik maşını kreditə (müqavilə ilə) verirsən, sonra ondan həmin maşını 40.000 qiymətinə nağd pulla alırsan. Bu zaman ortada 20.000 hiylə yolu ilə qazanc əldə edilmiş olur) . mənbə: [binbaz.org.sa](binbaz.org.sa) تعريف بيع العينة وحكمه)*

***(8) Nəcş satışı بيع النجش :** Bu növ o ticarətdir ki, alıcı malı almaq istəmədiyi halda satıcı öz malını vermək, yaymaq, yaxud da malın*

*satış qiymətini artırmaq üçün malını tərifləyir, beləcə ya alıcını, ya da başqa birini o mala sövq edir. mənbə: www.alukah.net* بيع النجش.

***(9) əl-Musarrat satışı :* بيع المصرَّاة** *Bu heyvandarlıqda hiylə və aldatma yolu ilə edilən ticarətdir. Məsələn; satıcı dəvənin və ya qoyunun südünü bir müddət sağmır ki, müştəri heyvanın süd sağılan nahiyəsində çoxlu süd yığıldığını görüb heyvanın çox süd verən olduğunu düşünsün və beləcə heyvanın satış qiyməti artırılsın . mənbə: www.ferkous.com* أحكامٌ منتقاةٌ من حديث النهي عن بيع المصرَّاة

## İldırımın baş verməsinin İslami aspektdən izahı müasir elmə ziddirmi?

**Şübhə:** *Ateistlər və sair din inkarçıları iddia edirlər ki, ildırımın baş verməsi haqqında İslam dininin verdiyi izah elmlə uzlaşmır. Onlar iddia edirlər ki, İslamda ildırımın mələklərin buludları qovması vasitəsilə baş verməsi, ildırım səsinin mələk səsi olması haqda təsəvvür var. Lakin, müasir elm bu prossesin təbiət hadisəsi kimi baş verdiyini, buludların təziqinin, sıxlığın müxtəlif olması nəticəsində havada yaranan partlayışın səsini biz yer üzündə ildırım səsi kimi hiss edirik .*

**Cavab:** Bu etirazın özü də doğru deyil. Çünki, bu etiraz yanlış müqəddimələr üzərində və dəlillər haqqında doğru olmayan təsəvvürlər üzərində qurulub. Bunun izahı belədir:

**Birinci məsələ:** Biz Peyğəmbərdən ﷺ ildırımın baş verməsinin həqiqəti haqqında hədislərin olduğunu qəbul edirik. Bunlardan ən məşhuru İbn Abbasın (رضي الله عنهما) hədisidir: *Yəhudilər Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "Ey Qasimin atası, bizə ildırımdan xəbər ver, o nədir elə?) Peyğəmbər (ﷺ dedi: "Buludların öhdəçiliyini üzərinə götürmüş mələklərdən birinin atəşdən bir aləti var, onunla buludları Allahın istədiyi tərəfə itələyər. (Yəhudilər) dedilər: Bizim (ildırım çaxdıqda) eşitdiyimiz səs nədir bəs? Peyğəmbər ﷺ dedi: "(Mələyin) Təyin olunmuş yerə çatana kimi buludları qovmasıdır (yəni, o yerə çatdıqda bu ildırım səsi çıxır". (yəhudilər) dedilər: Doğru dedin"*[154].

Alimlər bu hədisin hökmündə ixtilaf etmişlər. Səhih odur ki, bu hədis (hədis elminə görə) zəifdir, və bu hədisin Allah Elçisinə ﷺ nisbəti sabit deyil. Çünki, bu hədisi yalnız Bukeyr ibn Şihab əl-Kufi (tabeinlərdən olan) Səid ibn Cubeyrdən rəvayət edib, bu şəxs isə dabtda (yəni: rəvayəti həssaslıqla qorumaqda) qüvvətli bir şəxs deyil[155]. Səid ibn Cubeyrin özünün etibarlı (mötəbər) tələbələrinin onun özündən bu rəvayəti etməmələri, yalnız bu şəxsin Səiddən bu rəvayəti etməsi onun rəvayəti qorumadan nəql etməsinə dəlildir. Əbu Nueym bu müşkül məqamı bu hədisə qeyd edərkən işarə

[154] ət-Tirmizi. 3042. Nəsai. 1/378.
[155] Mizzi. Təhzibul-Kəmal. 1/378.

edərək bildirmişdir: "Bu hədisin Səid ibn Cubeyrdən (nəql edilməsi) qəribdir[156]. Bunu yalnız Bukeyr rəvayət etmişdir"[157].

Böyük hədis alimi imam Buxari də işarə etmişdir ki, bu rəvayətçi, bu hədisin peyğəmbərə ﷺ nisbət edilməsində xətaya yol vermişdir, doğru olan isə bu rəvayətin İbn Abbasın öz sözü olmasıdır[158].

**İkinci məsələ:** İslam alimləri ildırımın həqiqətində ixtilaf etmişlər. Əksər alimlər demişlər ki, ildırım çaxması mələklərin buludları qovması nəticəsində baş verir. Bu rəy bir çox səhabələrdən rəvayət edilmişdir: Əli ibn Əbi Talib, Abdullah ibn Amr, Əbu Hureyrə və s. bəzi alimlər isə demişlər ki, ildırım buludlarda boğulan küləkdir (oksigen çatışmazlığından yaranan boğulma) ki, bunun nəticəsində eşitdiyimiz (ildırım, şimşək çaxması) səsi ortaya çıxır[159].

Bu izah ilk dəfə 12 əsr öncə verilmişdir. Bu rəylərin yeni deyil, qədim rəylər olması, hələ o vaxtdan İslam alimlərinin bu haqda görüşlərinin ən qədim və məşhur təfsir kitablarında verilməsi bu məsələnin İslam alimləri arasında mütləq görüş olmamasını,

---

[156] Qeyd: " qərib" (ğarib) غريب sözü Mustalah əl-Hədis elmində xüsusi bir termindir. Mənası: Yalnız bir şəxsin rəvayət etdiyi, xüsusən də mənasının heç bir hədis mətnində və ya isnadında keçmədiyi rəvayətə deyilir. Tək ravilərdən rəvayət olunan bütün rəvayətlər hədis elminə görə ğarib (qərib) hədis hesab olunmur).

[157] Hilyətul-Əuliyə. 4/305.

[158] Tarixul-Kəbir. Buxari. 2/114.

[159] İbn Cərir ət-Təbəri. Cəmiul-Bəyan fi təfsiri Əy əl-Quran. 1/238; Bəğavi. Məalimut-Tənzil. 1/70; Səm'ani. Təfsirul-Quran. 3/83; İbn Atiyyə. əl-Muharrar əl-Vaciz. 1/89.

alimlərin elmi mövzuları necə incələdiklərini, araşdırmaya necə həris olmalarını göstərir .

Biz istər İslam alimlərinin birinci görüşünü deyək, istər də ikinci görüşünü deyək, bu, bəzi İslam alimlərinin zənninə görə olan ictihadlar olacaqdır. Sonra kimsə bunu İslamın mütləq görüşü olaraq qələmə verməsi də doğru sayıla bilməz, nə də bu dəlillərin xətadan xali olduğunu deyə bilməz. Ortada mötəbər bir hədis yoxdursa, bu İslamın görüşü kimi irəli sürülə bilməz.

**Üçüncü məsələ:** Əgər fərz etsək ki, şəri dəlillər  ildırım səsinin buludlarda əmələ gələn mələk səsi olmasına dəlalət edir, bu, buludların bir-birinə toqquşmasına, onlar arasında havanın təziqə düşməsinə ziddiyyət təşkil etmir. Bu ona görədir ki, təbii səbəblə qeybi səbəb arasında ziddiyyət yoxdur. Ola bilsin ki, bir şey üçün bir çox səbəblər olsun, bəzi səbəblər bizə məlum olan təbii səbəblərdən ibarət olsun, bəzisi isə yalnız sadiq xəbər (vəhydən gələn) qeybi səbəblərdən ibarət olsun .

Şeyxülislam İbn Teymiyyə (رحمه الله) bu həqiqətə əsrimizin müasir elmindən öncə işarə etmişdir. O, ildırım haqqında qeyd olunan hədisi gətirdikdən sonra belə deyir:  "Sələflərdən buna müxalif olmayan sözlər rəvayət edilmişdir. Bu sözlər kimi: bulud cismlərinin hava kütləsinin təziqi səbəbilə orada toqquşması da buna müxalif deyildir. (diqqət edin, 7 əsr öncə İslam alimi nələr danışır, sonra isə belə deyir) çünki, "raad - رعد) "yəni - ildırım, şimşək - ərəbcə (ra'adə, yər'udu, ra'dən (رعد يرعد رعدًا) sözünün məsdəridir. Həmçinin," الراعد raid" də "raad" adlanır. Necə ki, العادل " adil" عدلا "adlən" adlanır. Hərəkət səsin yaranmasını gərəkli edir. Buludları hərəkətə gətirən və bir yerdən başqa yerə daşıyan (qüvvə)

mələklərdir, ülvi və süfli aləmdə baş verən bütün hərəkətlər[160] mələklər tərəfindən baş verir. İnsanın səsi də iki dodaq, dil, dişlər, dilçək, boğaz cismlərinin toqquşması ilə əmələ gəlir. Bununla yanaşı (insan səsi) Rəbbini zikr etməyə, yaxşılığı əmr etməyə, pisliyi qadağan etməyə qadir olur, deməli, ildırım da buludları qovan mələyin səsi ola bilir"[161].

Dinlərə etiraz edənlərin metodoloji yanlışları budur ki, onlar daima təbii səbəblə qeybi səbəb arasında ziddiyyət olduğuna inanırlar, sonra isə təcrübi elmin dinə zidd olduğunu iddia edirlər .[162]

## Allah bəzi insanları cəhənnəm üçün yaradıb?

**Sual belədir:** *Salam Aleykum. Əraf 179-un tərcüməsində "Cəhənnəm üçün yaratdıq" yazılıb. Sual yaradan odur ki, Allah sırf cəhənnəmə düşsün deyə insan ve cin yaradıb, yoxsa mən düzgün başa düşməmişəm? Xahiş edərdim buna izah verəsiniz. Öncədən təşəkkür edirəm. Allah razı olsun.*

---

[160] tərc: yerdə və göydə baş verən mühüm və təbiət tərəfindən baş verdiyi güman edilən hərəkətlər.

[161] Məcmu'ul-Fətə'va. İbn Teymiyyə. 24/263.

[162] Əsas mənbə olaraq (2/513) ظاهرة نقد الدين في الفكر الغربي الحديث "Müasir qərb düşüncəsində dinin tənqidi problemi" kitabından geniş istifadə edilmişdir. Kitab doktorantura dissertasiyasıdır. Müəllif: Dr.Sultan ibn Əbdür-Rəhman əl-Umeyri.

**Cavab:** Va aleykumus-Sələm və rahmətullah. Bu sual əslində ateistlərin şübhələrindən sayılır. Çox böyük güman ki, siz də bu sualı ateistlərdən eşitmisiniz. Məsələnin ən bəsit izahı belədir: "Cənnət və cəhənnəmin nə üçün yaranması sualını dinsizlərin özündən soruşsaq, hətta onlar belə deyəcəklər ki, cənnət və cəhənnəmin yaranmasındakı məqsəd dinə görə belədir: "yaxşı insanlar cənnətə gedir, pis insanlar cəhənnəmə gedirlər". Bunu hər kəs bilir. Gəlin indi başqa misallar çəkək: valideyn belə öz övladı yaxşı iş görəndə onu mükafatlandırır, pis iş görəndə layiq bilsə cəzalandırır. İşdə müdür olan kimsə adətən yaxşı işləyəni mükafatlandırır, pis işləyəni, işə səhlənkar yanaşanı cəzalandırır. Müəllim də həmçinin yaxşı, çalışqan tələbəyə hörmət edir, ona yüksək qiymət verir, pis və ya tənbəl tələbəni ədəbləndirir, yaxud ona pis qiymət verir. Əgər misallardakının əksi olsa zülm olar. Əgər Allah mömini də, kafiri də cənnətə salsa, bu da zülm olar. Bu zaman layiq olmayan kəsin cənnətdə nə işi var deyəcəyik? Uca Allah Qurani-Kərimdə buyurmuşdur: *"Biz heç iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərə tay tutarıqmı?! Yaxud Allahdan qorxanları günahkarlara tay tutarıqmı?!"* (Sad. 28).

**"Yaxşılığa mükafat, pisliyə cəza"** bütün ağıl sahiblərinin qəbul etdiyi bir məsələdir. Əgər bu məsələ bir teorem, düstur kimi məlumdursa, onda guya "Allah cəhənnəmə girməyə məcbur edirmiş" kimi şübhəni gətirməyə nə ehtiyac qalır? İndi isə bir qədər təfsilatlı izah edək;

**Birincisi:** Allah bizi əzab etmək üçün deyil, bizə rəhm etmək üçün bizi yaradıb. O, bizi yaradıb ki, Ona ibadət edək və ucalaq, O,

bizi yoxdan var edib. Biz yox ikən bizə həyat verib, sonra ona ibadət və itaət edənlərə uca cənnətlər vəd edib! Ola bilərmi ki, o bizə cənnətlər vəd etsin, sonra da bizi qəsdli şəkildə cəhənnəmə salsın! Xeyr, əsla! Əgər ona itaət və ibadət edənlər cənnətə düşəcəklərsə, deməli hər kəsin bu xoşbəxtlik yolunu seçmək imkanı var. Əgər hər kəsin cənnətə düşmək fürsəti varsa, o zaman axı etiraz nəyədir? Məgər Allah Qurani-Kərimdə buyurmayıbmı ki: *"Ona iki yolu – doğru və əyri yolu göstərmədikmi?!"* (Bələd. 10). Beləcə o ya səadət əhlinin yolunu tutub xoşbəxt olar, ya da bədbəxtlik əhlinin yolunu tutub bədbəxt olar. Əgər Allah iki yolu da, göstəribsə, deməli cəhənnəmdə yanmağı insan özü seçir. Fikir verin, uca Allah qeyd olunan ayədə iki yolun da göstərildiyini deyir, sonra isə (Eyni surənin) 18-ci ayəsində cənnət əhlindən və cəhənnəm əhlindən danışır, onların vəsflərindən danışır. Cəhənnəm əhlindən danışarkən deyir: *"Ayələrimizi inkar edənlər isə sol tərəf sahibləridir"*. Deməli, Allah cəhənnəm əhlinin vəsflərindən məşhur bir vəsfi qeyd edir, o da Allahın ayələrini inkar etməkdir ki, bu da bu günkü ateistlərin əməllərindən sayılır .

**İkincisi:** Qəzavü-qədər mövzusunu anlamaq; Bu məsələ insanın qəzavü-qədər mövzusunu düzgün başa düşməyinə qayıdır. Əgər insan İslamdakı qəzavü-qədər mövzusunu başa düşsə, onda belə problem olmayacaq; insan bilsə ki, insan cəhənnəm yolunu özü seçir, onun cənnət yolunu seçmək imkanı da var və Allah onu buna məcbur etmir, sadəcə onun başına nəyin gələcəyini, onun cənnət əhlindən, yoxsa cəhənnəm əhlindən olacağını öncədən bilir, bunu bilmək isə yalnız Allaha məxsusdur, zatən o bunu bilməsəydi, Allah olmazdı, Allah olduğu üçün bilir, bunu dərk etməyən insan isə öz aciz qüdrəti ilə Allahı müqayisə edir. İnsan bu gerçəkləri

bilsə, artıq bu məsələni başa düşmüş olar. Uca Allah buyurmuşdur: *"De: “Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın.”* (əl-Kəhf. 29). Deməli, yenə aydın olur ki, cənnət və ya cəhənnəm yolunu seçmək insanın özünə qayıdır. Allahın Əraf surəsində "cəhənnəm üçün yaratdıq" dedikləri öz ixtiyarı ilə cəhənnəmi seçənlərə aiddir və ayədə heç bir ziddiyyət yoxdur, Allah kimisə cəhənnəmə girməyə məcbur etmir. Əksinə, Allah seçim verib, insanın törətdikləri şərlərin hamısı öz seçimi və iradəsi ilədir.

Uca Allah buyurur: *"Sizi yaradan Odur. Kiminiz kafir, kiminiz də mömindir. Allah nə etdiklərinizi görür"*. (Təğabun. 2).

**Üçüncüsü:** Ümumiyyətlə Qurani-Kərimin cənnət və cəhənnəm haqda danışıq üslubuna baxan kimsə, bu kimi şübhələrdə qəlbi çox rahatlayacaqdır; çünki, əksər hallarda uca Allah cənnətdən danışarkən cəhənnəmdən də danışır, hər iki yerə layiq insanların vəsflərindən, əməllərindən az da olsa xəbər verir. Deməli, ortada seçim var və məcburiyyət yoxdur. Uca Allah iki axirət diyarı (cənnət və cəhənnəm) haqqında danışarkən ya sağ tərəf (Vaqiə. 27), sol tərəf (Vaqiə. 41) sahiblərinin vəsflərindən danışır, ya cənnət əhlindən, cəhənnəm əhlindən (Şura. 7) danışır, ya da əməl tərəzisi ağır gələn və yüngül gələn insanlardan (Muminun. 102-103) danışır, ya da cənnət əhli ilə cəhənnəm əhlinin dialoqundan xəbər verir (Əraf. 44) və s .

**Dördüncüsü:** Ayənin təfsiri haqda bəzi alimlərin sözləri; İmam Təbəri (Allah ona rəhmət etsin) Əraf surəsi 179-cu ayənin təfsirində məna olaraq "ذرأنا" sözünü "yaratdıq" kimi təfsir edən sələflərin sözündən sonra deyir :

Əbu Cəfər demişdir: "Tərifi uca Allah demişdir: *"Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq"*. Bu, onların (sonradan) öz Rəbbinə küfr etmələri səbəbilə cəhənnəmdə olacaqları haqda (Allahın) elminin (əvvəlcədən bilməsinin) gerçəkləşməsi üçündür[163].

Əbdür-Rəhman əs-Sədinin (Allah ona rəhmət etsin) təfsiri bu ayəni bizim üçün daha müxtəsər açıqlayır və həmin cəhənnəm üçün yaranmış kimsələrin bu yaranışa, cəhənnəmə nə üçün layiq olduqlarını bir daha göstərir, o deyir: "Uca Allah azmışların, sapmışların, lənətlənniş İblisə tabe olanların çoxluğunu bəyan edərək deyir: Biz cəhənnəm üçün bir çox insanı və cini yaratdıq və yaydıq, hansı ki, dördayaqlı heyvanlar onlardan daha yaxşı haldadırlar. Onların qəlbləri var, onunla (haqdan) heç nə anlamırlar, yəni onlara dini anlayış və elm çatmaz. Onlara yalnız hüccət qalxar. Onların gözləri var, bununla özlərinə faydalı olan şeyləri (haqqı) görməzlər, əksinə, bu gözlərin mənfəətini və faydasını itirmişlər, onların qulaqları var, bununla qəlblərinə (haqq) mənanı çatdıracaq şəkildə eşitməzlər. Bu çirkin vəsflərdə olanlar ağıllarını itirmiş dördayaqlı heyvanlar kimidirlər. Onlar fani olanı qalıcı olana dəyişmiş, beləcə ağıl xislətini özlərindən uzaqlaşdırmışlar. Əksinə, onlar dördayaqlı heyvanlardan daha da azğındırlar. Çünki, dördayaqlı heyvanlar yarandıqları məqsədə xidmət edirlər, onların anladıqları zehinləri var ki, bununla özlərinə zərər verən şeyləri və xeyir verən şeyləri ayırd edirlər. Bu hal onların ən yaxşı halıdır. O kafirlər isə (öz halları üçün) ən faydalı şeylərdən, Allaha iman etməkdən, Ona itaət etməkdən və onu anmaqdan qafil qalmışlar.

[163] Bax: İbn Cərir ət-Təbərinin təfsiri, Əraf. 179.

Onlar üçün qəlb, qulaq və göz yaradılıb ki, bu şeylər onlar üçün Allahın əmrlərini və haqlarını yerinə yetirməkdə yardımçı olsun. Lakin, onlar bu əzalarını bu məqsədin ziddinə istifadə etmişlər. Beləcə, bu insanlar həqiqətən də Allahın cəhənnəm üçün yaratmasına və cəhənnəmə salmasını haqq edən kimsələrdirlər. Ona görə onları cəhənnəm üçün yaratmışdır, onlar cəhənnəm əhlinin əməllərini edirlər. Lakin, öz əzalarını Allaha ibadətdə istifadə edən, qəlbini Allaha iman və Onun sevgisinə boyanan, Allahdan qafil olmayan kimsələr, bax onlar cənnət əhlidirlər və cənnət əhlinin əməllərini edərlər[164].

## Kəbəni görmədən ona yönəlmək nə qədər doğrudur?

**Sual**: *Namaz qılarkən Kəbə görünmədikdən sonra ona tərəf yönəlmək nə qədər məntiqlidi? Əlavə edim ki, mübahisə edənlər bəlkə anlaya. Bakıdakı Fransız desə ki, üzü Eyfelə tərəf durmuşam, telefonda atamla danışıram, bu hadisə sizcə necə görünər?*

**Cavab belədir:**

Sizin bu "məntiqiniz" tamamilə batildir, çünki, əgər sizin məntiqinizə əməl edilsə, bu əməl bütün müsəlmanları "ələ salmaq" üçün fürsət olar. Bu məntiqin real tərəfini heç düşündünüzmü?

[164] Bax: Eyni ayənin təfsiri. Sədinin təfsiri. Əraf. 179.

**1)** Sanki siz demək istəyirsiniz ki, namaz qılanların hamısı Kəbəyə yönəlmək üçün, namazlarının doğru olması üçün hamısı Məkkəyə gündə 5 dəfə təyyarə ilə gəlməlidir, ya da gəlib ömrünü orda keçirməlidir ki, qıldığı namaz və Kəbəyə yönəlməyi doğru olsun! Məntiqiniz çox bərbaddır, inciməyin! Buna ateist cəhaləti demək olar.

**2)** Sizin dindən anlayışınız olsaydı bilərdiniz ki, müsəlmanlar bu mövzunu 14 əsr bundan öncə sizdən yaxşı başa düşüblər. Çünki, onlar Kəbəyə yaxınlıq məsələsini Kəbə məscidində namaz qılmaqla və qılmamaqla fərqləndiriblər; yəni, Kəbəyə yaxın olan adamın Kəbədə namaz qılmaq savabını qazanması üçün mütləq o Kəbə imamının arxasında namaz qılmalıdır. ikinci görüşə görə isə ən azı Kəbənin müqəddəs ərazisində olmalıdır. Lakin, Məkkənin kənarlarında olanlar digər məscidlərdə namazlarını qılırlar, özlərini Kəbədə hesab etmirlər, çünki, Məkkə hal-hazırda böyük şəhərdir, o şəhərin hər sakini bütün namazları Kəbədə qıla bilmədiyi halda, olduğu yerdə namazını qılır və Kəbəyə yönəlir. Məkkədəkilərin halı budursa, Azərbaycandakı bir müsəlmanın Kəbəyə tərəf namaz qılmasının doğru olmasını qəbul etməyən ateist unudur ki, namazı qəbul edən Allahdır. O həm də unudur ki, onun xəyal hesab etdiyi bu *"xəyal olmayan həqiqətlər"* gerçək olduğu təqdirdə onun Kəbəyə tərəf namazı da gerçək sayılmış olur. Bu da məntiqi bir nəticədir .

**3)** Din asanlıq dinidir. Uca Allah Quranda buyurur: *"Allah sizə asanlıq istəyir, Allah sizə çətinlik istəmir"*. (əl-Bəqərə. 185) Amma bu ateistin məntiqi dini çətinləşdirməyə hesablanıb, təsəvvür edin ki, Kəbəyə yönəlməyin doğru olması üçün bu ateistin batil təklifi nəzərə alınsa, hər kəs Kəbəyə getməli olacaq, sonra da

başlayacaqlar o təyyarə biletlərinin pulunu hesablamağa. Bu məntiq deyil, sadəcə ateist xurafatıdır. Bəzən ateistlərin *"məntiqi"* o qədər inkişaf edir ki, sadəcə qıjqırmış nəticələr verir, elə Kəbəyə yönəlməyin Eyfel qülləsinin yanında dayanmaqla müqayisəsi kimi.

**4)** Bu məntiqi müqayisənin batil olmasının əsas göstəricilərindən biri də odur ki, bu misalda incə hiylə var. O da bir şeyin istiqamətinə yönəlməklə, bir şeyin yanında olmağı ayırd edə bilməməkdir. Bu yönəlmənin özü belə nisbidir, yəni bu yönəlmədə 100 faiz dəqiqlik belə tələb olunmur. Dəqiqlik olması tələb olunur, lakin, bir qədər az bucaqda əyri yönəlmələr namazı batil etmir. Yəni, Allah bizdən Kəbənin yanında olmağı deyil, sadəcə Kəbəyə yönəlməyi tələb edir, dinin əmri budur. Ateist bunu bilmirsə, bu sadəcə onun problemidir. Məsələn alimlər deyirlər ki, kimsə bir neçə dərəcə səhv yönələrsə namazı doğrudur. Əsas odur ki, insanın üzü Kəbəyə  tərəf yönəlsin. *"Harda olursunuzsa olun, (namazda) üzünüzü ora tərəf çevirin.* (əl-Bəqərə. 144).

**5)** Bakıdakı fransızın Fransadakı atası ilə danışarkən üzü Eyfelə tərəf yönəlməsinə ehtiyac yoxdur. Çünki, bu dünya işidir, ibadət deyil. İnsan yalnız ibadət daxilində Kəbəyə tərəf yönəlir. Sual verən özü də bənzər olmayan fərqli iki misalı verməklə burada da özünü çıxılmaz duruma salır. O Bakıdakı fransızın Fransadakı atası ilə danışmasını mümkün hesab edir, lakin, 150 il əvvəlki bir ateistə bunun mümkünlüyünü desəydiniz, o bunu xurafat hesab edərdi. Lakin, bu gün bu mümkündür. İnsanın insanla bu məsafədən danışması mümkün olduğu halda, Azərbaycandakı bir müsəlmanın Kəbəyə yönəlməsi və bütün insanların tək Yaradıcısı olan Allaha tərəf yönəlməsi də çox bəsit şəkildə mümkündür və realdır! Sual

verən əslində özü öz sualına telefon bağlantısını misal çəkərkən cavab verib, lakin, xəbəri yoxdur.

Çünki, telefon bağlantısı minlərlə kilometr uzaqda olan insanların danışmasına vəsilə olur, gündə beş vaxt müsəlmanın Kəbəyə tərəf yönəlməsi zamanı da onun qəlbinin Allahın zikri və dua ilə Allaha yönəlməsi baş tutur. Bir şərtlə ki, namazın əsas şərtlərindən biri olan huşu (fikri tamamilə namazda) olsun.

## Dində zaman anlayışını qarışdıran dinsizə cavab

**Sual uzundur:** *Xülasəsi budur ki, Quran Firon haqqında məlumat verir, amma nə "Totonxamon", nə də "Etnoxon"un mövcudluğu, hansı tarixdə yaşadıqlarını bildirmir. Sonra uzun sualın əsas hissəsi sual verənin zamanın nisbiliyini təsdiqləməsi və Quranın isə dəqiq zaman meyarı vermədiyi haqdadır, sonra isə sual verənin özü də dəqiq bir zaman meyarına inanmadığını uzun cümlələrlə bildirir, Quranı isə saatlara münasibət bildirməməkdə ittiham edir, bunu da saatın o vaxt kəşf olunmaması ilə əlaqələndirir. Baxmayaraq ki, özü də bilmədən sualın sonunda Quranın zaman meyarına yaxın zamanın nisbi olması fikirlərini dəstəkləyir, amma Quranın niyə mütləq zamandan və əlimizdəki saatlardan danışmamaqda ittiham edir. Sualda bir neçə məqamlara toxunulsa da, biz uzun sualın əsas bu hissəsinə cavab verəcəyik!*

**Cavab belədir:**

**1 -** Əgər sual verən "kitab" deyəndə Qurani-Kərim kitabını qəsd edirsə, o zaman bilməlidir ki, Quran kitabı fizika, kimya, biologiya, həndəsə və ya cəbr kitabı deyil. Əgər *"Quranda hər şeyin yazıldığı"* haqda ayə olduğu üçün bu qənaətə gəlibsə, o ayəni düz başa düşməyib, ehtiyac olsa o ayənin izahı haqda ətraflı məqaləmizi göndərərik. Uzunçuluq olmasın deyə bura əlavə etmirik. Təəssüflər olsun ki, yenə Qurani-Kərim kitabı dünyəvi kitablarla səhv salınır, ilahi qanunlar kitabında, fizika, kimya, həndəsə, cəbr qanunları qəbilindən məsələlər axtarış edilir. Necə ki, konstitusiya kitabında bu sualları axtarmağı ağıllarının ucundan keçirmirlər, lakin, Qurani-Kərimdə bütün elmləri axtarıb tezliklə Quranı bu üslubla səhv çıxaracaqlarını düşünürlər, təbii ki, yanılırlar. Həmçinin, Qurani-Kərim tarix kitabı da deyil ki, orada kimlərinsə həyatının tarixləri yazılsın. Əgər belə olsaydı, ən azından və ən birinici orada bu dinin peyğəmbərinin doğum və vəfat tarixi yazılardı. Deməli, Totonxamon və Etnoxonun hansı tarixdə yaşaması Qurani-Kərimin hədəflərinə uyğun deyil. Fironun Musa peyğəmbər ilə olan hekayəsində isə böyük ibrətlər var. Qurani-Kərim yalnız çox mühüm faydaları əhatə edən hekayələri nəql etmişdir. Təfsir alimləri də bunu qeyd etmişlər. Bu bir ilahi kitabdır və burada yalnız ilahi qanunlar, halal, haram, keçmişdən ibrətlər, dinin əsasları, bəzi təfsilatları və s. məlumatlar ola bilər. Totonxamonun həyat tarixini Qurandan tələb etmək üçün birinci peyğəmbərlərin həyat tarixini tələb etmək lazım olacaqdı ki, heç bu da Quranın qayəsi, endirilməsi səbəbi deyildir. İlahi qanun kitabı tarix kitabı ola bilməz .

**2** - Sual verən özü də bilmədən gəlib Quranla razılaşır. O nəyisə axtarır, lakin Qurandakı zaman anlayışını bilmir. Düşünürəm

ki, ona bu işdə kömək etmək lazımdır. Quranda dünya saatı haqqında danışılmamasına deyil, vaxt anlayışına Allahın necə yanaşdığına fikir vermək lazımdır. Elə sual verən şəxsin anlamadığı məqam bu məfhumu başa düşməklə çözüləcəkdir. Uca Allah Qurani-Kərimdə zamana, vaxta and içir, Allah dərgahındakı günlərlə dünya vaxtının, gününün fərqli olmasından danışır. Uca Allah vaxtın əhəmiyyətinə görə Qurani-Kərimdə bir neçə yerdə zamana and içmişdir. Ayələrdən birində uca Allah buyurur: *"And olsun axşam çağına!"* (Əsr. 1).

Digər ayədə: *"And olsun günəşi bürüyən gecəyə!"* (Şəms. 4) - deyilir. Hətta namaz vaxtları haqda ayədə deyilir: *"namaz möminlərə vaxtları müəyyən edilmiş bir fərzdir"*. (Nisa. 103). Namazların vaxtları İslamda günəşin əşyalara saldığı kölgəsi ilə təyin olunub, əşyanın kölgəsinin zenitdə olmasının, əşyanın kölgəsinin özündən bir dəfə böyük olmasının, özündən iki dəfə böyük olmasının, günəşin batmasının, ulduzların çıxmasının, sübh çağı dan yeri sökülməsinin namaz vaxtlarının müəyyənləşməsi ilə mühüm əlaqəsi olmuşdur. Bu gün də bir müsəlman fransız saatlarından istifadə etmədən günəşin hərəkətlərinə əsaslanaraq namaz vaxtlarını təyin edib namazlarını qıla bilər. Sonradan (əsrlər sonra) namaz vaxtını təyin etmək üçün təxmini saatlar təyin edilmişdir. Əsrlər boyunca müsəlmanların namaz vaxtlarını müəyyən etmək üçün bu günkü saatlara ehtiyacları olmamışdır. Bu saat cihazları haqda məlumatı Quranda axtarmağa ehtiyac yoxdur.

Buna kimsə "elmilik" deyirsə, onda bu məntiqə əsasən fizika kitabından ingilis dilini öyrənmək, kimya kitabından da heyvanlar aləmi ilə tanış olmaq, Zoologiya kitabından isə inşaat

mühəndisliyini öyrənmək mümkün olmalıdır. Bu məntiq və bu baxış açısından "elmlərin istiqamət və ixtisaslarını nəzərə almağa ehtiyac yoxdur" - iddiası açıq-aydın görünür. Bu isə batil bir iddiadır .

**3 -** Ölçü vahidlərinə gəldikdə isə saatdan söhbət gedirsə, bu mövzuya müxtəlif zaman meyarlarını daxil etmək olar. Vaxt anlayışı sizə görə mütləq deyilsə, dinlərə görə də təqvimlər dəyişir, elə İslam təqvimi ilə, xristian təqvimi də sizə görə fərqli olan zaman ayarlamasına misal ola bilər. Misal üçün deyək; xristian təqviminə görə artıq 2022-ci ildir, bu da İsa peyğəmbərin doğumu ilə bağlı bir tarixdir. Hicri təqvimlə isə 1443-cü ildir ki, bu da Muhəmməd peyğəmbərin Məkkədən Mədinəyə hicrəti ilə əlaqədardır. Bu gün ateistlər də daxil olmaqla dünyanın böyük əksəriyyəti İsa peyğəmbərin doğum tarixi olan təqvimdən istifadə edir. Lakin, bəşər tarixi bizim eramızdan da çox əvvəllərə gedib çıxır. Deməli, hətta bu günkü təqvimimiz belə nisbi anlayışlardır. Allah qatında zaman anlayışı da bizim zaman anlayışımızdan fərqlidir. Uca Allah buyurur: *"O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra da bu işlər sizin saydığınız illərdən min ilə bərabər olan bir gündə Ona doğru yüksəlir"*. (Səcdə. 5). Bəli, zaman və məkan anlayışında fərqlər ola bilər. Bunu elm də göstərir, din də təsdiqləyir. Hətta məsafə ölçüsünün meyarları belə fərqlidir, mil ilə kilometr arasındakı fərqlilik, kiloqram və ərəb mudu, sası arasında olan fərqlilik və s. kimi, eləcə də zaman hesablamalarında da fərqlilik mümkündür. Hətta Qurani-Kərimdə Allah qatında olan bir günlə bizim bir günümüzün fərqi (Həcc surəsi. 47-ci ayə), sonra isə Qiyamət gününün müddətinin uzunluğunun bizim dünyadakı günlərimizə nisbətdə olan fərqi (Məaric surəsi. 4-cü ayə) barədə

olan ayələrə baxmaqla vaxt məsələsinin İslam dinində necə qoyulduğunu düşünsəniz, adi dünyəvi saatların belə sizə görə nə üçün nisbi bir anlayış olduğunu dərk edə bilərsiniz. Qurani-Kərim zaman hesablamasında sualda qeyd olunduğu kimi *"fransız saatları"* ilə qətiyyən hərəkət etməyib. Saatların növləri və yaranması tarixindən danışıb yazını uzatmaq bu yazımızın hədəfi deyil. Hər bir halda ilk saatların vaxtın tənzimlənməsi üçün günəş saatı, sonra digər saat növlərinin icadı çoxlarına məlumdur. Su saatı, qum saatı, elektron saat, astronomik saat, atomik saat və s. saatların fərqləri hər kəsə məlumdur. Xülasə, dində, xüsusən də "nə üçün Quranda indi dünyada istifadə olunan vaxt meyarı (etalonu) kimi götürülən fransız saatından danışılmayıb? Yaxud "danışılmalı imiş" kimi iddiaları etmək sadəcə dindəki zaman anlayışından bixəbər olmaqdan başqa bir şey deyil. Qurani-Kərim Əshabı-Kəhfin mağarada neçə il qalmasını dəqiqliyi ilə bildirib, hətta o mağarada qalanların qəribə hallarını dəqiqliyi ilə vəsf edib, bədənlərinin salamat qalması üçün onların orada sağa-sola çevrilmələrinə kimi xəbər verib. Elmi danışıq təkcə dünyəvi elmlə danışmaq deyil, elmi danışıq elə dini ittiham etdikdə dinin daxilində həmin mövzuya münasibəti bilməklə də tamamlanır. Din daxili bir məsələ haqda bir fikir bildirdikdə iddia ilə bərabər dinin mövqeyi bilinmirsə, bu elmilik ola bilməz, deyilən sözlər isə sadəcə iddialar olaraq qalacaqdır.

# Qiblənin Petra şəhərinə tərəf olması şübhəsi

*Bu şübhəyə əvvəlcə qısa bir cavab, sonra isə təfsilatlı cavab veriləcəkdir:*

**1 -** Məkkədə də, Mədinədə də bütün tarixi yerlər xırda detallarına kimi məlumdur. Necə olur ki, bu tarix kitablarında yazılmış yerlər Məkkədə mövcud ola-ola relyevi və coğrafi mövqeyi fərqli bir yerdə qiblə mövcud olsun? Ən dəhşətlisi isə bu 14 əsr müsəlmanlardan gizli qalsın, sonra da bir şərqşünas çıxıb bir neçə il öncə yeni qiblə tapdığını, guya, əsil qiblə tapdığını elan etsin? Bu şübhə özü müsəlmanlara təhqirdir. Ona görə ki, şübhəni çıxaran İslamdan cahil olan şəxs14 əsrdir müsəlmanların hara tərəf namaz qıldıqlarını bilmədiklərini iddia etmiş sayılır .

**2 -** Müsəlmanların hətta 14 əsrdən bu yana öz nəsəblərini (əsil-nəcabətlərini, soy-köklərini) belə yazıb qoruduqları halda bir qibləni minlərlə müsəlmanların gözü önündə dəyişilməsini nə oldu heç kim bilmədi? Bu dərəcədə böyük yalanı və xutafatı müsəlmanlara yeridənlər dinini bilən müsəlmanları deyil, dinini öyrənmək yerinə başını teleseriallarla, filmlərlə qatan, ildə bir iki dəfə əlinə quran alan müsəlmanları aldada bilərlər. Dinlərini öyrənib Allaha dəvət etmək, belə yalanların ayaq tutub yeriməsinə qarşı çıxmaq əvəzinə dünya başımızı qatarsa, əlbəttə ki, yalanlar ayaq tutub yeriyər. Şərqşünaslar ildə İslam əleyhinə minlərlə səhifələr, şübhələr yazıb hazırladıqları İslam tarixini bizə yeni çərçivədən təqdim etməyə çalışırlar. İslamı yoxsun bir mədəniyyət kimi təqdim etməyə çalışanlar İslamın mədəniyyətlərin beşiyi olmasını insanlara unutdurmağa çalışırlar. Ən qədim universitet və

ən qədim kitabxana müsəlmanlara aid olduğu halda müsəlmanların bu irsini yaddan çıxarmağa çalışırlar .

*İndisə keçək şübhənin təfsilatına:*

**Şübhə belədir:** *"Dan Gibson iddia edir ki, hicrətin 1-ci əsrinə aid araşdırdığı məscidlər ya məscidin öz istiqaməti, ya da mehrabının istiqaməti Petra şəhərinə doğru olub". Məlumat üçün bildirək ki, Petra şəhəri ərəb diyarı olan Ənbatların dövlətinin (B.e.ə 400-cü ildən bizim eranın 106-cı miladi ilinə kimi) paytaxt şəhəri olmuşdur. Ərazisi indiki ərəb dövləti İordaniyanın torpaqlarına aiddir. Xülasə, Dan Gibson gətirdiyi şübhədə iddia edir ki, hicrətin ikinci əsrində tikilmiş məscidlərdə qiblənin istiqaməti bu məscidlərin 12 faizinin Petra şəhərinə, yarısının Məkkəyə, geridə qalan 38 faizinin isə Məkkə və Petra arasına, yaxud da arasındakı paralel xəttə doğru yönəlmişdir. Sonra isə iddia edir ki, 3-cü hicri əsrdə inşa edilmiş məscidlərin hamısının istiqaməti Məkkə şəhərinə tərəfdir.*

*O bəzi Quran ayələrindən və rəvayətlərdən başa düşdüyünə görə öz-özünə belə nəticəyə gəlib ki, müsəlmanların ilk qibləsi Petra şəhəridir və guya bizim qibləmiz olaraq bildiyimiz həqiqi qibləmiz, həcc etdiyimiz yer isə Abdullah ibn Zubeyrin inşa etdiyi qiblədir. Fikirlərini əsaslandırmaq üçün, daha yaxşı əlaqələndirmək üçün o bu hadisənin birinci hicri əsrdə baş verməsi fikrini irəli sürmüşdür .*

*Sonra isə yalan olması ortada olan arqumentlərini bu şəkildə irəli sürür; O iddia edir ki, Abdullah İbniz-Zübeyr Petra şəhərindən hökmranlıq edib, Əməvilər isə Dəməşq şəhərindən hökmranlıq etmişlər. Tarixdə Abdullah ibn Zubeyr ilə Əməvilər arasında baş vermiş döyüşü də öz iddiasına uyğun təhrif etmişdir; Sonra Dan Gibson iddia edir ki, hicrətin 64-cü ilində Əməvilər öz qoşunlarını (Məkkəyə deyil) Petra şəhərinə göndərmiş, Petra şəhərini iki ay boyunca mühasirədə saxlamış, sonra Yezidin vəfat etməsilə Dəməşqə geri qayıtmışdılar. Bundan sonra guya hicri 65-ci ildə İbn Zübeyr iddia edir ki, o İbrahimin tikdiyi Kəbənin təməllərinin qalıqlarını Məkkə şəhərində tapıb və orada Kəbəni inşa edir. Hicrətin 70-ci ilində xeyli sayda adam Petra şəhərindən Məkkəyə köçür. Guya sonra Petra şəhərində olan qara daşı götürüb Məkkədəki "yeni Kəbə"yə yerləşdirir. Guya ki, bundan sonra insanlar ixtilaf edirlər. Bəziləri Petra şəhərinə tərəf, Bəziləri də Məkkəyə tərəf həcc edirlər. (Petra şəhərində Quran və hədislərdə vəsf olunan yerlər olmadığı halda, yenə Dan Gibson öz iddiasını irəli sürməyə çalışıb).*

*Daha maraqlı bir yalan da guya Əməvilər hicrətin 73 və 74-cü illərində Petra şəhərinə hücum edərək oranı mühasirəyə alaraq mancanaqlarla vurublarmış. Burada sual yaranır ki, müsəlmanlar öz kəbələrini nə üçün dağıtmalı idilər ki? Axı hər iki tərəf müsəlman idi. Baxmayaraq ki, tarix kitablarında ibni Zübeyrin Petrada deyil, Məkkədə gizlənməsi qeyd olunmuşdur .*

*Dan Gibsonun iddiasına görə 94-cü hicri ildə zəlzələ nəticəsində Petra şəhərinin qalan hissəsi dağılır. İnsanlar elə düşünürlər ki, zəlzələ Allah tərəfindəndir - və guya Allahdan əmr gəlib ki, onlar*

*Məkkəyə köçməlidirlər. (çox qəribə iddialardır). Lakin, Əməvilər öz məscidlərini Petraya tərəf tikirlər. Guya bu hal Abbasilərin Əməvilərə qarşı üsyan edib hicrətin 132-ci ilində (miladi 750-ci il) hakimiyyəti ələ keçirmələrinə qədər belə davam edir. Onun izah etmədiyi hansısa bir səbəbə görə guya Abbasilər Kəbəni özlərinə qiblə təyin edirlər. İddiada keçir ki, guya Əməvilər Petradakı Kəbəni, Abbasilər isə Məkkədəki Kəbəni üstün sayıblar. Əgər həqiqi Kəbə Petra şəhərində olsaydı və iddia etdikləri kimi guya Petra şəhəri Muhəmməd peyğəmbərin vətəni olsaydı, o zaman Abbasilərin özləri peyğəmbərin qohumları olduqları və peyğəmbərin əmisi Abbasın nəslindən olduqları halda nə üçün saxta Kəbəni üstün görməli idilər?*

*Yenə Dan Gibsonun hekayəsinə qayıdırıq; Onun iddiasına görə guya Abbasilər həqiqi Kəbənin Petra olması haqqında olan bütün kitab və sənədləri məhv etmişdilər. Beləliklə də onlar guya bütün müsəlmanların yaddaşından Petra şəhərini silmişdilər ki, buna da guya Dan Gibsonun iddia etdiyi kimi 746-cı miladi tarixlə - Əməvilərin süqutundan iki il öncə - Petrada baş vermiş zəlzələ kömək etmişdi. Guya ki, Əməvilərdən sonra hakimiyyətə gələn Abbasilər də tarixi saxtalaşdırmaqla məşğul olub Kəbəni Hicazdakı Kəbə kimi təqdim ediblərmiş. Biz bilmirik ki, Abbasiləri İslam tarixini saxtalaşdırmağa və müsəlmanların Kəbəsini dəyişdirməyə böyük səy göstərmələrinə vadar edən hansı amil idi və görəsən onlar bundan nə əldə edəcəkdilər ki? Xüsusən də əgər onlar bunu qələbə çaldıqdan və dövlətlərinin qurulmasından sonra etmişdilərsə, bunda nə maraqları ola bilərdi ki? ...!*

*Dan Gibson iddia edir ki, guya Peyğəmbərə vəhy Petra şəhərində gəlmişdir. Qureyş qəbiləsi isə guya Petradan 27 mil məsafədə yerləşən "Xamimə" kəndinin sakinləri imiş və İslamın yayıldığı ilk vaxtlar bütün hadisələr Petrada cərəyan etmişdi, Məkkədə yox .*

*Dan Gibsonun bu fikirləri əslində öz ixtira etdiyi fikirlər deyil və nə də özünün deyil. Bu şübhə 70-ci illərdə ortaya atılmışdı. Patrisiya Kroun və Maykıl Kuk'un 1977-ci ildə İslamın yaranması haqqında qələmə aldıqları "Hagarism" kitabında guya İslam dininin Məkkədə deyil, Ərəbistan yarımadasının şimal-qərb istiqamətində meydana çıxması fikrini irəli sürmüşdülər. Onlar deyirdilər ki, guya Hicazdakı Məkkə haqqında 7-ci əsrdən öncə heç bir məlumat yoxdur. Onların fikrinə görə Məkkə şəhəri guya ticarət qafilələri olan yolların üzərində yerləşmirdi. Orada bitki, ağaclar və meyvələr yox idi. Nə də ora böyük bir şəhər deyildi. Lakin, bu kitab tez bir müddətdə akademik səviyyədə rədlərə məruz qaldı və nəhayətdə kitabın müəllifləri Kroun və Kuk yazdıqları bu kitabdan geri döndülər. Hətta, Kroun belə demişdi: "Biz uşaq idik, (bu barədə) heç nə bilməmişik "!*

*Bu şübhəni gətirənlərin bəzi fərziyələri var, onlardan biri də budur:*

*Onlar deyirlər ki: "Məkkə şəhəri ümumiyyətlə mövcud olmayıb, çünki, Məkkə sözü İslami mənbələrdən başqa 7-ci əsrdən əvvəl heç bir mənbədə keçməmişdir .*

**Cavab:** bu doğru deyil. Ptolomey "Majestik" əsərində"Makroba" adlı bölgənin adını və oranın Ərəbistan yarımadasının, Yəsribin (indiki Mədinənin) cənubi şərqində yerləşən bu bölgənin durumu haqda qeydlər etmişdi. Baxmayaraq ki, bu gün Məkkənin yeri Yəsribin (Mədinənin) cənubuna düşür. Bunu ehtimal etmək və qəbul etmək mümkündür. Çünki, Ptolomey İskəndəriyyə şəhərində yaşayırdı və o öz məıumatlarını xəta etməsi az ehtimal olunan səyahətçilər və dənizdə üzən gəmilər vasitəsilə alırdı. Ptolomey miladın ikinci əsrində yaşamışdır.

İslami araşdırmalar üzrə tarixçi mütəxəssis Ayan David Mauris "Məkkə İslamdan öncə" mövzusunda demişdir: "Əgər fərz etsək ki, Makroba Məkkədir, bu zaman onun ortaya çıxmasında bəsit problemlər yaranır. Ptolomey bu bölgəni Yəsribin cənubi şərqi tərəfinə qoyur, Məkkə isə cənubi qərbdədir. 1800-cü dən qabaq Konrad Menrit diqqətini cəlb edir ki, Makroba şəhəri sahildən olduqca uzaqdır və o belə bir həll yolu təqdim edir: "Ptolomeyin məlumat aldığı mənbələr Məkkəni quru qafilələrin yoluyla tanıyırdılar, mütləq şəkildə həmin bölgəyə sahil tərəfdən yaxınlaşmamışdılar. Təbii ki, son olaraq Ptolomeyin məlumatlarının haradan gəldiyini bilmirik". Hətta, bu həll yolu da daha çox qarışıq ola bilər. Çünki, ümumi şəkildə görünür ki, Ptolomey öz xəritəsində uzunlamasına olan xətlərin hesablanmasıbda  eninə olan xətlərə nisbətdə daha çox əmək sərf etmişdir. Bu isə o deməkdir ki, onun xəritəsində qeyd etdiyi şəhərlər şərq və qərbə nisbətdə şimal və cənub tərəfdə daha dəqiq işlənmişdir .

Əgər Ptolomeyin xəritəsinə baxsaq, orada ərəb-fars körfəzinin real durumdakından dəfələrlə enli şəkildə qeyd olunduğunu görəcəyik. Halbuki, Ərəbistan yarımadasının eni reallığa baxanda olduqca dardır. Ona görə də Makroba şəhərinin bir azca şərq istiqamətinə çəkilməsi gözlənilməsi və qəbul edilməsi mümkün bir şeydir. Dr. Amal Robi "Məkkə ticarəti və İslamın zühuru" adlı kitabın müəllifi Patriça Krona qarşı yazdığı rəddiyyəsində demişdir: "Makroba" sözü "Məkkətur-Rabb" sözündəndir. Çünki, sözün kökü babil dilində "ev" mənası verən "makk "مك - sözündəndir ki, sükunlu hərflərdən ibarətdir. "Rabə" (roba) sözü isə "Rabb" (Rəbb) sözündən törəyib ki, bu da cənub ərəblərinin dilində "beytullllah" (Allahın evi) mənasındadır. Doktor Amal əlavə olaraq deyir ki: "Bir çox qədim ölkə və şəhərlərin adları öz dillərində deyil"[165].

## Dua qədəri dəyişirmi?

**Sual:** *Dua qədəri dəyişirmi? Yazılı bir şey necə dəyişə bilər axı?*

**Cavab:** Bu mövzu geniş mövzudur. Lakin, xülasə anlamaq lazımdır ki, qədər iki cürdür: Muhkəm (yəni, dəyişməz, sabit qədər) və dəyişməsi mümkün olan qədər. İnsanın nə vaxt öləcəyi, nə vaxt qəza keçirəcəyi, nə vaxt həyatını dəyişəcəyi və s. çox mühüm hadisələr birinci növ qədərə aiddir. İkinci növ isə qulun ixtiyarı ilə

[165] Qeyd: şübhənin digər detallarına ensiklopediyanın üçüncü cildində oxuya bilərsiniz.

əlaqəsi olan qədər, məsələn, dərslərini pis oxuyan bir tələbənin birdən-birə yaxşı oxumağa başlaması, dua edərək düzgün səbəblər tutması, Allahın müvəffəq etməsi ilə mümkündür. Yaxud da bir işi pis bacaran, o işdə çox əziyyət çəkən insana o işin asanlaşması, kədərli insanın kədərinin dağılması, dərdlərinin unudulması, hətta, sağalmaz görünən bəzi xəstəliklərin dua ilə sağalması mümkündür. Buna çox misallar çəkmək olar .

Duanın qədəri dəyişməsi özü də qədərdəndir. Bəzi alimlər deyiblər ki, dua uca Allahın bu ayəsinə əsasən qədərin bütün növlərini dəyişir: *"Allah bu yazıdan istədiyini silər, istədiyini də sabit saxlayar. Kitabın anası da (Lövhi Məhfuz) Onun yanındadır".* (ər-Rad, 39). Lakin, bu ayənin özü də digər ayələrə və hədislərə müvafiqdir. Səhih olan əvvəl qeyd etdiyimiz görüşdür ki, bu görüş Quran və sünnədən olan dəlillərin ümumuna görədir. Sadəcə qədərin bu növlərindən anlaşılır ki, Allah insanı nə küfrə, nə də imana, nə də başqa bir şeyə məcbur etmir. Bütün bunları insan özü seçir. Həmçinin, insan öz həyatında dəyişmək istədiyi durumları dua ilə dəyişir və onun dua edəcəyi və qədərinin dəyişəcəyi də qədərdəndir. Çünki, bunu istəməyə belə hər kəs müvəffəq olmur. Buna müvəffəq olmaq özü də qədərdəndir. Sadəcə insanlar Allahın iradəsi ilə insanın iradəsini fərqləndirə bilmədikləri üçün qədər mövzusunu anlamaqda bir qədər çətinlik çəkirlər. Burdakı incə məqam odur ki, Allah elə Allah olduğu üçün hər şeyi əvvəlcədən bilir və qulunu buna məcbur etmir, sadəcə əvvəlcədən qulun nə edəcəyini bilib və yazıb. Əgər Allah bu qədər qüdrətli olmasaydı bunu bilməzdi. Onda Allahla insanın fərqi nə olardı ki? İnsan öz aciz beyni ilə Allahı özü ilə müqayisə etdiyi üçün bu incə məqamı anlamır.

**Xülasə,** bəzi qədərlər dəyişir, xüsusən də insanın iradəsində, ixtiyarında olan əməllər bura daxildir. İnsanın iradəsində, ixtiyarında olmayan qədər isə (ölüm, doğulmaq və s.) insan bunu dua ilə dəyişə bilmir. Lakin, bilmək lazımdır ki, İslam bizi qədərə boynu büküb oturmağı əmr etmir, əgər kasıbsansa "hərəkət etməyib oturub dua edin" demir, əksinə, ruzi axtarmağa və dua etməyə sövq edir. Yəni dinimiz dua ilə bərabər səbəblər götürməyə təşviq edir. Allah Elçisi (Sallallahu aleyhi və səlləm) bir hədisində buyurmuşdur:

"Siz əməl edin, hər kəsə öz yarandığı şey asanlaşacaqdır. Səadət əhli səadət əhlinin əməli asanlaşdırılar. Bədbəxtlərə isə bədbəxtlərin yolu asanlaşdırılar." Sonra isə bu ayəni oxudu: "Kim haqqını verir və Allahdan qorxursa və ən gözəl olanı (lə ilahə illəllahı) təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik. Kim də xəsislik edərək Rəbbinə ehtiyacı olmadığını güman edirsə və ən gözəl olanı (lə ilahə illəllahı) yalan hesab edirsə, Biz onun üstünə ən çətin olanı yükləyəcəyik"[166]. (əl-Leyl, 5-10).

Bu uzun hədisin əvvəlində Peyğəmbər (Sallallahu aleyhi və səlləm) *"elə bir adam yoxdur ki, onun cəhənnəmdə olan yeri yazılmış olmasın"* - deyə xəbər verir. Sonra isə Peyğəmbər əməl etməyə sövq edərək bu hədisdəki cavabı verir. Xülasə odur ki, hətta cənnət əhli belə əgər cəhənnəmlik olsaydı, cəhənnəmdəki hansı yer ona asanlaşdırılacaqdısa, o yeri cənnətə düşərkən görəcəkdi. Cənnətə düşən kimsə də görəcəkdi ki, əgər öz pis əməlləri ucbatından cəhənnəmə düşsəydi, o zaman hansı yerdə olacaqdı. Deməli, bu insan yuxarıda qeyd olunana uyğun "Lə ilahə illəllahı"

[166] Hədisi Buxari "Səhih"ində rəvayət edib. no: 4949.

təsdiqləyib və cəhənnəmdən Allaha sığınıb, dua edib, cəhənnəmə düşməmək üçün səbəb də götürüb. Allah da onun duasını qəbul edib cəhənnəmə salmayıb. Əgər o kimsə cəhənnəmdə olsaydı, Allah onun cəhənnəmdəki yerinin harada olacağını bilirdi.

Zatən Allah bunu bilməsəydi, bu qüdrətə malik olmasaydı, Allah olmazdı. Problem insanın Allahı aciz məxluqlar ilə müqayisə etməsindən yaranır, ona görə deyir ki, Allah bu şeyləri haradan bilir? Deməli, Allah məcbur etmir, dualar da bir səbəbdir .

Dua hətta insanın dində sabit olmasına kimi təsir edir. Ona görə duada davamlı olmaq lazımdır. Kiminsə günahlar edərək dində sabit qalması onun duasına görə və ya başqasının onun üçün duasına görə, yaxud da hansısa bir xeyirxah əməlinə görə ola bilər. İnsan Allahdan sabitlik istəyir, Allah da qəlbini haqq üzərində sabit edir. Yoxsa, əsl odur ki, insan günahları çoxaltdıqca qəlbi haqdan uzaqlaşır. Dua möminin silahıdır. Dua, bəndənin Allahla olan ən böyük rabitəsidir!

Uca Allah Qurani-Kərimdə buyurmuşdur: *"De: “Əgər duanız (yalvarmağınız) olmasaydı, Rəbbim sizə diqqət yetirməzdi"*. (Furqan. 77). Dua edin ki, Rəbbiniz sizə diqqət yetirsin! Çünki, dua etməyə də hər kəs müvəffəq olmur !

## Nə üçün Allahın mələkləri var? Onlara ehtiyacı var?

**Sual:** *Bir ateist sual verir ki, əgər Allah sonsuz güc qüvvət sahibidirsə, bəs niyə onun mələkləri var? Onun hər şeyə gücü yetirsə, "ol" desə olacaqsa, bəs niyə mələyə ehtiyac duyulur?*

**Cavab:** Bu şübhəyə cavab bir neçə aspektdən veriləcəkdir:

**Birincisi:** Bu sual "Allah niyə mələkləri yaradıb?" şəklində qoyulsa, cavab çox sadə olacaq: "Allah digər məxluqları yaratdığı kimi mələkləri də yaratmışdır". Lakin, sualın bu cür fərqli qoyuluşunda ateist Allahı "ehtiyaclı" kimi vəsf etməyə çalışır. Halbuki, Allahın nəyisə yaratması heç də onun nəyəsə "ehtiyaclı" olması mənasında deyil. Məsələn, Allah mələkləri öz elçiləri etmişdir və onlara müəyyən vəzifə və öhdəliklər vermişdir. Allahın insanlara da göndərdiyi elçilər, peyğəmbərlər olmuşdur. Onların da müəyyən vəzifə və öhdəlikləri olmuşdur. Bu sualı verən, yəni Allahın mələklərə nədən ehtiyacı olsun ki? - deyən, başqa vaxt da Allahın peyğəmbərlərə nə ehtiyacı olsun ki? - deyə sual verəcək. Halbuki, Allah mələklərdən elçilər seçdiyi kimi insanlardan da elçilər seçmişdir, necə ki, Quranda buyurur: *"Allah mələklərdən də elçilər seçir, insanlardan da. Həqiqətən, Allah Eşidəndir, Görəndir!"* (əl-Həcc. 75). Bu sualı verən başqa silsiləvi suallar verə bilər. Məsələn; deyə bilər ki, Allahın bitki bitirmək üçün yağışa nə ehtiyacı var? Bitkini yağışsız da yağdıra bilərdi. Bir az da irəli gedib Allahın günəşə nə ehtiyacı var, o istəsə havanı mötədil edə bilməzdimi? - deyə bilər. Beləcə kimsə "ehtiyac" sözünü Allaha nisbət etməklə bu sözün istifadəsini oyuna çevirə bilər .

Məlum olduğu kimi insanların peyğəmbərliyə ehtiyacı var idi ki, doğru yolu tapa bilsinlər. Allah insanlara göndərdiyi elçiləri insanların ehtiyacına uyğun, özlərindən etmişdir. Mələklərdən olan elçilərin də hərəsinin öz görəvi, vəzifəsi vardır. Bu o demək deyil ki, Allahın mələklərə ehtiyacı var. Bu mənanı çıxarmaq, "gərəkməyən bir mənanı yersiz şəkildə başqa bir mövzuya uyğunlaşdırmaq"dır. Ərəbcə bu qaydaya الإلزام ما ليس بلازم deyilir. Yəni, lazım olmayanı (lazım olmayan mənanı) lazımlı etmək. Bir misalla bu qaydanı izah edək; məsələn, uşaq öz atasına deyir ki, "atacan, mən səndən incimişəm, ona görə ki, sən mənim qaranlıqdan qorxduğumu bildiyin halda hər gecə otağımın işığını söndürürsən". Bu küsməklə uşaq atasına lazım olmayan bir mənada etiraz edir. Baxmayaraq ki, atası onun xeyri üçün işığı söndürür. Bu misalı çəkməkdə məqsədimiz qeyd etdiyimiz qaydanı izah etmək idi. Konkret mövzumuza gəldikdə isə Allahı bu cür mələklərə ehtiyaclı hesab etmək də yerli bir etiraz deyil. Çünki, etiraz əsassızdır. Buradan da lazım olmayan mənanı lazımlı etmək problemi görünür.

Allah mələkləri növlərinə görə görəvləndirib, belə olduğu halda Allahın mələklərə "ehtiyacı" olduğunu deyə bilmərik. Çünki, məsələ "acizlik" məsələsi deyil, məsələ "öhdəliyə məsuliyyət verilməsi" (vəkalət) məsələsidir. Allah istəsə hər şeyi "ol" deməklə yaratmağa qadirdir. Lakin, bu məsələ səbəblərin yaradılması məsələsidir. O səbəblər ki, nəticələrə aparır. Allahın hikməti bunu gərəkdirir ki, bəzi işləri səbəblər vasitəsilə həyata keçirir. Məgər Allah insanı ata və ana olmadan yaratmağa qadir deyilmi? Əlbəttə, qadirdir. Lakin, ata və ananı, evliliyi insanın yaranması üçün bir vasitə, səbəb etmişdir. Deməli, Allah nəyinsə öhdəsinə bir işi

verirsə, o demək deyil ki, Allah istədiyini yaratmaqdan, istədiyi işi görməkdən acizdir. Acizlik başqadır, başqasının öhdəsinə vəzifə vermək isə tamam başqa məsələlərdir.

**İkincisi:** Bu sualın cavabını anlamaq üçün mələklərin nə üçün yaranmasının hikmətinə baxmalıyıq. Sağlam İslam etiqadına görə Allahın yaratdığı hər bir şeyin bir hikməti var. Bu hikmətlər ola bilsin bizə məlum olsun, ola bilsin məlum olmasın .

Bizə məlum olan mələklərin Allahın yaratdığı məxluqlardan biri, ağlı olub şəhvətsiz, nurani məxluqlar olmaları, Onun hörmətli qulları olmaları, Onun əmrlərinə asilik etməmələri, əmr edildikləri şeyləri yerinə yetirmələridir. Allah onları istədiyi vəzifə və öhdəliklərlə mükəlləf etmişdir.

Mələklərin yaranması hikmətinə gəldikdə isə bu hikmət mələklərin əsas üç vəzifəsindən görünür:

**1)** Allaha ibadət və itaət, onu zikr etmək, ona təriflər demək .

**2)** Allahın yaratdıqlarına aid Allah tərifindən verilən əmrlərdən görməli olduqları işlər, Allahın yaratdığı məxluqata aid öhdəliklər .

**3)** Adəm övladlarına, insanlara aid mələklərə verilmiş öhdəliklər; Bir qədər izah edəsi olsaq;

**1 - Allaha ibadət və itaət, onu zikr etmək, ona təriflər demək:**

Allaha ibadət, Onu uca tutmaq, şəninə təriflər deyib Onu zikr etmək. Dəlil də bu ayədir: *"Onlar gecə-gündüz, usanmadan Onun şəninə təriflər deyirlər"*. (Ənbiya. 20). Həmçinin, bu ayədir: *"Rəbbinin hüzurunda olan mələklər Ona ibadət etməkdə*

*təkəbbürlük göstərmir, Onu tərifləyir və yalnız Ona səcdə edirlər".* (Əraf. 206)[167].

**2 - Allahın yaratdıqlarına aid Allah tərəfindən verilən əmrlərdən görməli olduqları işlər, Allahın yaratdığı məxluqata aid öhdəliklər;**

kimisini cənnətin gözətçisi, kimisini cəhənnəmin gözətçisi olması, kimisinin ərşi daşıyan böyük mələklərdən olması, kimisinin təbiət hadisələrinə nəzarətlə mükəlləf olması və s . Uca Allah buyurur:

*"And olsun buyruqları yerinə yetirənlərə!"* (Nəziat. 5).

**3 - Adəm övladlarına, insanlara aid mələklərə verilmiş öhdəliklər;** onları qorumaq, onların əməllərini yazmaq, insan öldüyü zaman onun ruhunu çıxarmaq və s. kimi .

**Üçüncüsü:** Mələklərin gördüyü işlər Allahın iradəsindən, istəyi və icazəsindən müstəqil və ya ayrı bir iş deyil. Uca Allah Qurani-Kərimdə buyurur*: "Onun başı üstündə Allahın onlara verdiyi əmrlərə heç vaxt asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır".* (Təhrim. 6). Başqa bir ayədə buyurur*: "O gecə Rəbbinin izni ilə mələklər və Ruh (Cəbrail) hər işə görə yerə enirlər".* (Qədr. 4). Beləcə mələklərin bütün işləri Allahın izni və ixtiyarı ilədir. Bu ayədə də həmçinin: "Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti Allahın istədiyi və Özünün razı qaldığı kimsələrdən başqa heç kəsə heç bir fayda verməz". (Nəcm. 26). Hədislərdə də varid olub ki: *"Əgər Allah bir qulunu sevərsə, Cəbrayıla buyurar:" Allah filan qulunu sevir, sən*

[167] Həmçinin bax: Saffət surəsi: 165.166.

*də onu sev. Cəbrayıl da onu sevər. Cəbrayıl da səma əhlinə səslənər: Allah filankəsi sevir, siz də onu sevin. Sonra ona yer üzündə qəbul qoyular"*[168]. Bu haqda hədislər çoxdur, hansı ki, mələklərin Allahın izni və əmri ilə işlər gördüyünə dəlalət edir .

Başqa bir ayə də qeyd edək: *"Kafirlər: "Mərhəmətli Allah Özünə övlad götürdü!"– dedilər. O, pakdır, müqəddəsdir! Əksinə, o mələklər möhtərəm qullardır. Mələklər Ondan qabaq danışmazlar; onlar ancaq Onun əmrini yerinə yetirərlər"*. (Ənbiya. 26-27).

Bu məsələni, yəni mələklərin Allahın iznindən, istəyi və iradəsindən müstəqil işlər görmədiyini bir misalla izah edək; məlumdur ki, insan dar çərçivədə düşünür. İnsanın idrakı məhduddur. Elə bu misalda da bu məsələ aydın olacaq; təsəvvür edin ki, bir insana hər hansı bir qapıdakı çox kiçik bir dəlikdən baxmaq imkanı verilir. O isə baxdıqda görür ki, vərəq üzərində qələm xətt çəkir. Fərz edək ki, bu adam qələm görməyib və sivilizasiyadan kənar bir yerdən gəlib. O insan düşünəcək ki, bu (qələm) yazır, hərəkət edir. Həmin kiçik dəliyi bir azca da böyütsək, görəcək ki, bu qələmi bir əl hərəkət etdirir. Başa düşəcək ki, yazını yazan əldir və o səhv anlayıb. Əgər həmin qapını tam olaraq açsaq, həmin şəxs yazını yazanın kim olduğunu da tam şəkildə görəcək. Beləcə, insan dar düşünür və hər şeydə gördüyünə və ya düşündüyünə inanmaq istəyir. Lakin, o öz idrakının məhdud olduğunu qəbul etmək istəmir. Əslində ateist düşünə bilər ki, Allahın hər şeyi bir məqsədlə yaratmasını bilmək kifayət edir. Yaratmaq özü üstünlükdür, ehtiyac deyil.

[168] Buxari. 3209. Muslim. 2637.

## Həlak olan qövmlərdə onlarla bərabər həlak olan uşaqların günahı nə idi?

**Sual:** Ateist qruplardan birində sual yazılıb: *"Hər kəs etdiyi əmələ görə cəzalandırılırsa, Allahın əzab etdiyi Nuh, Lut və s. qövmlərdəki uşaqlar hansı günahlarına görə həlak edilmişdilər?*

**Cavab:** "Nuh, Lut (Ad, Səmud) və s. qövmlərin bu dünyadakı cəzası özlərindən sonrakılar üçün bir ayət, ibrət olmuşdur, bu cəzalar təkcə onların əməllərinə qarşılıq olan bir cəza olmamışdır. Çünki, bu dünya qarşılıq verilən "cəza və mükafat" dünyası deyil. Bu əzabların bir ayət, ibrət olmasının mənası odur ki, bu ölüm, insanlara üz verən zəlzələ, fırtına və s. kimi təbii fəlakətlərdə baş verən ölümə bənzəmir. Ona görə ki, bu təbii fəlakətlərdə kimisi sağ qalır, kimisi ölür. Bu səbəbdən də dinsizlər bu fəlakətləri bütün gülünclüyü ilə təbiətlə bağlayırlar. (Biz bu hadisələrin elmi cəhətdən təbiətlə bağlı tərəflərini inkar etmirik, eyni zamanda bu hadisələri bütövlükdə təbiətə də bağlamırıq. Burada ilahi iradənin olduğunu bildiririk). *Xülasə odur ki,* bu kimi insanlığa ibrət olan kütləvi ilahi bəla hadisələri ilə baş verən əzabın təbiətdə baş verən digər fəlakətlər vasitəsilə ilə gələn əzabdan müxtəlif olması gərəklidir. Çünki, insanlığa ibrət olan ümumi əzabın gəlməsi hadisələrində heç kim sağ qalmır və heç kim qurtulmur. Ona görə də Quran ayələrinə fikir versək, əzab gəlməmişdən öncə Allah öz peyğəmbərlərinə (və mömin qullarına) əzab gələsi yeri və əzab

gələsi kimsələri tərk etməyi əmr edir. Bu əzabın hikmətini və əzab gələsi yerdə hər kəsin ölməsinin hikmətini bildikdən sonra, bu haqda ayətləri və təfsirləri yazıb mövzunu uzatmadan keçirik suala: bu ilahi əzab hadisələrində ölən uşaqların günahı nədir?

***Buna cavab olaraq deyirik ki:*** "Günahkarlarla bərabər ölən uşaqların günahı yoxdur və onlar etdikləri pis bir əmələ görə cəzalandırılmayıblar. Yəni, valideynlərinin də öldüyü hadisədə onların ölməsi onların özü üçün bir cəza sayılmır. Onlar Qiyamət günü öz niyyətlərinə görə dirildiləcəklər və onların aqibəti onlarla birlikdə həlak olan böyüklərindən fərqli olacaqdır. Necə ki, Buxaridə gələn hədisdə Qiyamətə yaxın Mehdi ilə döyüşməyə gedəcək ordunun hamısının yerin altına batması (girməsi) bildirilir. Belə ki bu, onların döyüşməyə getdikləri şəxsin Mehdi olmasını bildirən bir ayət və əlamət hesab olunur. Necə ki, səhih rəvayətdə bildirilib: *"Bir ordu Kəbəyə hücum çəkəcək, onlar geniş bir əraziyə çatdıqda onların əvvəlincisi və axırıncısı yerin altına batacaq. Aişə dedi: "ey Allahın Elçisi, onların arasında (onlara bağlı olmayan), ticarətə gələn və ya onlardan olmayan kəslər olduğu halda onların əvvəlincisi və axırıncısı necə yerin altına girə bilər? Dedi: "onların əvvəlincisi və axırıncısı yerin altına batarlar. Sonra isə niyyətləri üzərinə dirilərlər"*[169].

Həmin uşaqlar həqiqətdə qazanmış kimsələrdirlər. Çünki, onlar fitnədən qurtulmuş olurlar. Uca Allah buyurur: *"Fitnə qətldən daha pisdir"*. (əl-Bəqərə, 191). Deməli, onların bu dünyada düçar olduqları əzab onları kafirlik fitnəsinə düşməkdən qoruyur və ən azından axirətdə yeni bir imtahan olunmaq şansı əldə edirlər və

[169] Səhih əl-Buxari. 2118.

fətrət əhlindən olurlar. Əgər yaşasaydılar əbədi cəhənnəmlik ola bilərdilər. Lakin, o uşaqlar günahı haqq edən pis əməlləri etmədən axirətlərini qazanmaq üçün fürsət əldə etdilər. O uşaqlar bəla gələn şəxslərlə bərabər yaşasaydılar, onların tayı ola bilərdilər. Sonda az bir müddət çəkilən ağrı-acı ilə (ölümlə) küfr üzərində yaşamaqdan qurtuldular. Əgər onlara axirətdə bir neçə saatlıq və ya bir neçə günlük və ya bir neçə illik əzabı dadmaq, yaxud əbədi səadətə nail olmaq, yaxud da dünyada küfr içində yaşamaq seçimi verilsəydi, şəkk yoxdur ki, onlar nəcat yolunu, salamatlığı, əbədi səadət yolunu seçərdilər!

## Nuhun tufanı haqqında bəzi iddialara cavab

**Şübhə:** *Əgər Nuhun tufanı bütün dünyanı əhatə etmişdisə, bu özündə ağıla zidd olan bir çox məsələləri lazımlı edir: bunlardan biri belədir: necə oldu ki, Nuhun gəmisi çoxlu sayda və növdə heyvanları bir arada cəm edə bildi? Bir-birini ovlayan bəzi heyvanlar necə bir arada cəm oldu? Bu heyvanların qida və su təminatı necə baş verdi? Heyvanlar xüsusiyyətləri və həyat tərzi müxtəlif olduğu halda gəmidən endikdən sonra bütün heyvan növlərinə münasib həyat mühiti necə təmin edildi?*

**Cavab:** Bu hadisəni dəlil gətirərək ilə İslamın ağıla zidd olması iddiasını irəli sürmək doğru deyil; ona görə ki, bu iddia bir neçə

bilgi yetərsizliyi və metodiki səhvlər üzərində bina olmuşdur. Bu səhvləri ortaya çıxarmaq iki aspektdən ediləcəkdir:

**Birinci aspekt:** Biz tufanın bütün yer üzündə baş verməsi iddiası ilə razı deyilik; Qurani-Kərimdə bu tufanın bütün yer üzündə baş verməsini dəstəkləyən dəlil yoxdur. Qurani-Kərim digər səmavi kitablar kimi deyildir. Bu məsələyə Qurani-Kərimdə toxunulmamış və aşkar, birbaşa olaraq bu hadisənin təfsilatlarına toxunulmamışdır. Quranda Nuhun zamanında baş vermiş tufan bütün yer üzündə baş verməsi haqqında konkret fikir olmasını iddia etmək ictihad və zənn üzərində qurulmuş bir iddiadır. Çünki, bəzi ayələrdən olar bilsin ki, tufanın bütün yer üzündə baş verməsinə dəlalət etməsi mənası götürülsün; necə ki*: "Nuh dedi: "Ey Rəbbim, kafirlərdən yer üzündə bir nəfəri belə sağ qoyma!"* (Nuh. 26). Necə ki, başqa ayədə belə deyilir: *"Nəhayət, əmrimiz gəldiyi və təndir qaynayıb daşdığı zaman Biz Nuha dedik: "Heyvanların hər növündən bir cüt, barələrində söz keçmiş kəslər istisna olmaqla, öz ailəni və bir də iman gətirənləri gəmiyə mindir." Lakin, onunla birlikdə az adam iman gətirmişdi".* (Hud. 40) Bəzi ayələr isə bu tufan hadisəsinin məhz Nuhun qövmünə gəldiyinə dəlalət edir, uca Allahın bu ayəsi kimi: *"Biz Nuhu öz qövmünə peyğəmbər göndərdik. O, min ildən əlli il az bir müddət ərzində onların arasında qaldı. Tufan onları zülm etdikləri zaman yaxaladı".* (Ənkəbut. 14). Qurani-Kərim Nuhu (əleyhissalam) yalnız öz qövmünə göndərilmiş bir elçi olaraq vəsf edir.

Bir çox təfsir alimləri bu ehtimalın həqiqi olmasını müdafiə etmişlər. Bu alimlərdən bəziləri müasir əsrimizdən öncə bu fikri demişlər. İbn Atiyyə bu ayə *"Sonra o birilərini suya qərq etdik"*

(Şüəra. 66) haqqında demişdir: "Bu ayədə tufanın bütün yer üzünü əhatə etməsi haqqında dəlil dəlil yoxdur"[170]. Tahir ibn Aşur isə demişdir: "Tufanın ümumi olması Quran və sünnənin zahiridir. Əgər tufanın ümumi olmasının dəlilləri qəti deyilsə, o zaman onu (tufanın ümumi olmasını) inkar edənlərin arqumentləri qüvvətli deyil, buna görə dəlillərin zahiri tərk oluna bilməz"[171]. (Bu sözləri desə də) Lakin o əvvəl dediyi sözdən sonra başqa yerdə deyir: "Yer (الأرض)sözündən bütün yer kürəsi də qəsd oluna bilər, yaxud da danışan, xitab edən üçün məşhur bir yer də qəsd oluna bilər. Necə ki, Allahın bu ayəsində deyilir: *"Yusuf dedi: “Məni bu diyarın xəzinələriə məmur təyin et"*. (Yusuf. 55). Yəni, Yusuf surəsində qeyd olunan Misir diyarı.

Həmçinin, ehtimal olunur ki, həmin vaxtda (tufan vaxtında) bəşər övladı Nuh qövmündən ibarət idilər və bunun əksi də mümkündür.

Bu ehtimallarla bərabər başqa bir ehtimallar da yaranır ki, o da bütün yer kürəsinini tufanın basması ehtimalı və yer üzününün ümumi hissəsindən böyük bir hissəsini cənginə alan tufanın baş verməsi ehtimalıdır"[172]. Beləcə bu ehtimalları təsdiqləyir.

Bunun kimi bu görüşü bəzi qərbli araşdırmaçılar da seçmişlər. Onlardan biri Mouris Bukaydır, o demişdir: "Quran kitabın tufan fəlakətini Nuh xalqına üz vermiş xüsusi bir cəza olaraq təqdim edir.

---

[170] əl-Muharrar-əl-Vaciz. 4/547.
[171] ət-Təhrir vət-Tənvir. 23/131.
[172] (Eyni mənbə. 29/214).

Bu da Tövrat və Quranda verilmiş iki rəvayət arasındakı birinci əsas fərqi formalaşdırır"[173].

Bu məqamda Quranın digər səmavi kitablarda u tufan haqqında verilmiş ətraflı izahları tərk etdiyini vurğulamaq labüddür. Bir çox təfsir alimləri Quranın tufan haqqında qeyd etməyi tərk etdiyi təfsilatlar bilgi vermişlər; gəminin uzunluğu və eninin vəsfi, onun hansı növ taxtadan düzəldilməsi, onun qapısının yeri, təbəqələrinin sayı, orada daşınan heyvan növlərinin sayı, heyvanların gəmiyə hansı formada minməsi, gəminin suyun üzərində üzdüyü müddətin nə qədər olması, gəminin dayandığı yer kimi və s. xəbərlər ki, bunlara dəlil yoxdur və bunları Quranla əlaqələndirmək doğru deyil"[174].

Bu izah yoluna uyğun olaraq tufan hekayəsinə görə İslamın ağıla zidd olmasını iddia edib İslama bu mövzuda etiraz etmək doğru deyil. O baxımdan ki, tufan bütünlüklə yer üzünü əhatə etməyib.

**İkinci aspekt:** Əgər fərz etsək ki, tufan bütün yer üzünü əhatə edib və bu görüşü də bir çox İslam alimləri deyiblər, hətta bəzi araşdırmaçılar ibn Kəsirin bu haqda icma nəql etməsini də deyiblər, o deyirdi: "Rəhmanın elçilərindən nəql edən dinlərin sahibləri icma ediblər ki - başqa zamanlarda da (bu haqda) çoxlu xəbərlərin gəlməsilə yanaşı - tufan baş vermiş və bütün ölkələri əhatəsinə almışdır. Allah bu tufan vasitəsilə onu inkar edən heç bir qulunu sağ buraxmamışdır. Bu, Onun məsum, dəstək görən peyğəmbərinin

[173] (Müqəddəs kitabların müasir bilgilər işığında öyrənilməsi. səh. 246).
[174] (əl-Muharrar-əl-Vaciz. İbn Atiyyə. 7/295. Təfsirul-Mənar. Muhəmməd Rəşid Rıza. 12/60)

duasına cavab və öncədən qaçınılmaz qədərdə yazılmış olan şeyin gerçəkləşməsi üçün idi"[175]. Lakin bu görüş onun yerin ümumunu qəsd etdiyinə dəlalət etmir. Bunun zahiri yalnız Nuhun mövcud olduğu ölkələrin ümumunun və yaxud da Nuhun dəvətinin çatdığı yerlərin qəsd edilməsinə dəlalət edir.

Bu məsələyə bu cür yanaşmada tufanın ümumi olması və tufan əsnasında baş verən proseslər ağılla ziddiyyət təşkil etmir, nə də əqli qanunlara zidd məsələləri ehtiva etmir; çünki, tufan ilahi möcüzələrdən bir möcüzədir və bu tufan Allahın güc və qüdrətindən kənar olmamışdır. Bu tufanda olan qayə, məqsəd ağılların uzaq tutmaq istədiyi bir şey də deyil. Çünki, tufan və onu ehtiva edən şeylər kainatın geniş qalaktikalarla və böyük ulduzlarla yaranmasından daha böyük bir hadisə deyil. Bu geniş, böyük kainatı yaradanın qüdrəti bütün heyvanları bir yerə yığmağa da qadirdir. O bütün heyvanları yemək və su ilə təmin etməyə də qadirdir. Hətta Allah onları bir neçə gün susuz belə qoymaz, onların arasında ülfət yaratmaqdan da aciz olmaz, tufanın baş verdiyi hal möcüzə halıdır, təbiət qanunlarından kənar bir haldır, təbii bir hal deyil .

Mömin tufana inandığı zaman öz imanının təməl prinsiplərinə və əsaslarına uyğun olaraq inanır, o inanır ki, uca Allah kainatın yaradıcısıdır və Allah kainatın yaranmasından daha kiçik və daha dar həcmli bir işi görməkdən aciz qalmaz. Uca Allah buyurur: *"Həqiqətən, göylərin və yerin yaradılması insanların yaradılmasından daha böyük şeydir. Lakin insanların çoxu bunu*

[175] əl-Bidayə vən-Nihayə. 1/275.

*bilmir"*. (Ğafir. 57). Tufan kimi möcüzdən daha böyük işləri uca Allah ərsəyə gətirmişdir və bu onun üçün çətin deyildir .

Mömin tufan kimi bir hadisəyə zəif insan qüdrəti pəncərəsindən baxmır, o bu hadisəyə geniş ilahi qüdrət pəncərəsindən bacır, hansı ki, Allah bu qüdrətilə əzəmətli, böyük kainatı yaratmışdır. Kainatın yaranmasına iman etmək möminin möcüzələrə və xariqüladət hadisələrə yanaşmasındakı söykəndiyi əsas qaydalardan biridir. Bu əsasa söykənərək mömin möcüzələri təsdiqləkdə fikrini cəmləyir. Bu təməl qayda, təməl prinsip mömində mövcud olduğu üçün o (bundan daha kiçik hadisənin) tufanın baş verəcəyinə də inanır. Əgər o buna (bu əqli əsasa) inanmazsa, bu zaman ziddiyyətə düşər və ağıllardan üz döndərər .

Əgər tufana etiraz edən kimsə deistdirsə, bu zaman o, əqli dəlilə əsasən ilahi qüdrət sayəsində baş vermiş tufan hadisəsini qəbul etmək zorundadır. Çünki, deist bundan daha böyük, daha əzəmətli bir hadisənin ilahi qüdrətlə baş verə biləcəyini əqli yolla qəbul etmişdir, bu da daha kiçik hadisələrin baş verməsinin daha asan şəkildə mümkün olmasını qəbul etməyi gərəkli edir.

Əgər tufan hadisəsini inkar edən Allahın varlığını inkar edən ateistdirsə, onunla birbaşa tufan məsələsinin müzakirəsinə yönəlmək doğru deyil. Çünki, o tufanın baş verməsinin nəyə əsasən qəbul edilməsinin lazım olduğu təməl əqli əsası inkar edir, o da kainatın yaradılmasıdır. Bu zaman onla edilməsi gərəkən kainatı Allahın yaratması və kainatın bir yaradıcı olmadan ərsəyə gəlməsinin mümkün olmaması haqqında danışmaqdır. Əgər o bunu qəbul edərsə, bu zaman onunla kainatın təfsilatlarının yaradılışı haqqında danışmaq mümkün olar ki, tufan hadisəsi də bu

təfsilatlardandır. Əgər o bunu qəbul etməzsə, - əqli cəhətdən belə bir tufanın baş verməsinin mümkünlüyünü qəbul etməsi halı istisna olmaqla - belə bir kimsə ilə ağıllı bir kimsənin söhbəti faydasız olar[176].

## Adəmin yaradılış surəti və boyunun uzunluğu haqda ateist şübhəsinə cavab.

**Sual:** *Allah Adəmi öz surətində yaradıb? Buxari və Müslimdə Adəmin boyunun 60 dirsək hündürlükdə olması yazılıb. Bəzi ateistlər bunu da təhrif edib Allahın 60 dirsək boyunun olduğunu deyib dinlə istehza edirlər, buna necə cavab vermək olar?*

**Cavab:** Gəlin birinci hədisi orjinalından oxuyaq, sonra cavaba keçək;

روى البخاري (6227) ومسلم (2841) عَنْ أَبِي هُرَيْرَةَ عَنْ النَّبِيِّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ قَالَ : خَلَقَ اللَّهُ آدَمَ عَلَى صُورَتِهِ طُولُهُ سِتُّونَ ذِرَاعًا فَلَمَّا خَلَقَهُ قَالَ اذْهَبْ فَسَلِّمْ عَلَى أُولَئِكَ النَّفَرِ مِنْ الْمَلَائِكَةِ جُلُوسٌ فَاسْتَمِعْ مَا يُحَيُّونَكَ فَإِنَّهَا تَحِيَّتُكَ وَتَحِيَّةُ ذُرِّيَّتِكَ فَقَالَ السَّلَامُ عَلَيْكُمْ فَقَالُوا السَّلَامُ عَلَيْكَ

وَرَحْمَةُ اللَّهِ فَزَادُوهُ وَرَحْمَةُ اللَّهِ فَكُلُّ مَنْ يَدْخُلُ الْجَنَّةَ عَلَى صُورَةِ آدَمَ فَلَمْ يَزَلْ الْخَلْقُ يَنْقُصُ بَعْدُ حَتَّى الآن".

176 Məqalənin hazırlanmasında dr. Sultan əl-Umeyrinin "Müasir qərb fikrində dinin tənqidi problemi" kitabından geniş istifadə edilmişdir.

Əbu Hureyrədən rəvayət etdiyi hədisdə Peyğəmbər (صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ) buyurmuşdur: *"Allah Adəmi öz surətində yaratdı. (Adəmin boyunun) uzunluğu 60 dirsək idi. Allah onu yaratdığı zaman ona (Adəmə) dedi: "Get əyləşmiş bir qrup mələklərə salam ver. Onların səni necə qarşılamalarını (salamlarını) dinlə, bu sənin və zürriyyətinin salamlamasıdır. O da onlara: ƏsSələmu aleykum dedi, onlar da ona:" va aleykəs-Sələm və rahmətullah" - dedilər. Ona "və rəhmətullah" sözünü artırdılar. Cənnətə daxil olan hər kəs Adəmin surətində daxil olacaqdır. İnsanlar indiyə kimi (bədəncə) kiçilməyə davam edirlər"*[177].

وروى مسلم (2612) عَنْ أَبِي هُرَيْرَةَ قَالَ : قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ : " إِذَا قَاتَلَ أَحَدُكُمْ أَخَاهُ فَلْيَجْتَنِبْ الْوَجْهَ فَإِنَّ اللَّهَ خَلَقَ آدَمَ عَلَى صُورَتِهِ ".

Hədisin Səhihi-Müslimdə gələn bir ləfzində deyilir: Əbu Hureyrədən rəvayət olunur ki, Allah Elçisi (صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ) buyurdu: *"Sizdən biri öz qardaşı ilə vuruşarsa, onun üzünə vurmaqdan çəkinsin, çünki Allah Adəmi öz surətində yaratmışdır"*[178]. Bu mövzuda başqa mötəbər rəvayətlər də var .

**1 -** Allahın Adəmi öz surətində yaratması - sözündəki على صورته sözü haqqında ərəbcə bilməyən ateistlərin danışmaması yaxşıdır: İslam alimlərindən burada "damirin" (onun (o) işarə əvəzliyinin) Allaha, yoxsa, Adəmə, yoxsa, kəsinti ilə verilən hədisdə "üzünə vurulan şəxsə" qayıtdığı haqda üç görüş var. Qeyd edək ki, hədisin bütün ləfzlərində "üzünə vurulan şəxsdən" söhbət getmir. Əksər alimlər burada damirin (şəxs əvəzliyinin) Allaha qayıtmasını

177 Səhih əl-Buxari. 6227; Səhihi Müslim. 2841.
178 Səhihi-Müslim. 2612.

desələr də, "Allahın surətində yaradılışın" Allaha bizim təsəvvürümüzdəki bənzərlik anlamında olmadığını, Quranda Allahın "eşitməsi, görməsi, danışması" kimi özünə layiq işlərin insanda Allaha bənzəməyən formada olmasını demişlər. Necə ki, Allah öz məxluqatından heç nəyə zatı ilə bənzəmir. Biz filin ayağı ilə qarışqanın ayağını müqayisə edəndə oxşarlıqdan sözhbət getmir qətiyyən, bu müqayisəyə ərəbcədə "Qiyas məal-Əvlə" (قياس مع الأولى) deyilir. Eləcə də əgər iki məxluqun müqayisəsində belə bir fərq yaranırsa, o zaman görün indi Yaradanla məxluqu öz təsəvvürümüzlə müqayisə edə bilərikmi? Qətiyyən bu mümkün deyil. Quranda Allahın heç nəyə zatı ilə bənzəmədiyi haqda deyilir: *"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir"*. (Şura. 11). Baxmayaraq ki, eyni ayədə Allahın eşitməsi və görməsindən bəhs edilir, lakin, Allahın eşitməsi və görməsi insana bənzəmir, özünə layiqdir, məxluqa bənzədilməz, inkar da edilməzdir. Allahın ayədə özünün eşidən və görən olduğunu qeyd etməsilə insanın eşidən və görən olması insanın Allah kimi olması anlamına və ya belə bir batil bənzərlik anlamına yozula bilməz. Necə ki, hədisdə: *"Cənnətə ilk daxil olanlar bədirli gecədə olan ay (qəmər) şəklində olacaqlar"*[179] - deyilmişdir. Bu o demək deyil ki, "onlar ayla eyni görünüşdə" olacaqlar. Nədir bunun mənası? Məgər o deməkdir ki, onlar da ay kimi planet və ya ulduz şəklində olacaqlar? Xeyr, bu qəsd olunmur. Bir insana *"ay üzlü"* deməklə onun gözəlliyinə, üzünün parlaqlılığına işarə edilir. Deməli, bütün zahiri bənzətmə görünən misallar qarşılıqlı, mütləq bənzəmə mənasında deyil. Ayətlərdən mənası dərhal bəlli olmayan mütəşabih ayətlər olduğu kimi, hədislərdə də mənası dərhal bəlli olmayan hədislər olur, uca

[179] Səhih əl-Buxari. 3327; Səhihi Muslim. 2834.

Allahın Quranda xəbər verdiyi kimi qəlblərində mərəz olanlar hər dəfə zahiri mənaları fitnə məqsədilə öz istədikləri kimi yozurlar: *"Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi muhkəm (hər kəsin başa düşdüyü) ayələrdir ki, bunlar, Kitabın anasıdır. Digərləri isə mutəşabih (müstəsna insanların başa düşüdüyü) ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə, mutəşabih ayələrin ardınca gedərlər. Halbuki onun yozumunu Allahdan başqa heç kəs bilməz. Dərin biliyə malik olanlar isə deyərlər: "Biz ona iman gətirdik, hamısı Rəbbimiz tərəfindəndir." Ağıl sahiblərindən başqa heç kəs bunu dərk edə bilməz"*. (Ali İmran. 7).

**2 -** Rəvayətin ikinci hissəsində isə "damir" (şəxs əvəzliyi) Adəmə qayıtdığı halda onun mənası təhrif edilərək, məna Adəmə deyil, Allaha nisbət edilib və guya "Allahın da 60 dirsək boyu var imiş" kimi verilib. Bu, açıq-aşkar təhrifdir. Bunu İslam tarixində İslam alimlərindən heç kim deməyib, hətta din düşmənləri belə iddia etməsələr də indi kimsə bir ateist bu iddianı etmək istəyib. Ümumiyyətlə, rəvayət tam verilsəydi, məna daha dolğun olardı və oxucu məsələni daha yaxşı anlayardı. Qaldı ki, Adəmin, yəni ilk insanın boyunun 60 dirsək olmasına, bəli Adəmin boyunun 60 dirsək olması sabitdir və qədim insanlardan bu yana insanın boyunun kiçilməsi haqqında müxtəlif rəvayətlər mövcuddur. Bu rəvayətlərdən biri elə Buxari və Müslimdə rəvayət olunan 60 dirsək sözü keçən hədisinin son hissəsində peyğəmbərin dediyi bu sözdür: "*İnsanlar indi də kiçilməyə davam edirlər*"[180].

[180] Səhihi Muslim. 7092.

قال الحافظ ابن حجر في فتح الباري (367/6) : ( أي أن كل قرن يكون نشأته في الطول أقصر من القرن الذي قبله ، فانتهى تناقص الطول إلى هذه الأمة واستقر الأمر على ذلك).

Hafiz ibn Həcər insanın kiçilməsi haqda hədisi şərh edərkən demişdir: "Yəni, hər əsrdə insanın uzunluğunun inkişafı özündən əvvəlki əsrə nisbətdə kiçik olur. Beləcə insanların boyunun uzunluğunun kiçilməsi bu ümmətdə belə bir hala çatmışdır və bunun üzərində istiqrar etmişdir"[181].

Bəzi araşdırmaçılar doğru mənanın "cənnətdə Adəmin boyu altmış dirsək olub, dünyada isə Allah Adəmə buranın qanunauyğunluqlarına uyğun boy-buyun vermişdir" - sözünə gəldikdə isə bu doğru deyildir. Çünki, *birincisi,* bu haqda (insanın boyunun zamanla kiçilməsi haqda) peyğəmbərin səhih hədisi var və o hədis bu prossesi təsdiqləyir. Sələflərin də bu haqda mötəbər sözləri var. *İkincisi:* reallıqda da biz tarixdə qeyri-adi böyüklükdə nəhəng insanların mövcud olduğunu bilirik və bu haqda kifayət qədər elmi araşdırmalar da öz əksini tapmışdır. Həmçinin, normal insanlardan təxminən üç dəfə kiçik olan "liliput" insanların mövcudluğu bizə əyani sübutdur ki, Allah hər şeyə qadirdir !

"1890-cı ildə Fransanın cənubunda tapılmış "Kastelano" nəhənginin 3 metr yarım boyu olan sümükləri aşkar edilmişdir. Nəhənglərin qalıqları demək olar ki, dünyanın bütün ölkələrində - Tunisdə, Meksikada, Pensilvaniyada, Peruda, mərakeşdə, İspaniyada, Texasda, Suriyada, Avstraliyada, Filippində, Cənub-Şərqi Asiyada, Gürcüstanda və Okeaniya adalarında rast gəlinir.

[181] Fəthul-Bari. İbn Həcər. 6/367.

2008-ci ildə Gürcüstanın Borjomi şəhəri yaxınlığında arxeoloqlar 3 metr boyu olan insanın skeletini aşkarladılar. Onun kəllə sümüyü adi insanınkından 3 dəfə böyük idi.

Nəhənglərin skeletinə Avstraliyada da rast gəlinib. Orada araşdırmaçılar eni 42 mm və hündürlüyü 67 mm olan nəhəng diş tapmışdılar. Ekspertlərin son rəyinə görə, dişin sahibi 7,5 metr boyu olan və 370 kq ağırlığında olublar .

Analoji tapıntı Çin ərazisində də əldə edilib. Orada arxeoloqlar boyu 3-3,5 metr, çəkisi isə 300 kq-a yaxın olan insanın çənə sümüyündən bir hissə tapmışdılar.

Cənubi Afrikada almaz mədənində nəhəng insanların kəllə sümüyündən 45 sm-lik bir hissə tapmışdılar .

Türkiyənin dağlıq ərazilərində çoxlu sayda nəhəng sümüklər aşkarlanıb. Onların arasında 120 sm hündürlüyündə daşlaşmış insan ayaq da var idi. Bunun nəticəsində həmin insanın boyunun 5 metr olduğu müəyyənləşir"[182]. Qeyd edilən mənbədən nəql etdiyim məlumatlardan bu qədərilə kifayətlənirəm.

**3 -** Dinsizlərin bu "Allah insanı öz surətində yaratdı" rəvayətini "ziddiyyət" kimi qələmə vermələri onların özünü ziddiyyətə salır. "Allah insanın vicdanıdır" deyənlər, Allahı "vicdana sığışdırmağa çalışanlar" dini aspektdən necə küfr bir söz dediklərini anlamamaları bir yana, dindən elementar məsələləri bilmədikləri halda belə böyük mənalı, təfsilata ehtiyac duyulan məsələlərdə

[182] Day.az saytına istinadən bu məlumatlar. Məqaləni ətraflı oxumaq istəyənlər bu adla məqalənin elektron versiyasını oxuya bilərlər: *(Nəhəng insanlar dövrü və Ad qövmü: Mif, yoxsa reallıq? ARAŞDIRMA).*

gərək ümumən danışmasınlar. Dinsizlərə görə Allah insanın vicdanında ola bilir, amma Allah özünə məxluqun bənzəməsindən uzaq bir mənada "Adəmi öz surətində" yarada bilmir. Hər kəsə məlumdur ki, Allah məxluqlara bənzəməz və Onu məxluqlara bənzətmək küfrdür. Lakin, Allahın öz bəndəsi Adəmi öz surətində yaratması dedikdə dərhal zatı, fiziki bənzətməni nəzərdə tutmağın doğru olmadığını bilmək də çətin deyil. Artıq yuxarıda bu məna izah edildi. Necə ki, Allahın özünə layiq eşitməsi, görməsi var, insana da bu sifətləri verib. Burda bənzətmədən qətiyyən söhbət getmir və Allahın məxluqa bənzəməsi mümkün də deyil.

## Quranı bu iki ayəyə görə bəşər sözü sayanlara cavab!

**Şübhə belədir:** *Savadsız, dindən anlayışı olmayan, ərəb dilində bixəbər ateistlər deyirlər ki, guya Quranın bu ayəsi onun bəşər sözü olmasına dəlildir: "Allah onları öldürsün, necə də haqdan döndərilirlər". (Münafiqun. 4). Buna bənzər digər ayədə deyilir :*

"Allah onları öldürsün, necə də haqdan döndərilirlər". (Tövbə. 30).

**Cavab belədir:** Qurtubinin təfsirində "Tövbə" surəsi 30-cu ayə haqqında deyilir:

السابعة : قوله تعالى قاتلهم الله أنى يؤفكون أي لعنهم الله ، يعني اليهود والنصارى ؛ لأن الملعون كالمقتول . قال ابن جريج : قاتلهم الله هو بمعنى التعجب . وقال ابن عباس : كل شيء في القرآن قتل فهو لعن ، ومنه قول أبان بن تغلب :

قاتلها الله تلحاني وقد علمت أني لنفسي إفسادي وإصلاحي وحكى النقاش أن أصل " قاتل الله " الدعاء ، ثم كثر في استعمالهم حتى قالوه على التعجب في الخير والشر ، وهم لا يريدون الدعاء . وأنشد الأصمعي : يا قاتل الله ليلى كيف تعجبني وأخبر الناس أني لا أباليها

*(Mənası belədir) Yeddincisi:* Uca Allahın: "Allah onları öldürsün, necə də haqdan döndərilirlər" - kəlamı, yəni, onlara lənət etsin, yəni: yəhudi və xristianlara. Çünki, lənətlənmiş (rəhmətdən qovulmuş) öldürülmüş kimsə kimidir. İbn Cureyc demişdir: Allah onları öldürsün, "təəccüb" mənasındadır. İbn Abbas demişdir: Quranda "qətl" kimi işlədilən hər söz "lənət" mənasındadır. Qurtubi buna ərəb şairi Əban ibn Təğlibin bir beyt şeirini misal çəkdikdən sonra belə deyir: "Sonra bu sözü (yəni, Allah onu və ya onları öldürsün) o qədər çox işlətdilər ki, bunu xeyir və şərdə "təəccüb" mənasında işlətdilər. Onlar bundan dua mənasını qəsd etmirlər. (Məşhur ərəb şairi) Əsmai demişdir: Ay Allah Leylanı öldürsün (Ah bu Leyla - mənasında), o necə də məni təəccübləndirir, insanlara xəbər verin ki, o məni maraqlandırmır[183].

Şeyx Xalid əs-Səbt (hafizahullah) öz rəsmi saytında bu ayənin təfsirində yuxarıda qeyd etdiyimiz mənaları qeyd etdikdən sonra belə demişdir:

"Sonra bu söz ərəb dilində təəccüb mənasında istifadə olunmuşdur və (zahiri) mənası qəsd olunmamışdır. Belə deyirlər: Allah onu öldürsün, necə də şücaətlidir! Allah onu öldürsün, necə də səbirlidir! Allah onu öldürsün, necə də cəlddir! Allah onun öldürsün, necə də zəkalıdır! Allah onu öldürsün, necə də güclü

---

[183] Əl-Cəmiu li-Əhkəmil-Quran. Tövbə. 30-cu ayənin təfsiri. 7-ci məsələ.

əzbərləyir! Beləcə (ərəb dilində olan) bu sözlər kimi olur: Əlləri qurusun (xeyrə çatmasın), burnu yerə sürtülsün"[184].

Bu məqamda gərəkən mühüm bir qeyd də budur ki, bu sözləri peyğəmbər (sallallahu aleyhi və səlləm) xeyir işlərə rəğbətləndirərkən istifadə edib, ondan biri: *"Valideynlərindən biri və ya hər ikisi yaşlı vaxtına çatdıqda (onlara xidmət edib) cənnəti qazanmayan kimsənin burnu yerə sürtülsün!"* - hədisidir, burdakı məna həqiqi məna deyil, xeyrə təşviqdir, yuxarıdakı sözlər də bu qəbildəndir.

Misallardan da göründüyü kimi," "Allah onu öldürsün, necə də şücaətlidir" deyildikdə, ərəblər təəccüb ifadə edirlər, sanki, "buna baxın, necə də şücaətlidir!", yaxud buna bənzər bir söz qəsd edilir. Yuxarıda şeyxin çəkdiyi digər misallar da bunun kimi təəccüb mənası verir. Bir daha qeyd edək ki, bu məna həm xeyir, həm də şər haqda təəccübü də əhatə edir .

"Allah onu öldürsün" sözünün bu təəccüb mənasında işlənməsini ərəb dili qrammatikasın tarixdə bilinən ən böyük alimlərindən biri və ən böyük ərəb dili lüğətinin müəllifi olan ibn Mənzur da təsdiqləyir[185].

Ərəb dilinin incəliklərini bilmədən ondan öz ağıllarına görə mənalar çıxarıb Qurani-Kərimdə səhv tapdığını iddia edən ateistlərə məsləhət görürük ki, bilmədikləri məsələlərdən danışmasınlar.

[184] khaledalsabt.com saytında verilmiş sözlərin ərəbcəsi belədir:
" ثم صار ذلك أيضا يستعمل في كلام العرب للتعجب ولا يقصد معناه، يقال: قاتله الله ما أشجعه!، قاتله الله ما أصبره!، ما أجلده!، ما أحذقه!، ما أحفظه!، فيكون مثل: ترِبتْ يداه، ورغِم أنفُه، وما أشبه ذلك".

[185] Bax: Lisanul- Arab. İbn Mənzur. 12/30.

Allaha iman gətirin. İnsanları haqq yoldan azdırmayın! Uca Allah Qurani-Kərimdə buyurmuşdur: *"Əgər Muhəmməd bəzi sözləri özündən uydurub Bizə aid etsəydi, Biz onu sağ əlindən yaxalayar, sonra da şah damarını kəsərdik. İçərinizdən heç kəs buna mane ola bilməzdi. Həqiqətən, bu Quran müttəqilər üçün bir nəsihətdir. Aranızdan Quranı yalan sayanlar olduğunu da bilirik! Həqiqətən, bu, kafirlər üçün bir peşmançılıqdır. Sözsüz ki, bu Quran əsl həqiqətdir. Elə isə Böyük Rəbbinin adına tariflər de!"*. (əl-Haqqa. 44-52).

Sonda qeyd edək ki, bu iki ayənin biri münafiqlər, digəri xristian və yəhudilər haqqındadır. İndi isə gəlin hər iki ayəni ateistlərin kəsinti ilə verdikləri kimi deyil, tam şəkildə oxuyaq:

Münafiqun surəsinin 4-cü ayəsi: *"Sən onlara baxdıqda onların bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər. Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar. Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları öldürsün! Necə də haqdan üz çevirirlər."!*

Tövbə surəsinin 30-cu ayəsi: *"Yəhudilər: "Üzeyir Allahın oğludur"– dedilər. Xaçpərəstlər də: "Məsih Allahın oğludur"– dedilər. Bu onların ağızlarından çıxan sözlərdir. Bu, daha əvvəlki kafirlərin sözlərinə oxşayır. Allah onları öldürsün! Gör necə də haqdan döndərilirlər".*

# Kitabın içindəkilər

Giriş........................................................................................2

Kainatın yaranması təsəvvürləri və İslami izah..............................4

Təcrübi elmin sərhədləri...................................................................21

Allah insanı niyə yaradıb?..............................................................30

Nə üçün məhz İslam və başqa dinlər yox?.....................................36

Əgər din doğrudursa, nəyə görə dindarlar ixtilaf edirlər?.........................................................................................48

"İnsanlar öz ölkəsinin dinini mənimsəyir" - şübhəsi......................56

Ateistin sualı: şəkildəki uşaq niyə o haldadır?...............................61

Qisas barədə sual və cavabı.............................................................65

İslam dini şumerlərdən götürülüb?..................................................68

Zəiflərin, uşaqların ölümü və xəstəliyi barədə...............................77

Sovet Azərbaycanında dinsizliyi necə yaydılar?............................84

"Əl-ilah" adında büt olubmu?..........................................................96

İslamda çoxarvadlılıq məsələsi......................................................100

İslami cihadın mahiyyətini aşağılayan bəzi şübhələrə cavablar...107

Allah varsa, nə üçün cənnəti yalnız müsəlmanlara vəd edir?.......115

İslam haqdırsa, müasir dünyada niyə hər kəs müsəlman deyil?...120

İslam əxlaqını tənqid etmək üçün gətirilən şübhələr....................126

İslamda zinakar və təcavüzkarın cəzası haqda şübhəyə cavab.....133

On dörd əsrdir müsəlman olmağın faydası nədir?........................138

Ögey qızla evlənmək şübhəsi və cavabı (Nisə. 23)......................151

Uşaq qızla evlənmək şübhəsinə cavab (Talaq. 4).........................155

Üç daşla təmizlənmək barədə şübhəyə cavab...............................160

İslamda azyaşlı qızların ərə verilməsi şübhəsi.............................161

Peyğəmbərlər yalnız Yaxın Şərqə gəlib?......................................177

Qütblərdə namaz və oruc vaxtları haqda şübhəyə cavab.............186

Cariyələr" barədə ateist şübhəsinə cavab.....................................193

Mənim Allahım "vicdanımdır" deyənlərə cavab..........................200

Pandemiya dinə qarşı nə qədər ziyan verdi?.................................209

Xızırın oğlan uşağını öldürməsi haqsızlıq deyildimi?..................215

"Ateistə xitab" şeiri.........................................................................226

Dünya öküzün və ya balinanın üzərində dayanıb?.......................242

Ateistlərin "Allah məni yedizdirin" deyir - şübhəsinə cavab........244

Quran Allah kəlamıdırsa, niyə onu başa düşmək çətindir?...........249

Heyvanları, bitkiləri məhv etmək ədalətsizlik deyil?...................254

Mən insan olmaq istəmirdim, Allah məni niyə insan olaraq yaratdı? – sualına cavab.........................................................................256

Dinsizlərin daha bir yalanının ifşası, 5000, yoxsa 22 din var?....................................................................................260

Quranın tərcümələri düz gəlmir?................................................262

Ateistlərin məşhur "dinlər arasındakı oxşarlıq elementləri" bir həqiqi din anlayışına ziddirmi?...................................................267

Nə üçün daha peyğəmbər göndərilmir?.......................................272

Oruc tutmaq insanı zəiflədir?.......................................................276

Nə üçün Allah Quranda and içir?..................................................282

Nə üçün Allah öz yaratdığı məxluqa and içir?.............................285

Kəbəni təvaf etmək bütpərəstlikdir" deyənlərə cavab..................285

Möcüzələr və qeyb aləmi haqda ateistlərə cavab..........................288

Qurban bayramı haqda ateistlərin bir şübhəsinə cavab.................294

İslam dini ərəblərin folklorunu, adət-ənənəsini və məişətini əks etdirir?...........................................................................................297

İldırımın baş verməsinin İslami aspektdən izahı müasir elmə ziddirmi?.........................................................................................310

Allah bəzi insanları cəhənnəm üçün yaradıb?.............................314

Kəbəni görmədən ona yönəlmək nə qədər doğrudur?..................319

Dində zaman anlayışını qarışdıran dinsizə cavab.........................322

Qiblənin Petra şəhərinə tərəf olması şübhəsi...............................327

Dua qədəri dəyişirmi?...................................................................333

Nə üçün Allahın mələkləri var? Allahın onlara ehtiyacı varmı?....................................................................................337

Həlak olan qövmlərdə onlarla bərabər həlak olan uşaqların günahı nə
idi?..........................................................................................342

Nuhun tufanı haqqında bəzi iddialara cavab................................344

Adəmin yaradılış surəti və boyunun uzunluğu haqda ateist şübhəsinə
cavab......................................................................................350

Quranı bu iki ayəyə görə bəşər sözü sayanlara cavab!.................356

Kitabın içindəkilər.......................................................................360

**Qeyd:** Hörmətli oxucular!Şəkk yoxdur ki, əlinizdəki kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitab haqqında hər hansısa mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz: sahibfarmanoglu.com

*Kitab həm ateistlərin, həm də müsəlmanların oxuması üçün nəzərdə tutulmuşdur.*

**Kitabın adı:** Ateistlərin məşhur şübhələrinə cavablar
**Redaktədən sonrakı tarix:** 20.02.2022.
**Kitabın səhifələrinin sayı:** 366
**Kağız ölçüsü:** A5 (20.9 ×16 sm).
**Müəllif:** Sahib Əsədov
**Redaktə və korrektə:** Sahib Əsədov